represents a specialized form of communication aimed at gaining and maintaining authority. It is characterized by features such as institutionalization, multi-dimensionality, intertextuality, and tolerance, and includes various subtypes like parliamentary and electoral discourse. A defining feature of political discourse is agonality, referring to conflict and competition between opposing forces. This leads to strategic language use, where politicians avoid negative expressions and instead employ neutral or positive wording. Another key feature is its manipulative nature, as political language seeks to shape public opinion through media, advertising, and discourse strategies. Political correctness, which emerged in the 20th century, significantly influences lexical choices by promoting inclusive language and avoiding offensive expressions. Closely related to this is euphemization, a process of replacing direct or negative terms with softer alternatives. Political euphemisms operate on sociocultural, pragmatic, and linguistic levels. They are used to avoid conflict, conceal sensitive issues, maintain political reputation, and manipulate audiences. For example, terms like "enhanced interrogation techniques" may replace "torture," masking harsh realities. Although similar, political euphemisms and political correctness are not identical: the former often serves strategic or manipulative purposes, while the latter reflects broader ideological and ethical considerations.

Overall, euphemisms play a crucial role in political discourse by shaping perception, mitigating negativity, and influencing public consciousness.

Key words: political communication, political discourse, euphemism, political correctness, manipulation, ideology, pragmatics, linguistics.

I TÜRKOLOJİ QURULTAYDA İKİDİLLİLİK MÖVZUSU: 1926-CI İL HƏDƏFLƏRİ VƏ MÜASİR REALLIQLAR

Elnarə Əliyeva
filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nəsimi adına Dilçilik İnstitutu
https://ORCID.org/0000-0002-5779-8899
dok.elnare_e@mail.ru
Azərbaycan/Bakı

Dünya türkologiyası qarşısında geniş üfüqlər açmış I Türkoloji Bakı Qurultayında dil, ulu dil, ortaq türkçə, əlifba, terminologiya, tarix, mədəniyyət, təhsil, arxeologiya kimi bir sıra mühüm mövzular müzakirə olunmuş, geniş fikir mübadilələrinə səbəb olmuşdur. Qurultayda böyük rəğbətlə qarşılanmış mövzulardan biri də türk xalqları arasında ana dilinin öyrədilməsi və tədrisi mövzusu olmuşdur. Bu məqamda ikidilliliyin təbliği ilə bağlı bir çıxış da diqqətçəkicidir. Belə ki, mərkəzi hökumətin maraqlarına uyğun olaraq rus dilinin mövqeyinin möhkəmləndirilməsi məsələsi də gündəliyə gətirilmiş, türk xalqları arasında ikinci dil olaraq rus dilinin öyrənilməsinin əhəmiyyəti insanın zehni inkaşafına müsbət təsiri fonunda təbliğ edilmişdir.

Adətən rus dilinin öyrənilməsi praktik ehtiyacdan doğan tələb kimi təşfiq olunurdusa, Lev Şerbanın çıxışında bu mövzu psixolinqvistik aspektdən izah edilmişdir. O, tədrisin metodikası ilə bağlı çıxışında uşaqların türk dili (ana dili) ilə yanaşı, rus dilini bilmələrini vacib məqam kimi diqqətə çatdırmış, ikidilliliyin insanın dünyanı qavramasındakı əhəmiyyətini izah etməyə çalışmışdır. Türk dili ilə yanaşı, rus dilini öyrənməyin insanın əqli və müşahidə qabiliyyətinin inkişafına faydalı olduğunu nəzərə çatdırmışdır.

Lakin qurultayda kiçik tezis kimi səslənən bu fikir sonradan Sovetlər məkanında yaşayan türk xalqlarının taleyində həlledici amil oldu. Rus dilinin mövqeyi o qədər genişləndi ki, bəzi türk xalqları üçün artıq ikinci dil deyil, ana dili statusu aldı. Keçmiş SSRİ-nin yürütdüyü xalqlararası birlik və dostluq siyasəti, fərqli dil ailələrinə mənsub xalqlarla iç-içə yaşamaq, rus dilində təhsilin genişləndirilməsi, rəsmi sənədlərin rus dilində yazılması tələbi, teleməkanda rus dilli verilişlərin və kanalların yayımlanması rus-türk ikidilliliyin yaranmasının əsas səbəblərindəndir. Müasir dövrdə müstəqillik qazanmış türk dövlətlərində türk-rus bilinqvizmi xeyli azalsa da, yenə də bəzi türk dilləri hələ də rus dilinin hegemon təsirindən qurtula bilməmişdir.

Açar sözlər: Türkoloji qurultay, L.Şerba, ana dili, türk dilləri, ikidillilik

THE TOPIC OF BILINGUALISM AT THE I TURCOLOGY CONGRESS: 1926 GOALS AND MODERN REALITIES

At the First Turkological Congress of Baku, which opened broad horizons for world Turkology, a number of important issues such as language, proto-language, Common Turkic, alphabet, terminology, history, culture, education, and archaeology were discussed, leading to extensive exchanges of ideas. One of the topics that attracted particular interest at the congress was the teaching and learning of the mother tongue among Turkic peoples. In this context, a speech promoting bilingualism was especially noteworthy. In line with the interests of the central government, the issue of strengthening the position of the Russian language was also brought onto the agenda, and the importance of learning Russian as a second language among Turkic peoples was promoted in terms of its positive impact on intellectual development.

While the learning of Russian was generally encouraged as a practical necessity, in Lev Shcherba's speech this issue was explained from a psycholinguistic perspective. In his remarks on teaching methodology, he emphasized the importance of children knowing Russian alongside their native Turkic language and attempted to explain the role of bilingualism in shaping human perception of the world. He pointed out that learning Russian in addition to a Turkic language contributes to the development of intellectual and observational abilities.

However, this idea, initially expressed as a brief thesis at the congress, later became a decisive factor in the fate of Turkic peoples living within the Soviet sphere. The position of the Russian language expanded to such an extent that for some Turkic peoples it acquired the status of a native language rather than merely a second language. The policy of international unity and friendship pursued by the former USSR, coexistence with peoples belonging to different language families, the expansion of education in Russian, the requirement to prepare official documents in Russian, and the broadcasting of Russian-language programs and channels were among the main reasons for the emergence of Russian-Turkic bilingualism. Although Turkic-Russian bilingualism has significantly declined in the modern independent Turkic states, some Turkic languages have still not fully escaped the hegemonic influence of Russian.

Key words: Turkological Congress, L.Shcherba, mother tongue, Turkic languages, bilingualism.

JADID MATBUOTIDA MILLIY TIL SOFLIGI MASALASI

Nodira Egamqulova
filologiya fanlari bo‘yicha falsafa doktori, dotsent
Termiz davlat universiteti
https://ORCID.org/0000-0003-0736-9065
nodiraegamkulova1@gmail.com
O‘zbekiston/Termiz

Tarixiy hujjatlar shundan dalolat beradiki, o‘zbek adabiyotining biror bosqichi milliy uyg‘onish davri adabiyotichalik siyosiy-ijtimoiy jarayonlarga yaqin kelmagan, birlashib ketmagan. Adabiyotning ijtimoiy sharoitdan kelib chiqib ish tutishi, o‘z yo‘nalishini belgilashi ayni shu davr adabiyoti misolida yaqqol ko‘zga tashlanadi. Fikr yuritmoqchi bo‘lganimiz XX asr boshlari vaqtli matbuotidagi adabiy jarayon uchun 1906 – 1917 yillarni chegara qilib belgilab oldik. Bu yillar oralig‘i bir tomonidan jadid adabiyotining birinchi bosqichi sifatida qaraladigan bo‘lsa, boshqa tarafdan siyosiy jarayonlar bilan ham belgilanadi. Yangi adabiyotni boshlanish nuqtasini ko‘pchilik mutaxassislar XX asrning 10-yillaridan boshlanadi deb e’tirof etishadi. Tom ma’noda aytish kerakki XX asr adabiyoti yangi o‘zbek adabiyotining boshlanishi edi. Adabiyotdagi yangilanishlar, g‘oyaviy kurashlar, bahs-munozaralar bu davr adabiyotiga xos bosh xususiyat bo‘ldi. Adabiyotning maqsadi va unga qo‘yilayotgan talablarning keskinlashuvi adabiy tilga bo‘lgan yondashuvni ham o‘zgartirib yubordi. Bunda, birinchi navbatda, ko‘p asrlardan beri shakllanib kelgan jozibali tilni xalq hayotiga yaqinlashtirish ko‘zda tutilardi. Bu g‘oya targ‘ibotida matbuot asosiy vosita bo‘lib xizmat qildi. Til birligiga bag‘ishlangan maqolalarda milliy tilni sofligicha saqlash, barchaga tushunarli tilda ijod qilish, yot so‘zlarni olib tashlash kabi masalalar aks etgan. Bu kabi jarayonlar birgina Turkiston miqyosida emas, balki butun turkiy xalqlar hayotida yuz berayotgandi. Maqsadi va o‘ylari mushtarak bo‘lgan ma’rifatparvarlarning bir-biriga ta’siri kuchli bo‘lgan. Jadidlar o‘z g‘oyalarini kengroq yoyish maqsadida til birligi yoki umumadabiy tilni shakllantirish masalasiga jiddiy e’tibor berishgan. Gasprinskiyga ko‘ra, til birligi – bu barcha turkiy xalqlar uchun tushunilishi oson bo‘lgan “o‘rta til”ni tanlash edi. Ko‘p tarkibli turkiylar uchun yagona adabiy tilni joriy qilish juda qiyin masala edi. Shu bois ko‘pchilik buni amalga oshmaydigan g‘oya sifatida qabul qilgan. Umumadabiy tilni shakllantirish g‘oyasi milliy til sofligi uchun kurashga aylanib ketdi.

Kalit so‘zlar: jadid matbuoti, milliy til, “o‘rta til”, Gasprinskiy, Behbudiy.

TÜRKİYƏ TÜRKCƏSİ VƏ AZƏRBAYCAN DİLİNƏ ALİNMA SÖZLƏRİN TƏSİRİ VƏ DİLLƏRİN TARİXİ ZƏNGİNLƏŞMƏ PROSESİ

Aygün Məqami
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti
https://ORCID.org/0000-0003-3135-7400
magamiaygün@gmail.com
Azərbaycan/Bakı

Türkiyə türkcəsi və Azərbaycan dilləri zəngin tarixə malik olub əsrlər boyu müxtəlif mədəniyyətlərlə təmas nəticəsində inkişaf etmişdir. Bu inkişaf prosesində dillər həm yad təsirlərdən qorunmağa çalışmış, həm də zəruri hallarda başqa dillərdən sözlər qəbul edərək öz ifadə imkanlarını genişləndirmişdir.

Dil saflığının qorunması üçün bir neçə mühüm amil vardır. İlk növbədə, ana dilində təhsil və elmi fəaliyyətin gücləndirilməsi vacibdir. Əgər elm, texnologiya, hüquq və digər sahələrdə terminlər milli dilin imkanları daxilində yaradılarsa, yad sözlərə ehtiyac azalır. Dilin saflığının qorumasının digər yolu media və ədəbiyyatın roludur.

Lakin XIX əsrdən etibarən Avropa ilə əlaqələrin güclənməsi nəticəsində fransız dili vasitəsilə bir çox termin qəbul edilmişdir. Dilçilikdə belə bir fikir mövcuddur ki, dil tam qapalı sistem ola bilməz. Dillər daim qarşılıqlı təsirdə olur və bu təsir nəticəsində zənginləşir. Məsələn, Azərbaycan dilində "qələm" (ərəb), "pəncərə" (fars), "poçt" (rus), "plan" (fransız), "strategiya" (yunan) kimi müxtəlif mənşəli sözlər mövcuddur. Bu sözlər artıq dilin təbii hissəsinə çevrilmişdir və onların yerinə yeni söz yaratmaq bəzən süni görünə bilər.

Osmanlı türkcəsinə fransız dilindən keçmiş sözlər əsasən XIX əsrdən etibarən, xüsusilə Osmanlı imperiyasında Qərbə meyllilik və modernləşmə hərəkatı dövründə yayılmışdır.

G Levis "Türk dili İslahatı, fəlakətli bir uğur" əsərində belə yazırdı: "*Dil islahatı zamanı bir çox ərəb və fars mənşəli sözlər əvəz olunsa da, qərb – xüsusilə fransız mənşəli terminlər – dilə daxil olmağa davam etdi.*"

H.Valter isə Fransız dilinin tarixi inkişafı, Avropa dillərinə təsiri və beynəlxalq terminologiyada rolu haqqında belə qeyd edirdi: *"Fransız dili uzun müddət Avropada mədəniyyətin, diplomatiyanın və intellektual mübadilənin dili olmuşdur."*

Fransız mənşəli sözlərin dilə daxil olması bir çox hallarda vacib olmuşdur, çünki həmin dövrdə yeni anlayışların ana dilində qarşılığı mövcud deyildi.

Bu proseslər göstərir ki, hər bir dilin inkişafı təcrid olunmuş şəkildə deyil, mədəni və elmi əlaqələr nəticəsində baş verir. Türk və Azərbaycan dillərində fransız mənşəli sözlərin mövcudluğu da bu dillərin zənginləşməsinə və beynəlxalq terminologiya ilə uyğunlaşmasına kömək etmişdir. Buna baxmayaraq, müasir dövrdə mümkün olduqda milli qarşılıqların yaradılması dilin qorunması baxımından mühüm hesab olunur.

Açar sözlər: etimologiya, saflıq, media, mübadilə, texnologiya.

THE INFLUENCE OF LOANWORDS ON TURKISH (TURKEY) AND AZERBAIJANI, AND THE HISTORICAL PROCESS OF LINGUISTIC ENRICHMENT

The Turkish language of Turkey and the Azerbaijani language have a rich history and have developed over centuries through interaction with various cultures. During this process of development, the languages have both tried to protect themselves from foreign influences and, when necessary, have adopted words from other languages to expand their expressive possibilities.

There are several important factors for preserving the purity of a language. First of all, it is essential to strengthen education and scientific activity in the native language. If terms in fields such as science, technology, law, and others are created within the capabilities of the national language, the need for foreign words decreases. Another way to preserve language purity is through the role of media and literature.

However, starting from the 19th century, as relations with Europe strengthened, many terms were adopted through the French language. In linguistics, there is a view that a language cannot be a completely closed system. Languages are constantly in interaction with one another, and as a result of this interaction, they become enriched. For example, in Azerbaijani, there are words of various origins such as "qələm" – pen (Arabic), "pəncərə" – window (Persian), "poçt"–post (Russian), "plan"–plan (French), and "strategiya" – strategy (Greek). These words have already become a natural part of the language, and creating new replacements for them can sometimes seem artificial. Words borrowed into Ottoman Turkish from French began to spread mainly from the 19th century onward, especially during the period of Western orientation and modernization in the Ottoman Empire.

In his work *"The Turkish Language Reform: A Catastrophic Success,"* G. Lewis wrote: "Although many words of Arabic and Persian origin were replaced during the language reform, Western—particularly French-origin terms −continued to enter the language."

H.Walter, discussing the historical development of the French language, its influence on European languages, and its role in international terminology, noted: "For a long time, French was the language of culture, diplomacy, and intellectual exchange in Europe."

The entry of French-origin words into the language was often necessary, because at that time there were no native equivalents for many new concepts.

These processes show that the development of any language does not occur in isolation, but rather as a result of cultural and scientific interactions. The presence of French-origin words in Turkish and Azerbaijani has also contributed to the enrichment of these languages and their adaptation to international terminology. Nevertheless, in the modern era, creating native equivalents whenever possible is considered important for preserving the language.

Key words: etymology, purity, media, exchange, technology.

ЯЗЫКОВАЯ ПОЛИТИКА В СИСТЕМЕ МЕСТНОГО ПУБЛИЧНОГО УПРАВЛЕНИЯ КАК ФАКТОР СОХРАНЕНИЯ ДИАЛЕКТОЛОГИЧЕСКОГО РАЗНООБРАЗИЯ

Сергей Кульчу
магистр
Комратский государственный университет (КГУ)
https://ORCID.org/0009-0000-7912-5006
sergheiculciu@yahoo.com
Молдова/Комрат

Эффективность местного публичного управления в регионах с компактным проживанием тюркских народов напрямую зависит от реализации взвешенной языковой политики. В данной работе исследуется роль органов местного самоуправления в сохранении и развитии локальных диалектов и архаизмов, составляющих фундамент общего тюркского корня. Автор анализирует административно-правовые механизмы поддержки родного языка через муниципальные образовательные и культурные программы. Опираясь на дискурс *I Туркологического конгресса* о сохранении языковой самобытности, в работе предлагается модель «цифрового архивирования» диалектов. Исследование подчеркивает, что сохранение лингвистического наследия в современную эпоху невозможно без активного участия местных властей, которые выступают связующим звеном между государственными стратегиями и этнокультурными потребностями населения. Внедрение лингвистических компетенций в стандарты публичного управления, согласно *Европейской хартии местного самоуправления*, рассматривается как необходимое условие устойчивого развития тюркских автономий. Сохранение лингвистического разнообразия на уровне муниципалитетов способствует укреплению социальной сплоченности и исторической памяти тюркских народов. Работа обосновывает, что локальная идентичность и знание родного наречия являются ресурсом для инновационного развития территорий в глобальном мире.

Ключевые слова: местное публичное управление, языковая политика, диалектология, сохранение корней, тюркские народы, муниципальное развитие.

AZƏRBAYCAN DİALEKTOLOGİYASININ İNKİŞAFINDA I TÜRKOLOJİ QURULTAYIN ROLU

Ramilə Süleymanova
filologiya üzrə fəlsəfə doktoru, dos.(e.a.o.)
Azərbaycan Dövlət Aqrar Universiteti
https://ORCID.org/0009-0006-3008-2854
ramile_suleymanova@list.ru
Azərbaycan/Cəncə

XX əsrin əvvəlləri türkoloji elmlərin sistemli şəkildə formalaşması və inkişafı baxımından mühüm mərhələ kimi səciyyələnir. Bu dövrdə dilçilik sahəsində aparılan tədqiqatlar yalnız ayrı-ayrı dillərin təsviri ilə kifayətlənmir, həm də onların tarixi, dialektoloji və müqayisəli aspektlərini əhatə etməyə başlayır. Azərbaycan dilçiliyi də bu ümumi elmi prosesdən kənarda qalmamış, xüsusilə dialektologiya sahəsində yeni mərhələyə qədəm qoymuşdur. Bu baxımdan I Türkoloji Qurultay Azərbaycan dialektologiyasının elmi əsaslar üzərində inkişafında mühüm rol oynamışdır. Qurultay çərçivəsində türk dillərinin dialekt və şivələrinin öyrənilməsi xüsusi diqqət mərkəzində olmuşdur. A.Samoyloviç "Türk dillərinin tədqiqinin müasir vəziyyəti və yaxın dövr üçün vəzifələr" (*I Ümumittifaq Türkoloji Qurultayı, Bakı: Nağıl evi, 2011, s.175*) adlı məruzəsində dialektlərlə bağlı elmi təcrübədən,aparılan tədqiqatlardan və sahə araşdırmalarından bəhs etmiş, bütün ləhcələrin ayrı-ayrılıqda öyrənilmə vəziyyətini qiymətləndirmişdir. Məruzə şivələrə aid bəzi mühüm məlumatları ehtiva edirdi. S.Malovun "Qədim türk dillərinin öyrənilməsi" (*I Ümumittifaq Türkoloji Qurultayı, Bakı: Nağıl evi, 2011, s.187*), N. Aşmarinin "Türkologiyanın tarixi və müasir vəziyyəti haqqında bəzi qeydlər" məruzələrində (*I Ümumittifaq Türkoloji Qurultayı, Bakı: Nağıl evi, 2011, s.191*) yer alan fikirləri dövr üçün proqram xarakteri mahiyyətində idi. N.Aşmarin demişdir: "Hesab edirəm ki, hazırda türkologiyanın qəhrəmanlıq dövrünü bitmiş saya bilərik; artıq ayrı-ayrı dialektlərin dərindən və diqqətlə öyrənilməsinə başlamağın tam vaxtıdır. Bunun üçün əyalətlərdə yerli dialektləri həmin xalqın həyat tərzi və məişətinin bütün xüsusiyyətləri ilə birlikdə öyrənməyə özünü həsr edən çalışqan tədqiqatçılara ehtiyac vardır".

Qurultaydakı məruzə və çıxışlarda şivələrə aid aşağıdakı məsələlər ön plana çıxarılmışdır: dialekt və şivələrin toplanması üçün vahid metodologiyanın hazırlanması; sahə tədqiqatlarının genişləndirilməsi; dialekt materiallarının sistemləşdirilməsi və xəritəyə köçürülməsi; fonetik, leksik, qrammatik xüsusiyyətlərin müqayisəli şəkildə öyrənilməsi. Bu yanaşmalar Azərbaycan dialektologiyasının gələcək inkişaf istiqamətlərini müəyyənləşdirirdi.

I Türkoloji Qurultayda səsləndirilən fikir və mülahizələr Azərbaycan dialektologiyasının təsadüfi müşahidələrdən sistemli elmi tədqiqatlara doğru inkişafı prosesinin başlanğıcı oldu.

Açar sözlər: dialektlər, türk dilləri, dilçilik, türkologiya, məruzələr

THE ROLE OF THE FIRST TURKOLOGICAL CONGRESS IN THE DEVELOPMENT OF AZERBAIJANI DIALECTOLOGY

The early twentieth century is characterized as a significant stage in the systematic formation and development of Turkological studies. During this period, linguistic research was no longer limited to the descriptive analysis of individual languages but began to encompass their historical, dialectological, and comparative aspects. Azerbaijani linguistics was not isolated from this broader scholarly movement; on the contrary, it entered a new phase of development, particularly in the field of dialectology. In this context, the First Turkological Congress played a crucial role in establishing the scientific foundations for the advancement of Azerbaijani dialectology.

Within the framework of the Congress, the study of dialects and vernaculars of Turkic languages was brought to the forefront of scholarly attention. In his report titled "The Current State of the Study of Turkic Languages and Tasks for the Near Future" (*Proceedings of the First All-Union Turkological Congress, Baku: Nağıl evi, 2011, p. 175*), A.Samoylovich discussed existing scientific experience, ongoing research, and fieldwork related to dialects, evaluating the level of investigation of individual dialects. The report contained important information concerning vernacular varieties. The ideas presented in S.Malov's report "The Study of Ancient Turkic Languages" (*Proceedings of the First All-Union Turkological Congress, Baku: Nağıl evi, 2011, p.187*) and N.Ashmarin's paper "Some Remarks on the History and Current State of Turkology" (*Proceedings of the First All-Union Turkological Congress, Baku: Nağıl evi, 2011, p.191*) were programmatic in nature for their time. N.Ashmarin stated: "I believe that the heroic period of Turkology can now be considered complete; it is high time to begin a thorough and careful study of individual dialects. For this purpose, there is a need for dedicated researchers in the provinces who will devote themselves to studying local dialects in conjunction with all aspects of the people's way of life and everyday culture".

The reports and discussions presented at the Congress highlighted several key issues related to dialectology: the development of a unified methodology for the collection of dialectal data; the expansion of field research; the systematization and mapping of dialect materials; and the comparative study of phonetic, lexical, and grammatical features. These approaches defined the future directions of Azerbaijani dialectology.The ideas and considerations expressed at the First Turkological Congress marked the beginning of the transition of Azerbaijani dialectology from sporadic observations to systematic scientific research.

Key words: dialects, turkic languages, linguistics, turkology, reports.

TERMINOLOGY DEVELOPMENT IN TURKIC LANGUAGES: STANDARTIZATION, INNOVATION, AND PRESERVATION IN THE ERA OF GLOBALIZATION

Layloxon Mukhtorova
Undergraduate Student
Uzbekistan state world languages university
https://ORCID.org/0009-0006-4636-4805
layloxonmuxtorova1111@gmail.com
Uzbekistan/Tashkent

Globallashuv jarayonlari va raqamli texnologiyalarning kengayishi turkiy tillarda terminologiya rivojiga sezilarli ta'sir ko'rsatmoqda. Ilm-fan, texnologiya va innovatsiyalar sohasida yangi tushunchalarning uzluksiz paydo bo'lishi ularni milliy tillarda aniq, izchil va madaniy jihatdan mos ifodalash zaruratini keltirib chiqarmoqda. Shu nuqtai nazardan, terminologiya rivoji nafaqat lingvistik masala, balki ijtimoiy va madaniy ahamiyatga ega muhim jarayon sifatida namoyon bo'ladi. Ushbu tadqiqot turkiy tillarda terminologiya taraqqiyotini uch o'zaro bog'liq yo'nalish — standartlashtirish, innovatsiya va saqlash asosida tahlil qiladi. Standartlashtirish turli sohalarda terminlarning yagona shaklda qo'llanilishini ta'minlab, ilmiy va professional muloqot samaradorligini oshiradi. Biroq turli variantlarning mavjudligi va muvofiqlashtirilgan me'yoriy tizimning yetarli darajada shakllanmaganligi ayrim nomuvofiqliklarni yuzaga keltirmoqda. Shu sababli, terminologik siyosatni mustahkamlash va umumiy standartlarni ishlab chiqish dolzarb vazifa hisoblanadi. Innovatsiya tilning dinamik va moslashuvchan tabiatini aks ettiradi. Yangi terminlar tilning ichki imkoniyatlari asosida yoki xalqaro atamalarni moslashtirish orqali yaratiladi. Xalqaro terminlardan foydalanish global ilmiy makonga integratsiyani tezlashtiradi, biroq ularning ortiqcha qo'llanilishi milliy tilning o'ziga xosligini zaiflashtirishi mumkin. Shu bois, muvozanatli yondashuv muhim ahamiyatga ega.

Saqlash omili terminologiya tizimida madaniy va lingvistik merosning davomiyligini ta'minlaydi. An'anaviy leksik birliklarni zamonaviy terminlar bilan uyg'unlashtirish til boyligini oshiradi va milliy identitetni mustahkamlaydi.

Xulosa qilib aytganda, turkiy tillarda terminologiyaning barqaror rivoji standartlashtirish, innovatsiya va saqlash omillarining uyg'unligiga bog'liq bo'lib, bu jarayon til taraqqiyoti va xalqaro ilmiy hamkorlikni rivojlantirishda muhim ahamiyat kasb etadi.

Kalit so'zlar: Terminologiya, turkiy tillar, globallashuv, standartlashtirish, innovatsiya, til siyosati, lingvistik meros.

The rapid processes of globalization and the expansion of digital technologies have profoundly influenced the development of terminology in Turkic languages. The continuous emergence of new concepts in science, technology, and innovation requires their precise, consistent, and culturally appropriate representation within national languages. In this regard, terminology development is not only a linguistic concern but also a significant social and cultural issue that reflects identity, knowledge systems, and intellectual independence. This study explores the evolution of terminology in Turkic languages through three interrelated dimensions: standardization, innovation, and preservation. Standardization plays a key role in ensuring the uniform use of terms across different fields and languages, thereby enhancing clarity and effectiveness in scientific and professional communication. Nevertheless, inconsistencies often arise due to the coexistence of multiple variants and the absence of a fully coordinated regulatory framework. Strengthening terminological policies and promoting cross-linguistic cooperation among Turkic-speaking communities are therefore essential. Innovation demonstrates the dynamic and adaptive nature of language. New terms are created either by employing internal linguistic resources, such as derivation and compounding, or by adapting international terminology. While borrowing facilitates integration into the global academic environment, excessive dependence on foreign elements may threaten the authenticity and structural integrity of national languages. Consequently, a balanced and conscious approach to term creation is required.

Preservation ensures the continuity of cultural and linguistic heritage within modern terminological systems. Integrating traditional lexical elements into contemporary usage not only enriches vocabulary but also reinforces national identity and cultural continuity.

In conclusion, the sustainable development of terminology in Turkic languages depends on the harmonious interaction of standardization, innovation, and preservation, contributing to linguistic stability and global scientific engagement.

In conclusion, the sustainable development of terminology in Turkic languages depends on the harmonious interaction of standardization, innovation, and preservation, contributing to linguistic stability and global scientific engagement.

Key words: Terminology, Turkic languages, globalization, standardization, innovation, language policy, linguistic heritage.

BƏKİR ÇOBANZADƏNİN TERMİNOLOJİ BAXIŞLARI VƏ TÜRK DİLLƏRİNİN ORTAQ ELMİ DİL MƏSƏLƏLƏRİ

Sevınc Məmmədova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/0000-0003-3958-5379
mammadova@62list.ru
Azərbaycan/Bakı

1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay türk xalqlarının elmi-mədəni tarixində yeni bir inkişaf mərhələsinin fundamental əsasını qoymuşdur. Bu qurultayın ən parlaq simalarından biri, görkəmli türkoloq və repressiya qurbanı Bəkir Çobanzadənin dilçilik irsi, xüsusilə terminologiya sahəsindəki konseptual baxışları müasir süni intellekt və rəqəmsal transformasiya dövrü üçün də böyük elmi-strateji aktuallıq kəsb edir. Tezisin əsas məqsədi Bəkir Çobanzadənin terminologiya quruculuğu prinsiplərini təhlil etmək və bu nəzəri prinsiplərin müasir türk dillərinin rəqəmsal məkanda ortaq elmi dilinin formalaşdırılması prosesindəki tətbiq imkanlarını metodoloji baxımdan müəyyənləşdirməkdir. Tədqiqat qlobal texnoloji tərəqqi şəraitində türk dilləri arasında vahid elmi-texniki dil mühitinin yaradılması və rəqəmsal suverenliyin qorunması baxımından aktualdır.

Bəkir Çobanzadənin nəzəri yanaşmasında terminologiya sadəcə mexaniki söz yaradıcılığı deyil, millətin intellektual potensialının və elmi düşüncəsinin dil vasitəsilə ifadə olunmasıdır. Alim beynəlxalq terminlərin milli dillərin daxili qanunauyğunluqlarına, xüsusilə də ahəng qanunu və aqqlütinativ morfoloji struktura uyğunlaşdırılmasını, eyni zamanda türk dillərinin zəngin ortaq leksik bazasından istifadəni mütləq prioritet hesab edirdi. Tədqiqatlarda alimin "dilin rasionallaşdırılması" və "terminoloji qənaət" konsepsiyası müasir kompüter linqvistikası, maşın tərcüməsi və böyük dil modellərinin terminoloji bazasının qurulması prizmasından yenidən dəyərləndirilir. Xüsusilə, iqtisadiyyat, kibernetika, süni intellekt və biotexnologiya kimi yeni elm sahələrində ortaq türk terminlərinin formalaşdırılmasında Çobanzadənin etimoloji varislik və semantik funksionallıq prinsipləri fundamental elmi baza kimi götürülür. Bu ortaq dil quruculuğu prosesi dillərarası qarşılıqlı anlaşmanı sürətləndirən mühüm amildir.

Nəticə olaraq, I Türkoloji Qurultayın 100 illik yubileyi ərəfəsində repressiya qurbanı olmuş alimlərin elmi ideyalarının müasir yüksək texnologiyalar işığında bərpası həm mənəvi borc, həm də türk dünyasının rəqəmsal-linqvistik inteqrasiyası üçün həlledici metodoloji bazadır. Bu strateji yanaşma türk dillərinin qlobal rəqəmsal məkanda rəqabətədavamlılığını təmin edən və dilin daxili strukturunu xarici təsirlərdən qoruyan yeganə effektiv yoldur. Alimin irsi gələcək rəqəmsal türkologiya üçün əvəzsiz mənbədir.

Açar sözlər: I Türkoloji Qurultay, Bəkir Çobanzadə, terminologiya, ortaq dil, türk dilləri, dilçilik tarixi, rəqəmsal inteqrasiya.

BEKIR CHOBANZADE'S TERMINOLOGICAL VIEWS AND ISSUES OF A COMMON SCIENTIFIC LANGUAGE FOR TURKIC LANGUAGES

The First Turkological Congress, held in Baku in 1926, established the fundamental basis for a new stage of development in the scientific and cultural history of Turkic peoples. The linguistic legacy of one of the most prominent figures of this congress, the outstanding Turkologist and victim of repression Bekir Chobanzade, especially his conceptual views in the field of terminology, maintains great scientific-strategic relevance for the modern era of artificial intelligence and digital transformation. The primary objective of this thesis is to analyze Bekir Chobanzade's principles of terminology development and to methodologically determine the application possibilities of these theoretical principles in forming a common scientific language for Turkic languages within the digital space. The research is highly relevant in terms of creating a unified scientific-technical language environment and preserving digital sovereignty among Turkic languages amid global technological progress.

In Bekir Chobanzade's theoretical approach, terminology is not merely mechanical word-building but the systematic expression of a nation's intellectual potential and scientific thought through language. The scholar prioritized the adaptation of international terms to the internal patterns of national languages – specifically the law of harmony and agglutinative morphological structures – while emphasizing the maximum utilization of the rich common lexical base of Turkic languages. This study re-evaluates the scientist's concepts of "language rationalization" and "terminological economy" through the lens of modern computational linguistics, machine translation, and the construction of terminological foundations for large language models. Specifically, Chobanzade's principles of etymological succession and semantic functionality are taken as a fundamental scientific basis for forming common Turkic terms in emerging fields such as economics, cybernetics, artificial intelligence, and biotechnology. This common language-building process is a crucial factor in accelerating mutual understanding between Turkic peoples.

In conclusion, on the eve of the 100th anniversary of the First Turkological Congress, restoring the scientific ideas of repressed scholars in the light of modern high technologies is both a moral duty and a decisive methodological basis for the digital-linguistic integration of the Turkic world.. This strategic approach is the only effective way to ensure the competitiveness of Turkic languages in the global digital space and protect their internal structures from external influences. The scholar's legacy remains an indispensable source for future digital Turkology.

Key words: First Turkological Congress, Bekir Chobanzade, terminology, common language, Turkic languages, history of linguistics, digital integration.

BİRİNCİ TÜRKOLOJİ QURULTAYDA ORTAQ TERMİNOLOGİYA UĞRUNDA MÜBARİZƏ KONTEKSTİNDƏ MÜASİR TÜRK DİLLƏRİNDƏ HAL KATEQORİYASINA AİD TERMİNLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

Yeganə Qəhrəmanova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/0000-0003-3730-7674
yegane.qehremanova.1976@mail.ru
Azərbaycan/Bakı

1926-cı il fevralın 26-dan martın 5-ə qədər Bakıda davam etmiş I Türkoloji Qurultay türk xalqlarının mədəni inteqrasiyası baxımından yeni mərhələnin təməli olmuşdur ki, bu baxımdan ortaq elmi terminologiya məsələsinin müzakirəsi türk xalqlarının ortaq dil və ortaq mədəniyyət düşüncəsinin reallaşdırılmasının ən önəmli məqamlarından idi.

Türkoloji Qurultayın səkkizinci iclası "Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri haqqında" adı altında keçirilmişdi. S.Ağamalıoğlunun sədrlik etdiyi iclasda ortaq terminologiya mövzusunda əvvəlcə Estoniyanın türk sevdalı ədəbiyyatçısı Artur Rudolfoviç Zifeld-Simumyaqi, daha sonra Azərbaycandan B.Çobanzadə, H.Zeynallı məruzə etmiş, məruzələr maraqla qarşılanmışdı. Məsələ ilə bağlı edilən çıxışlarda türk xalqları üçün ortaq elmi terminologiyanın mənbələri, ortaq terminləri müəyyənləşdirmək yolları barədə bir-birindən maraqlı fikirlər bölüşmüş, təkliflər irəli sürmüşdülər ki, I Türkoloji Qurultaydan keçən yüz il müddərində bu fikirlər hələ də aktullığını qorumaqdadır.

Bu gün türk dillərində elmi terminologiya məsələsindən danışarkən dil vahidlərinin əlaqələnməsində xüsusi rol oynayan hal şəkilçilərinə aid ortaq terminlərin müəyyənləşdirilməsi məsələsinin böyük əhəmiyyəti vardır. Müasir türk dillərində hal kateqoriyası müxtəlif terminlərlə adlandırılır:

Azərbaycan dilində "hal", türk dilində "durum", türkmən dilində "düşüm", qazax dilində "septik", özbək dilində "kelişik" və s. terminlərlə ifadə olunur. İsmin hallarının adları da türk dillərində bir-birindən fərqlənir. Məs: adlıq hal: uyğur, tatar, qaraçay, balkar, türkmən dillərində "baş" , özbək dilində "boş", türk dilində "yalin", qaqauz dilində "təməl", yiyəlik hal: tatar dilində "iyalik", türk dilində "ilişik", qaraçay-balkar dilində "yelikçi", uyğur dilində "egilik", özbək dilində "karatgiç", türkmən dilində "gelik" və s., yönlük hal: türk dilində "varımlı", türkmən dilində "yöneliş", özbək dilində "yuna-mii", qaqauz dilində "dorudak", qaraçay-balkar dilində "berinçyu", uyğur dilində "berşi", tatar dilində "yunəleş" və s. terminlərlə ifadə olunur. Digər halların adları da belə fərqli terminlərlə adlandırılır ki, bu da, təbii olaraq, türk dilləri arasında termin uyğunsuzluğuna səbəb olur. Ona görə də bu terminlər dəqiqləşdirilməli, türk dilləri içərisində daha çox işlək olan milli mənşəli terminlər ortaq işlək vahidlərə

çevrilməlidir.

Açar sözlər: türkoloji qurultay, ortaq dil, terminologiya, ortaq əlifba, türk dilləri

THE FIRST TURKOLOGICAL CONGRESS, IN THE CONTEXT OF THE STRUGGLE FOR COMMON TERMINOLOGY, DEFINED TERMS BELONGING TO THE CATEGORY OF CASES IN MODERN TURKIC LANGUAGES

The First Turkological Congress, which lasted from February 26 to March 5, 1926 in Baku, was the foundation of a new stage in terms of the cultural integration of the Turkic peoples, and in this regard, the discussion of the issue of common scientific terminology was one of the most important moments in the realization of the common language and common cultural thought of the Turkic peoples.

The eighth session of the Turkological Congress was held under the title "On the principles of the formation of scientific terminology in the Turkic languages". At the session chaired by S. Ağamalioğlu, first the Turk-loving literary figure from Estonia, Artur Rudolfovich Zifeld-Simumyagi, and then B. Chobanzadeh and H. Zeynalli from Azerbaijan, made reports on the topic of common terminology, and the reports were met with interest. In their speeches on the issue, they shared interesting ideas and put forward proposals about the sources of common scientific terminology for the Turkic peoples and ways to define common terms, which, in the hundred years that have passed since the First Turkological Congress, still retain their relevance.

Today, when talking about the issue of scientific terminology in Turkic languages, the issue of defining common terms related to case suffixes, which play a special role in the connection of language units, is of great importance. In modern Turkic languages, the category of case is called by various terms:

In Azerbaijani, it is expressed by the terms "hal", in Turkish, "durum", in Turkmen, "düşüm", in Kazakh, "septik", in Uzbek, "kelishik", etc. The names of the cases of nouns also differ from each other in Turkic languages. For example: the nominative case: "baş" in Uyghur, Tatar, Karachay, Balkar, Turkmen languages, "boş" in Uzbek, "yalin" in Turkish, "teml" in Gagauz, the possessive case: "iyalik" in Tatar, "ilişik" in Turkish, "yelikçi" in Karachay-Balkar, "egilik" in Uyghur, "karatgiç" in Uzbek, "gelik" in Turkmen, etc., the directional case: "varımlı" in Turkish, "yöneliş" in Turkmen, "yuna-mii" in Uzbek, "dorudak" in Gagauz, "berinçyu" in Karachay-Balkar, "berşi" in Uyghur, "yunəleş" in Tatar, etc. are expressed by terms. The names of other cases are also called by such different terms, which naturally leads to terminological inconsistencies between Turkic languages. Therefore, these terms should be clarified, and the terms of national origin that are more commonly used within Turkic languages should be transformed into common functional units.

Key words: Turkological congress, common language, terminology, common alphabet, Turkic languages.

I BAKI TÜRKOLOJİ QURULTAYININ AZƏRBAYCAN DİL SİYASƏTİNƏ TƏSİRİ

Xəyalə Muğamat
filologiya üzrə fəlsəfə doktoru, dosent
Sumqayıt Dövlət Universiteti
https://ORCID.org/0000-0002-5252-8742
xayala.muqamat@sdu.edu.az
Azərbaycan/Sumqayıt

I Bakı Türkoloji Qurultayında türk dillərinin inkişafı və birliyi ilə bağlı mühüm məsələlər: əlifba, imla və orfoqrafiya, terminoloji vahidlik, tədris-metodika, qohum və qonşu dillərlə əlaqə, ədəbi dil və Ulu dil nəzəriyyəsi müzakirə olunmuşdur. Həmin dövrün mənzərəsini əks etdirən bu çağırışların müzakirəsi yalnız tarixi hadisə hesab olunmalı deyil, həm də müasir Azərbaycan dil siyasətinin formalaşması üçün başlanğıc mərhələ kimi qiymətləndirilməlidir.

XIX əsrdən M.F. Axundov əlifbanın islahı ilə məşğul olmuş, 1857-1863-cü illərdə ərəb qrafikalı əlifbanı təkmilləşdirmək cəhdləri göstərmiş, 1870-1878-ci illərdə isə ərəb əlifbasını tamamilə rədd edərək latın və kiril işarələrindən ibarət yeni yazı sistemi təklif etmişdir. Bu ideya mütərəqqi ziyalılar tərəfindən davam etdirilmiş və 1920-ci illərin əvvəllərində dövlət tərəfindən dəstəklənmişdir. Latın qrafikasına keçidi tərəfdarlar müasir və oxunaqlı yazı sistemi hesab edirdilər, ərəb əlifbasını qorumağı müdafiə edənlər isə ənənəyə sadiqliyi önəmli sayırdılar; bu fərqli mövqelər qurultayda geniş müzakirələrə səbəb olmuşdur. 1922-ci ildə "Yeni türk əlifba komitəsi" yaradılmış, "Yeni yol" qəzeti latın əlifbası ilə nəşr olunmağa başlamış və məktəblərdə yeni əlifba tətbiq edilmişdir; 1929-cu ildən isə latın qrafikasına kütləvi keçid başlamışdır.

Əlifba islahatının nəticələri savadlılıq və təhsil göstəricilərində aydın görünür:

Təhsil göstəriciləri	1920-1925-ci illərdə (%)	1930-1935-ci illərdə (%)	Artım tempi
Savadlılıq səviyyəsi	10-15	30-40	-2,5 dəfə
Məktəbə cəlb olunanlar	20	45	+25%
Ana dilində dərsliklər	25	70	+45%

Qurultayda Bəkir Çobanzadə Orxon abidələrindən XIX əsrə qədər türk dillərinin tarixi inkişafını əsaslandırmış, ortaq ədəbi dil yaratmaq potensialını vurğulamışdır. Bu ideya İsmayıl bəy Qaspıralı və Həsən bəy Zərdabinin dəstəyi ilə praktik təsdiqini tapmışdır.

Müasir Azərbaycan dil siyasətində I Türkoloji Qurultayın ideyaları açıq görünür: latın əlifbası bir neçə türk ölkəsində tətbiq olunur, Qazaxıstan isə keçid planını həyata keçirir. Dövlət dili rəsmi sahələrdə dominantdır, təhsil və rəqəmsal kontent əsasən Azərbaycan dilində aparılır. Qurultay milli dil siyasətinin sistemli inkişafını təmin etmiş, ədəbi və terminoloji vahidliyi, savadlılığı və milli identikliyin qorunmasını davamlı şəkildə dəstəkləyir.

Açar sözlər: dil çağırışları, əlifba məsələsi, dil siyasəti, milli dövlətçilik, dövlət

dili.

THE IMPACT OF THE FIRST BAKU TURKOLOGICAL CONGRESS ON AZERBAIJAN'S LANGUAGE POLICY

At the First Baku Turkological Congress, key issues concerning the development and unity of Turkic languages – such as the alphabet, spelling and orthography, terminological unity, teaching methodology, relations with related and neighboring languages, literary language, and the Theory of the Ancient Language – were discussed. The debate on these challenges, which reflected the context of that period, should be regarded not only as a historical event but also as a foundational stage in the formation of modern Azerbaijani language policy.

Since the 19th century, M.F. Akhundov worked on reforming the alphabet, attempting to improve the Arabic-script alphabet between 1857 and 1863, and between 1870 and 1878, he completely rejected the Arabic script and proposed a new writing system based on Latin and Cyrillic characters. This idea was continued by progressive intellectuals and, in the early 1920s, gained state support. Supporters of the Latin script saw it as a modern and readable system, while reformers advocating the Arabic script emphasized preserving tradition; these differing views sparked extensive discussions at the Congress. In 1922, the "New Turkic Alphabet Committee" was established, the newspaper "Yeni Yol" began publishing in Latin script, and the new alphabet was introduced in schools; by 1929, the transition to the Latin script became widespread.

The results of the alphabet reform were clearly reflected in literacy and education indicators:

Educational indicators	**1920-1925 (%)**	**1930-1935 (%)**	**Growth rate**
Literacy level	10–15	30–40	×2.5
School enrollment	20	45	+25%
Textbooks in mother tongue	25	70	+45%

At the Congress, Bekir Chobanzade analyzed the historical development of Turkic languages from the Orkhon inscriptions to the 19th century and highlighted the potential for creating a common literary language. This idea was practically supported by İsmayıl bey Qaspirali and Hesen bey Zerdabi.

The ideas of the First Turkological Congress are clearly reflected in modern Azerbaijani language policy: the Latin alphabet is officially used in several Turkic countries, while Kazakhstan is implementing its transition plan. The state language is dominant in official spheres, with education and digital content largely conducted in Azerbaijani. The Congress ensured the systematic development of national language policy, supporting literary and terminological unity, literacy, and the preservation of national identity.

Key words: language challenges, alphabet issue, language policy, national statehood, offocial language.

THE 1926 BAKU CONGRESS
THE FORMATION OF MODERN AZERBAIJANI LINGUISTIC IDENTITY

Nilufarxon Karieva
International School of Finance and Technology University
https://ORCID.org/0009-0001-1448-4072
karievanilufar10@gmail.com
Uzbekistan/Tashkent

The 1926 Baku Congress stands as a defining milestone in the development of modern Azerbaijani linguistic identity. Held in Baku, it marked the first large-scale scientific effort to harmonize the linguistic and cultural development of Turkic-speaking peoples across Eurasia. For Azerbaijan, the Congress carried particular historical significance, as its debates directly influenced the republic's subsequent language reforms and intellectual trajectory. At the center of the discussions was the transition from the Arabic script to a Latin-based alphabet. Delegates emphasized that the Arabic script did not adequately reflect the phonological structure and vowel harmony characteristic of Turkic languages. Through the endorsement of "Latinization" based on the phonetic method, the Congress sought to bridge the disconnect between orthography and spoken language.

The proposed reform was therefore presented not merely as a technical adjustment, but as a necessary step toward educational accessibility, cultural modernization, and generational renewal. The Congress's recommendations resonated beyond Azerbaijan, shaping broader reforms within the Turkic world and culminating in the 1928 adoption of the Latin alphabet in Turkey through Law No. 1353. Often described as the "alphabet of the revolution," Latinization symbolized a conscious reorientation toward modern standards while addressing the growing gap between contemporary readers and earlier Arabic-based texts. A century later, the legacy of the 1926 Congress remains relevant in the context of globalization. Its emphasis on alphabet reform and literary standardization demonstrates how language policy functioned as an instrument of cultural preservation and historical evolution. The Baku Congress thus endures not only as a historical event, but as a foundational moment in shaping Azerbaijan's linguistic identity within both regional and global frameworks.

Key words: 1926 Baku Congress, Azerbaijani language, Latinization, alphabet reform, language policy, linguistic identity, Turkic world.

КОНГРЕСС БАКУ 1926 ГОДА ФОРМИРОВАНИЕ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ЯЗЫКОВОЙ ИДЕНТИЧНОСТИ

Бакинский конгресс 1926 года представляет собой ключевой этап в формировании современной азербайджанской языковой идентичности. Проведённый в Баку, он стал первой масштабной научной попыткой координации и гармонизации лингвистического и культурного развития тюркоязычных народов Евразии. Для Азербайджана значение Конгресса было особенно существенным, поскольку его дискуссии и принятые решения непосредственно повлияли на последующие языковые реформы и направление интеллектуального развития республики. Центральное место в работе Конгресса занимал вопрос перехода от арабской графики к латинскому алфавиту. Делегаты аргументировали, что арабская письменность структурно не соответствует фонологической системе тюркских языков, в частности принципу сингармонизма. Поддержка латинизации, основанной на фонетическом принципе, рассматривалась как научно обоснованная мера по устранению несоответствия между орфографией и живой речью. Тем самым реформа интерпретировалась не только как техническое преобразование письменности, но и как необходимый шаг к модернизации системы образования, расширению грамотности и преодолению межпоколенческого разрыва. Рекомендации Конгресса оказали влияние далеко за пределами Азербайджана, способствовав масштабным реформам в тюркском мире и завершившись принятием в Турции в 1928 году Закона № 1353 о введении и применении турецких букв. Латинизация нередко характеризовалась как «алфавит революции», символизируя сознательную переориентацию на модернистские стандарты и разрыв с прежней имперской традицией письма.

Спустя столетие наследие Бакинского конгресса сохраняет научную и политико-культурную актуальность. В условиях глобализации он демонстрирует, что языковая политика способна выступать инструментом культурного самоопределения, институционального развития и исторической трансформации. Таким образом, Конгресс остаётся фундаментальным этапом в формировании языковой идентичности Азербайджана в региональном и глобальном измерении.

Ключевые слова: Конгресс Баку 1926 года, Азербайджанский язык, Латинизация, реформа алфавита, политика в отношении языка, языковая идентичность, Тюркский мир.

TÜRK DİLLƏRİNDƏ TERMİNLƏRİN TƏHLİLİ

Svetlana Məmmədova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedoqoji Universiteti
https://ORCID.org/0001-0003-8216-3639
svetlanamammedova72@gmail.com
Azərbaycan/Bakı

Araşdırmalar göstərir ki, türk dillərindəki terminlər heç də bir-birinin eyni deyildir. Bunların arasında müxtəliflik çoxdur.

Terminlərin bir qismi əksər türk dillərində eyni məna və formada olduğu halda, bir çoxu isə az və ya çox dərəcədə fərqlənərək ancaq bir, yaxud bir neçə dil üçün başadüşüləndir. Bu cür fərqlər hətta ən yaxın qohum dillərdə də özünü göstərir. Oğuz yarımqrupu dillərinə məxsus olan türk və Azərbaycan dili nümunəsində bunu aydın görmək olar *(Qurbanov, 2019):*

Azərbaycanca	Türkcə
fonetika	səs bilgisi
fonem	səslik
lüğət tərkibi	kelme dağarcağı
semasiologiya	anlam bilgisi

Ümumiyyətlə, türk dillərində termin yaradıcılığı söz yaradıcılığının tərkib hissəsi kimi çətin bir formalaşma prosesi keçmişdir. Bu terminlər hər bir türk dil qrupunun öz fonetik-leksik tələblərinə uyğun formalaşmışdır.Türkiyə türkcəsinin terminologiyasında uzun müddət ərəb mənşəli terminlər hakim mövqe tutmuşdur. XIX əsrdə Fransada təhsil alıb geri dönən ziyalıların təsiri ilə fransız mənşəli sözlər, o cümlədən terminlər dildə üstünlük təşkil etmişdir.Eyni zamanda bu dövrdə Avropa mənşəli terminlərə ərəb mənşəli sözlərə qarşılıqlar axtaranlar da az olmamışdır. Bununla bağlı prof.dr.Tuncer Gülensoy bildirmişdir: "Türk dilinin qrammatikası ilə bağlı yazılmış tədqiqat işlərində Mahmud Kaşğarlıdan başlamış məlum zamana qədər ərəb dilinin qanunları əsas götürülmüş, sonrakı dövrlərdə isə qərb dillərinin qrammatikasının əsasında Türkçənin qrammatikası tərtib olunmuşdur" *(Gülensoy, 2011).* Türk dillərində bəzi sözlər var ki, onların qarşılığı kimi bəzi alınma sözlərdən istifadə edilmişdir. Məsələn, Türkiyə türkçəsində: həndəsə-geometri; təşəkkür-mersi; siyasət-politika; təminat-garanti; iqtisadiyyat- ekonomi və s. Digər dillərdən söz almaq asandır, amma o dil üçün təhlükəli bir üsuldur. Bu dillər sanki digər dillərdən söz almağı öyrənir. Dil digər dillərdən hazır söz almağa alışır və özü yeni söz yaratmağa cəhd də göstərmir. Ərəb dilinin Türkiyə türkcəsi üzərindəki təsiri nəticəsində Osmanlı Türkcəsi dövründə yeni anlayışların qarşılığı üçün söz və ya termin yaratmaq ehtiyacı olmuşdur. Yeni yaranan anlayışların sözlə ifadəsi üçün ərəb dilinin lüğət tərkibindən istifadə edilmişdir. "Təyyarə" üçün "tayr" kökündən tayyar, "planet" üçün "seyr" kökündən səyyarə kimi

sözləri göstərmək olar.

Açar sözlər: terminlər, neologizmlər, söz və ifadə vasitələri, türk dilləri

ANALYSIS OF TERMS IN TURKISH LANGUAGES

Studies show that the terms in the Turkic languages are not at all identical. There is a lot of diversity among them.

While some of the terms have the same meaning and form in most Turkic languages, many differ to a greater or lesser extent and are understandable only for one or a few languages. Such differences are evident even in the most closely related languages. This can be clearly seen in the example of the Turkish and Azerbaijani languages, which belong to the Oghuz subgroup of languages *(Qurbanov, 2019)*:

İn Azerbaijan	İn Turkey
Phonetics	sound information
Phoneme	sound
vocabulary	composition vocabulary
semantic	knowledge of semasiology

In general, term creation in Turkic languages has undergone a difficult process of formation as an integral part of word creation. These terms have been formed in accordance with the phonetic-lexical requirements of each Turkic language group. For a long time, terms of Arabic origin have dominated the terminology of Turkish Turkish. In the 19th century, under the influence of intellectuals who studied in France and returned, French words, including terms, dominated the language. At the same time, there were many people who searched for Arabic words for terms of European origin during this period. In this regard, Prof. Dr. Tuncer Gülensoy stated: "In the research works written on the grammar of the Turkish language, starting from Mahmud Kashgarli until a certain time, the laws of the Arabic language were taken as the basis, and in later periods, the grammar of Turkish was compiled on the basis of the grammar of Western languages" *(Gülensoy, 2011)*. There are some words in Turkish languages that have been used as their equivalents by some borrowed words. For example, in Turkish Turkish: geometry-geometry; gratitude-mercy; politics-politics; guarantee-guarantee; economic-economics etc. Borrowing words from other languages is both an easy and a dangerous method for that language. These languages learn to borrow words from other languages as if. The language gets used to borrowing ready-made words from other languages and does not even try to create new words on its own. As a result of the influence of the Arabic language on Turkish, there was a need to create words or terms for new concepts during the Ottoman Turkish period. The vocabulary of the Arabic language was used to express the newly emerging concepts in words. For example, words such as tayyar from the root "tayr" for "aircraft", and seyyara from the root "seyr" for "planet" can be cited.

Key words: terms, neologisms, words and expressions.

I TÜRKOLOJİ QURULTAYDA ƏLİFBA MƏSƏLƏSİ

Yeganə Qasımova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
yegana0111@gmail.com
https://ORCID.org/0009-0005-5816-1776
Azərbaycan /Bakı

26 fevral-5 mart 1926-cı ildə 131 nümayəndənin iştirakı ilə Bakıda keçirilən I Türkoloji Qurultay türk xalqlarının elmi və mədəni tarixində xüsusi yer tutur. Bu qurultay təkcə dilçiliklə bağlı elmi toplantı deyil, türk xalqlarının gələcək inkişafı, ortaq mədəni dəyərləri, təhsil sistemi və yazı məsələləri üzərində fikir mübadiləsi meydanı idi.

Qurultayda türk dilləri ilə bağlı yeddi əsas problem müzakirə olunmuşdu və onların sırasında əlifba məsələsi birinci yerdə dayanırdı. Əlifba ilə bağlı veriləcək qərar gələcək nəsillərin necə oxuyacağına, necə yazacağına və hansı yazılı ənənə ilə formalaşacağına təsir edəcəkdi. Buna görə də əlifba məsələsi qurultayda sadə texniki problem deyil, strateji mədəni məsələ kimi müzakirə olunurdu. Hələ 1922-ci ildə XKS yanında "Yeni türk əlifba komitəsi"nin yaradılması artıq latın qrafikasına keçidin dövlət səviyyəsində dəstəkləndiyini göstərirdi. "Yeni yol" qəzetinin yeni əlifba ilə çap olunması və 1924–25-ci tədris ilindən məktəblərin birinci siniflərində bu əlifbanın tətbiqi də göstərir ki, qurultaya qədər latın qrafikası yalnız nəzəri layihə deyildi, artıq ictimai sınaq mərhələsinə daxil olmuşdu.

Qurultayın məqsədi türk xalqları arasında daha geniş elmi və mədəni əlaqə qurmaq idi. Bu səbəbdən ortaq əlifba ideyası türk xalqlarının bir-birini daha asan oxuya və anlaya bilməsi ilə əlaqələndirilirdi. Bakı qurultayında ortaq əlifba və dil birliyi mövzuları elmi müstəvidə ümumtürk mədəni yaxınlaşmasının tərkib hissəsi kimi düşünülmüşdü.

Səsverməyə əsasən 101 nümayəndə latın qrafikalı əlifbanın lehinə, 7 nəfər ərəb əlifbasında qalmağın lehinə səs vermiş, 9 nəfər isə bitərəf mövqe tutmuşdu. Sonrakı illərdə latınlaşmanın daha geniş coğrafiyada tətbiqi də göstərdi ki, Bakı Qurultayında qəbul edilən mövqe tarixi baxımdan dönüş nöqtəsi olmuşdu.

I Türkoloji Qurultayda əlifba məsələsi yazı texnikası çərçivəsindən çıxaraq maarifin inkişafı, milli düşüncənin formalaşması, klassik irsə münasibət və ümumtürk mədəni yaxınlaşması məsələlərini özündə birləşdirirdi. Qurultay göstərdi ki, əlifba seçimi sadəcə qrafik seçim deyil, cəmiyyətin gələcək intellektual istiqamətini müəyyənləşdirən qərar, əslində dil, tarix, mədəniyyət və gələcək arasında əlaqə yaradan böyük düşüncə məsələsi idi.

Açar sözlər: əlifba, komitə, qurultay, xalq, nümayəndə.

THE ALPHABET İSSUE AT THE FİRST TURKOLOGİCAL CONGRESS

The First Turkological Congress, held in Baku from February 26 to March 5, 1926, with the participation of 131 delegates, occupies a special place in the scientific and cultural history of Turkic peoples. This congress was not merely a scientific meeting on linguistics; it also served as a platform for exchanging ideas on the future development of Turkic peoples, their shared cultural values, education system, and writing issues.

At the congress, seven major problems related to Turkic languages were discussed, and among them, the issue of the alphabet held the foremost position. The decision to be made regarding the alphabet would influence how future generations would read, write, and develop within a particular written tradition. Therefore, the alphabet issue was discussed not as a simple technical matter but as a strategic cultural concern. The establishment of the "New Turkic Alphabet Committee" under the Council of People's Commissars in 1922 already indicated that the transition to the Latin script was supported at the state level. The publication of the newspaper "Yeni Yol" in the new alphabet and its introduction into the first grades of schools starting from the 1924–25 academic year demonstrate that, even before the congress, the Latin script had moved beyond a theoretical project and entered the stage of public experimentation.

The aim of the congress was to establish broader scientific and cultural connections among Turkic peoples. For this reason, the idea of a common alphabet was associated with enabling Turkic peoples to read and understand each other more easily. At the Baku Congress, the issues of a common alphabet and language unity were considered within the scientific framework as an integral part of pan-Turkic cultural rapprochement.

According to the voting results, 101 delegates supported the Latin-based alphabet, 7 voted in favor of retaining the Arabic script, and 9 remained neutral. The wider adoption of Latinization in subsequent years across a broader geography demonstrated that the position adopted at the Baku Congress became a historical turning point.

At the First Turkological Congress, the alphabet issue went beyond the boundaries of writing technique and encompassed the development of education, the formation of national consciousness, attitudes toward classical heritage, and pan-Turkic cultural convergence. The congress showed that the choice of alphabet is not merely a graphic preference, but a decision that determines the intellectual direction of society, essentially linking language, history, culture, and the future.

Key words: alphabet, committee, congress, people, delegate.

LİNQVOKULTUROLOJİ ASPEKTDƏ ARXAİZMLƏRİN QORUNMASI VƏ DİL YADDAŞI

Sevinc Əhmədova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Unversiteti
https://ORCID.org/0000-0002-3409-0951
sevincasger@gmail.com
Azərbaycan/Bakı

Müasir dilçilikdə dilin yalnız struktur və qrammatik sistem kimi deyil, həm də mədəni fenomen kimi öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Bu baxımdan linqvokulturologiya dil və mədəniyyətin qarşılıqlı təsirini araşdıran mühüm elmi istiqamət kimi formalaşmışdır. Dil xalqın tarixi inkişaf yolunu, milli düşüncə tərzini və mənəvi dəyərlərini özündə əks etdirən mürəkkəb semiotik sistemdir.

Linqvokulturologiya dil və mədəniyyət arasındakı qarşılıqlı əlaqəni tədqiq etməklə dilin tarixi qatlarını və mədəni yaddaşını öyrənir. Bu kontekstdə arxaizmlər – dilin əvvəlki inkişaf mərhələlərindən qorunub saxlanılan leksik və qrammatik vahidlər – xüsusi əhəmiyyət daşıyır. Arxaik söz və ifadələr yalnız dil tarixinin faktı deyil, həm də xalqın dünyagörüşünün, estetik təfəkküründün və sosial təcrübəsinin daşıyıcısıdır. Onlar milli şüurun formalaşmasında mühüm rol oynayaraq dil yaddaşının əsas komponentlərindən birini təşkil edir *[Kazımov, 2010:78]*.

Arxaizmlər dilin tarixi qatını təşkil edir və keçmiş dövrlərin sosial-mədəni reallığını əks etdirir. Onların qorunması milli yaddaşın davamlılığını təmin edir. Müasir dildə aktiv işlənməyən, lakin əvvəlki tarixi mərhələlərdə geniş istifadə olunmuş söz və ifadələr arxaizm kimi səciyyələndirilir.

Arxaizmlərin qorunması vasitəsilə xalqın keçmiş həyat tərzi, inancları və dəyərlər sistemi müasir dövrə ötürülür. Xüsusilə folklor və klassik ədəbi mətnlərdə yaşayan arxaik vahidlər mədəni şüurun və milli kimliyin göstəricisi kimi çıxış edir *[Hacıyev, 2001:234]*. Bu baxımdan dil yalnız ünsiyyət vasitəsi deyil, həm də kollektiv yaddaşın qorunma mexanizmidir.

Tarixi leksikanın öyrənilməsi dilin semantik inkişafını izləməyə və milli-mənəvi dəyərlərin ifadə formalarını müəyyənləşdirməyə imkan verir. Dil vahidləri – xüsusilə atalar sözləri, deyimlər və arxaizmlər – xalqın kollektiv yaddaşını qoruyan mühüm vasitələrdir.

Müasir mərhələdə elektron lüğətlər və dil korpusları arxaizmlərin sistemli şəkildə toplanması və təhlili üçün geniş imkanlar yaradır. Təhsil prosesində tarixi leksikaya diqqətin artırılması mədəni yaddaşın davamlılığını təmin edən mühüm amillərdəndir.

Beləliklə, arxaizmlərin qorunması yalnız dilçilik baxımından deyil, həm də mədəni və tarixi identitetin saxlanılması baxımından aktual elmi və ictimai əhəmiyyət kəsb edir.

Açar sözlər: linqvokulturologiya, arxaizmlər, dil yaddaşı, mədəni identitet, tarixi leksika, milli kimlik.

PRESERVATION OF ARCHAISMS AND LINGUISTIC MEMORY IN THE LINGUOCULTUROLOGICAL ASPECT

In modern linguistics, the study of language not only as a structural and grammatical system but also as a cultural phenomenon has gained particular relevance. In this regard, linguoculturology has emerged as an important scientific field investigating the interaction between language and culture. Language reflects the historical development of a people, their national mindset, and their spiritual values.

Linguoculturology examines the historical layers of language and cultural memory through the study of the relationship between language and culture. In this context, archaisms −lexical and grammatical units preserved from earlier stages of language development − are of special significance. Archaic words and expressions are not merely facts of linguistic history; they also serve as carriers of a people's worldview, aesthetic perception, and social experience. They play an important role in shaping national consciousness and constitute one of the main components of linguistic memory *[Kazımov, 2010:78]*.

Archaisms form the historical layer of language and reflect the socio-cultural realities of past periods. Their preservation ensures the continuity of national memory. Through archaisms, a nation's former way of life, beliefs, and value system are transmitted to the present. Archaic elements preserved especially in folklore and classical literary texts function as indicators of cultural and national identity *[Hacıyev, 2001:234]*.

At the present stage, electronic dictionaries and language corpora provide broad opportunities for the systematic collection and analysis of archaisms. Increasing attention to historical vocabulary in the educational process is an important factor in ensuring the continuity of cultural memory. Thus, the preservation of archaisms is relevant not only from a linguistic perspective but also in terms of safeguarding cultural and historical identity.

Key words: linguoculturology, archaisms, linguistic memory, cultural identity, historical vocabulary, national identity.

OʻZBEK, OZARBAYJON VA TURK TILLARIDA MODAL SOʻZLAR TASNIFI

Ziyodin Hatamov
Filologiya fanlari boʻyicha falsafa doktori (PhD)
Samarqand davlat universiteti
https://ORCID.org/0009-0004-8004-9652
ziyodinhatamov@gmail.com
Oʻzbekiston/Samarqand

Turkiy tillar oilasida modal soʻzlarning grammatik maqomi va tasnifi hamon munozarali masala boʻlib qolmoqda. Ushbu tadqiqotda oʻzbek, Ozarbayjon va turk tillarida – bir ona tilning lahjalarida – modal soʻzlarning morfologik maqomi, semantik tasnifi va sintaktik xususiyatlari qiyosiy-tipologik aspektda tahlil qilinadi. Tadqiqot muammosi shundan iboratki, uchala tilda ham mavjud boʻlgan ushbu birliklar uchun yagona tasnifiy yondashuv ishlab chiqilmagan, bu esa turkiy tillarni qiyosiy oʻrganishda va mashina tarjimasi tizimlarini rivojlantirishda ma'lum toʻsiqlar paydo qiladi.

Oʻzbek tilshunosligida modal soʻzlar mustaqil soʻz turkumi sifatida tan olingan va ishonch, tahmin, afsus, istak, xulosa, misol keltirish, tartib bildiruvchi kabi yettita semantik guruhga ajratilgan *(Oʻzbek tili grammatikasi, 1975; Nurmonov, Rasulov, 1992)*. Ozarbayjon tilshunosligida esa ular yordamchi soʻz turkumi sifatida koʻrib chiqilib, olti semantik guruhga boʻlinadi: tasdiq, gumon, oʻxshatish, natija, fikr manbayi va tartib bildiruvchilar *(Hüseynzade, 2007; Ipek, 2019; Demirdag, 2021)*. Turk tilshunosligida esa yagona qarash yoʻq: bir qator olimlar bu soʻzlarni mustaqil soʻz turi – zarf (belirteç) deb hisoblasa *(Banguoglu, 1974; Gençken, 1979; Korkmaz, 2019)*, boshqalari ularni yordamchi soʻz – edat (edat) sifatida tavsiflaydi *(Mehmedoglu, 2006)*. Bu nomuvofiqliklar sababi turk tilshunosligining Gʻarb va klassik Usmonli anʻanalariga tayanishiga borib taqalsa, oʻzbek va ozarbayjon tilshunosligi esa rus tilshunoslik maktabi taʻsiriga bo'lganidir.

Sintaktik jihatdan ham farqlar yaqqol koʻzga tashlanadi. Oʻzbek va ozarbayjon tillarida modal soʻzlar kirish soʻz vazifasini bajarib, gap qurilishidan tashqaridagi qisim hisoblanadi *(Karahan, 2010)*. Turk tilida esa ular zarf sifatida tasniflanganda gapda zarflama boʻlagi boʻla oladi *(Banguoglu, 1974)*. Taklifimiz shuki, modal soʻzlarni turkiy tillar miqyosida bir xilda belgilash uchun quyidagi uchta mezon majburiy hisoblanishi kerak: 1) nominativ funksiyaning yoʻligi – modal soʻzlar biron-bir savolga javob boʻlmaydi; 2) morfologik oʻzgarmaslik – ular kelishik, son va shaxs qoʻshimchalarini olmaydi; 3) sintaktik avtonomiya – gap boʻlaklari bilan sintaktik aloqaga kirmaydi. Ushbu mezonlar asosida turkiy tilshunoslikda modal soʻzlarni yagona funktsional-semantik kategoriya sifatida ajratish va ular uchun umumiy teglash tizimini yaratish, turkiy tillarning umumiy grammatikasini yaratish uchun muhim ahamiyatga ega bo'ladi.

Kalit soʻzlar: modallik, modal soʻzlar, turkiy tillar, morfologik tasnif, qiyosiy

tilshunoslik, kirish soʻz, sintaktik avtonomiya.

CLASSIFICATION OF MODAL WORDS IN UZBEK, AZERBAIJANI AND TURKISH

The grammatical status and classification of modal words in the Turkic language family remains a debated issue. This study examines the morphological status, semantic classification, and syntactic characteristics of modal words in Uzbek, Azerbaijani, and Turkish –dialects of a common linguistic origin – from a comparative-typological perspective. The core problem lies in the absence of a unified classificatory approach for these units across all three languages, which creates certain obstacles for comparative Turkic studies and the development of machine translation systems.

In Uzbek linguistics, modal words are recognized as a distinct part of speech and divided into seven semantic groups: certainty, conjecture, regret, wish, conclusion, exemplification, and sequence *(Uzbek Grammar, 1975; Nurmonov, Rasulov, 1992)*. In Azerbaijani linguistics, they are treated as auxiliary words and classified into six semantic groups: affirmation, conjecture, comparison, conclusion, source of opinion, and sequence *(Huseynzade, 2007; Ipek, 2019; Demirdag, 2021)*. In Turkish linguistics, no unified approach exists: some scholars classify these words as independent words — adverbs (belirteç) *(Banguoglu, 1974; Gençken, 1979; Korkmaz, 2019)*, while others treat them as particles (edat) *(Mehmedoglu, 2006)*. This inconsistency stems from the fact that Turkish linguistics developed on the basis of Western and classical Ottoman models, whereas Uzbek and Azerbaijani linguistics were more strongly influenced by the Russian linguistic tradition.

Syntactic differences are equally notable. In Uzbek and Azerbaijani, modal words function as parenthetical elements and are not considered sentence members *(Karahan, 2010)*. In Turkish, when classified as adverbs, they can serve as adverbial modifiers within the sentence *(Banguoglu, 1974)*. The analysis indicates that three criteria should be adopted as mandatory for identifying modal words across Turkic languages: 1) absence of nominative function – modal words cannot answer any interrogative; 2) morphological invariability – they do not take case, number, or person suffixes; 3) syntactic autonomy – they do not enter into syntactic relations with other sentence members. Based on these criteria, establishing modal words as a unified functional-semantic category across Turkic linguistics, developing a common tagging system, and creating a unified grammar of Turkic languages will be of great significance.

Key words: modality, modal words, Turkic languages, morphological classification, comparative linguistics, parenthetical words, syntactic autonomy.

AZƏRBAYCAN DİLİNİN TEHRAN DİALEKTİNƏ FONETİK TƏSİRLƏRİNƏ DAİR

Cavanşir Məmmədzadə
filologiya üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universiteti
https://ORCID.org/0009-0007-6451-6566
mhjavanshir@mail.ru
Azərbaycan/Bakı

Azərbaycan və fars dilləri arasında qarşılıqlı təsir xalqların əsrlər boyu birgə yaşayışından, müxtəlif sahələrdə əlaqə və münasibətlər qurmasından qaynaqlanmışdır. Bu əlaqələr zəminində Azərbaycan dilindən fars dilinə müxtəlif leksik laylara məxsus sözlər və qrammatik ünsürlər keçmişdir. Azərbaycan-türk dilinin İranın ayrı-ayrı dialektlərinə təsirləri özünü müxtəlif formalarda və səviyyələrdə göstərmişdir. Fars danışıq dili sayılan Tehran dialektində türk dilləri üçün əsas fonetik qanunlardan olan səslərin uyuşması hadisəsini həmin təsirlər sırasında qeyd etmək olar.

İltisaqi dillər üçün səciyyəvi hesab olunan ahəng qanunu, o sıradan Azərbaycan dilində mühüm əhəmiyyət daşıyır. Lakin *fars dilinin fonetik xüsusiyyətlərindən biri, istər ədəbi dildə və istərsə də danışıq dilində ahəng qanununun mövcud olmamasıdır* (*Hatəmi N. Fars danışıq dili. Bakı, 1965, s.11)*. Fars ədəbi dilinə ən yaxın olan Tehran dialektində baş verən assimilyasiya prosesi dil və dodaq ahənginə əsaslanır. Bəzi sözlərin asanlıqla bölünə bilən hissələrində müxtəlifcinsli saitlərin işlənməsi danışıqda assimilyasiya prosesinə şərait yaradır. Məsələn, bəhar // bahar, nəhar // nahar, çəhar // çahar, lehaf // lahaf, məcal // macal, tə`arof // ta`arof və s. Eyni fonetik hadisəyə birinci hecasında [o] və ikinci hecasında [u] saitlərinin işləndiyi sözlərdə də rast gəlinir. Məsələn, xoruc // xuruc, morur // murur, foruğ // furuğ, zohur // zuhur, foruş // furuş və s. Tehran dialektində assimilyasiya hadisəsi İran mənşəli sözlərlə yanaşı alınma sözlərdə də aydın müşahidə edilir.

D.Rəhimova bu spesifikliyi *Azərbaycan-türk dili ahəng qanununun fars danışıq dilinə təsiri...* (*Rəhimova D. Müasir fars dilində Azərbaycan-türk sözləri. Bakı, 1998, s.11)*, N.Hatəmi isə *... danışıq dilində, ümumiyyətlə, tələffüzün asanlaşmasına xidmət edən fonetik qanun...* kimi qiymətləndirir *(Yenə orada, s.11)*.

Tehran dialektində yaranan assimilyasiya hadisəsi iltisaqiliyin bir təzahürüdür. Şübhəsiz ki, bu prosesin formalaşmasında Azərbaycan-türk dilinin ahəng qanununun fars danışıq dilinə təsiri başlıca amillərdən hesab olunur. Bu təsir özünü, əsasən, Azərbaycan türkcəsinin Təbriz, Urmiya, Zəncan, Ərdəbil, Qəzvin kimi dialekt və şivələri vasitəsilə dolayı yolla göstərir.

Açar sözlər: Azərbaycan dili, Tehran dialekti, fonetika, assimilyasiya, iltisaqilik.

ON THE PHONETIC INFLUENCES OF THE AZERBAIJAN LANGUAGE ON THE TEHRAN DIALECT

The mutual influence between the Azerbaijani and Persian languages stems from the centuries-long coexistence of the peoples and the establishment of contacts and relationships in various fields.

On the basis of these contacts, words and grammatical elements belonging to various lexical layers have passed from the Azerbaijani language to the Persian language. The influence of the Azerbaijani-Turkish language on individual dialects of Iran has manifested itself in various forms and levels. Among these influences, one can mention the phenomenon of consonant sounds in the Tehran dialect, which is considered a spoken Persian language, which is one of the basic phonetic laws for Turkic languages.

The law of harmony, which is considered typical for agglutinative languages, is of particular importance in the Azerbaijani language. However, *one of the phonetic features of the Persian language is the absence of the law of harmony, both in the literary language and in the spoken language (Hatami N. Persian spoken language. Baku, 1965, p.11).* The assimilation process that takes place in the Tehran dialect, which is closest to the Persian literary language, is based on the harmony of the tongue and lips. The use of vowels of different genders in the easily divisible parts of some words facilitates the process of assimilation in speech. For example, bahār // bāhār, nahār // nāhār, čahār // čāhār, lehāf // lāhāf, majāl // mājāl, ta`ārof // tā`ārof etc. The same phonetic phenomenon is also found in words that use the vowels [o] in the first syllable and [u] in the second syllable. For example, xoruj // xuruj, morur // murur, foruq // furuq, zohur // zuhur, foruš // furuš etc.

In the Tehran dialect, the phenomenon of assimilation is clearly visible in words of Iranian origin as well as in borrowed words.

D.Rahimova evaluates this specificity as *the influence of the Azerbaijani-Turkish harmony law on the Persian spoken language... (Rahimova D. Azerbaijani-Turkish words in modern Persian. Baku, 1998, p.11)*, while N. Hatemi evaluates it as ... *a phonetic law that serves to facilitate pronunciation in the spoken language in general... (Ibid., p.11).*

The assimilation phenomenon that occurred in the Tehran dialect is a manifestation of agglutinative language. Undoubtedly, the influence of the harmony law of the Azerbaijani-Turkish language on the Persian spoken language is considered one of the main factors in the emergence of this process. This influence manifested itself mainly indirectly through the dialects of Azerbaijani-Turkish, such as Tabriz, Urmia, Zanjan, Ardabil and Gazvin.

Key words: Azerbaijani language, Tehran dialect, phonetics, assimilation, agglutinative language.

XV ƏSR OĞUZ YAZILI ABİDƏLƏRİNDƏ SEMANTİK ARXAİZMLƏR VƏ ONLARIN TARİXİ TƏKAMÜLÜ

Arzu İsgəndərzadə
filologiya üzrə fəlsəfə doktoru
AMEA Nəsimi adına Dilçilik İnstitutu
https://Orcid.org/0000-0002-2068-736X
arzu.isgandarzada@gmail.com
Azərbaycan/Bakı

Məqalə türk dillərinin tarixi leksikologiyasının ən mühüm mərhələlərindən biri olan oğuz yazılı abidələrinin dil xüsusiyyətlərinə həsr edilmişdir. Məqalədə XV əsr oğuz abidələrində, xüsusilə klassik divanlarda və dövrün epik nümunələrində (Qazı Bürhanəddin "Divan"ı, Nəsimi "Divan"ı, Əhmədinin "Cəmşidnamə" əsəri) rast gəlinən leksik vahidlər sinxron və diaxron aspektlərdən təhlil olunur. Semantik arxaizm anlayışı sözün fonetik tərkibinin qorunub saxlanılmasına baxmayaraq, onun ifadə etdiyi ilkin anlayışın müasir dildə fərqli və ya məhdud məna ilə əvəzlənməsi prosesini əhatə edir.

Tədqiqat çərçivəsində *aş, ər, kişi, oğlan, yimiş* kimi leksik vahidlərin semantik təkamülü müqayisəli-tarixi metod əsasında təhlil edilir. Tədqiq edilən sözlər yalnız XV əsr oğuz abidələri ilə məhdudlaşdırılmamış, eyni zamanda qədim türk yazılı abidələrinin materialları, eləcə də müasir Azərbaycan və türk dillərinin dialekt və şivələri əsasında müqayisəli şəkildə araşdırılmışdır. Bu yanaşma sözlərin həm diaxron inkişafını, həm də müxtəlif dil qatlarında qorunub saxlanmış semantik xüsusiyyətlərini müəyyən etməyə imkan vermişdir.

Müəyyən olunur ki, bu leksik vahidlər qədim türk dillərində daha geniş və çoxşaxəli semantikaya malik olmuş, müasir Azərbaycan ədəbi dilində isə əsasən semantik daralma prosesinə məruz qalmışdır. Məsələn, *oğlan* leksemi abidələrin dilində "övlad", "uşaq" kimi ümumi mənada işlənmiş, zamanla isə "erkək" və "erkək uşaq" semantikasında sabitləşmişdir; *kişi* sözü isə "insan" ümumi mənasından cins bildirən vahid səviyyəsinə qədər daralmışdır. Bununla yanaşı, bəzi leksik vahidlərin müxtəlif türk dillərində və dialektlərdə qədim semantikalarını qoruyub saxladığı müşahidə olunur.

Araşdırma göstərir ki, semantik dəyişmələr yalnız dil daxili proseslərlə deyil, həm də sosial, mədəni və tarixi amillərlə sıx bağlıdır. Bu baxımdan semantik arxaizmlərin öyrənilməsi türk dillərinin tarixi inkişafını, eləcə də dilin cəmiyyətlə qarşılıqlı münasibətini anlamaq baxımından mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: semantik arxaizm, oğuz türkcəsi, tarixi semantika, leksik inkişaf, türk dilləri.

SEMANTIC ARCHAISMS IN 15TH-CENTURY OGHUZ WRITTEN MONUMENTS AND THEIR HISTORICAL EVOLUTION

The article is devoted to the linguistic features of Oghuz written monuments, representing one of the most significant stages in the historical lexicology of Turkic languages. Lexical units found in 15th-century Oghuz monuments, particularly in classical divans and epic narratives of the period – such as Kadi Burhaneddin's *Divan*, Nasimi's *Divan*, and Ahmedi's *Jamshidnama* – are analyzed from both synchronic and diachronic perspectives. The concept of semantic archaism refers to the process by which a word retains its phonetic structure while its original meaning is replaced by a different or more restricted meaning in the modern language.

Within the framework of this research, the semantic evolution of lexical units such as *aş*, *ər*, *kişi*, *oğlan*, and *yimiş* is analyzed using the comparative-historical method. The study is not limited to 15th-century Oghuz monuments; these words are also examined through a comparative analysis of earlier Turkic written sources, as well as the dialects and sub-dialects of modern Azerbaijani and other Turkic languages. This approach allows for the identification of both the diachronic development of the words and the semantic features preserved across different linguistic layers.

It is established that these lexical units originally possessed a broader and more multifaceted semantic range in ancient Turkic languages, whereas in modern Azerbaijani literary language they have primarily undergone semantic narrowing. For example, the lexeme *oğlan* was used in the language of the monuments in the general sense of "offspring" or "child," but over time it became stabilized with the meanings "male" and "boy." Similarly, the word *kişi* narrowed from its general meaning of "human being" to a term denoting a specific gender. Furthermore, it is observed that some lexical units have preserved their original semantics in various Turkic languages and dialects.

The research demonstrates that semantic changes are closely intertwined not only with internal linguistic processes but also with social, cultural, and historical factors. In this regard, the study of semantic archaisms is crucial for understanding the historical development of Turkic languages and the interplay between language and society.

Key words: semantic archaism, Oghuz Turkic, historical semantics, lexical development, Turkic languages.

MÜASİR DİL ŞÜURUNDA DİNİ KONSEPTLƏRİN TERMİNLƏŞMƏ POTENSİALI VƏ YENİ TERMİNOLOGİYANIN YARANMASINDA ONLARIN ROLU

Aysel Nuriyeva
müəllim
Gəncə Dövlət Universiteti
https://ORCID.org/0000-0001-8762-6652
aysel.n@mail.ru
Azərbaycan/Gəncə

Konseptual yanaşmalar dilin müasir dilçilikdə yalnız ünsiyyət vasitəsi kimi deyil, eyni zamanda ictimai şüur, mədəni yaddaş və dünyagörüşün formalaşmasında mühüm rol oynayan kompleks bir sistem olduğunu göstərir. Bu yanaşmaya əsasən, dil insan təfəkküründün strukturlaşdırılmasında və reallığın qavranılmasında əsas vasitələrdən biri kimi çıxış edir və müxtəlif konseptual sahələrin ifadəsinə imkan yaradır. Bu baxımdan, dini konseptlər dil şüurunda xüsusi yer tutaraq həm fərdi, həm də kollektiv idrakın formalaşmasına təsir göstərir. Bu anlayışlar əsrlər boyu formalaşaraq zəngin semantik strukturlar yaratmış, müxtəlif tarixi mərhələlərdə fərqli məna qatları qazanmış və müxtəlif mədəni-ictimai kontekstlərdə aktuallığını qoruyub saxlamışdır. Bu konseptlər yalnız dini mətnlərlə məhdudlaşmayaraq bədii ədəbiyyatda, fəlsəfi diskursda və gündəlik dil istifadəsində də geniş şəkildə təzahür edir, nəticədə onların semantik sahəsi daha da genişlənir.

Müasir dövrdə isə bu konseptlərin terminləşmə potensialı xüsusilə diqqətəlayiqdir. Belə ki, dini mənşəli anlayışlar yeni kommunikativ ehtiyaclara uyğun olaraq yenidən interpretasiya edilir, metaforik və konseptual genişlənmə yolu ilə müxtəlif sahələrə transfer olunur və nəticədə yeni terminoloji vahidlərin yaranmasına zəmin yaradır. Bu proses həm dilin dinamik inkişafını təmin edir, həm də terminologiyanın semantik zənginliyini artıraraq müxtəlif elmi və sosial diskurslarda daha dəqiq və ifadəli ünsiyyət imkanları formalaşdırır.

Dini konseptlərin terminləşməsi onların ilkin dini mənalarından uzaqlaşaraq daha geniş semantik sahələrdə istifadə olunması deməkdir. Bu proses dilin aktivliyini və onun ictimai-mədəni dəyişikliklərə uyğunlaşma qabiliyyətini nümayiş etdirir. Xüsusilə "cənnət" və "cəhənnəm" kimi konseptlər bu baxımdan diqqətəlayiq nümunələrdir. "Cənnət" anlayışı müasir diskursda yalnız dini məkan kimi deyil, ideal şərait, yüksək komfort və arzuedilən mühit kimi terminləşir. Terminləşmə prosesinin nəticəsi olaraq dini konseptlər abstrakt düşüncənin konkret və funksional ifadə vasitələrinə çevrilir, bu isə onların semantik strukturunun sabitləşməsi və müxtəlif diskurs sahələrinə uyğunlaşması ilə müşayiət olunur. Nəticə etibarilə, müasir terminologiyanın formalaşması prosesində teoloji konseptlər təkcə ilkin mənbə funksiyasını yerinə yetirmir, həm də terminlərin semantik inkişafını istiqamətləndirən, onların məna transformasiyasını və funksional yükünü müəyyən edən aparıcı amillərdən biri kimi

çıxış edir.

Açar sözlər: din, konsept, terminologiya, dil şüuru, diskurs.

THE TERMINOLOGICAL POTENTIAL OF RELIGIOUS CONCEPTS IN MODERN LINGUISTIC CONSCIOUSNESS AND THEIR ROLE IN THE FORMATION OF NEW TERMINOLOGY

Conceptual approaches show that language in modern linguistics is not only a means of communication, but also a complex system that plays an important role in the formation of social consciousness, cultural memory and worldview. According to this approach, language acts as one of the main tools in the structuring of human thinking and perception of reality and allows for the expression of various conceptual areas. In this regard, religious concepts occupy a special place in linguistic consciousness, influencing the formation of both individual and collective cognition. Religious concepts have been formed over the centuries, creating rich semantic structures, acquiring different layers of meaning at different historical stages and maintaining their relevance in various cultural and social contexts. These concepts are not limited to religious texts, but are also widely manifested in fiction, philosophical discourse and everyday language use, as a result of which their semantic field is expanding further.

Currently, the terminological potential of these concepts is particularly noteworthy. Thus, concepts of religious origin are reinterpreted in accordance with new communicative needs, transferred to various fields through metaphorical and conceptual expansion, and ultimately create the basis for the creation of new terminological units. This process both ensures the dynamic development of the language and, by increasing the semantic richness of terminology, forms more precise and expressive communication opportunities in various scientific and social discourses.

The terminologization of religious concepts is characterized by their usage in wider and more diverse semantic areas, moving away from their original sacral meanings. This process illustrates how dynamic language is and its ability to adapt to socio-cultural changes. Particularly, concepts such as "heaven" and "hell" are notable examples in this regard. The concept of "heaven" is termed both as a religious space and in modern discourse as ideal conditions, high comfort and a desirable environment. As a result of the terminological process, religious concepts become concrete and functional means of expression of abstract thought, which is accompanied by the stabilization of their semantic structure and adaptation to various areas of discourse. Consequently, in the formation process of modern terminology, theological concepts not only perform the function of the initial source, but also act as one of the leading factors that direct the semantic development of terms, determine their meaning transformation and functional load.

Key words: religion, concept, terminology, linguistic consciousness, discourse.

RUNİK YAZI ƏNƏNƏSİNDƏ TÜRK VƏ ETRUSK İŞARƏLƏRİNİN PARALELLİYİ

Elnarə Əhmədova
baş müəllim
Sumqayıt Dövlət Universiteti
https://ORCİD.org/0000-0002-7413-7785
Azərbaycan/Sumqayıt

Minillik yazı mədəniyyətinə malik xalqlardan biri olan türklər qədim zamanlardan runik əlifbasdan istifadə etmişlər. Təkcə türklər deyil, həm də etrusklar, gotlar və skandinav xalqları daxil olmaqla, bir çox qədim xalqlar yazı sistemlərinə runik əlifbanı tətbiq etmişlər. E.ə. VIII əsrdə meydana çıxan və müasir latın əlifbasının inkişafına təkan verən etrusk əlifbası ilkin olaraq 21 hərfdən ibarət olmuş, e.ə. IV–III əsrlərdə iki əlavə simvolun daxil edilməsi ilə runların sayı 23-ə çatdırılmışdır. Etrusk əlifbası fonografik əlifbadır, lakin bəzi ligaturlar (ts, kh, ks) və sillabik işarələr də mövcud idi. Həmçinin 38 işarədən ibarət türk əlifbasında da ligaturlara və sillabik işarələrə rast gəlinir (ᛗ (lt/ld), ᛞ (bş), ᛍ (nd/nt), (ᛅ (ab), ᛇ (ok), ᛟ (eb), ᛏ (at) və s.

Runların formalarında əhəmiyyətli oxşarlıqlar mövcuddur. Bəzən bu runlar eyni deyil, fərqli səsləri ifadə edir. Etrusk yazısının güzgü effekti ilə yazıldığını nəzərə alsaq, işarələrin, əslində, eyni formaya malik olduğu qənaətinə gəlmək olar, məsələn: ᚲ və ᚳ; ᛚ və ᛎ; ᚠ və ᚡ. Miladdan sonra IV əsrə qədər Etrusk əlifbasında [nç] səsini ifadə etmək üçün ᚷ işarəsindən istifadə olunub; bu simvol qədim Türk əlifbasında da ligatur olmaqla [nç] səsbirləşməsini göstərmişdir. Məsələn: ᚴ simvolu Etrusk əlifbasında [kh] səsbirləşməsini ifadə edirdisə, qədim türk əlifbasında oxşar [ç] səsini, ayrıca yazıldıqda "iç" sözünü bildirirdi. ᚸ simvolu Etrusk dilində [ks] səslərini, türk dilində incə [d]-ni işarə etmişdir. Eyni forma və yazı istiqamətinə malik, lakin fərqli səsləri ifadə edən runlara aşağıdakılar daxildir:

ᛊ (s) - ᛇ (a, e); ᚲ (g) - ᚳ (n); ᛈ (e) - ᚸ (g); ᛚ (l) - ᛎ (l); ᛞ (d) - ᛑ (y); ᛘ (n) - ᛙ (ü); ᛗ (ş) - ᛗ (lt)); ᛜ (f) -ᛜᛍ (nt/nd); ᛞ (sh) - ᛞ (bsh);.

Qədim türk əlifbasının sağdan sola yazılması, həmçinin hərflərin forması, cümlələri ayıran işarələr də onun Etrusk əlifbası ilə oxşarlığı fikrini doğrulayan xüsusiyyətlərdir.

Açar sözlər: əlifba, etrusk, türk, qədim türk əlifbası, etrusk əlifbası.

PARALLELİSM OF TURKİC AND ETRUSCAN SİGNS İN THE RUNİC SCRİPT TRADİTİON

The Turks, one of the peoples with a millennia-old writing culture, have used the runic alphabet since ancient times. Not only the Turks, but also many ancient peoples, including the Etruscans, Goths and Scandinavian peoples, adopted the runic alphabet for

their writing systems. B.C. The Etruscan alphabet, which emerged in the 8th century BC and spurred the development of the modern Latin alphabet, initially consisted of 21 letters. The number of runic characters was increased to 23 with the inclusion of two additional symbols in the 4th-3rd centuries BC. The Etruscan alphabet is a phonographic alphabet, but some ligatures (ts, kh, ks) and syllabic signs also existed. Ligatures and syllabic signs are also found in the 38-sign Turkic alphabet (𐰾 (lt/ld), 𐰻 (bş), 𐰽 (nd/nt), (𐰀 (ab), 𐰴 (ok), 𐰆 (eb), 𐰇 (at) and so on.

There are significant similarities in the shapes of the runes. Sometimes these runes are not the same, representing different sounds. Considering that the Etruscan script was written with a mirror effect, it can be concluded that the signs actually have the same shape, for example: 𐰍 and 𐰏; 𐰴 and 𐰶; 𐰋 and 𐰑. Until the 4th century AD, the Etruscan alphabet used the sign 𐰚 to represent the sound [nç]; this symbol, also a ligature in the ancient Turkic alphabet, indicated the consonant cluster [nç]. For example, while the symbol 𐰉 represented the consonant cluster [kh] in the Etruscan alphabet, in the Old Turkic alphabet it represented the similar sound [ç], or the word "iç" when written on its own. The 𐰗 symbol represented [ks] in Etruscan and a soft [d] in Turkic. Runes with the same shape and writing direction but which represent different sounds include:

𐰯 (s) - 𐰼 (a, e); 𐰍 (g) - 𐰏 (n); 𐰃 (e) - 𐰖 (g); 𐰴 (l) - 𐰶 (l); 𐰋 (d) - 𐰋 (y); 𐰣 (n) - 𐰣 (ü); 𐰾 (sh) - 𐰾 (lt)); 𐰉 (f) -𐰉𐰽 (nt/nd); 𐰻 (sh) - 𐰻 (bsh);.

The right-to-left writing of the ancient Turkic alphabet, as well as the shape of its letters and the punctuation marks separating sentences, are features that confirm its similarity to the Etruscan alphabet.

Key words: alphabet, Etrusc, Turkish, ancient Turkic alphabet, Etruscan alphabet.

BİRİNCİ TÜRKOLOJİ QURULTAYDA QASIM TINISTANOVUN YENİ ƏLİFBAYA KEÇİD HAQQINDA FİKİRLƏRİ

Vaqif İsrafilov
dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/0000-0029045-4940
israfilovvaqif@mail.ru
Azərbaycan/Bakı

XX əsrin əvvəllərində bir sıra cəmiyyətlər yaranmış və bu cəmiyyətə üzv olan türkoloqlar yığışıb öz fikirlərini bölüşərək Türkoloji Qurultay çağırmaq ideyasını irəli sürürdülər. O vaxtkı sovet ittifaqının siyasi rejimi bu məsələyə laqeyd yanaşırdı. Mərkəz Qurultayın Bakıda keçirilməsi nəzərdə tutur. Azərbaycanda 1922-ci ildən başlayaraq əlifba komissiyası yaradılıb. Bu əlifba komitəsi latın qrafikalı əlifbaya keçmək uğrunda mübarizə aparır. Müsəlman dünyasında qədim zamanlardan ərəb əlifbası qəbul olunubdur. Onun çətinlikləri barədə M.Füzuli, M.F.Axundov yorulmadan fikirlər söyləmişdir.

İlk dəfə olaraq azərbaycanlılar ərəb əlifbasını daha rahat hesab olunan latın əlifbası ilə əvəz etmək bu yolda ilk addım atırlar. Qasım Tınıstanov məruzə edərək qeyd edir ki, bu məsələ, yəni əlifbanın dəyişdirilməsi məsələsi yenilik deyil, bu haqqda əvvəllər də bir neçə dəfə məsələ qaldırılmışdır, ancaq qara camaatın dini fanatizmi türk xalqlarının qabaqcıl adamlarının bu xeyirxah məqsədi həyata keçirilməsinə mane olmuşdur. Qasım Tınıstanov məruzə edərkən qeyd edirdi ki, latın əlifbasını qəbul etməklə biz birinci növbədə çoxsaylı nöqtələrdən canımızı qurtararıq. İkincisi isə latın hərfləri hər biri ərəblərdə olduğu kimi ayrı-ayrı yazılar birləşmir və texniki nöqteyi-nəzərdən də çox yaxşıdır. O, fikirlərində qeyd edirdi ki, hər sağlam düşüncəli vətəndaş əlifbanın dəyişdirilməsini məqsədyönlü bir iş olduğunu başa düşməlidir belə ki, xalqın 95% savadsızdır və latın əlifbası ilə onun savadlanması daha asan olar. Əgər biz ərəb əlifbası ilə yanaşı latın qrafikasını da öyrətsək, xalq özü bunların hansının daha asan, sərfəli olduğunu başa düşəcək və özü təzə fikrin həyata keçirilməsinə kömək edəcək. Əlifbanı dəyişməklə biz türk xalqlarının ədəbiyyatını yaxınlaşdırar və köhnə ərəb əlifbasının mexaniki öyrənilməsindən onun yazılışındakı texniki çətinlikdən xilas olarıq.

Açar sözlər: Qasım Tınıstanov**,** latın, türk xalqları, ərəb, əlifba, xalq

QASIM TINISTANOV'S THOUGHTS ON THE TRANSITION TO THE NEW ALPHABET AT THE FIRST TURCOLOGY CONGRESS

At the beginning of the 20th century, a number of societies were formed, and Turkologists who were members of these societies gathered and shared their views, putting forward the idea of convening a Turkological Congress. The political regime of

the Soviet Union at that time was indifferent to this issue. The center plans to hold the Congress in Baku. An alphabet commission has been established in Azerbaijan since 1922. This alphabet committee is fighting for the transition to the Latin script alphabet. The Arabic alphabet has been adopted in the Muslim world since ancient times. M.Fuzuli and M.F.Akhundov tirelessly expressed their views on its difficulties.

For the first time, Azerbaijanis are taking the first step on this path, replacing the Arabic alphabet with the Latin alphabet, which is considered more convenient. Kasim Tynistanov, in his report, noted that this issue, namely the issue of changing the alphabet, is not new, this issue has been raised several times before, but the religious fanaticism of the black community prevented the implementation of this noble goal of the leaders of the Turkic peoples. Kasim Tynistanov, in his report, noted that by adopting the Latin alphabet, we will first of all save ourselves from numerous points. Secondly, the Latin letters do not combine into separate scripts, as in the Arabs, and are also very good from a technical point of view. He noted in his thoughts that every sane citizen should understand that changing the alphabet is a purposeful task, since 95% of the population is illiterate and it will be easier for them to become literate with the Latin alphabet. If we teach Latin graphics along with the Arabic alphabet, the people themselves will understand which of these is easier and more profitable and will themselves help implement the new idea. By changing the alphabet, we bring the literature of the Turkic peoples closer together and get rid of the technical difficulties in writing the old Arabic alphabet, which is a mechanical learning process.

Key words: Gasim Tynistanov, Latin, Turkic peoples, Arabic, alphabet, people.

MÜASİR TÜRK DİLLƏRİNDƏ ZƏRF

Elşad Abışov
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/0000-0002-5048-1872
elsad_abisov@mail.ru
Azərbaycan/Bakı

Digər əsas nitq hissələri ilə müqayisədə zərfin təsnifatında yalnız köməkçi funksiya daşıyan sintaktik prinsipdən istifadə olunur. Ona görə də illərdir yaxşı, pis, gözəl sifətləri və az, çox, xeyli sayları əşya məzmunu bildirən sözə – ismə (və ya isimləşmiş digər nitq hissələrinə) aid olduqda sifət və say hərəkət məzmunlu sözə – feilə aid olduqda zərf adlandırılır.

Bu ənənə dilimizə rus dilçiliyinin təsiri ilə daxil olmuşdur, yəni rus dilində də hərəkətə aid olan sözlərin əksəriyyəti zərf adlandırılır. Lakin türk dillərindən fərqli olaraq rus dilində başqa nitq hissələri, o cümlədən də, zərflərin əksəriyyəti hərəkətlə əlaqələnərkən bir çox hallarda öz formasını da dəyişərək zərfə çevrilir. Məsələn: "хороший студент", "хорошо учиться". Burada "хороший" sifəti hərəkətlə bağlandıqda öz formasını da dəyişərək "хорошо" şəklində zərfin morfoloji xüsusiyyətini kəsb etmiş və zərfə daxil olmuşdur. Eyni ölçü meyarı ilə Azərbaycan və bütövlükdə türk dillərnin materiallarına yanaşmaq olmaz. "Yaxşı" sözü hər bir halda, o cümlədən də hərəkətə aid olduqda belə, öz formasını dəyişmir (başqırd dilində də və якшы və якшы sözləri fərqləndirilmir). Məhz buna görə də hər bir dildə sözün bir nitq hissəsindən başqasına çevrilməsi prosesində o dilin morfoloji quruluşunun spesifikası əsas götürülməlidir. Həmin xüsusiyyətlər Azərbaycan və eləcə də digər türk dillərində sözlərin nitq hissələri üzrə qruplaşdırılmasında semantik və morfoloji prinsipləri diqtə edir.

Sifətlərlə yanaşı, isimlər də cümlədə müxtəlif vəzifələrdə işlənə bilir. Məsələn, "Döymə taxta qapımı, döyərəm dəmir qapını". Cümlədəki taxta, dəmir vahidləri əşya məzmunlu sözlərin – isimlərin (qapı, diş) əlamətini bildirsələr də isim olaraq qalırlar.

Nitq hissələri mətnə görə atributiv, substantiv və adverbial məzmun qazana bilər. Lakin bu zaman söz öz mahiyyətini dəyişmir, sadəcə müvəqqəti funksiyanı yerinə yetirir. "Az danış", "çox işləmişəm", "yaxşı oxuyur", "birə-beş artıb" kimi nümunələrdə bu sözlər zərf deyil, adverbial sifət və saylardır. Bu formalar aid olduqları isimlərin ixtisarı nəticəsində yaranmışdır.

Ümumilikdə, funksiyanın dəyişməsi nitq hissəsinin dəyişməsi demək deyil.

Açar sözlər: zaman, zərf, adverbiallaşma, substantivləşmə, atributivləşmə.

Compared to other main parts of speech, the classification of adverbs has traditionally relied primarily on the syntactic principle, which performs only an auxiliary function. Accordingly, adjectives such as *yaxşı* (good), *pis* (bad), *gözəl* (beautiful) and numerals such as *az* (few), *çox* (many), *xeyli* (considerable) are treated as adjectives or numerals when they modify a noun (or substantivized elements), but are classified as adverbs when they modify a verb.

This approach entered Azerbaijani linguistics under the influence of Russian linguistic tradition. In Russian most words related to an action are categorized as adverbs and unlike Turkic languages, they often undergo formal change when functioning adverbially. For instance, in "хороший студент" (a good student) and "хорошо учиться" (to study well), the adjective *хороший* changes its form to *хорошо*, thereby acquiring the morphological features of an adverb. However, such criteria cannot be directly applied to Azerbaijani and other Turkic languages. The word *yaxşı* does not change its form regardless of whether it modifies a noun or a verb (similarly, in Bashkir, forms like *якшы* remain unchanged). Therefore, when analyzing the transition of words between parts of speech, the specific morphological structure of each language must be taken into account. In Azerbaijani and other Turkic languages, this necessitates reliance on semantic and morphological principles in the classification of parts of speech.

In addition to adjectives, nouns may also function in different syntactic roles. For example, in the sentence "Döymə taxta qapımı, döyərəm dəmir qapını" ("Do not knock on the wooden door, I will knock on the iron door"), the words *taxta* (wooden) and *dəmir* (iron) denote attributes of nouns (*qapı* – door), yet they remain nouns in essence.

Parts of speech, depending on their position within a text, may acquire attributive, substantive or adverbial meanings. However, this does not imply a change in their inherent nature; rather, they temporarily perform different functions. Thus, in examples such as "az danış" (speak little), "çox işləmişəm" (I have worked much), "yaxşı oxuyur" (studies well), and "birə-beş artıb" (has increased fivefold), the highlighted words are not true adverbs but rather adjectival and numerical forms used adverbially. These forms have emerged through the ellipsis of the nouns they originally modified.

In general, a change in syntactic function does not equate to a change in part of speech.

Key words: adverb, time, adverbialization, substantivization, attribution.

AZƏRBAYCAN TÜRKCƏSİNDƏ TOPONİMLƏRİN YARANMASINA DİGƏR DİLLƏRİN TƏSİRİ

Anar Hacıyev[1], Kamalə Kərimova[2]
baş müəllim[1,2]
Azərbaycan Dillər Universiteti
https://ORCID.org/0009-0003-0534-9914[1], https://ORCID.org/0009-0000-5961-0231[2]
anarhajiyev@mail.ru, kemalekerimova1972@gmail.com
Azərbaycan/Bakı

Türk dilləri də daxil olmaqla bir çox dünya dillərini öyrənmiş və dillərin müxtəlifliyi, qorunması haqda dəyərli fikirlərə malik olan fransız dilçi Klod Ajej qeyd edir ki, "dillər heç vaxt təmiz olmur, alınma sözlər dillərin inkişafının qaçılmaz və təbii nəticəsidir". Alimin "nəzarətsiz şəkildə qəbul edilən xarici sözlərin gələcəkdə dilin öz struktur və kimliyini zəiflətməsinə səbəb ola bilər" fikirləri isə XVII əsrdə "purisme" (təmizləmə) ideyalarını irəli sürməklə fransız dilini qorumağa çalışan F.Malerbin haqlı düşüncələrə sahib olduğu qənaətinə gəlməyə imkan yaradır. Dil ünsiyyət vasitəsi olmaqla yanaşı, mədəniyyətin göstəricisidir. Bu baxımdan dil kimliyini qorumaq üçün mövcud dilin öz yerli ekvivalentlərindən istifadə etməsi daha vacib amildir.

Azərbaycan dilinin rus dili vasitəsi ilə zənginləşməsində həm rus ədəbi dilindən, həm də rus danışıq dilindən insan həyatının bütün sahələrinə dair sözlər keçmişdir. Eyni zamanda Azərbaycan dilinin lüğət tərkibinə rus dili vasitəsilə keçmiş Avropa dillərinə aid alınmalar da mövcuddur. Təqdim etdiyimiz tezisdə rus dilindən Azərbaycan dilinin lüğət fonduna uğursuz inteqrasiya edilmiş toponimlərin dilimizin "zənginləşməsi"ndəki faktlardan bəhs edəcəyik. Bu məqsədlə biz həmin faktları aşağıdakı kriteriyalara əsasən sistemləşdirməyi qarşımıza məqsəd qoymuşuq:

- Tarixi və siyasi səbəblər – mədəni kolonizasiya və güc göstərişi vasitəsilə gələn məcburi toponimlər,
- Rusların özlərinin keçdiyi ictimai siyasi formasiyaların dəyişməsi ilə (Çar Rusiyası, Sovet Sosialist Respublikaları İttifaqı) paralel olaraq, Azərbaycana göstərilən iqtisadi, sosial, mədəni "təsiri" və dövrü əks etdirən rus toponimlərinin gətirilməsi ilə ana dilimizin "müasirləşdirilməsi",
- Linqvistik ehtiyaclardan deyil, sosial faktorlardan "motivasiya" edilərək rus toponimlərinin ana dilimizə gəlişi,
- Oktyabr inqilabından ilhamlanan və qazanılmış "azadlığı" simvolizə edən *krasnıy (красный), svetlaya (светлая), novoye (новое)* kimi "cəlbedici" sözlərin birləşməsi ilə yaranan toponimlər,
- *Sovet, kolxoz, pravda, maysk* kimi sözlərin birləşməsi ilə yaranan toponimlər,
- İnqilaba çağırışların əsas təhrikçiləri olan dünya və yerli liderlərin əbədiləşdirilməsi məqsədi ilə Marks, Engels, Lenin, Orcenikidze və digərlərinin adlarının birləşməsi ilə yaranan toponimlər və s.

Açar sözlər: toponimlər, alınmalar, dil siyasəti, dilin zənginləşməsi yolları, linqvistik ehtiyac.

THE INFLUENCE OF OTHER LANGUAGES ON THE FORMATION OF TOPONYMS IN AZERBAIJAN TURKISH

The French linguist Claude Hagège, who has studied many world languages, including Turkic languages, and has valuable ideas about linguistic diversity and language preservation, notes that "languages are never pure; borrowed words are an inevitable and natural result of linguistic development." At the same time, his view that "the uncontrolled adoption of foreign words may in the future weaken the structure and identity of a language" allows us to conclude that F. Malherbe, who in the 17th century advocated the ideas of "purism" to protect the French language, had justified arguments.

Language is not only a means of communication but also an indicator of culture. From this perspective, in order to preserve linguistic identity, it is more important to use native equivalents within the existing language.

The enrichment of the Azerbaijani language through Russian has led to the adoption of words from both the Russian literary language and colloquial speech, covering all spheres of human life. At the same time, there are also borrowings from European languages that entered Azerbaijani through Russian.

In the thesis we present, we will discuss cases of toponyms that were unsuccessfully integrated from Russian into the lexical fund of the Azerbaijani language as examples of its so-called "enrichment." For this purpose, we have set the goal of systematizing these cases based on the following criteria:

- Historical and political reasons – forced toponyms introduced through cultural colonization and displays of power;
- The "modernization" of our native language through the introduction of Russian toponyms reflecting the economic, social, and cultural "influence" of Russia on Azerbaijan, in parallel with changes in Russia's own socio-political formations (Tsarist Russia, the Union of Soviet Socialist Republics);
- The entry of Russian toponyms into our language motivated not by linguistic needs but by social factors;
- Toponyms formed by combining "attractive" words such as *krasnyy* (red), *svetlaya* (bright), *novoye* (new), inspired by the October Revolution and symbolizing the "achieved freedom";
- Toponyms formed by combining words such as *Soviet*, *kolkhoz*, *pravda*, *maysk*;
- Toponyms created by combining the names of global and local leaders – key figures inspiring revolutionary movements – such as Marx, Engels, Lenin, Ordzhonikidze, and others.

Key words: toponyms, borrowings, language policy, ways of enriching the language, linguistic need.

I TÜRKOLOJİ QURULTAYIN İDEYALARININ XXI ƏSRDƏ AKTUALLIĞI

Afət Hüseynzadə
müəllim
Heydər Əliyev adına Hərbi İnstitut
https://Orcid.org/0000-0022-4658-450J
huseynzadeafet@gmail.com
Azərbaycan/Bakı

XX əsrin əvvəlləri türk xalqlarının milli özünüdərk, dil, mədəni kimlik uğrunda mübarizəsinin yeni mərhələyə qədəm qoyduğu bir dövr kimi xarakterizə olunur. 1926-cı ildə Bakı şəhərində keçirilmiş qurultay türk xalqlarının dil, əlifba, terminologiya məsələlərini müzakirə etmək məqsədi daşıyırdı. Qurultayda qəbul edilən qərarlar, irəli sürülən ideyalar yalnız həmin dövr üçün deyil, XXI əsrdə də aktuallağını qoruyur:

1. Dil birliyi və ortaq əlifba məsələsi. Qurultayın əsas istiqamətlərindən biri türk xalqlarının dil, əlifba birliyi məsələsi idi. Latın qrafikalı əlifbaya keçid ideyası yazıda vahidlik yaratmaq, savadlanmanı asanlaşdırmaq məqsədi daşıyırdı.

XXI əsrdə qloballaşma və rəqəmsallaşma şəraitində ortaq əlifba və terminoloji yaxınlıq məsələsi yenidən aktuallaşmışdır. Bu gün bir çox türk dövlətlərinin latın qrafikasından istifadə etməsi ortaq informasiya məkanının formalaşmasına şərait yaradır.

2. Elmi türkoloji tədqiqatların inkişafı. Qurultay türk dillərinin sistemli şəkildə öyrənilməsi, dialektoloji və müqayisəli araşdırmaların aparılması zərurətini vurğulayırdı. Türk xalqlarının ortaq tarixi və mədəni irsinin araşdırılması XXI əsrdə də elmi və siyasi baxımdan əhəmiyyətlidir.

3. İdentikliyin qorunması. Bu ideya XXI əsrdə xüsusilə aktuallaşır. Qloballaşma prosesi bir tərəfdən xalqları yaxınlaşdırsa da, digər tərəfdən milli dillərin və mədəniyyətlərin assimilyasiya riski ilə üz-üzə qalmasına səbəb olur. Bu baxımdan I Türkoloji Qurultayın irəli sürdüyü prinsiplər milli-mədəni müxtəlifliyin qorunması baxımından əhəmiyyətlidir.

4. Terminologiyanın, elmi dilin formalaşdırılması. Qurultayda elmi terminologiyanın türk dillərində formalaşdırılması məsələsi geniş müzakirə edilmişdir.

XXI əsrdə elm və texnologiyanın sürətli inkişafı yeni terminlərin yaranmasını zəruri edir. Türk dillərində vahid və sistemli terminoloji bazanın yaradılması məsələsi bu gün də aktuallığını saxlayır.

XXI əsrdə aktuallıq və perspektivlər. Müstəqil türk dövlətlərinin yaranması və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişlənməsi I Türkoloji Qurultayın ideyalarına yeni məzmun qazandırmışdır.

I Türkoloji Qurultay türk xalqlarının elmi, mədəni və dil birliyi baxımından strateji əhəmiyyət daşıyan tarixi hadisədir. Qurultayın dil birliyi, ortaq əlifba, milli

kimliyin qorunması və elmi terminologiyanın inkişafı ilə bağlı ideyaları XXI əsrdə də aktuallığını itirməmişdir.

Açar sözlər: qurultay, türk xalqları, türk dilləri, ortaq əlifba, identiklik, aktuallıq.

THE RELEVANCE OF THE IDEAS OF THE FIRST TURKOLOGICAL CONGRESS IN THE 21st CENTURY

The early 20th century is characterized as a period when the Turkic peoples entered a new stage in their struggle for national self-awareness, language, and cultural identity. The congress held in 1926 in Baku aimed to discuss issues related to the language, alphabet, and terminology of the Turkic peoples. The decisions adopted and the ideas put forward at the congress remain relevant not only for that period but also in the 21st century:

1. **Language unity and the common alphabet issue.** One of the main directions of the congress was the question of linguistic and alphabetic unity among the Turkic peoples. The idea of transitioning to a Latin-based alphabet aimed to create uniformity in writing and facilitate literacy.

In the 21st century, under conditions of globalization and digitalization, the issue of a common alphabet and terminological proximity has once again become актуаль. Today, the use of the Latin script by many Turkic states creates favorable conditions for the formation of a common information space.

2. **Development of scientific Turkological research.** The congress emphasized the necessity of systematically studying Turkic languages and conducting dialectological and comparative research. The study of the shared historical and cultural heritage of the Turkic peoples remains scientifically and politically significant in the 21st century.

3. **Preservation of identity.** This idea has become particularly relevant in the 21st century. While globalization brings nations closer together, it also exposes national languages and cultures to the risk of assimilation. In this regard, the principles proposed by the First Turkological Congress are important for preserving national and cultural diversity.

4. **Formation of terminology and scientific language.** The formation of scientific terminology in Turkic languages was widely discussed at the congress.

In the 21st century, the rapid development of science and technology necessitates the creation of new terms. The establishment of a unified and systematic terminological base in Turkic languages remains relevant today.

Relevance and prospects in the 21st century. The emergence of independent Turkic states and the expansion of cooperation within international organizations have given new meaning to the ideas of the First Turkological Congress.

The First Turkological Congress is a historical event of strategic importance for the scientific, cultural, and linguistic unity of the Turkic peoples. Its ideas concerning language unity, a common alphabet, the preservation of national identity, and the development of scientific terminology have not lost their relevance in the 21st century.

Key words: congress, Turkic peoples, Turkic languages, common alphabet, identity, relevance.

TURKIY TILLARDA HURMAT IFODASINING LINGVISTIK VA TERMINOLOGIK XUSUSIYATLARI (O‘ZBEK VA INGLIZ TILLARI QIYOSIDA)

Marg’uba Qodirova
o’qituvchi
O‘zbekiston davlat san’at va madaniyat instituti
https://ORCID.org/0009-0003-1048-2138
qodirovamarguba82gmail.com
O‘zbekiston

Mazkur maqolada turkiy tillarda hurmat ifodasining lingvistik va terminologik xususiyatlari tahlil qilinadi hamda ularning o‘zbek va ingliz tillari qiyosidagi namoyon bo‘lishi yoritiladi. Tadqiqotning asosiy maqsadi turkiy tillar tizimida hurmat kategoriyasining turli til sathlarida − leksik, morfologik, sintaktik va pragmatik darajalarda ifodalanish mexanizmlarini aniqlash hamda ularning ilmiy-terminologik talqinini ishlab chiqishdan iborat.

Hurmat ifodalovchi vositalar turkiy tillarda umumiy tipologik xususiyatlarga ega bo‘lgan funksional-semantik maydon sifatida ko‘rib chiqiladi. Xususan, o‘zbek, qozoq, qirg‘iz va turk tillarida hurmat ifodasi ko‘plik shakllari, egalik qo‘shimchalari, maxsus murojaat birliklari va nutqiy etiket vositalari orqali ifodalanadi. Shu bilan birga, har bir tilning milliy-madaniy xususiyatlari ushbu vositalarning qo‘llanishida muayyan farqlarni yuzaga keltiradi. Ingliz tilida esa hurmat ifodasi ko‘proq leksik va sintaktik vositalar, xususan, modal fe’llar, yumshatish strategiyalari va diskursiv birliklar orqali ifodalanib, analitik til sifatida turkiy tillardan farq qiladi. Bu esa hurmat kategoriyasining universalligi bilan birga uning tipologik va lingvokulturologik o‘ziga xosligini ham namoyon etadi (*Brown & Levinson, 1987; Leech, 1983; Goffman, 1967; Lakoff, 1973; Holmes, 1995)*.

Tadqiqotda qiyosiy-tipologik, tavsifiy va komponent tahlil metodlaridan foydalanildi. Natijada turkiy tillarda hurmat ifodalovchi vositalarning umumiy modeli va ularning ingliz tili bilan qiyosiy farqlari aniqlanib, terminologik tizimini unifikatsiya qilish zarurati asoslab berildi. Shuningdek, hurmat kategoriyasining tarjima jarayonidagi o‘ziga xos jihatlari ochib berilib, adekvat tarjima strategiyalarini ishlab chiqish muhimligi ta’kidlandi. Tadqiqot natijalari zamonaviy pragmatika, nutq aktlari nazariyasi va lingvokulturologik yondashuvlar asosida tahlil qilindi (*Austin, 1962; Searle, 1969; Culpeper, 1996; Watts, 2003; Ide, 1989; Blum-Kulka, 1987)*.

Mazkur ish turkiy tillar tilshunosligi, tarjimashunoslik va terminologiya sohalarida olib borilayotgan ilmiy izlanishlar uchun muhim nazariy va amaliy ahamiyat kasb etadi.

Kalit so‘zlar: hurmat kategoriyasi, turkiy tillar, o‘zbek tili, qozoq tili, qirg‘iz tili, turk tili, terminologiya, pragmatika.

THE EXPRESSION OF POLITENESS IN TURKIC LANGUAGES: LINGUISTIC AND TERMINOLOGICAL PERSPECTIVES (UZBEK–ENGLISH COMPARISON)

This article analyzes the linguistic and terminological features of politeness expression in Turkic languages and examines their manifestation through a comparative perspective of Uzbek and English. The main objective of the study is to identify the mechanisms of expressing the category of politeness at different linguistic levels − lexical, morphological, syntactic, and pragmatic − within the system of Turkic languages, as well as to develop its scientific and terminological interpretation.

Politeness markers in Turkic languages are considered as a functional-semantic field characterized by common typological features. In particular, in Uzbek, Kazakh, Kyrgyz, and Turkic, politeness is expressed through plural forms, possessive suffixes, specific forms of address, and speech etiquette. At the same time, the national and cultural characteristics of each language lead to certain differences in the use of these means. In contrast, in English, politeness is primarily realized through lexical and syntactic means, particularly modal verbs, mitigation strategies, and discourse units, which distinguishes it as an analytical language from Turkic languages. This demonstrates both the universality of the politeness category and its typological and linguocultural specificity (*Brown & Levinson, 1987; Leech, 1983; Goffman, 1967; Lakoff, 1973; Holmes, 1995)*.

The study employs comparative-typological, descriptive, and component analysis methods. As a result, a general model of politeness expression in Turkic languages and its comparative differences with English are identified, and the necessity of unifying its terminological system is substantiated. Furthermore, the specific features of the politeness category in the process of translation are revealed, emphasizing the importance of developing adequate translation strategies. The findings are analyzed within the framework of modern pragmatics, speech act theory, and linguocultural approaches (*Austin, 1962; Searle, 1969; Culpeper, 1996; Watts, 2003; Ide, 1989; Blum-Kulka, 1987)*.

This study has significant theoretical and practical value for research in Turkic linguistics, translation studies, and terminology.

Key words: politeness category, Turkic languages, Uzbek language, Kazakh language, Kyrgyz language, terminology, pragmatics.

BİRİNCİ TÜRKOLOJİ QURULTAY HƏNƏFİ ZEYNALLININ TERMİNOLOGİYA İLƏ BAĞLI GÖRÜŞLƏRİ

Fatimə Fətullayeva
kiçik elmi işçi
AMEA Nəsimi adına Dilçilik İnstitutu
https://ORCID.org/0009-0007-6270-4600
fatimafatullayeva2002@gmail.com
Azərbaycan/Bakı

XX əsrin əvvəllərində türk dünyasında elmi dilin milli əsaslarla formalaşdırılması məsələlərinə böyük töhfə verən Hənəfi Zeynallı I Türkoloji Qurultayda təqdim etdiyi məruzəsində elmi nailiyyətlərin kütlə ilə yaxın əlaqəsinə əsaslanaraq elmi dilin sadə xalq üçün əlçatan olmasının vacibliyini qeyd etmişdir. Zeynallıya görə orijinal və tərcümə elmi ədəbiyyatının milli dildə yaradılması hər bir ölkəni öz ana dilində vahid və dayanıqlı terminologiyanın formalaşdırılmasına sövq edir. Hənəfi Zeynallı birbaşa olaraq qeyd edir ki, elmi nailiyyətlər ilə sadə xalq arasında kəskin fərq olmamalıdır. Bu prinsip terminologiyanın təbii olaraq milli dildə qurulmasını, elmi dilin kütlə üçün anlaşılmaz qalmamasını hədəfləyir, lakin türk-tatar dillərinin vahid elmi təsnifatının olmaması terminlərin dəqiq müəyyən edilməsində əsas metodoloji çətinliklər yaradır. Bunun səbəbləri aşağıdakılardır:

1. Xalqlarla tarixi təmas nəticəsində dil qatlarının dəyişməsi;
2. Tarixi və sosial-iqtisadi fərqlər;
3. Müxtəlif dialektlərin mövcudluğu.

Başqa Tam vahid türk dili terminologiyası yaratmaq mümkün olmasa da, H.Zeynallı praktik bir model təklif edir: 3-4 əsas türk dil qrupundan ibarət terminologiya sistemi yaradılmalı və digər dialektlər bu qruplardan birinə uyğunlaşdırılmalıdır. Belə yanaşma həm milli birliyi qoruyur, həm də real dil fərqlərini nəzərə alır. Hənəfi Zeynallının I Türkoloji Qurultayda təqdim etdiyi məruzə türk dillərində elmi terminologiyanın milli əsaslarla, sistemli və funksional olaraq formalaşdırılması istiqamətində mühüm nəzəri və praktik töhfədir. Onun təklif etdiyi prinsiplər yalnız söz seçimi ilə məhdudlaşmır, həm də elmi dilin xalq üçün əlçatan olmasını, terminologiyanın sosial və mədəni kontekstə uyğunluğunu təmin edir. Bu yanaşma SSRİ-də türk dillərində terminologiyanın normallaşdırılması və gələcəkdə vahid, lakin praktik modellərin yaradılması üçün elmi əsas rolunu oynayıb.

Açar sözlər: Hənəfi Zeynallı, terminologiya, milli dil, türk dil qrupu, dialektlər.

THE ISSUE OF TERMINOLOGY IN THE REPORTS OF HANAFI ZEYNALLI AT THE FIRST TURCOLOGY CONGRESS

In the early 20th century, Hənəfi Zeynallı, who made significant contributions to the formation of a scientific language on national foundations in the Turkic world, emphasized in his report presented at the First Turkological Congress the importance of making scientific language accessible to the general public, based on the close connection between scientific achievements and the masses. According to Zeynallı, the creation of original and translated scientific literature in the national language encourages each country to develop a unified and stable terminology in its native language. He directly stated that there should be no barriers between scientific achievements and ordinary people.This principle aims at the natural formation of terminology in the national language and ensuring that scientific language does not remain incomprehensible to the masses. However, the lack of a unified scientific classification of Turkic-Tatar languages creates major methodological difficulties in defining terms precisely. The reasons for this are as follows:

1. Historical and socio-economic differences.
2. The existence of various dialects.
3. Changes in language layers as a result of historical contact with other peoples.

Although it is not possible to create a completely unified Turkic language terminology, Zeynallı proposes a practical model: a terminology system should be formed based on 3-4 main Turkic language groups, and other dialects should be aligned with one of these groups. This approach preserves national unity while also taking real linguistic differences into account. The report presented by Hənəfi Zeynallı at the First Turkological Congress is an important theoretical and practical contribution to the systematic and functional formation of scientific terminology in Turkic languages on national foundations. The principles he proposed are not limited to word selection but also ensure the accessibility of scientific language to the public and the adaptation of terminology to social and cultural contexts. This approach played a scientific foundational role in the normalization of terminology in Turkic languages within the USSR and in the future creation of unified yet practical models.

Key words: Hanafi Zeynalli, terminology, national language, Turkic language group, dialects.

CROSSLINGUISTIC INFLUENCES, CONTRASTIVE ANALYSIS OF TURKISH AND ENGLISH AMONG TURKISH EFL LEARNERS

Mavjuda Bolibekova
PhD, Associate Professor
National University of Uzbekistan
https://ORCID.org/0009-0008-2466-0309
mavjudamardievna@gmail.com
Uzbekistan/Tashkent

This study highlights the differences and similarities of English and Turkish languages. Some linguists have investigated scientific works about bilingualism in their works. With the help of their works, you can be aware of grammatical structure and the meaning of the context in both languages respectively.

With the influence of globalization, the importance of bilingualism is increasing dramatically. When acquiring and teaching an extra language which is supposed to carry career and educational advantage, a lot of difficulties and problems can be encountered.

According to this research, one of the problematic issues is "cross-linguistic influences" or can be defined as "transfer" which contains pros as well as cons for the acquisition of a foreign language (Odlin, Terence, 1989). The interlanguage affects the process of second language acquisition giving rise to the inaccurate usage of English.

In contrast to English, which uses articles and auxiliary verbs and has a relatively regular subject-verb-object word order, Turkish is an agglutinative language that is mostly head-final (Comrie, Bernard, 1981). It is anticipated that learners' interlanguage development will be influenced by these structural variations.

The analysis highlights areas where negative transfer commonly occurs, including tense-aspect usage, prepositions, article system, and sentence structure. For example, the absence of articles in Turkish often leads to their omission or misuse in English, a well-documented issue in EFL contexts "To be a doctor" English – *to be a doctor* (Turkish); *friendship is the vital issue* (Turkish)- *friendship is a vital issue* (English). Similarly, differences in verb morphology and word order can result in non-target-like constructions. At the same time, positive transfer may facilitate learning when similarities between the two languages exist (Ellis, Rod, 1994).

Key words: bilingualism, cross-linguistic influences, acquisition, agglutinative language, interlanguage, transfer

AZERBAYCAN VE TÜRKİYE`DE KULLANILAN ASKERİ TERİMLERİN KARŞILAŞTIRILMASI ÜZERİNE

Ziyafət Qasımova
filologiya üzrə fəlsəfə doktoru
https://ORCID.og/0000-0002-6579-5110
gasimovaziyafet@gmail.com
Bakı Slavyan Universiteti
Azərbaycan/Bakı

Askeri terminoloji katmanı, dilin söz varlığında önemli bir yer tutar. Askeri terminoloji katmanı, terim zenginliğiyle öne çıkar. Tarihsel açıdan bakıldığında, bu zenginlik, toplum ilişkilerinin ilk dönemlerinde, toplum üyelerinin kendilerini dış etkilerden korumak için çeşitli mücadele ve savaşları tercih etmeleriyle açıklanabilir.

Askeri terminoloji, askeri meselelerin tüm alanlarını kapsar ve devletin askeri alandaki gelişmişlik düzeyine uyum sağlamaya çalışır. Başka bir deyişle, herhangi bir askeri reform, askeri-teknik alanda gelişme, devletin çeşitli ilkelere dayalı silahların test edildiği tatbikatlara katılımı vb. yeni askeri terimlerin ortaya çıkmasına yol açar.

Askeri terimler hiyerarşik olarak birbirlerine bağımlıdır. Bu terimler, diğer terimlerin özel ve genel kavramlarını içerebilir. Askeri terimler, askeri faaliyet alanında uygulanan ilgili katı kavrama uygun olmalıdır.

Her dilde askeri terimlerin sınıflandırılmasında ortak ve farklı yönler vardır. Dünya dillerinde askeri sözcükler yapılarına göre iki gruba ayrılır: tek bileşenli ve çok bileşenli. Oluşturulma biçimlerine göre ise askeri terimler anlamsal, biçimbilimsel, sözdizimsel ve hesaplama yöntemiyle oluşturulanlar olmak üzere dört grupta incelenir.

Askeri terminolojinin gelişimine göre askeri terimler şu şekilde sınıflandırılabilir:

Askeri birim ve kuruluşların adları: Ali Baş Komandanlıq (Az. T)-Başkomutanlık (Türkiye T.)

Birlik ve askeri birim türlerinin adları: artillerya alayı (Az.T)- topçu alayı Türkiye T.)

Askeri teçhizat, silah ve mühimmat adları: qumbaraatan (Az.T)-el bombası fırlatıcısı (Türkiye T.)

Askeri liderlik ve görev unvanları: alay komandiri (Az.T)- alay komutanı (Türkiye T)

Askeri operasyonlar ve faaliyet adları: əməliyyat, hücum (Az.T)- operasyon, saldırı (Türkiye T.)

Askeri olarak belirlenmiş alanlar ve yer adları: qarnizon (Az. T)- garnizon (Türkiye T)

Askeri kıyafet ve savaş teçhizatının adları: mundir (Az.T.)- uniforma (Türkiye T.)

Askeri rütbelerin adları ve askeri meslekleri belirten kelimeler: çavuş, snayper (Az.T)-çavuş, keskin nişancı (Türkiye T)

Askeri birlikler ve emirler: atəş (Az. T)- ateş (Türkiye T)

Bu çalışmamızda yukarıda belirtilen teorik bilgilerden yola çıkılarak, yerli ve yabancı kaynaklar kullanılarak Azerbaycan ve Türkiye'de kullanılan askeri terimler karşılaştırılacaktır.

Anahtar sözcükler: Askeri terim, Azerbaycan, Türkiye, karşılaştırma, sözvarlığı, dil.

COMPARİSON OF MİLİTARY TERMS USED İN AZERBAİJAN AND TÜRKİYE

The layer of military terminology occupies an important place in the vocabulary of a language. This layer stands out with its richness of terms. From a historical perspective, this richness can be explained by the fact that, in the earliest periods of social relations, members of society preferred various struggles and wars in order to protect themselves from external influences.

Military terminology covers all areas of military affairs and seeks to adapt to the level of development of a state in the military field. In other words, any military reform, development in the military-technical sphere, the participation of the state in exercises where various weapons are tested on the basis of certain principles, etc., lead to the emergence of new military terms.

Military terms are hierarchically dependent on one another. These terms may include both specific and general concepts of other terms. Military terms must correspond to the relevant strict concepts applied in the field of military activity. Such terms possess a number of features that are more or less inherent in all military terms of any language.

In every language, there are similarities and differences in the classification of military terms. In world languages, military words are divided into two groups according to their structure: single-component and multi-component. According to the way they are formed, military terms are studied in four groups: semantic, morphological, syntactic, and computationally formed.

According to their development, military terms can be classified as follows:

Names of military units and organizations: Ali Baş Komandanlıq (Az.) – Başkomutanlık (Tr.)- Comamander-in-Chief (Eng.)

Names of divisions and types of military units: artillerya alayı (Az.) – topçu alayı (Tr.)- artillery regiment (Eng.)

Names of military equipment, weapons, and ammunition: qumbaraatan (Az.) – el bombası fırlatıcısı (Tr.)- grenade launcher (Eng.)

Military leadership and titles of duty: alay komandiri (Az.) – alay komutanı (Tr.)- regiment commander (Eng.)

Names of military operations and activities: əməliyyat, hücum (Az.) – operasyon, saldırı (Tr.)- operation, attack (Eng.)

Names of military-designated areas and locations: qarnizon (Az.) – garnizon (Tr.)- garrison (Eng.)

Names of military clothing and combat equipment: mundir (Az.) – uniforma (Tr.)- millitary uniform (Eng.)

Names of military ranks and words denoting military professions: çavuş, snayper (Az.) – çavuş, keskin nişancı (Tr.)- sergeant, sniper (Eng.)

Military commands and orders: ateş (Az.) – ateş (Tr.)- fire (Eng.)

In this study, based on the above-mentioned theoretical information, and by using both local and foreign sources, the military terms used in Azerbaijan and Türkiye will be compared.

Key words: Military terminology, Azerbaijan, Türkiye, comparison, vocabulary, language.

TURON VA XORAZM HUDUDIDA SHAKLLANGAN XORAZMIY OLIMLAR AN’ANASIDA ARAB TILSHUNOSLIGI TARAQQIYOTI

(Ziyovuddin Makkiy Xorazmiy misolida**)**

Mansur Jumaniyazov
TDSHU tayanch doktoranti
https://ORCID.org/0009-0009-0267-6462
davlatboymansur@gmail.com
O’zbekiston/Toshkent

Turon hududi, ayniqsa Xorazm o‘lkasi tarixan ilmiy tafakkur rivojlangan markazlardan biri sifatida e’tirof etiladi. Ushbu makonda yetishib chiqqan xorazmiy allomalar turli ilm sohalarida, jumladan arab tilshunosligida ham muhim iz qoldirganlar.

Ziyovuddin Makkiy Xorazmiy ana shunday ilmiy muhit mahsuli bo‘lib, u o‘z davrida nafaqat bilimdon tilshunos, balki mohir notiq sifatida ham shuhrat qozongan. Uning “Xorazm xatibi” nomi bilan tanilishi ilmiy faoliyatining amaliy nutq madaniyati bilan chambarchas bog‘liqligini anglatadi.

Olimning ilmiy qarashlari shakllanishida Zamaxshariy asos solgan lingvistik maktab hal qiluvchi rol o‘ynagan. U nahv va lug‘at ilmlarini chuqur o‘zlashtirib, o’zidan keyin ko’plab tilshunoslikka oid asarlar yozgan Mutarriziy Xorazmiy kabi olimlarni tarbiya qilgan. Shuningdek uning uslubi Abdurahmon Jomiy “Sharh Mulla” asarida va Taftazoniy “Irshad Hadiy” asarlarida ularning ilmiy qarashlariga tasir qilganligi ko’rinadi.

Ziyovuddin Makkiy Xorazmiyning “Kifayatu-n-nahv fi ilmi-l-e’rāb” asari uning tilshunoslikdagi qarashlarini aks ettiruvchi muhim manbalardan biridir. Ushbu asarda grammatik hodisalar tartibli va tizimli shaklda izohlanib, nazariy bilimlarni amaliy qo‘llashga xizmat qiladi. Asarning ko’plab nusxalarni turkiya fondlarida saqlanadi. Hamda ko’plab turk tilshunoslari olimning asarlari haqida gapirib uning asarlaridan iqtiboslar keltirgan.

Ziyovuddin Makkiy Xorazmiy serqirra olim sifatida turli sohalarda bir qator asarlar yaratgan. Uning muhim asarlari qatoriga “Manaqib al-Imom Abi Hanifa”**,** “Radd ash-shams li Amiril Mo’minin”**,** “Al-Arba’un fi manaqib an-Nabiy”**,** “Maqtal Amiril Mo’minin”**,** “Maqtal al-Imom as-Sibt ash-Shahid”**,** hamda “Al-Masanid ‘ala al-Buxariy**”** kiradi. Shuningdek, u she’riyat bilan ham shug‘ullanib, devon tuzgan. Olimning “Fazoilu-l-Imom Ali” asari ham mashhur manbalardan hisoblanadi.

Shunday qilib, Turon va Xorazm hududida shakllangan xorazmiy olimlar merosi, xususan Ziyovuddin Makkiy Xorazmiyning ilmiy faoliyati, arab tilshunosligi taraqqiyotida muhim bosqichlardan biri sifatida baholanishi mumkin.

Kalit so‘zlar: Turon, Xorazm, xorazmiy olimlar, Ziyovuddin Makkiy Xorazmiy, nahv, “Kifayatu-n-nahv fi ilmi-l-e’rāb”, tilshunoslik, manoqiblar.

THE DEVELOPMENT OF ARABIC LINGUISTICS IN THE TRADITION OF KHAWARIZMI SCHOLARS FORMED IN TURAN AND KHAWARIZM
(In the Example of Ziyovuddin Makki Khawarizmi)

The region of Turan, especially the land of Khawarizm, is historically recognized as one of the centers where scientific thought flourished. The Khawarizmian scholars who emerged from this region left a significant mark in various fields of science, including Arabic linguistics.

Ziyovuddin Makki Khawarizmi was a product of this profound scientific environment, gaining fame in his time not only as a knowledgeable linguist but also as a skilled orator. His title "Akhtab Khawarizm" (The Orator of Khawarizm) signifies the close connection between his scientific activities and practical speech culture. The linguistic school founded by Zamakhshari played a decisive role in the formation of the scholar's scientific views. Having deeply mastered the sciences of *nahw* (grammar) and lexicography, he mentored scholars such as Mutarrizi Khawarizmi, who later authored numerous works on linguistics. Furthermore, the influence of his scientific style is evident in the views expressed in Abdurakhman Jami's "Sharh Mulla" and Taftazani's "Irshad al-Hadi."

Ziyovuddin Makki Khawarizmi's work "Kifayatu-n-nahw fi ilmi-l-e'rāb" is one of the most important sources reflecting his linguistic perspectives. In this work, grammatical phenomena are explained in an orderly and systematic manner, serving the practical application of theoretical knowledge. Many copies of this manuscript are preserved in Turkish foundations, and numerous Turkish linguists have cited his works. As a versatile scholar, he authored several works across various fields, including "Manaqib al-Imam Abi Hanifa," "Radd ash-shams," "Al-Arba'un fi manaqib an-Nabiy," and "Maqtal al-Imam as-Sibt." He was also involved in poetry and compiled a *diwan*. In conclusion, the heritage of Khawarizmian scholars, particularly the scientific activity of Ziyovuddin Makki Khawarizmi, can be evaluated as a crucial stage in the development of Arabic linguistics.

Key words: Turan, Khawarizm, Khawarizmian scholars, Ziyovuddin Makki Khawarizmi, nahw, "Kifayatu-n-nahw fi ilmi-l-e'rāb", linguistics, manaqib.

AZƏRBAYCAN DİLİNDƏ BƏZİ MÜRƏKKƏB SÖZLƏRDƏ ARXAİK LEKSİKANIN İZLƏRİ

Elnarə Yəhyayeva
Azərbaycan Dillər Universiteti
https:/ORCİD.org/0000-0002-8054-458X
yehyayevaelnare@gmail.com
Azərbaycan /Bakı

Tarixi inkişaf nəticəsində dilin fonetik, leksik və qrammatik sistemində müəyyən dəyişikliklər baş verir. Nəticədə bəzi vahidlər tamamilə arxaikləşir, bəziləri isə yeni quruluş modellərində yaşamaqda davam edir. Etimoloji təhlillər zamanı məlum olur ki, arxaik leksik vahidlərin bir qismi mürəkkəb sözlərin tərkibində qorunub saxlanır. Tezisdə tarixi-müqayisəli metoddan istifadə edilməklə bu cür sözlərin tərkibindəki arxaik leksikanın izləri araşdırılmışdır. Azərbaycan dilində defislə yazılan mürəkkəb sözlərin bir qismini bir tərəfi və ya hər iki tərəfi mənasını itirmiş sözlər təşkil edir. Ədəbi dil üçün arxaikləşmiş bu cür sözlərin izlərinə Azərbaycan dili dialektlərində və yazılı abidələrin dilində rast gəlmək mümkündür. Məsələn, "var-gəl" mürəkkəb sözünün birinci hissəsi ədəbi dilimiz üçün arxaikləşsə də, Qərb qrupu dialektlərində "varıb gəlmək", eləcə də ədəbi dilimizdə işlənən "fərqinə varmaq" ifadələrinin tərkibində, həmçinin "barışmaq" sözündə yaşamaqdadır. Belə mürəkkəb sözləri hər iki tərəfi arxaikləşmiş və bir tərəfi arxaikləşmiş mürəkkəb sözlər olaraq təsnif etmək mümkündür. Məsələn, əksər dialektlərdə rast gəldiyimiz "əkə-bikə" sözünün hər iki tərəfi arxaikləşmişdir. M.Kaşğarinin lüğətində *bikə* sözü şahzadə qadın kimi, *əkə* sözü böyük bacı kimi izah olunmuşdur. Bu söz özbək dilində böyüklərə müraciət forması kimi işlənməkdədir. Tərəflərindən biri arxaikləşmiş "əskik-gədik" sözündəki gədik sözünə "Kitabi-Dədə Qorqud" dastanlarının dilində *gədilmək* formasında alğışlarda rast gəlinir: *"Çalışanda qara polat uz qılıcın gədilməsün"*.

Belə mürəkkəb sözlərin komponentləri milli və alınma sözlərdən ibarətdir. Onları mənşəcə belə qruplaşdırmaq olar: hər iki tərəfi milli mənşəli sözlərdən ibarət olanlar (tanış-biliş, söz-sov, ağlayıb-sıtqımaq, qapı-baca, yaraq-yasaq, qal-qeybət); bir tərəfi milli, bir tərəfi alınma sözlərdən ibarət olanlar (yara-xora, xurd-xəşil); hər iki tərəfi ərəb-fars mənşəli sözlərdən ibarət olanlar (xəbər-ətər, hayıl-mayıl).

Bəzi mürəkkəb sözlərin bir tərəfi müasir Azərbaycan dili üçün arxaikləşsə də, digər türk dillərində işləkdir. Məsələn, dilimizdə işlənən "toy-düyün" sözünün ikinci komponenti Türkiyə türkcəsində eyni semantikada funksionallığını qoruyub saxlayır.

Müşahidələr göstərir ki, ədəbi dildə arxaikləşən bəzi leksemlər mürəkkəb sözlərin tərkibində mühafizə olunmuşdur.

Açar sözlər: mürəkkəb sözlər, arxaikləşmə, dialekt, yazılı abidələr, etimoloji təhlil

TRACES OF ARCHAIC LEXICON IN SOME COMPLEX WORDS IN THE AZERBAIJAN LANGUAGEWORDS

As a result of historical development, certain changes occur in the phonetic, lexical and grammatical system of the language. As a result, some units become completely archaic, while others continue to live on in new structural models. Etymological analysis reveals that some archaic lexical units are preserved in complex words. In the thesis, traces of the archaic lexicon within such words were investigated using the historical-comparative method. Some of the complex words written with a hyphen in the Azerbaijani language are words that have lost their meaning on one or both sides. It is possible to find traces of such words, semantically archaic for the literary language, in the dialects of the Azerbaijani language and in the language of written monuments. For example, although the first part of the compound word "*var-gəl"* has become archaic for our literary language, it lives on in the Western dialects of the Western group (e.g., in the expression "varıb gəlmək"), as well as in the expression "fərqinə varmaq" (to realize) used in our literary language, and in the word "barışmaq" (to reconcile). It is possible to classify such compound words as archaic on both sides and compound words archaic on one side. For example, both sides of the word "əkə-bikə", which we find in most dialects, have become archaic. In M. Kashgari's dictionary, the word "bikə" is explained as a princess, and the word "əkə" is explained as an elder sister. This word is used as a form of address to adults in Uzbek language. One of the parts is the word "gədik" in the archaic word "əskik-gədik". It is found in the language of "Kitabi-Dade Gorgud" epics in the form of *"gədilmək"* in the form of blessing: *"Çalışanda qara polat uz qılıcın gədilməsün"*.

The components of these complex words consist of native and borrowed words. They can be grouped by origin as follows: those consisting of words of national origin on both sides (tanış-biliş, bərli-bəzəkli, söz-sov, ağlayıb-sıtqımaq, qonum-qonşu, qapı-baca, yaraq-yasaq, qal-qeybət); those consisting of national and borrowed words on one side (yara-xora, xurd-xəşil); both sides of which consist of words of Arabic-Persian origin (xəbər-ətər, hayıl-mayıl).

Although one part of some complex words has become archaic for the modern Azerbaijani language, it is functional in other Turkic languages. For example, the second component of the word "toy-düyün" used in our language retains its functionality in the same semantics in Turkey Turkish.

Observations show that some lexemes that have become archaic in the literary language have been preserved in complex words.

Key words: compound words, archaicization, dialect, written monuments, etymological analysis.

NƏZƏRİ DİLÇİLİKDƏ MƏNSUBİYYƏT KATEQORİYASININ TERMİNOLOJİ MODELLƏŞDİRMƏDƏ FUNKSİONAL-SEMANTİK ROLU

Çinarə Şahbazlı
filologiya üzrə fəlsəfə doktoru,dosent
Bakı Biznes Universiteti
https://Orcid.org/0009-0005-0137-608X
chinara.shahbazli@mail.ru
Azərbaycan/Bakı

Nəzəri dilçilikdə mənsubiyyət kateqoriyası dilin qrammatik və semantik sistemində mərkəzi funksiyaya malik olmaqla yanaşı, terminoloji modelləşdirmənin strukturlaşdırılmasında da əhəmiyyətli rol oynayır. Bu kateqoriya obyektlər, anlayışlar və fenomenlər arasında aidiyyət, sahiblik və münasibət əlaqələrini ifadə etməklə terminoloji vahidlərin konseptual və struktur-semantik təşkili üçün nəzəri əsas yaradır. Mənsubiyyət yalnız morfoloji və sintaktik göstəricilər vasitəsilə deyil, həm də semantik və konseptual səviyyələrdə terminlərarası əlaqələrin qurulmasında sistemli funksiyanı təmin edir. Beləliklə, terminoloji sistemlər sadəcə leksik vahidlər toplusu deyil, qarşılıqlı əlaqəli anlayışlar şəbəkəsi kimi nəzəri baxımdan formalaşır.

Funksional-semantik perspektivdən mənsubiyyət kateqoriyası terminlərarası iyerarxik münasibətlərin və məntiqi əlaqələrin müəyyənləşdirilməsində əsas rol oynayır. Elmi diskursda terminlər arasında "aidlik", "hissə-bütöv" və "subyekt-obyekt" tipli münasibətlərin ifadəsi məhz mənsubiyyət vasitəsilə reallaşır. Bu isə terminoloji modellərin sistemli qurulmasını, konseptual ardıcıllığın təmin edilməsini və elmi biliklərin strukturlaşdırılmasını mümkün edir. Mənsubiyyət kateqoriyası terminlərin yalnız adlandırıcı funksiyasını deyil, həm də biliklərin təşkili və semantik vahidlər kimi çıxış etməsini təmin edir. Nəticədə, terminoloji modellər həm formal, həm də konseptual səviyyədə əlaqələndirilmiş sistem kimi nəzəri təsvir olunur.

Terminoloji modelləşdirmədə mənsubiyyət kateqoriyasının rolu konseptual sahələrin təşkili və terminlərarası semantik şəbəkələrin qurulması baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu kateqoriya vasitəsilə terminlər arasında əlaqələr və aidiyyət strukturları müəyyənləşdirilir, iyerarxik və sistemli təşkili təmin olunur. Aqqlutinativ dillərdə, xüsusilə Azərbaycan dilində mənsubiyyət şəkilçilərinin məhsuldarlığı terminlərin morfoloji modelləşdirilməsini zənginləşdirir, anlayışlar arasında semantik fərqliliyi gücləndirir və terminoloji sistemlərin elastikliyini artırır.

Beləliklə, nəzəri dilçilikdə mənsubiyyət kateqoriyası yalnız qrammatik kateqoriya kimi deyil, həm də terminoloji modelləşdirmənin funksional-semantik təməli, anlayışlararası əlaqələri sistemləşdirən və elmi biliklərin ardıcıl strukturlaşdırılmasını təmin edən fundamental mexanizm kimi qiymətləndirilməlidir.

Açar sözlər: mənsubiyyət kateqoriyası, nəzəri dilçilik, terminoloji modelləşdirmə, funksional-semantik analiz, terminlərarası münasibətlər.

THE FUNCTIONAL-SEMANTIC ROLE OF THE POSSESSIVE CATEGORY IN TERMINOLOGICAL MODELING IN THEORETICAL LINGUISTICS

In theoretical linguistics, the possessive category holds a central function within the grammatical and semantic systems of language and simultaneously serves a crucial role in structuring terminological models. This category provides a theoretical foundation for the conceptual and structural-semantic organization of terminological units by expressing relations of belonging, ownership, and association among objects, concepts, and phenomena. Possession ensures systematic functioning not only through morphological and syntactic markers but also at semantic and conceptual levels in establishing inter-term relations. Consequently, terminological systems are conceptualized not merely as collections of lexical units but as networks of interrelated concepts.

From a functional-semantic perspective, the possessive category plays a key role in defining hierarchical relations and logical connections among terms. In scientific discourse, relations such as "belonging," "part-whole," and "subject-object" are realized through possessive structures. This facilitates the systematic construction of terminological models, ensures conceptual consistency, and enables the structured organization of scientific knowledge. The possessive category guarantees that terms perform not only a naming function but also serve as organizers of knowledge and semantic units. As a result, terminological models are represented as systems integrated at both formal and conceptual levels.

The role of the possessive category in terminological modeling is particularly significant for organizing conceptual domains and constructing inter-term semantic networks. Through this category, relational and belonging structures among terms are determined, ensuring hierarchical and systematic organization. In agglutinative languages, particularly Azerbaijani, the productivity of possessive affixes enriches the morphological modeling of terms, strengthens semantic differentiation among concepts, and increases the flexibility of terminological systems.

Thus, in theoretical linguistics, the possessive category should be regarded not only as a grammatical category but also as a functional-semantic foundation for terminological modeling - a fundamental mechanism that systematizes inter-conceptual relations and ensures the sequential structuring of scientific knowledge. Its application enables precision, hierarchical consistency, and the complex representation of scientific concepts within terminological systems, in accordance with the principles of academic and terminological discourse.

Key words: possessive category, theoretical linguistics, terminological modeling, functional-semantic analysis, inter-term relations.

I TÜRKOLOJİ QURULTAYIN İDEOLOJİ İRSİ: ORTAQ TÜRK TERMİNOLOGİYA SİSTEMİNİN YARADILMASININ MÜASİR PROBLEMLƏRİ

Leyla Səfərova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/0009-0007-7743-7744
leyla.safarova@adpu.edu.az
Azərbaycan/Bakı

1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay türk xalqlarının mədəni və mənəvi birliyinin elmi təməli kimi tarixə düşmüşdür. Qurultayın qarşıya qoyduğu ən böyük hədəflərdən biri türk dilləri arasında ortaq terminologiya sisteminin yaradılması, imla və əlifba birliyinin təmin edilməsi idi. Bu gün Türk Dövlətləri Təşkilatı çərçivəsində aparılan inteqrasiya prosesləri I Türkoloji Qurultayın ideoloji varisi və yeni inkişaf mərhələsi kimi çıxış edir. Bu varislik təkcə tarixi ehtiram deyil, həm də gələcəyə yönəlmiş strateji yol xəritəsidir.

Müasir qloballaşma dövründə ortaq elmi və texniki dilin formalaşdırılması türk dünyasının intellektual müstəqilliyi üçün strateji əhəmiyyət daşıyır. Lakin bu yolda bəzi ciddi maneələr mövcuddur. Xüsusilə, hər bir türk dilinin son yüz ildə fərqli xarici dillərin (rus, ingilis, fars) təsiri altında inkişaf etməsi, texnoloji anlayışların vahid kökdən deyil, müxtəlif mənbələrdən alınması ortaq termin sisteminin qarşısında duran əsas linqvistik problemdir. Müasir termin yaradıcılığında milli köklərə qayıdış əvəzinə, əcnəbi "kalka" ifadələrin istifadəsi dillərin bir-birindən leksik baxımdan uzaqlaşmasına, daxili strukturun pozulmasına və süni hibridləşməyə səbəb olur.

Problemin həlli yolu kimi, ortaq terminoloji bazanın rəqəmsallaşdırılması və vahid elektron platformalara inteqrasiyası təklif olunur. Müasir dövrün tələbi olan rəqəmsal türkologiya, fərqli coğrafiyalarda yaşayan eyni köklü anlayışların vahid semantik məkanda birləşdirilməsini zəruri edir. Süni zəka texnologiyalarının köməyi ilə ortaq söz köklərindən yeni terminlərin törədilməsi, türk dillərinin qlobal elmi rəqabətdə geri qalmaması üçün başlıca şərtdir. Bu həm də milli dilin rəqəmsal təhlükəsizliyini təmin edən və onun alqoritmik yaddaşını gücləndirən mühüm amildir. Belə bir yanaşma türk dillərinin həm ünsiyyət vasitəsi kimi, həm də yüksək texnologiya dili kimi yaşamasını təmin edəcəkdir.

Ortaq türk terminoloji sisteminin yaradılması prosesində I Türkoloji Qurultayın elmi prinsiplərinə sadiqlik və müasir dilçilik metodlarının tətbiqi mütləq zərurət kimi qiymətləndirilir. Bu proses təkcə filoloji məsələ deyil, həm də Türk dünyasının gələcək birliyinin, mədəni suverenliyinin, rəqəmsal gələcəyinin mənəvi zəmanətidir. Qurultayın 100 illik irsi bizə göstərir ki, dildə birlik olmadan sarsılmaz siyasi və iqtisadi birlik qurmaq mümkün deyildir.

Açar sözlər: I Türkoloji Qurultay, ortaq türk dili, terminologiya sistemi, inteqrasiya, dil birliyi, rəqəmsal türkologiya.

THE IDEOLOGICAL HERITAGE OF THE FIRST TURKOLOGICAL CONGRESS: MODERN PROBLEMS OF CREATING A COMMON TURKIC TERMINOLOGY SYSTEM

The First Turkological Congress, held in Baku in 1926, has gone down in history as the scientific foundation of the cultural and spiritual unity of Turkic peoples. One of the primary goals set by the Congress was the creation of a common terminology system among Turkic languages and ensuring unity in spelling and alphabet. Today, the integration processes carried out within the framework of the Organization of Turkic States act as the ideological successor and a new stage of development of the First Turkological Congress. This succession is not merely historical reverence but also a strategic roadmap oriented toward the future.

In the modern era of globalization, the formation of a common scientific and technical language is of strategic importance for the intellectual independence of the Turkic world. However, there are significant obstacles on this path. In particular, the development of each Turkic language under the influence of different foreign languages (Russian, English, Persian) over the last hundred years, and the adoption of technological concepts from various sources rather than a single root, constitute the main linguistic challenges facing a common terminology system. Instead of returning to national roots in modern term-making, the use of foreign "calque" expressions leads to the lexical divergence of languages, the disruption of internal structures, and artificial hybridization.

As a solution to the problem, the digitalization of the common terminological database and its integration into unified electronic platforms are proposed. Digital Turkology, a requirement of the modern era, necessitates the unification of cognate concepts living in different geographies within a single semantic space. Deriving new terms from common word roots with the help of Artificial Intelligence technologies is a primary condition for Turkic languages to remain competitive in global scientific rivalry. This is also a crucial factor that ensures the digital security of the national language and strengthens its algorithmic memory. Such an approach will ensure the survival of Turkic languages both as a means of communication and as a language of high technology.

In the process of creating a common Turkic terminological system, loyalty to the scientific principles of the First Turkological Congress and the application of modern linguistic methods are considered an absolute necessity. This process is not only a philological issue but also a spiritual guarantee of the future unity, cultural sovereignty, and digital future of the Turkic world. The 100-year legacy of the Congress shows us that without unity in language, it is impossible to build an unshakable political and economic union.

Key words: First Turkological Congress, common Turkic language, terminology system, integration, linguistic unity, digital Turkology.

MÜASİR ÖZBƏK DİLİNDƏ FONEMLƏRİN STRUKTUR XÜSUSİYYƏTLƏRİ

Təranə Şükürlü
filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nəsimi adına Dilçilik İnstitutu
https://ORCID.org/0009-0002-1601-7205
taranaelm@mail.ru
Azərbaycan/Bakı

Müasir dilçilikdə foenm anlayışı dilin ən kiçik, lakin ən mühüm vahidlərindən biri kimi qəbul edilir. Fonemlər sözlərin mənasını fərqləndirməyə xidmət edir və dilin fonoloji sisteminin əsasını təşkil edir.

Özbək dilinin fonetik quruluşu bir sıra səciyyəvi və fərqli xüsusiyyətlərə malikdir.Özbək dilində 35 hərf var. Bu dildə 6 sait fonem fərqlənir. a, o,u, i,e,ö. Özbək dilində ı, ə, ü fonemləri mövcud deyildir. Bu dildə *ı* fonemi olan sözlərdə bu fonem *i* fonemi ilə əvəz olunur. Özbək dilindəki sözönü *ı* saiti Azərbaycan dilindəki *i* saitinin mövqeyində işlənir.

Özbək əlifbasında ifadə olunan saitlərlə Azərbaycan dili saitləri arasındakı fərq budur ki, Azərbaycan dilində norma kimi ı,*ə*,ü saitlərnin işarəsi verildiyi halda, özbək dili əlifbasında bu saitlərin işarəsi yoxdur.Özbək dilində ilkin uzanma hadisəsi müşahidə olunur. Həmçinin alınma sözlərdə saitlərin uzanma prosesi özünü göstərir: *daava, feal* və sair.

Həmçinin samitlərin düşməsi nəticəsində saitlərin sonrak uzanması halları da bu dildə mövcuddur. *So:uk*

Bəzən özbək və türkmən dillərində söz başı a fərqli çalarda özünü göstərir: aksakal (özb.

U saiti dodaqlanan, qısa, qapalı saitdir. Rus dilindəki *u* saitinə nisbətən qısadır. Özbək dilindəki *u* dodağın qabağa gəlməsi ilə tələffüz olunur: *Uç"üç", un "un".*

U fonemi özünün qısalığı ilə *i foneminə* bənzəyir.Güclü reduksiyaya məruz qalır.

"Özbək dilində mövcud olan 25 samit fonemdən 23 samitin əlifbada işarəsi vardır".

H samiti *x* samiti ilə işarə olunur və alınma sözlərin tərkibində iştirak edir: *xozir* (hazır), *şaxar*-şəhər. Velyar n səsi *nq* kimi işarə olunur: *anqlamaq*-anlamaq,*inqiçka*-incə. Ozbək dilində *nq* fonemi geniş işlənir. Söz əvvəlində *r, l, c, nq* samitləri işlənmir.

Özbək dili üçün *j* samiti xarakterik deyil. *J* samiti Azərbaycan dilində olduğu kimi özbək dilində də söz başında işlənmir. Yəni fonetik prinsip üzrə söz başında işlənməklə sözyaratma prosesində j samiti iştirak etmir. *J* samiti Azərbaycan dilində olduğu kimi, söz əvvəlində və ümumiyyətlə söz tərkibində alınmalarda işlədilir: *qaraj, reportaj, jurnal və s.*

Fonemlər özbək dilinin fonoloji strukturu, heca quruluşu və düzgün tələffüzünü müəyyən edir.

Açar sözlər: özbək dili, fonem, fonetika, sait, samit, dil və s.

STRUCTURAL FEATURES OF PHONEMES IN THE MODERN UZBEK LANGUAGE

In modern linguistics, the concept of phoneme is considered one of the smallest but most important units of language. Phonemes serve to distinguish the meaning of words and form the basis of the phonological system of the language.

The phonetic structure of the Uzbek language has a number of characteristic and distinctive features.There are 35 letters in the Uzbek language. There are 6 vowel phonemes in this language. a, o, u, i, e, ö. The phonemes ı, ə, ü do not exist in the Uzbek language. In words with the ı phoneme in this language, this phoneme is replaced by the i phoneme. The prepositional ı vowel in the Uzbek language is used in the position of the i vowel in the Azerbaijani language.The difference between the vowels expressed in the Uzbek alphabet and the vowels of the Azerbaijani language is that, while the vowels ı, ə, ü are marked as a norm in the Azerbaijani language, the Uzbek alphabet does not have these vowels marked. The phenomenon of initial lengthening is observed in the Uzbek language. The process of lengthening vowels is also manifested in borrowed words: daava, feal, etc.There are also cases of subsequent lengthening of vowels as a result of the dropping of consonants in this language. So:uk*"Sometimes in Uzbek and Turkmen the initial a appears in different tones: aksakal (uzb)*".

The vowel U is a labial, short, closed vowel. It is shorter than the vowel u in Russian. U in Uzbek is pronounced with the lips forward: Uch"uch", un "un"

The phoneme U is similar to the phoneme i in its shortness. It is subject to strong reduction. "Of the 25 consonant phonemes in the Uzbek language, 23 consonants have a sign in the alphabet". The consonant h is marked with the consonant x and is included in the composition of borrowed words: khozir (ready), shahar-sheher. The velar n sound is marked as ng: anglaq-anlamaq, ingichka-ince. The phoneme nq is widely used in the Uzbek language. The consonants r, l, c, nq are not used at the beginning of a word. The consonant j is not characteristic of the Uzbek language. The consonant j is not used at the beginning of a word in Uzbek, as in Azerbaijani. That is, the consonant j does not participate in the word formation process by being used at the beginning of the word according to the phonetic principle. The consonant j, as in the Azerbaijani language, is used at the beginning of the word and in general in word formation: garage, reportage, magazine, etc. Phonemes determine the phonological structure, syllable structure and correct pronunciation of the Uzbek language.

Key words: Uzbek language, phoneme, phonetics, vowel, consonant, language etc.

TÜRK DİLLƏRİNN TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ SLAVYAN-TÜRK DİL ƏLAQƏLƏRİNİN TÜRKOLOJİ ASPEKTDƏ TƏHLİLİ

Aidə İsmayılova
Azərbaycan Dövlət Aqrar Universiteti
aida-profit@yandex.ru
https://ORCID.org/ 0000-0002-0053-3873
Azərbaycan/Bakı

Türk dillərinin tədqiqi tarixinin araşdırılması göstərir ki, bu dillərin formalaşması və inkişafı yalnız daxili dil qanunauyğunluqları ilə deyil, həm də müxtəlif xalqlarla, xüsusilə slavyan xalqları ilə uzunmüddətli tarixi əlaqələr nəticəsində baş vermişdir. Tarixi mənbələr sübut edir ki, slavyanlarla türkdilli xalqlar arasında əlaqələr qədim dövrlərdən mövcud olmuş, bu münasibətlər bəzən müharibə, bəzən isə ticarət və qonşuluq şəklində özünü göstərmişdir. Bu qarşılıqlı təsir nəticəsində slavyan xalqları arasında türk dillərinə maraq artmış, lüğətlər tərtib edilmiş, tərcümə fəaliyyəti genişlənmişdir.

Lakin türk dillərinin sistemli şəkildə elmi tədqiqi əsasən XIX əsrdən etibarən başlanmışdır. Bu dövrdə Rusiyada Elmlər Akademiyasının və Asiya Muzeyinin fəaliyyəti nəticəsində türk dillərinə dair zəngin materiallar toplanmış, onların fonetik, leksik və qrammatik xüsusiyyətləri öyrənilmişdir. Xüsusilə Vasily Radlov və Heinrich Klaproth kimi alimlərin tədqiqatları türkologiyanın inkişafında mühüm rol oynamışdır.

Türk dillərinin genezisi ilə bağlı məsələlər hələ də tam aydınlaşdırılmamışdır. Bununla belə, dilçilər bu dillərin Altay dil ailəsi çərçivəsində formalaşdığı ehtimalını irəli sürmüşlər. Tarixi inkişaf mərhələləri Altay, Hun, qədim türk, orta türk və yeni türk dövrləri kimi təsnif olunur. Bu mərhələlərdə dillərin fonetik və qrammatik quruluşunda mühüm dəyişikliklər baş vermiş, xüsusilə aqqlütinativlik əsas tipoloji xüsusiyyət kimi formalaşmışdır.

Müasir dövrdə türk dilləri müxtəlif areallara bölünərək inkişaf etmişdir. Oğuz qrupu (Azərbaycan, türk, türkmən, qaqauz dilləri), qıpçaq və karluk qrupları bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Türk dillərinin daxilində həm ümumi xüsusiyyətlər, həm də fərqli fonetik və sintaktik strukturlar müşahidə olunur ki, bu da onların tarixi inkişafının mürəkkəbliyini göstərir.

Xüsusi diqqət çəkən məsələlərdən biri də Qaraçay-balkar dilinin formalaşmasıdır. Bu dil müxtəlif türk və qeyri-türk etnoslarının qarşılıqlı təsiri nəticəsində yaranmış, qıpçaq qrupuna aid olmaqla yanaşı, özünəməxsus fonetik və leksik xüsusiyyətlər qazanmışdır. Onun lüğət tərkibində monqol, ərəb, fars və rus mənşəli sözlərin mövcudluğu dilin tarixi kontaktlarının göstəricisidir.

Beləliklə, türk dillərinin tarixi inkişafı çoxşaxəli və mərhələli proses olub, həm daxili dil qanunları, həm də müxtəlif xalqlarla qarşılıqlı əlaqələr nəticəsində formalaşmışdır. Bu dillərin öyrənilməsi türkologiyanın əsas istiqamətlərindən biri

olaraq aktual elmi əhəmiyyətini qoruyur.

Açar sözlər: türk dilləri, türkologiya, slavyan-türk əlaqələri, aqqlütinativlik, dil təsnifatı, oğuz dilləri.

HISTORICAL DEVELOPMENT STAGES OF TURKIC LANGUAGES AND THE ANALYSIS OF SLAVIC–TURKIC LINGUISTIC CONTACTS IN THE TURKOLOGICAL PERSPECTIVE

The study of the history of Turkic languages demonstrates that their formation and development have been shaped not only by internal linguistic laws but also by long-term historical contacts with other peoples, particularly the Slavic nations. Historical sources indicate that relations between Slavs and Turkic-speaking peoples date back to ancient times, manifesting themselves in various forms such as warfare, trade, and neighborhood interactions. As a result of these contacts, interest in Turkic languages increased among Slavic peoples, leading to the compilation of dictionaries and the expansion of translation activities.

However, the systematic scientific study of Turkic languages began mainly in the 19th century. During this period, the activities of the Academy of Sciences in Russia and the Asiatic Museum played a crucial role in collecting extensive linguistic materials and in studying the phonetic, lexical, and grammatical features of Turkic languages. In particular, the works of Vasily Radlov and Heinrich Klaproth significantly contributed to the development of Turkology.

The origin of Turkic languages has not yet been fully clarified. Nevertheless, many linguists suggest that these languages were formed within the Altaic language family. Their historical development is generally divided into several stages: the Altaic, Hun, Old Turkic, Middle Turkic, and New Turkic periods. Throughout these stages, significant changes occurred in their phonetic and grammatical structures, with agglutination becoming a dominant typological feature.

In the modern period, Turkic languages have developed across different geographical areas. The Oghuz group (Azerbaijani, Turkish, Turkmen, and Gagauz languages), along with the Kipchak and Karluk groups, holds particular importance. Within the Turkic language family, both shared features and distinct phonetic and syntactic structures can be observed, reflecting the complexity of their historical evolution.

One noteworthy aspect is the formation of the Karachay-Balkar language. This language emerged as a result of the interaction of various Turkic and non-Turkic ethnic groups. Belonging to the Kipchak group, it has acquired unique phonetic and lexical features. Its vocabulary includes elements of Mongolian, Arabic, Persian, and Russian origin, which reflects its historical linguistic contacts.

In conclusion, the historical development of Turkic languages is a complex and

multi-layered process shaped by both internal linguistic dynamics and external cultural interactions. The study of these languages remains a central and aкtyal field within Turkology.

Key words: Turkic languages, Turkology, Slavic–Turkic contacts, agglutination, language classification, Oghuz languages, Karachay-Balkar language.

ERKƏN SOVET DÖVRÜNDƏ DİL SİYASƏTİ FONUNDA AZƏRBAYCAN DİLİ FONETİKASININ ÖYRƏNİLMƏSİ

Xuraman Hacızadə
filologiya üzrə fəlsəfə doktoru
Babək rayon Xəlilli kənd tam orta məktəbi
https://ORCID.org/0009-0003-2328-2629
xuraman.hacizade4477@gmail.com
Azərbaycan/Naxçıvan

Erkən sövet dövrünün dil siyasəti Azərbaycan dilinin fonetikasının öyrənilməsində mühüm rol oynamışdır. Bu dövr yalnız ictimai-siyasi dəyişikliklərlə deyil, eyni zamanda dil siyasətində baş verən köklü yeniliklərlə xarakterizə olunur. Əlifba islahatları aparılmış, fonetik sistemin elmi tədqiqinə təkan verilmiş, sait və samitlərin elmi təsviri, səs qanunauyğunluqlarının müəyyənləşdirilməsi və yazı-tələffüz münasibətlərinin araşdırılması əsas istiqamətlər olmuşdur.

1920-ci illərdə fonetikanın nəzəri problemləri tətbiqi məsələlərlə müqayisədə az tədqiq edilmişdir. Bunun ilkin səbəbi elmi istinad bazasının olmadığı kimi, elmi mütəxəssislərin də çatışmazlığı idi. Ölkədə maarifləndirmə işlərini gücləndirmək üçün ümumtəhsil məktəbləri üçün fonetikaya aid dərsliklər hazırlayıb nəşr etdirmək vacib idi. Təlim-tədris işlərinin yüksəldilməsi üçün əvvəlcə əlifba, orfoqrafiya kimi tətbiqi məsələlərlə məşğul olmaq ön planda dayanmışdı.

1924-cü ildə artıq altı nəfər müəllif tərəfindən "Türkcə sərf-nəhv" (müəlliflər: İ.Hikmət, A.Şaiq, S.Qasımzadə, C.Axundzadə, C.Əfəndizadə, M.Tofiq), 1929-cu ildə B.Çobanzadə və F.Ağazadənin "Qrammer", 1930-1936-cı illərdə isə İ.Həsənov və A.Şərifovun "Qrammer" kitabları işıq üzü görmüşdür.

Fonetika məsələlərinin tədqiqi ilə məşğul olan ilk dilçi alim B.Çobanzadə olmuşdur. B.Çobanzadə əsərlərində danışıq səslərinin əmələ gəlməsi, sait və samit səslərin təsnifatı, heca, fonetik hadisələr, ahəng qanunu haqqında məlumat verilmişdir.

Bu illərdə yazıb-oxumanı yaxşılaşdırmaq məqsədilə dərsliklərdə dilçiliyin digər problmləri ilə müqayisədə fonetika məsələlərindən daha çox bəhs edilmişdir. Lakin dilin yazıda ifadəsi zamanı ərəb əlifbasından istifadənin maarifləndirmə işinə mane olması fikri dövrün problemə çevirdiyi əsas məsələlərdən idi. Bu məsələnin həlli üçün xüsusi komissiya yaradılmış və komissiyaya F.Ağayev rəhbərlik etmişdir. B.Çobanzadənin rəhbərliyi ilə hazırlanmış yeni əlifba Bakıda keçirilən I Ümumittifaq Türkoloji Qurultayda bəyənilmiş və 1929-cu ildə latın qrafikası əsasında yaradılmış Azərbaycan əlifbası qəbul olunmuşdur. 1939-cu ildə isə həmin Azərbaycan yazısı kiril əlifbası əsasında tərtib edilmiş əlifba ilə əvəz edilmişdir.

Beləliklə, erkən sovet dövrünun dil siyasəi əsasən əlifba islahatları, fonetik normanın formalaşması ilə diqqəti cəlb edir. Bəkir Çobanzadə və digər alimlərin fəaliyyəti, eləcə də Birinci Türkoloji Qurultay fonetikanın sistemli şəkildə inkişafında əhəmiyyətli təsir göstərmişdir.

Açar sözlər: fonetika, ahəng qanunu, sait, samit, əlifba, ədəbi tələffüz.

STUDYİNG THE PHONETİCS OF THE AZERBAİJANİ LANGUAGE WİTHİN THE CONTEXT OF LANGUAGE POLİCY DURİNG THE EARLY SOVİET PERİOD

The language policy of the early Soviet period played a crucial role in the study of Azerbaijani phonetics. This era is characterized not only by socio-political transformations but also by fundamental innovations in linguistic policy. During this period, alphabet reforms were implemented, providing a significant impetus for the scientific investigation of the phonetic system. The primary research directions included the scientific description of vowels and consonants, the identification of phonetic laws, and the exploration of the relationship between orthography and orthoepy.

In the 1920s, the theoretical problems of phonetics were less studied compared to practical issues. The primary reasons for this were the lack of a scientific reference base and a shortage of qualified specialists. To strengthen educational efforts across the country, it was essential to prepare and publish phonetic textbooks for general education schools. Consequently, addressing applied issues such as alphabet and orthography took precedence in order to enhance the quality of instruction.

By 1924, the work "Türkcə sərf-nəhv" (*Turkish Morphology and Syntax*) (authored by I.Hikmat, A.Shaiq, S.Gasimzade, J.Akhundzade, J.Efendizade, and M.Tofig) was published. This was followed by B.Chobanzade and F.Aghazade's "Qrammer" in 1929, and I. Hasanov and A.Sharifov's "Qrammer" books between 1930 and 1936.

B.Chobanzade was the first linguist to engage systematically in the study of phonetic issues. In his works, he provided detailed information on the production of speech sounds, the classification of vowels and consonants, syllables, phonetic phenomena, and the law of harmony.

During these years, in order to improve literacy, phonetic issues were discussed more extensively in textbooks compared to other branches of linguistics. However, a central problem of the period was the notion that the use of the Arabic script hindered educational progress. To resolve this, a special commission was established, headed by F.Aghayev. The new alphabet, developed under the leadership of B.Chobanzade, was approved at the First All-Union Turkolological Congress in Baku. Consequently, the Azerbaijani alphabet based on the Latin script was adopted in 1929. In 1939, this script was replaced by an alphabet based on the Cyrillic script.

In conclusion, the language policy of the early Soviet period is distinguished primarily by alphabet reforms and the formation of phonetic norms. The scholarship of Bekir Chobanzade and other researchers, along with the influence of the First Turkological Congress, had a significant impact on the systematic development of Azerbaijani phonetics. **Key words:** phonetics, vowel harmony, vowel, consonant, alphabet, literary pronunciation.

TÜRK DİLLƏRİNDƏ ORTAQ İQTİSADİ TERMİNLƏRİN YARADILMASI MƏSƏLƏSİ

Miryusif Məmmədov
ADPU Cəlilabad filialı
memedovyusif94@gmail.com
Azərbaycan/Cəlilabad

Müasir türk dillərində ortaq iqtisadi terminlərin yaradılması məsələsi müasir qloballaşma şəraitində xüsusi aktuallıq kəsb edir. Türk dövlətləri arasında iqtisadi, eləcə də ticarət və elmi əlaqələrin genişləndirilməsi vahid terminoloji bazanın formalaşması məsələsini zərurətə çevirmişdir. Müasiri olduğumuz dövrdə iqtisadi terminlərin bir qisminə türk dillərində müxtəlif formalarda təsadüf edilir ki, bu da anlaşılmazlıq və kommunikasiya çətinliklərinin yaranmasına səbəb olur. Bu baxımdan türk dillərində ortaq terminlərin hazırlanması həm elmi əməkdaşlıq çərçivəsini genişləndirə bilər, həm də türk dövlətləri arasında iqtisadi əlaqələrin güclənməsinə rəvac verər.

Ortaq iqtisadi terminlərin yaradılması bu sahə ilə bağlı terminologiyanın formalaşdırılması prosesində bir neçə mühüm məsələni özündə ehtiva edir.Terminlərin sadə, anlaşıqlı və bütün türk dillərində qəbul ediləcək formada olması vacibdir. Bunun üçün ortaq köklərə əsaslanmaq və mümkün olan qədər alınma sözlərdən uzaq durmaq məqsədəuyğundur. Bununla yanaşı,müasir iqtisadi anlayışın düzgün ifadəsi üçün beynəlxalq terminologiya ilə uyğunluq da qorunmalıdır. Bu yanaşma həm terminlərin dəqiqliyini təmin edir, həm də iqtisadi məlumatların vahid şəkildə anlaşılmasına şərait yaradır.

Bu sahədə Türk Dövlətləri Təşkilatı və aidiyyəti olan elmi qurumlar mühüm rol oynaya bilər. Məsələ ilə bağı birgə komissiyalar yaratmaq,terminoloji lüğətlər hazırlamaq və vaxtaşırı elmi müzakirələr təşkil etmək ortaq iqtisadi və ümumiyyətlə,bu sahə ilə bağlı termin yaratma prosesinin effektivliyini artıra bilər. Rəqəmsal platformalar isə türk dillərində ortaq iqtisadi terminlərin yayılmasını və tətbiqini asanlaşdırar.

Türk dillərində ortaq iqtisadi terminlərin yaradılması yalnız linqvistik problem olmayıb,bu,eyni zamanda özündə iqtisadi əməkdaşlığın təşkil olunması məsələsini də ehtiva edir. Bu təşəbbüs türk dünyasında inteqrasiyanı gücləndirməklə ümumilikdə türk dillərinin qarşılıqlı inkişafını, həm də iqtisadiyyatın çoxşaxəli inkişafını surətləndirə bilər.

Nəticə olaraq qeyd edək ki, türk dillərində ortaq iqtisadi terminlərin formalaşdırılmasının vacibliyi ondadır ki,ortaq terminologiya qarşılıqlı anlaşmanı gücləndirir, elmi əməkdaşlığı genişləndirir və iqtisadi inteqrasiyanı surətləndirir. Bu istiqamətdə sistemli işlərin görülməsi və terminlərin unifikasiyası gələcək inkişaf üçün mühüm əhəmiyyətə malikdir və regional əlaqələrin möhkəmlənməsinə davamlı şəkildə öz töhfələrini verəcək.

Açar sözlər: türk dilləri, ortaq terminologiya, əməkdaşlıq, inteqrasiya, iqtisadi terminlər.

THE ISSUE OF CREATING COMMON ECONOMIC TERMS IN TURKIC LANGUAGES

The issiue of creating commoneconomic terms in modern tukic languages is of prticular relevance in the context of modern globalization. The expansion of economic, as well as trade and scientific relations between Turkic states makes the formation of a single terminological base a necessity. In our modern era, some economic terms are found in various forms in Turkish languages,which leads to misunderstandings and communication difficulties. From this perspective, the development of common terms in Turkic languages can both expand the framework of scientific cooperation and promote the strengthening of economic relations between Turkic states.

The cration of common economic terms involves several important issuses in the process of forming terminology related to this field. It is important that the terms are simple, understandable, and in a form that will be accepted in all Turkic languages. For this reason,it is advisable to rely on common root and avoid borrowed words as much as possible. However, for the correct expression of contemporary economic concepts,consistency with international terminology must also be maintained.

The Organization of Turkic States and relevant scientific institutions can play an important role in this area. Creating join commissions on the issue, preparing terminological dictionaries, and organizing periodic scientific discussions can increase the effectiveness of the process of creating terms related to the economy and this field in general. Digital platforms,on the other hand,facilitate the dissemination an aplication of common economic terms in Turkic languages.

The creation of common economic terms in Turkic languages is not only a linguistic problem,it also involves the issue of organizing economic cooperation. This initiative can accelerate both the mutual development of Turkic languages and the diversifiet development of the economy as a whole by strengthening integration in the Turkic world.

In conclusion, les us note that importance of forming common economic terms in Turkic languages is that common terminology strengthens mutual understanding, expands scientific cooperation, and accelerates economic integration. Systematik work in this direction and the unifikation of terms are of great importance for future development and will continuously contribute to the strengtheening of regional relations.

Key words: Turkic languages, common terminiligy, cooperation, inteqration, economic terms.

GƏNCƏ DİALEKTİNİN FORMALAŞMASI TARİXİ

Günay Cəfərova
dissertant
Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsi
https//ORCID.org/0000-0001-6990-4305
gunay.jafarova.81@mail.ru
Azərbaycan/Gəncə

Gəncə şəhəri türk tayfalarının miqrasiyasının mərkəzində yerləşmiş və çarpazlaşma hadisəsi bu dialektin formalaşmasında əsas təkanverici qüvvə olmuşdur. Ə.Dəmirçizadə yazır: "Orta əsrlərdə azəri yazılı ədəbi dili ilk formalaşarkən mərkəzi paytaxdı Gəncə olan Şirvan ölkəsinin şəhərlərində danışılan ümumxalq azəri dili üzərində seçmə və əvəzetmə əməliyyatı aparılmışdır. Bu zaman Gəncə şəhərində mərkəzləşənlərin danışığı, yəqin ki, üstünlük təşkil etmişdir".

Araşdırılan tarixi mənbələrə əsasən qeyd etmək olar ki, Gəncə çox qədimdən müxtəlif türk tayfalarının çarpazlaşması nəticəsində vahid xalq dilinin formalaşması prosesinin mərkəzində olmuş, Gəncə dialektinin bünövrəsində qıpçaq, oğuz və digər türk tayfa dillərinin elementləri üstünlük təşkil etmişdir.

Gəncə dialekti özünün bir sıra xüsusiyyətləri ilə şimal-şərq ləhcəsindən ciddi şəkildə, cənub dialektindən bir sıra cəhətdən fərqlənərək əsasən qərb dialekti qrupu ilə eynilik təşkil edir ki, bunu da zaman-zaman həmin əraziyə yürüş edən tayfaların çarpazlaşma tarixinin üst-üstə düşməsi ilə izah edə bilərik. Belə bir elmi yanaşma da mövcuddur ki, Azərbaycan dili dialektləri xanlıqlara görə təsniflənmişdi. Bu fikrin yanlış olması barədə A.Hüseynov yazır: "Azərbaycanın harasında xanlıq olmuşsa, orada da xüsusi dialekt axtarmaq və təyin etmək, əlbəttə, tarixə zidd nəticələr verə bilər".

Azərbaycan dilinin digər qərb qrupu dialektləri kimi Gəncə dialektində də oğuz elementləri üsütünlük təşkil edir ki, yerləşdiyi əraziyə oğuz tayfalarının yürüşləri və təkəmülləşməsi prosesi sürətlə getmişdir.

Dəmək ki, hun, xəzər və bulqar tayfalarının sıx yürüş etdikləri Azərbaycanın şimal-şərq bölgələrindən fərqli olaraq ölkəmizin qərb bölgəsi daha çox oğuz tayfaların yürüşlərinə məruz qalmış və bu ərazilərdə oğuz dil elementləri üstünlük təşkil etməyə başlamışdır.

Hər bir dialekt kimi Gəncə dialektinin də formalaşması məntiqi, siyasi-iqtisadi, mədəni və etnik ələkdən keçmiş uzun sürən tarixi bir prosesin nəticəsidir.

Açar sözlər: dialekt, dil, türk, tarix, Gəncə, oğuz.

THE HISTORICAL FORMATION OF THE GANJA DIALECT

This article examines the historical formation of the Ganja dialect. Situated at the center of Turkic tribal migrations, the city of Ganja experienced significant linguistic intermixing, which served as the primary driving force in the formation of this dialect. As A. Demirchizade notes: "During the Medieval period, when the Azerbaijani literary language was first established, processes of selection and substitution were conducted on the common Azerbaijani vernacular spoken in the Shirvan region, with Ganja as its capital. During this period, the speech of those concentrated in Ganja likely predominated."

Examining historical sources, it is evident that, since ancient times, Ganja has been at the center of the formation of a unified national language, resulting from the intermingling of various Turkic tribes. The Ganja dialect predominantly comprises linguistic elements from Kipchak, Oghuz and other Turkic tribal languages.

Notably, the Ganja dialect significantly diverges from the northeastern dialect group and, in several respects, the southern dialect, while substantially aligning with the western dialect group. This can be explained by historical tribal migrations and interactions in the region. Some scholars also argue that Azerbaijani dialects were classified in accordance with khanates. Nevertheless, A. Huseynov rejects this notion, stating: "Seeking and defining a distinct dialect wherever a khanate once existed in Azerbaijan would, inevitably, lead to conclusions that contradict historical reality."

Similar to other western Azerbaijani dialects, the Ganja dialect is characterized by a strong Oghuz influence due to the region's history of intensive Oghuz migration and development.

Unlike the north-eastern regions of Azerbaijan, which were frequently traversed by Hun, Khazar and Bulgar tribes, the western regions of the country were heavily influenced by Oghuz tribal movements, leading to the predominance of Oghuz linguistic features in these areas.

As with any dialect, the formation of the Ganja dialect is the result of a prolonged historical process shaped by logical, cultural, ethnic, political, and economic factors.

Key words: dialect, language, Turkic, history, Ganja, oghuz.

KOQNİTİV-KULTUROLOJİ İSTİQAMƏTDƏ LEKSİK-TERMİNOLOJ VAHIDLƏRİN İNFORMASİYA STRUKTURUNUN TƏHLİLİ

Samirə Vəliyeva
doktorant
Milli Aviasiya Akademiyası
https://ORCID.org/0000-0002-5568-859x
samire_velizade@mail.ru
Azərbaycan Bakı

Koqnitiv struktur leksik-terminoloji vahidlərin linqvodidaktik perspektivlərini də müəyyənləşdirir. Antroposentrik prinsiplə leksik-semantik biliklər əldə edilir Terminoloji informasiyanın koqnitiv-informasiya xarakteri mövcuddur, dildə terminin formalaşmasını insan şüuru, insan dərketməsi təmin edir, dünya informasiyasının xüsusi biliyi meydana gəlir, dərketmənin inkişafı üçün fəaliyyət dəyişir, başqa şəklə düşür. Bu mühitdə linqvokultur səviyyəsində şərh edilən terminin kommunikativ aktivliyi, informativ yükü müəyyənləşir. Termin kollektivin professional-elmi fəaliyyətin daşıyıcısıdır. Bu baxımdan müəyyənləşir ki, informasiya koqnitiv prosedurda dünyanın məlumat xəritəsidir.

Kulturoloji istiqamətdə terminoloji informasiya aşağıdakı vasitələr sırasını əhatə edir: kumulyativlik, yaradıcı (qurucu), ciddi-cəhd, səpələtmə, dağıtma.

Terminlərin kulturoloji istiqamətdə struktur vasitələri, semantik informativliyi, obyektiv fəaliyyəti onların fiksasiyasını əhatə edir. Burada terminin daxili forması mühüm rol oynayır. Termin motivləşir. Köməkçi terminelementlər informasiya vasitəsilə yeni mənalar, yeni informasiyaları ortaya çıxarır.

Fikrin "assimilyasiya" prosesi zamanı faydalı informasiyaları dil işarələrinin, o cümlədən terminlərin köməyilə ilə dəyişdirilir, əvəz edilir, bu zaman intellektual informasiyaya meydana açılır.

İnsanın nominativ fəaliyyəti ilə dünyanın konseptual dərki reallaşır, dil fundamenti ilə təməli qoyulur, özülü atılır. Nominasiya prosesində sosial təcrübə dil daşıyıcısı olaraq əks olunur, bu, konkret xalqın mədəni-tarixi inkişafı ilə əlaqədə, bütün insan kollektivinin dərketmə təcrübəsi ilə bağlı şəkildə olur. Terminoloji nominasiyanın (adlandırmanın) spesifikası professional-elmi kommunikasiya prosesinin xüsusi növü kimidir. Dil şüurunda ümumdil informasiyası terminoloji informasiyaya transformasiya olunur (çevrilir). İntellektin dinamik informasiyası əlverişli biçimə düşür. Terminoloji informasiyanın praqmatik dəyəri insan əxlaqı və onun düşüncə vasitələri ilə üzə çıxır. İnformasiyanın dilə təsiri ilə insan formalaşır və yüksəlir. Bu informasiya ixtiyari xarakter daşıyır.

Beləliklə, koqnitiv-kulturoloji istiqamətdə leksik-terminoloji vahidlərin informasiya strukturunun təhlili probleminin həllində aşağıdakı məsələlərin gələcəkdə

öyrənilməsini qarşıya bir məqsəd kimi qoyur və onun perspektivlərini müəyyənləşdirir: – terminoloji nominasiya və predikativlik əlaqəsi problemi; – mətndə kommunikativ effektin yaranmasında terminlərin rolu; – teminoloji informasiyanın gələcəkdə genişlənməsi və s.

Açar sözlər: termin, informasiya, koqnitiv, kulturoloji istiqamət, struktur vasitələri.

ANALYSIS OF THE INFORMATION STRUCTURE OF LEXICAL-TERMOLOGICAL UNITS IN THE COGNITIVE-CULTUROLOGICAL PERSPECTIVE

The cognitive approach determines not only the semantic but also the linguodidactic characteristics of lexical-terminological units. Lexical-semantic knowledge formed on the basis of the anthropocentric principle demonstrates that terminological information possesses a cognitive-informational nature. The formation of terms is directly related to human consciousness and cognitive activity; as a result, a specific system of knowledge about the world emerges. Within the linguoculturological framework, the communicative activity and informational load of terms come to the fore. Terms function not only as linguistic units but also as carriers of collective professional and scientific activity. In this respect, information is understood as a "map of knowledge" of the world within a cognitive procedure.

From a culturological perspective, terminological information is characterized by the following features: cumulativeness, creativity (constructiveness), purposefulness, dissemination, and transformation.

The structural and semantic properties of terms determine their informativeness and functional activity. In this process, the internal form and motivation of the term play a crucial role. Auxiliary term elements contribute to the formation of new meanings and new layers of information.

During the process of assimilation, information is reconstructed and transformed through linguistic signs, including terms. This creates conditions for the emergence and development of intellectual information. Through human nominative activity, a conceptual model of the world is formed, and language serves as the fundamental basis of this process. In the process of nomination, social experience is expressed through language; this is closely connected both with the cultural-historical development of a particular people and with the universal cognitive experience of humanity. Terminological nomination represents a specific type of professional and scientific communication. General language information is transformed into terminological information within linguistic consciousness, resulting in a more structured and accessible form of intellectual information.

Key words: term, information, cognitive approach, culturological perspective, structural means.

TÜRK DİLLƏRİNDƏ ORTAQ TERMİNOLOGİYA PROBLEMLƏRİ

Nəzrin İsmayılova
doktorant
Bakı Slavyan Universiteti
https://ORCID.org/0009-0002-2848-8231
nezrinismayilova011@gmail.com
Azərbaycan/Bakı

Türk dilləri geniş coğrafiyada yayılmış və ortaq mənşəyə malik dillər qrupunu təşkil edir. Bu dillər arasında struktur və leksik oxşarlıqlar mövcud olsa da, müasir dövrdə terminoloji sistemlərdə müəyyən fərqlər müşahidə olunur. Qloballaşma, elmi-texniki tərəqqi və beynəlxalq elmi əlaqələrin genişlənməsi türk dillərində yeni terminlərin yaranmasını və bu terminlərin uyğunlaşdırılması məsələsini aktuallaşdırır *(Vardar, 2002).* Türk dillərində ortaq terminologiyanın formalaşdırılması türk dünyasının elmi və mədəni inteqrasiyası baxımından mühüm əhəmiyyət daşıyır. Lakin bu proses bir sıra problemlərlə müşayiət olunur. Əsas problemlərdən biri müxtəlif türk dillərində eyni anlayışı ifadə edən terminlərin fərqli formalarda işlədilməsidir. Məsələn, bəzi hallarda beynəlxalq terminlər birbaşa qəbul edilir, digər hallarda isə həmin anlayışlar milli dil resursları əsasında yaradılmış sözlərlə ifadə olunur *(Crystal, 2008).* Terminlərin standartlaşdırılması və unifikasiyası ortaq terminologiyanın formalaşdırılmasının əsas şərtlərindən biridir. Bu prosesdə həm dilin daxili qanunauyğunluqları, həm də türk dilləri arasında qarşılıqlı anlaşıqlılıq prinsipi nəzərə alınmalıdır. Tədqiqatçılar qeyd edirlər ki, ortaq terminoloji bazaların, elektron lüğətlərin və dil korpuslarının yaradılması bu istiqamətdə mühüm rol oynaya bilər *(Kocaman, 2010).* Bundan əlavə, türk dillərində terminologiyanın formalaşdırılmasında tarixi və mədəni faktorlar da mühüm rol oynayır. Müxtəlif dövrlərdə fərqli siyasi və mədəni təsirlər nəticəsində türk dillərinin terminoloji sistemləri müxtəlif istiqamətlərdə inkişaf etmişdir. Bu isə bəzi anlayışların fərqli terminlərlə ifadə olunmasına səbəb olmuşdur. Məsələn, sovet dövründə formalaşmış terminoloji sistem ilə müasir dövrdə qloballaşmanın təsiri altında yaranan terminlər arasında müəyyən fərqlər müşahidə olunur. Buna görə də müasir türkoloji tədqiqatlarda terminoloji sistemlərin müqayisəli şəkildə araşdırılması və ortaq termin modellərinin müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir *(Johanson, 2011; Crystal, 2008).*

Beləliklə, türk dillərində ortaq terminologiyanın formalaşdırılması yalnız linqvistik məsələ deyil, həm də elmi və mədəni əməkdaşlıq məsələsidir. Türk dövlətləri arasında terminologiya sahəsində birgə layihələrin həyata keçirilməsi və elmi əməkdaşlığın gücləndirilməsi ortaq terminoloji sistemin inkişafına mühüm töhfə verə bilər *(Johanson, 2011).*

Açar sözlər: türk dilləri, terminologiya, ortaq terminlər, dil siyasəti, qloballaşma, leksik sistem.

PROBLEMS OF COMMON TERMINOLOGY IN TURKISH LANGUAGES

Turkish languages represent a group of genetically related languages spoken across a wide geographical area. Despite their common origin, certain differences can be observed in their modern terminological systems. Globalization, scientific progress, and the expansion of international academic cooperation have increased the need for the creation and adaptation of new terms in turkish languages *(Crystal, 2008).* The development of common terminology among turkish languages plays a significant role in the scientific and cultural integration of the turkish world. However, this process is accompanied by several challenges. One of the main issues is the existence of different terms used to denote the same concept in various turkish languages. In some languages international terms are adopted directly, while in others new lexical units are created based on internal linguistic resources *(Vardar, 2002).* Another important aspect is the standardization and unification of terminology. While developing common terms, it is essential to consider both the internal linguistic rules of the languages and the principle of mutual intelligibility among turkish languages. The creation of shared terminological databases, electronic dictionaries, and language corpora can significantly contribute to this process *(Johanson, 2011).* Furthermore, historical and cultural factors also play an important role in the formation of terminology in turkish languages. Due to different political and cultural influences in various historical periods, the terminological systems of turkish languages have developed in different directions. As a result, some concepts are expressed by different terms in different languages. For instance, certain differences can be observed between the terminological system formed during the Soviet period and the terminology emerging under the influence of globalization in the modern era. Therefore, in contemporary Turkological studies, comparative research of terminological systems and the identification of common term models are of particular importance (*Johanson, 2011; Crystal, 2008).*

Research shows that the formation of common terminology should be viewed not only as a linguistic issue but also as a matter of cultural and scientific cooperation among Turkish-speaking countries *(Kocaman, 2010).*

Key words: turkish languages, terminology, common terms, language policy, globalization, lexical system.

LINGUISTIC AND TERMINOLOGICAL INTEGRATION: ENGLISH AND TURKIC LANGUAGE INTERACTION

Jamala Hasanova
Azerbaijan State Pedagogical University
https://ORCID.org/0000-0003-4958-3174
1980jama@gmail.com
Azerbaijan/Baku

This paper examines the dynamic interaction between English and Turkic languages in the domains of linguistics and terminology. The study aims to investigate the principles of linguistic integration, the creation of common terminology, and the adaptation of international terms into national languages, emphasizing both historical and modern perspectives. Particular attention is given to the influence of dialects and archaisms on contemporary terminology, illustrating how linguistic heritage can shape the development of new terms and contribute to the preservation of cultural identity within language systems.

Additionally, terminological challenges arising from rapid technological, scientific, and communicational advances are analyzed, highlighting both differences and commonalities between English and Turkic terminological systems. The research further explores how globalization accelerates the spread of English-based terminology and how Turkic languages respond through borrowing, translation, and adaptation processes.

The study also discusses practical strategies for term standardization, unification, and cross-linguistic harmonization, demonstrating how collaborative academic and institutional efforts can promote clarity, consistency, and mutual understanding across languages. Case studies include examples of English technological and scientific terms that have been successfully adapted into Turkic languages, showing the processes of semantic adjustment, phonetic modification, and morphological adaptation in real usage contexts.

The findings suggest that systematic integration, along with the careful preservation of traditional lexical elements, contributes to the sustainable development of terminology and enhances intercultural communication. By combining theoretical frameworks with applied research, this study provides comprehensive insights into the mechanisms of cross-linguistic interaction and offers practical guidelines for future terminological policy, language planning, and multilingual communication practices.

Key words: Terminology, linguistic integration, English language, Turkic languages, dialects, archaisms, term standardization

LİNQVİSTİK VƏ TERMİNOLOJİ İNTEQRASİYA: İNGİLİS VƏ TÜRK DİLLƏRİNİN QARŞILIQLI ƏLAQƏSİ

Bu məqalə linqvistika və terminologiya sahələrində ingilis və türk dilləri arasındakı dinamik qarşılıqlı əlaqəni araşdırır.

Tədqiqatın məqsədi dil inteqrasiyasının prinsiplərini, ortaq terminologiyanın yaradılmasını və beynəlxalq terminlərin milli dillərə uyğunlaşdırılmasını, həm tarixi, həm də müasir perspektivlərdən təhlil etməkdir. Xüsusilə dialektlərin və arxaizmlərin müasir terminologiyaya təsirinə diqqət yetirilir və bu, dil sistemlərində yeni terminlərin formalaşmasına və mədəni kimliyin qorunmasına necə töhfə verdiyini göstərir.

Bundan əlavə, sürətli texnoloji, elmi və kommunikasiya inkişafları nəticəsində yaranan terminoloji çətinliklər təhlil edilir və ingilis və türk terminoloji sistemləri arasındakı oxşar və fərqli cəhətlər vurğulanır. Tədqiqat qloballaşmanın ingilis əsaslı terminologiyanın yayılmasını sürətləndirdiyini və türk dillərinin buna borclanma, tərcümə və uyğunlaşdırma prosesləri ilə cavab verdiyini də araşdırır. Araşdırmada həmçinin terminlərin standartlaşdırılması, unifikasiyası və dillərarası uyğunlaşdırılması üzrə praktik strategiyalar müzakirə olunur və akademik və institusional əməkdaşlığın aydınlıq, ardıcıllıq və qarşılıqlı anlaşmanı necə inkişaf etdirə biləcəyi göstərilir. Nümunə kimi ingilis dilindəki texnoloji və elmi terminlərin türk dillərinə uğurla uyğunlaşdırılması prosesləri təqdim edilir və bu zaman semantik uyğunlaşma, fonetik dəyişiklik və morfoloji adaptasiya halları izah olunur.

Nəticələr göstərir ki, sistemli inteqrasiya və ənənəvi leksik elementlərin diqqətlə qorunması terminologiyanın davamlı inkişafına töhfə verir və mədəniyyətlərarası ünsiyyəti gücləndirir. Nəzəri çərçivələrin tətbiqi tədqiqatla birləşdirilərək bu iş dillərarası qarşılıqlı təsir mexanizmləri haqqında geniş anlayış təqdim edir və gələcək terminoloji siyasət, dil planlaşdırılması və çoxdilli ünsiyyət təcrübələri üçün praktik tövsiyələr verir.

Açar sözlər: terminologiya, dil inteqrasiyası, ingilis dili, türk dilləri, dialektlər, arxaizmlər, termin standartlaşdırılması.

ORTA ASİYA QIPÇAQ DİLLƏRİNDƏ AYAQQABI ADLARININ MÜQAYİSƏLİ TƏHLİLİ

Ülkər Əfəndiyeva
filologiya üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universiteti
https://ORCID.org/0000-0003-4041-354X
ulker.efendiyeva@list.ru
Azərbaycan/Bakı

Orta Asiya qıpçaq dillərində istehsal materialına görə formalaşan ayaqqabı terminologiyasına qazax və qaraqalpaq dillərində işlənən *былғары етік* [bılğarı etik], *киіз етік* [kiiz etik], *керзі етік* [kerzi etik], qırğız dilindəki *булғаары өтүк* [bulqaarı ötük], *кийиз өтүк* [kiyiz ötük], *кирза өтүк* [kirza ötük] terminləri aiddir.

Bu terminlərin müqayisəsi göstərir ki, leksik vahidlər ümumi türk kökünə əsaslanır və semantik baxımdan tam uyğunluq göstərir.

Fonetik baxımdan *етік – өтүк* qarşılaşdırmasında ön qeyri-yuvarlaq *e-* saitinin qırğız dilində ön yuvarlaq *ө-* ilə əvəz olunması müşahidə olunur. Qazax və qaraqalpaq dillərində *былғары* [bılğarı] formasında ilk hecada dar və qeyri-yuvarlaq *–ı-* saitinin işlənməsi diqqət çəkir. Qırğız dilində isə *булғаары* [bulqaarı] formasında *–u-* yuvarlaq saitinin işlənməsi görünür. Eyni zamanda qırğız variantında sait uzunluğu (-aa-) fonoloji xüsusiyyət kimi çıxış edir ki, bu da həmin dilin fonetik sisteminə xas xüsusiyyətdir.

Киіз етік – кийиз өтүк və *керзі етік – кирза өтүк* paralellərində də oxşar qanunauyğunluqlar müşahidə olunur. Qazax dilində *киіз* formasında dar ön saitdən sonra uzunlaşma və diftonqvari tələffüz var. Qırğız dilində olan *кийиз* formasında isə *-i-* saitindən sonra əlavə *-y-* samiti işlənir.

Керзі етік – кирза өтүк cütlüyündə isə daha çox sait uyğunluğu və samit dəyişməsi görünür. Qazax dilində *керзі* formasında ön sıra *-e-* saiti işlənir, qırğız dilində isə bu sait *-i-* ilə əvəz olunur. Bu dəyişmə sait daralması və ön sıranın qorunması ilə bağlıdır. Eyni zamanda sözün sonundakı *-i* və *-a* fərqi morfofonoloji uyğunlaşmanın nəticəsi kimi çıxış edir.

Beləliklə, Orta Asiya qıpçaq dillərində materiala əsaslanan ayaqqabı terminləri ümumi türk leksik bazasına söykənir və semantik sabitlik nümayiş etdirir. Fonetik fərqlər isə bu dillərin fonoloji sisteminə uyğun olaraq sistemli şəkildə formalaşır.

Açar sözlər: qıpçaq dilləri, ayaqqabı terminologiyası, fonetik uyğunluq, sait dəyişmələri, müqayisəli dilçilik

A COMPARATIVE ANALYSIS OF FOOTWEAR NAMES IN THE CENTRAL ASIAN KIPCHAK LANGUAGES

The footwear terminology based on production materials in the Central Asian Kipchak languages includes such forms as *былғары етік* [bɯlʁɑˈrɯ jeˈtık], *киіз етік* [kiːz jeˈtık], *керзі етік* [kerˈzı jeˈtık] in Kazakh and Karakalpak, and *булғаары өтүк* [bulgɑːˈrɯ øˈtyk], *кийиз өтүк* [kijiz øˈtyk], *кирза өтүк* [kirˈzɑ øˈtyk] in Kyrgyz. These forms demonstrate clear lexical and semantic correspondences.

A comparative analysis shows that these lexical units are based on a common Turkic root and display full semantic equivalence. All terms denote footwear classified according to the material of production, such as leather, felt, or coarse technical fabric.

From a phonetic perspective, systematic differences are primarily observed in vowel quality and consonantal realization. In the pair *етік* [jeˈtık] – *өтүк* [øˈtyk], the front unrounded vowel /e/ corresponds to the front rounded vowel /ø/, while /ı/ alternates with /y/. This reflects stronger labial harmony in Kyrgyz.

In *былғары* [bɯlʁɑˈrɯ] versus *булғаары* [bulgɑːˈrɯ], the uvular fricative /ʁ/ (ғ) in Kazakh and Karakalpak corresponds to the voiced velar stop /g/ (г) in Kyrgyz. At the same time, the unrounded back vowel /ɯ/ alternates with the rounded /u/, and the long vowel /ɑː/ appears in Kyrgyz as a phonologically distinctive feature.

Similar correspondences are observed in *киіз* [kiːz] – *кийиз* [kijiz], where the long vowel /iː/ in Kazakh corresponds to a vowel sequence with an intervocalic glide /j/ in Kyrgyz, facilitating the transition between vowels.

In *керзі* [kerˈzı] – *кирза* [kirˈzɑ], the front vowel /e/ shifts to /i/, indicating vowel raising, while the alternation of final vowels /ı/ and /ɑ/ reflects morphophonological adaptation. Consonantal structure remains relatively stable, while vowel changes carry the primary phonetic variation.

Thus, material-based footwear terminology in the Central Asian Kipchak languages is rooted in a shared Turkic lexical system, while phonetic variation is systematically shaped by both vowel harmony and consonantal differences, including the opposition between /ʁ/ and /g/.

Key words: Kipchak languages, footwear terminology, vowel harmony, consonantal opposition, comparative linguistics

DİL SİYASƏTİ KONTEKSTİNDƏ İKİDİLLİLİK VƏ ÇOXDİLLİLİYİN NƏZƏRİ ASPEKTLƏRİ

Elmira Xanəliyeva
müəllim
Bakı Slavyan Universiteti
https://ORCID.org/ 0000-0002-0170-3117
kh.elmira88@gmail.com
Azərbaycan/Bakı

Qloballaşmanın sürətlənməsi və sosial-mədəni qarşılıqlı təsirlərin intensivləşməsi şəraitində dil siyasəti, ikdillilik və çoxdillilik müasir dilçilik tədqiqatlarının əsas istiqamətlərindən birinə çevrilmişdir. Bu baxımdan, onların nəzəri əsaslarının sistemli şəkildə araşdırılması elmi cəhətdən əsaslandırılmış və effektiv dil siyasətinin formalaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Dilçilik elmində bilinqvizm və ya ikidillilik nəzəriyyəsi mühüm mövqeyə malikdir. Bu nəzəri istiqamət XIX əsrdə bilinqvizmin ümumi dilçilik çərçivəsində sistemli şəkildə araşdırılması və elmi baxımdan öyrənilməsi nəticəsində formalaşmışdır. Dil siyasəti çərçivəsində ikidillilik fərdi və ictimai səviyyələrdə iki dilin funksional istifadəsi kimi müəyyən olunur. *"Bir ölkədə eyni zamanda iki dildən istifadə edilməsi elmdə və siyasətdə bilinqvizm adlanır. Məsələn, Azərbaycan-rus bilinqvizmi, özbək-rus bilinqvizmi, türkmən-rus bilinqvizmi, tatar-rus bilinqvizmi və s. İkidillilik prosesində xalqın bütün üzvləri və ya onun müəyyən qrupu fəal iştirak edə bilir. Bununla bərabər, ikinci dil bəzi şəxs tərəfindən ya zəif, yaxud da ana dili səviyyəsində öyrənilə və işlədilə bilir" [Qurbanov, 2019]*.

Bir cəmiyyətin və ya xalqın bir neçə dili mənimsəyərək gündəlik kommunikativ fəaliyyətində istifadə etməsi polilinqvizm, başqa sözlə, çoxdillilik kimi səciyyələndirilir. Bu anlayış ikidillilik çərçivəsini aşaraq birdən artıq dilin paralel və funksional şəkildə işlədilməsini ehtiva edir. Eyni zamanda, "çoxdillilik" termini əksər hallarda ikidilliliklə müqayisədə daha yüksək səviyyədə və daha kompleks dil səriştəsini ifadə etmək üçün işlədilir. *"Cəmiyyət səviyyəsində çoxdillilik bir dövlətin ərazisində iki və ya daha çox dilin müxtəlif funksiyalarda istifadə halıdır" [Qəribova, 2025*]. Bəzi xalqlar gündəlik həyatlarında üç və ya daha çox dildən fəal şəkildə istifadə edirlər. Bununla belə, bir sıra tədqiqatlar göstərir ki, müxtəlif cəmiyyətlər arasında ən geniş rast gəlinən forma məhz üçdillilikdir.

Dil siyasəti dil davranışını və dil istifadəsini tənzimləyən mühüm bir mexanizm kimi çıxış edir. "*Dil siyasəti bu proseslərə təsir göstərən tənzimləyici mexanizm kimi çıxış edir və dil planlaşdırılması, standartlaşdırma, eləcə də dil hüquqlarının qorunması vasitəsilə reallaşır*" *[Spolsky, 2004*]. Bu yanaşma dilin yalnız normativ çərçivədə idarə olunan sistem deyil, həm də daha geniş sosial və ekoloji mühitlə qarşılıqlı əlaqədə formalaşan dinamik bir fenomen olduğunu göstərir. Bu baxımdan dil siyasəti dilin

funksional bölgüsünü, sosial statusunu və istifadəsini istiqamətləndirən mühüm amil kimi çıxış edir. Dil və onun mövcud olduğu mühit arasındakı qarşılıqlı təsiri dil müxtəlifliyinin qorunmasının vacibliyini ön plana çəkir.

Nəticə etibarilə, ikdillilik və çoxdilliliyin nəzəri əsaslarının öyrənilməsi elmi əsaslandırılmış dil siyasətinin qurulmasına zəmin yaradır, dil müxtəlifliyinin qorunmasına xidmət edir və çoxdilli cəmiyyətlərdə sosial inteqrasiyanı gücləndirir.

Açar sözlər: dil siyasəti, ikidillilik, çoxdillilik, dil müxtəlifliyi, cəmiyyət.

THEORETICAL FOUNDATIONS OF BILINGUALISM AND MULTILINGUALISM IN THE CONTEXT OF LANGUAGE POLICY

In the context of accelerating globalization and the intensification of social and cultural interactions, language policy, bilingualism, and multilingualism have become one of the main directions of contemporary linguistic research. In this regard, the systematic investigation of their theoretical foundations is of crucial importance for the development of scientifically grounded and effective language policies.

In linguistic science, the theory of bilingualism occupies a significant position. This theoretical direction emerged in the 19th century as a result of the systematic study and scientific investigation of bilingualism within the general framework of linguistics. Within the context of language policy, bilingualism is defined as the functional use of two languages at both individual and societal levels. "*The simultaneous use of two languages in one country is referred to as bilingualism in both science and politics. For example, Azerbaijani–Russian bilingualism, Uzbek–Russian bilingualism, Turkmen–Russian bilingualism, Tatar–Russian bilingualism, etc. In the process of bilingualism, all members of a society or a particular group of it may actively participate. At the same time, the second language may be learned and used either at a weak level or at the level of the native language by different individuals*" [*Qurbanov, 2019]*.

The acquisition and use of several languages by a society or a people in their daily communicative activities is characterized as polylingualism, or in other words, multilingualism. This concept goes beyond the framework of bilingualism and involves the parallel and functional use of more than one language. At the same time, the term "multilingualism" is often used to denote a higher level and more complex degree of language competence compared to bilingualism. "*At the societal level, multilingualism refers to the use of two or more languages within a state in different functions*" [*Qəribova, 2025]*. Some peoples actively use three or more languages in their daily lives. However, a number of studies indicate that trilingualism is the most widespread form among different societies.

Language policy functions as an important mechanism regulating language behavior and language use. "*Language policy acts as a regulatory mechanism influencing these processes and is implemented through language planning,*

standardization, as well as the protection of language rights" *[Spolsky, 2004]*. This approach demonstrates that language is not only a system regulated within a normative framework, but also a dynamic phenomenon shaped through interaction with a broader social and ecological environment. In this respect, language policy serves as a key factor guiding the functional distribution, social status, and use of language. The interaction between language and its environment highlights the importance of preserving linguistic diversity.

In conclusion, the study of the theoretical foundations of bilingualism and multilingualism provides a basis for the development of scientifically grounded language policies, contributes to the preservation of linguistic diversity, and strengthens social integration in multilingual societies.

Key words: language policy, bilingualism, multilingualism, linguistic diversity, society.

ARXAİZMLƏRİN KONSERVASİYASI VƏ DİALEKTOLOGİYA: DİLİN GENETİK YADDAŞININ BƏRPASI

Aynurə Əliyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
aeliyeva7@mail.ru
Azərbaycan/Bakı

Müasir Azərbaycan dilçiliyinin ən aktual problemlərindən biri ədəbi dilin lüğət tərkibini daxili imkanlar hesabına zənginləşdirməkdir. Bu prosesdə dialekt və şivələr dilin qədim qatlarını qoruyan "canlı arxiv" funksiyasını daşıyır. Arxaizmlərin ədəbi dilə qaytarılması mexaniki proses olmamalıdır. Burada dialektlərdəki fonetik dəyişmələr (məsələn: g~q və ya b~v keçidləri) müasir normalara uyğunlaşdırılmalı, sözün semantik tutumu (mənası) dəqiqləşdirilməlidir.

Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri (Gəncə, Qazax, Tovuz, Şəmkir və s.) qədim türk dili elementlərini qoruyub saxlayan ən zəngin mənbələrdən biridir. Bu bölgədə işlənən və ədəbi dildə artıq arxaikləşmiş (və ya mənası dəyişmiş) bəzi nümunələrə nəzər salaq:

1. Leksik arxaizmlər. Bu sözlər ədəbi dildə unudulsa da, Qərb bölgəsində gündəlik həyatın bir parçasıdır:

Sayru / Sayrı: "Xəstə" deməkdir. Qərb bölgəsində yaşlı nəsil hələ də "sayrımaq" (xəstələnmək, inildəmək) feilini işlədir.

Duluq: "Yanaq" deməkdir. Klassik poeziyada və qədim mətnlərdə rast gəlinir. Gəncə-Qazax zonasında bu gün də üzün, yanağın yan tərəflərini bildirmək üçün istifadə olunur.

Qıvraq: "Cəld, qoçaq, hazır" mənasında işlənir. Ədəbi dildə daha çox "yığcam" mənasında qalsa da, Qərb şivələrində qədim fəallığını qoruyur.

2. Semantik arxaizmlər.

Bəzi sözlər ədəbi dildə var, amma Qərb dialektində onların ən qədim mənası yaşayır:

Yaz: Ədəbi dildə "bahar" deməkdir. Lakin Qərb bölgəsində qədim türk dilində olduğu kimi, bəzən "yay" fəslini bildirmək üçün işlənir.

Arı: Ədəbi dildə həşərat adıdır. Lakin bu şivələrdə qədim mənası olan "təmiz, pak" mənasında da qalmışdır.

Arxaizmlərin ədəbi dilə qaytarılması mexaniki proses olmamalıdır. Burada dialektlərdəki fonetik dəyişmələr (məsələn: g~q və ya b~v keçidləri) müasir normalara uyğunlaşdırılmalı, sözün semantik tutumu (mənası) dəqiqləşdirilməlidir.

Alınma sözlərin əvəzlənməsi və termin yaradıcılığı prosesində bu "unudulmuş" sözlərin ədəbi dilə qaytarılması dilin daxili sistemini saflaşdırır.

Açar sözlər: arxaizmlər, dialektologiya, Qərb qrupu şivələri, dilin genetik yaddaşı, etimologiya, semantik dəyişmələr

PRESERVATION OF ARCHAISMS AND DIALECTOLOGY: RESTORING THE GENETIC MEMORY OF LANGUAGE

One of the most pressing issues in modern Azerbaijani linguistics is enriching the vocabulary of the literary language through its internal resources. In this process, dialects and sub-dialects function as a "living archive" that preserves the ancient layers of the language. The reintegration of archaisms into the literary language should not be a mechanical process. In this context, phonetic shifts in dialects (e.g., g \sim q or b \sim v transitions) must be adapted to modern norms, and the semantic capacity (meaning) of the word must be clarified.

The Western group of Azerbaijani dialects and sub-dialects (Ganja, Gazakh, Tovuz, Shamkir, etc.) is one of the richest sources preserving ancient Turkic language elements. Let's examine some examples used in this region that have become archaic (or have undergone semantic changes) in the literary language:

1. Lexical Archaisms: Although these words are forgotten in the literary language, they remain part of daily life in the Western region:

Sayru / Sayrı: Means "sick." The older generation in the Western region still uses the verb sayrımaq (to fall ill, to moan).

Duluq: Means "cheek." Found in classical poetry and ancient texts, it is still used in the Ganja-Gazakh zone to denote the sides of the face or cheeks.

Qıvraq: Used in the sense of "agile, brave, ready." While in the literary language it mostly remains as "compact," it retains its ancient activity in Western dialects.

2. Semantic Archaisms: Some words exist in the literary language, but their most ancient meanings survive in the Western dialect:

Yaz: In the literary language, it means "spring." However, in the Western region, as in ancient Turkic, it is sometimes used to denote the "summer" season.

Arı: In the literary language, it is the name of an insect (bee). Yet, in these dialects, it has also preserved its ancient meaning of "pure, clean."

The restoration of archaisms to the literary language should not be a mechanical process. Phonetic variations in dialects must be aligned with modern standards, and the semantic scope of the words must be precisely defined. Reintroducing these "forgotten" words during the replacement of loanwords and the process of terminology creation purifies the internal system of the language.

The study of dialectological materials shows that a language preserves its past in a coded form within regional dialects. From this perspective, the restoration of archaisms is not an artificial process but the recovery of the language's own natural memory and the ensuring of historical continuity.

Key words: archaisms, dialectology, Western group of dialects, genetic memory of language, etymology, semantic changes.

I TÜRKOLOJİ QURULTAYIN ELMİ İRSİ VƏ MÜASIR TÜRK DİLLƏRİNDƏ SEMANTİK İNKİŞAF PROSESLƏRİ

Aysel Qasımzadə
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCİD.org/0009-0002-2343-0364
Gasimzadeaysel7@gmail.com
Azərbaycan/Bakı

I Türkoloji Qurultay türk dillərinin öyrənilməsi tarixində mühüm bir elmi mərhələ kimi xarakterizə olunur. Bu qurultayda yalnız əlifba və orfoqrafiya məsələləri deyil, həm də dilin daxili inkişaf qanunauyğunluqları, leksik-semantik dəyişmələr və ümumtürk dil birliyinin perspektivləri geniş şəkildə müzakirə edilmişdir. Qurultayın elmi irsi bu gün də türkoloji tədqiqatlarda aktual olaraq qalır.

Müasir dövrdə türk dillərində müşahidə olunan semantik inkişaf prosesləri – məna genişlənməsi və daralması, metaforik və metonimik köçürmələr – dilin dinamikliyini və sosial-kommunikativ funksiyasını əks etdirir *(Adilov M., Verdiyeva Z., Ağayeva F. Azərbaycan dilinin semasiologiyası. Bakı: Elm, 2019, 304 s.)*. Bu proseslər, əslində, hələ Qurultay dövründə dilin təbii inkişaf mexanizmi kimi dəyərləndirilmiş və Qurultayın iştirakçıları dilin normativləşdirilməsi ilə yanaşı, onun canlı inkişaf xüsusiyyətlərinin qorunmasının vacibliyini də vurğulamışlar.

Semantik dəyişmələr praqmatik və koqnitiv amillərlə sıx bağlıdır. Danışanın niyyəti, ünsiyyət şəraiti və mədəni kontekst sözlərin yeni məna çalarları qazanmasına səbəb olur. Bu baxımdan, Azərbaycan dilçiliyində semasioloji yanaşmalar semantik transformasiyaların izahında mühüm yer tutur *(Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan, 2008, 442 s.).* Müasir türk dillərində müşahidə olunan bu proseslər Qurultayda irəli sürülən nəzəri fikirlərlə səsləşir.

Eyni zamanda, qloballaşma və texnoloji inkişaf türk dillərinin leksik sisteminə təsir göstərərək yeni terminlərin yaranmasına və mənaların yenidən formalaşmasına gətirib çıxarır. Bu isə semantik sistemdə dinamik dəyişikliklər yaradır və dilin funksional imkanlarını genişləndirir *(Veysəlli F.Y. Koqnitiv dilçilik: əsas anlayışlar və perspektivlər. Bakı: Mütərcim, 2015, 312 s.).*

I Türkoloji Qurultayın elmi irsi müasir türk dillərində semantik proseslərin araşdırılmasında metodoloji baza rolunu oynayır və türkoloji fikrin davamlı inkişafını təmin edir. Bu irs həm də türk dillərinin müqayisəli-tarixi və funksional-semantik tədqiqi üçün vahid elmi yanaşmanın formalaşmasına zəmin yaradır.

Açar sözlər: Türkoloji Qurultay, semantik inkişaf, məna dəyişməsi, türk dilləri, praqmatika.

THE FIRST TURKOLOGICAL CONGRESS IS CHARACTERIZED AS A SIGNIFICANT SCIENTIFIC MILESTONE IN THE HISTORY OF THE STUDY OF TURKIC LANGUAGES

At this congress, not only issues of alphabet and orthography were discussed, but also the internal developmental patterns of language, lexical-semantic changes, and the prospects of the unity of Turkic languages were comprehensively examined. The scientific legacy of the Congress remains relevant in contemporary Turkological research.

In the modern period, semantic development processes observed in Turkic languages—such as semantic broadening and narrowing, as well as metaphorical and metonymic shifts—reflect the dynamic nature of language and its socio-communicative functions (*Adilov M., Verdiyeva Z., Aghayeva F. Semasiology of the Azerbaijani Language. Baku: Elm, 2019, 304 p.).* In fact, these processes were already regarded during the time of the Congress as natural mechanisms of language development, and its participants emphasized the importance of preserving the living characteristics of language alongside its standardization.

Semantic changes are closely related to pragmatic and cognitive factors. The speaker's intention, communicative context, and cultural environment contribute to the emergence of new shades of meaning in words. In this regard, semasiological approaches in Azerbaijani linguistics play an important role in explaining semantic transformations (*Khalilov B. Modern Azerbaijani Lexicology. Baku: Nurlan, 2008, 442 p.*). These processes observed in modern Turkic languages are consistent with the theoretical ideas put forward at the Congress.

At the same time, globalization and technological development influence the lexical system of Turkic languages, leading to the emergence of new terms and the reconfiguration of meanings. This results in dynamic changes within the semantic system and expands the functional capacities of language *(Veysalli F.Y. Cognitive Linguistics: Basic Concepts and Perspectives. Baku: Mutarjim, 2015, 312 p.).*

The scientific legacy of the First Turkological Congress serves as a methodological foundation for the study of semantic processes in modern Turkic languages and ensures the continuous development of Turkological thought. This legacy also provides a basis for the formation of a unified scientific approach to the comparative-historical and functional-semantic study of Turkic languages.

Key words: Turkological Congress, semantic development, semantic change, Turkic languages, pragmatics.

AREALDAXİLİ DİL TƏMASLARI: AZƏRBAYCAN DİALEKTLƏRİNDƏ QIPÇAQ LAYLARI

Aynur Namazova
doktorant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://Orcid.org/0009-0001-2498-8880
aynamaz@mail.ru
Azərbaycan/Bakı

Azərbaycan dili türk dillərinin oğuz qrupuna daxil olsa da onun fonetik, morfoloji və leksik qatlarında güclü bir qıpçaq substratı mövcuddur. Bu "hibrit" xarakter Azərbaycan xalqının formalaşma prosesində oğuz və qıpçaq tayfalarının (xüsusilə xəzərlər, qıpçaqlar, kumanlar) apardığı uzunmüddətli etnik-mədəni inteqrasiyanın nəticəsidir. M.Kaşğarinin "Divanü lüğət-it-türk" əsəri bu paralelləri izləmək üçün ən fundamental mənbədir; çünki XI əsrdə qeydə alınan dialekt fərqlərinin bir çoxu bu gün Azərbaycanın dialektlərində (xüsusən Şimal-Qərb və Qərb bölgəsi) yaşamaqdadır.

Fonetik müstəvidə qıpçaq təsiri özünü bəzi dialektlərimizdəki samitlərin sərtləşməsində və ya spesifik səs keçidlərində göstərir. Məsələn, oğuz dilləri üçün xarakterik olan sözönü "y" səsinin bəzi Qərbi Azərbaycan dialektlərində düşməsi və ya "c" səsinə keçməsi (məs: yulduz - ulduz; yaxşı - caxşı) qıpçaq təsirinin bariz nümunəsidir. Həmçinin, Kaşğarinin qıpçaqlar üçün qeyd etdiyi "b/m" əvəzlənməsi (məs: bin - min) Azərbaycan ədəbi dilində belə özünə yer tapmışdır.

Morfoloji baxımdan indiki zaman şəkilçilərinin müxtəlifliyi diqqət çəkir. Ədəbi dilimizdəki "-ır[4]" (oğuz) forması ilə yanaşı Qazax və Borçalı dialektlərində rast gəlinən "-atı/-əti" (məs: gedatı, gəlatı) forması birbaşa Qıpçaq mənşəli "-at-ır" feil formulu ilə əlaqəlidir.

Leksik qatda isə kənd təsərrüfatı və təbiət terminlərində qıpçaq izləri daha dərindir. "Divan"da qıpçaqlara aid edilən bir çox söz bu gün dialektlərimizdə aktivdir. Məsələn, ədəbi dildəki "toyuq" (oğuz) sözünə qarşı dialektlərdə rast gəlinən "tovuq/tovux" forması qıpçaq fonetikasına daha yaxındır. Bu paralellər sübut edir ki, Azərbaycan dili sadəcə oğuz dili deyil, həm də Orta Asiyadan Qafqaza qədər uzanan böyük türk köçlərinin linqvistik arxividir.

Açar sözlər: Azərbaycan dili, dialektologiya, qıpçaq substratı, tarixi dilçilik, arealdaxili təmaslar, oğuz-qıpçaq elementləri.

INTRA-AREAL LANGUAGE CONTACTS: KIPCHAK LAYERS IN AZERBAIJANI DIALECTS

Although the Azerbaijani language is classified under the Oghuz group of Turkic languages, it carries a profound Kipchak substratum within its phonetic, morphological,

and lexical layers. This "hybrid" and rich structure is a direct reflection of the historical ethnogenesis of the Azerbaijani people, shaped by the integration of Oghuz and Kipchak tribes (such as Khazars, Kipchaks, and Cumans) over centuries. Mahmud al-Kashgari's "Diwan Lughat al-Turk" serves as a vital anchor for this research, as many dialectal variances recorded in the 11th century are still preserved in modern Azerbaijani dialects, particularly in the Northwestern and Western regions.

On a phonetic level, Kipchak influence is evident in the hardening of certain consonants and specific sound shifts. For instance, the initial "y" sound, characteristic of Oghuz, often drops or shifts to "j/c" in specific dialects (e.g., *yulduz - ulduz*; *yakhshi - jakhshi*), a hallmark of Kipchak influence documented by Kashgari. Furthermore, the "b/m" substitution (e.g., *bin - min*), which Kashgari attributed to the Kipchaks, has even integrated into the Azerbaijani literary standard.

Morphologically, the diversity of present-tense suffixes is particularly striking. Alongside the literary Oghuz form "-ır[4]", the "-atı/-əti" suffix found in the Gazakh and Borchali dialects (e.g., *gedatı*, *gəlatı*) is directly linked to the Kipchak "-at-yr" verbal formula. This highlights a structural preservation of Kipchak grammar within an Oghuz framework.

In the lexical domain, Kipchak traces are deep-seated in agricultural, pastoral, and nature-related terminology. Many words identified as Kipchak in the "Diwan" remain active in Azerbaijani folk speech today. For example, while the literary word for chicken is "toyuq" (Oghuz), the dialectal variant "tovuq/tovukh" aligns more closely with Kipchak phonology. These parallels demonstrate that the Azerbaijani language is not merely an Oghuz tongue but a complex linguistic archive of the vast Turkic migrations from Central Asia to the Caucasus, encoded with the history of its people.

Key words: Azerbaijani language, dialectology, Kipchak substratum, historical linguistics, intra-areal contacts, Oghuz-Kipchak elements.

MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FEİLİ ALINMANIN KOQNİTİV XÜSUSİYYƏTLƏRİ

İlhamə Məmməd
Sumqayıt Dövlət Universiteti
https://ORCID.org/0000-0002-9654-420X
ilhama.mammad@sdu.edu.az
Azərbaycan/Sumqayıt

Müasir dilçilikdə sözalma dillərarası leksik mübadilə faktı olmaqdan daha çox koqnitiv emal və konseptual uyğunlaşdırma prosesi kimi dəyərləndirilir. Yeni leksik vahid dilə daxil olarkən yalnız fonetik və qrammatik sistemə deyil, həm də danışanın mövcud bilik strukturlarına inteqrasiya olunur. Bu baxımdan feili alınma xüsusi maraq doğurur, çünki *feil semantikası hadisə strukturu, zaman-aspekt münasibətləri və iştirakçı rolları ilə birbaşa bağlıdır* [Langacker, 2008].

İngilis dilində son dövrdə geniş yayılmış *to google, to message, to friend, to impact* kimi vahidlər sözalma prosesinin yeni istiqamətini nümayiş etdirir. Bu tip vahidlərdə isimdən feilə keçid yalnız morfoloji konversiya deyil, həm də konseptual transformasiyadır. Məsələn, *to google* feili "informasiya axtarmaq" hərəkətindən daha geniş olaraq "rəqəmsal bilik məkanına daxil olmaq" çərçivəsini aktivləşdirir. Oxşar proses Azərbaycan dilində işlənən *like etmək, share etmək, download etmək* kimi analitik konstruksiyalarda müşahidə olunur. Burada *alınma komponent milli dilin qrammatik modeli ilə birləşərək yeni hərəkət kateqoriyası yaradır və kommunikativ qənaəti təmin edir* [Haspelmath, 2009].

Koqnitiv yanaşma bu hadisəni prototip əsaslı kateqoriyalaşma mexanizmləri ilə izah edir. Bu baxımdan dilə daxil olan hər yeni feil boş bir semantik vahid kimi deyil, artıq mövcud olan konseptual strukturlar daxilində yerini tapan bir element kimi qavranılır. Yəni danışan şəxs yeni hərəkəti əvvəlcədən tanıdığı ən yaxın fəaliyyət modeli ilə əlaqələndirir və onu həmin modelin çərçivəsində mənalandırır. Məsələn, ingilis dilindəki *to text* feili Azərbaycan dilində müstəqil bir feil kimi deyil, "mesaj yazmaq" konstruksiyası vasitəsilə ifadə olunur və burada əsas semantik yük "yazmaq" prototipinin üzərinə düşür. Azərbaycan dilində yazılı informasiya ötürmə aktının mərkəzi prototipi məhz "yazmaq" hərəkətidir. Sosial şəbəkə kontekstində işlənən *to post* feili isə "paylaşmaq" prototipi ilə uyğunlaşdırılır, çünki Azərbaycan dilində məlumatın ictimai müstəviyə çıxarılması ən çox bu konsept vasitəsilə qavranılır. Nümunələr göstərir ki, alınma prosesində uyğunlaşma yalnız leksik və ya morfoloji səviyyədə baş vermir; yeni vahidlər danışanın şüurunda artıq formalaşmış konseptual kateqoriyalarla inteqrasiya olunur, onların semantik şəbəkəsinə daxil edilərək funksional məna qazanır.

Açar sözlər: sözalma, koqnitiv dilçilik, feil alınması, konseptual inteqrasiya, analitik feil.

COGNITIVE FEATURES OF VERBAL BORROWING IN MODERN ENGLISH AND AZERBAIJANI

In contemporary linguistics, lexical borrowing is interpreted not merely as a fact of interlingual lexical exchange, but rather as a process of cognitive processing and conceptual accommodation. When a new lexical unit enters a language, it is integrated not only into the phonetic and grammatical system but also into the speaker's pre-existing knowledge structures. From this perspective, *the borrowing of verbs is of particular interest, since verbal semantics is directly linked to event structure, tense–aspect relations, and participant roles* [Langacker, 2008].

Verbs that have recently become widespread in English, such as *to google, to message, to friend,* and *to impact*, demonstrate a new direction in the borrowing process. In such units, the shift from noun to verb is not only a case of morphological conversion but also a conceptual transformation. For instance, the verb *to google* activates a frame that extends beyond the mere action of "searching for information" to encompass "entering a digital knowledge space." A similar process can be observed in Azerbaijani analytic constructions such as *like etmək, share etmək,* and *download etmək*. Here, *the borrowed component combines with the grammatical model of the recipient language to create a new action category and to ensure communicative economy* [Haspelmath, 2009].

The cognitive approach explains this phenomenon through the mechanisms of prototype-based categorization. In this sense, each new verb entering the language is perceived not as an empty semantic unit but as an element that finds its place within already existing conceptual structures. In other words, the speaker associates the new action with the closest familiar activity model and interprets it within the framework of that model. For example, the English verb *to text* is rendered in Azerbaijani not as an independent verb but through the construction *mesaj yazmaq* ("to write a message"), where the main semantic load falls on the prototype *yazmaq* ("to write"), since the central prototype for the transmission of written information in Azerbaijani is the act of writing. Likewise, the verb *to post*, used in the context of social media, is aligned with the prototype *paylaşmaq* ("to share"), because the act of making information public is most commonly conceptualized through this notion in Azerbaijani. These examples demonstrate that in the borrowing process accommodation does not occur solely at the lexical or morphological level; new units are integrated into the speaker's already established conceptual categories, incorporated into their semantic network, and acquire functional meaning within that network.

Key words: borrowing, cognitive linguistics, verb borrowing, conceptual integration, analytical verb.

AZƏRBAYCAN DİLİNİN FORMALAŞMASININ SOSİAL-SİYASİ ASPEKTLƏRİ

Sənay Hüseynli
dissertant
Bakı Dövlət Universiteti
twins0506@mail.ru
Azərbaycan/Bakı

Azərbaycan dili sistemi tarixən inkişaf etmiş və bu gün də sabit lüğət, qrammatik quruluş və leksik məzmundan ibarətdir. Bu dil türk dilləri qrupuna daxildir və həmvətənlərimizin məskunlaşdığı ölkədə və qonşu ölkələrdə çoxsaylı dialekt və şivələrin zəngin zəminində inkişaf etmişdir. Azərbaycan dilinə əsrlər boyu bizimlə vahid bütövlük təşkil edən xalqların dillərinin təsiri olmuşdur. Bunlar ərəb, fars və rus dilləridir. Bundan əlavə, bu gün türk dilinin, eləcə də ingilis dilinin vahid türk dilləri ailəsindən olan təsiri böyükdür.

Azərbaycan dilinin inkişafına, onun mənimsənilməsinə və istifadəsinə təsir edən ictimai-siyasi proseslər sırasında müxtəlif yazı növlərinin istifadəsini qeyd etmək lazımdır. Bunlar ərəb əlifbası, kiril və latın qrafikasıdır. Əlifbaların dəyişməsi zamanı dilin inkişaf tarixi prosesin bütün mürəkkəbliklərini özündə əks etdirirdi. Bundan əlavə, əhalinin ümumi inkişaf səviyyəsi ümumbəşəri savadlılığa keçidə imkan vermirdi. Nəticədə ümumi ədəbi dilin formalaşması imkanları xeyli daraldı. Digər tərəfdən, bu, dil məlumatlarının ötürülməsində, o cümlədən şifahi xalq yaradıcılığı vasitəsilə adət-ənənələrdə öz əksini taparaq nəsildən-nəslə ötürülən şifahi ənənələrin qorunub saxlanmasına əsas verirdi.

Azərbaycan dilində diskursun müasir praqmatik aspektlərini öyrənmək üçün bugünkü azərbaycanlının linqvistik davranışının mental cəhətlərini nəzərə almaq lazımdır. Müasir dünya vəhdət təşkil edir, cəmiyyətdə ölkələr, hökumətlər və sosial qruplar arasında münasibətlər qarşılıqlı əlaqələr əsasında formalaşır ki, bu da qarşılıqlı asılılığa, qarşılıqlı təsirə və müxtəlif sosial risklərin artmasına səbəb olur. Azərbaycan xalqının tarixində miqrasiyaya, təbii yaşayış mühitinin itirilməsinə, müxtəlif sosial üstünlüklərə və mentalitetin qorunub saxlanılmasına səbəb olan bir çox ziddiyyətli və çətin vəziyyətlər olmuşdur.

Bunlar ölkələr arasında müharibələr, ölkə daxilində müxtəlif ictimai-siyasi qruplar arasında münaqişələr, dini və etnik toqquşmalardır. Bütün bunlar bilavasitə insanların linqvistik davranışına təsir göstərmiş, koqnitiv və şifahi-semantik təzahür üçün zəngin imkanlara malik olan ünsiyyət nəticəsində söz ehtiyatının itirilməsinə, nitqin dəyişməsinə səbəb olmuşdur.

Bütövlükdə, dil şəxsiyyəti formalaşdıraraq onun ünsiyyətinə və davranışına təsir edir. Bunu başa düşən natiqlər tarix boyu öz dil bacarıqlarından məharətlə istifadə edərək insan kütlələrinə təsir göstərə bilirdilər.

Açar sözlər: Azərbaycan dili, rus dili, Bakı, rus ləhcəsi.

QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİNDƏ ALINMA LEKSİKA

Gülnar Məmmədova
dissertant
AMEA Nəsimi adına Dilçilik İnstitutunun
https://ORCİD.org/0000-0001-5388-5373
muxtarzadegulnar@gmail.com
Azərbaycan/Bakı

Qərbi Azərbaycan şivələrinin əsas leksik layını türkmənşəli sözlər təşkil edir. Lakin dünyanın bütün dilləri və şivələri kimi Qərbi Azərbaycan şivələrində də alınma leksik vahidlərə rast gəlinir. Dialekt (yun. *dialektos* – danışıq, ləhcə, şivə) – müəyyən dilin, sıx ərazi, sosial və ya peşə birliyi ilə bağlı olan şəxslər tərəfindən ünsiyyət vasitəsi kimi istifadə olunan bir variantıdır.

Dialekt özünəməxsus lüğəti və qrammatikası olan tamhüquqlu nitq sistemidir. Adətən "dialekt" termini müəyyən coğrafi məkanla bağlı olan dil variantlarını ifadə edir. Lakin bu termin insanların dil davranışındakı fərqləri göstərmək üçün də istifadə oluna bilər.

Bəzən "dialekt" anlayışı başqa mənada işlədilir. Bu halda o, digər, daha nüfuzlu dil forması ilə müqayisə olunub-olunmamasından asılı olmayaraq, dilin istənilən lokal formasını ifadə edir. Sosiolinqvistik baxımdan dialekt aşağıdakı xüsusiyyətlərlə səciyyələnir: daşıyıcılarının sosial, yaş və qismən cins baxımından məhdud olması; istifadə sahəsinin əsasən ailə və məişət mühitilə məhdudlaşması; müxtəlif şivələrin qarşılıqlı təsiri nəticəsində yarım-dialektlərin yaranması və bununla bağlı sistem daxilində dəyişikliklər; ədəbi dilin təsiri altında dialekt nitqinin özünəməxsus xüsusiyyətlərinin zəifləməsi və keçid formalarının yaranması.

Dialektlərin öyrənilməsi ilə xüsusi bir sahə – dialektologiya məşğul olur. Bu sahə dili mədəni-tarixi reallıqlarla birlikdə öyrənən dilçilik istiqamətlərinə aiddir.

Dialektal alınmalar dilin lüğət tərkibinin həmin dilin dialektlərindən alınmış vahidlər hesabına zənginləşməsidir. Araşdırma nəticəsində məlum olmuşdur ki, Qərbi Azərbaycan şivələrində işlənən alınma leksik vahidlər əsasən ərəb və fars dillərindən olan leksik vahidlərdir. Məsələn, ərəb mənşəli leksik alınmalar: *fasıx:* ər. *fasīḥ* (fəsih – aydın danışan, burada semantik dəyişmə var: "bic"); *feysəl:* ər. *fayṣal* (qərar, hökm; dialektdə "yardım etmək"); *fəhəm:* ər. *fahm* (anlama, düşüncə); *fəhimsiz:* ər. *fahīm* + az. şəkilçi; *fəhmələnmək / fəhmləmməx'*:ər. *fahm* kökü ilə bağlı; *fərəğat:* ər. *farāğat* (rahatlıq, asudəlik) ; *fərəzən*: ər. *farzan* / *farzən* (fərz edək ki); *fərzi* :ər. *farḍ* (fərz, ehtimal): *fuqan*: ər. *fuġān* (nalə, fəryad – burada semantik dəyişmə var). Fars mənşəli alınma leksik vahidlər: *fəsəli:* fars mətbəxinə aid söz *fətir* : fars *fatir* (çörək növü) ; *fəltəğən* :(yaltaq mənasında) – fars köklü hesab olunur; *filfili:* fars *filfil* (istiot → metaforik məna genişlənməsi); *firni:* fars *firni* (şirniyyat növü); *firəngi* : fars vasitəsilə (*farangi* – Avropa mənşəli).

Açar sözlər: Azərbaycan, qərbi, alınma, leksika, ərəb, fars.

BORROWED LEXIS IN THE DIALECTS OF WESTERN AZERBAIJAN

The main lexical layer of the dialects of Western Azerbaijan consists of Turkic-origin words. However, like all languages and dialects of the world, the dialects of Western Azerbaijan also contain borrowed lexical units. A dialect (from Greek *dialektos* – speech, vernacular, dialect) is a variety of a given language used as a means of communication by people connected through close territorial, social, or professional ties.

A dialect is a full-fledged system of speech with its own vocabulary and grammar. The term "dialect" is usually used to denote language varieties associated with a specific geographical area. However, it can also be used to describe differences in people's linguistic behavior.

Sometimes the concept of "dialect" is used in another sense. In this case, it refers to any local form of a language, regardless of whether it is contrasted with another, more prestigious variety. From a sociolinguistic perspective, a dialect is characterized by the following features: limitation of its speakers by social, age, and partly gender factors; restriction of its usage mainly to family and everyday communication; the formation of semi-dialects as a result of interaction and mutual influence among different dialects, along with structural changes in dialect systems; and the weakening of dialect-specific features under the influence of the literary language, leading to the emergence of intermediate forms.

The study of dialects is carried out by a special field known as dialectology, which belongs to the branch of linguistics that examines language in connection with cultural and historical realities.

Dialectal borrowings involve the enrichment of a language's vocabulary through lexical units taken from its own dialects. The study has shown that borrowed lexical units used in the dialects of Western Azerbaijan mainly originate from Arabic and Persian. For example, Arabic-origin borrowings include: *fasıx* (from Arab. *fasīḥ* – eloquent; with semantic shift meaning "cunning"); *feysəl* (Arab. *fayṣal* – decision, judgment; in dialect "to help"); *fəhəm* (Arab. *fahm* – understanding, intellect); *fəhimsiz* (Arab. *fahīm* + Azerbaijani suffix); *fəhmələnmək / fəhmləmməx'* (derived from the root *fahm*); *fərəğat* (Arab. *farāġat* – comfort, ease); *fərəzən* (Arab. *farzan* / *farzən* – suppose that); *fərzi* (Arab. *farḍ* – assumption, hypothesis); *fuqan* (Arab. *fuġān* – lament, cry, with semantic change).

Persian-origin borrowings include: *fəsəli* (a culinary term from Persian cuisine); *fətir* (Pers. *fatir* – a type of bread); *fəltəğən* (meaning "flatterer," considered of Persian origin); *filfili* (Pers. *filfil* – pepper, with metaphorical extension); *firni* (Pers. *firni* – a milk-based dessert); *firəngi* (via Persian *farangi* – of European origin).

Key words: Azerbaijan, western, borrowing, lexicon, Arabic, Persian.

FEATURES OF ADAPTING INTERNATIONAL TERMS TO THE NATIONAL LANGUAGE

Konul Mammadzade
Doctor of Philosophy in Philology
Azerbaijan State Pedagogical University
https:/ORCID.org/0000-0001-8792-7500
konul.kesa@yahoo.com
Azerbaijan/Baku

The main goal of standardizing scientific and technical terminology is to ensure unambiguous understanding. There are terms that, in addition to belonging to a certain field, are also used in other fields. In modern times, the integration and differentiation of sciences allows the use of terms belonging to the similar and different fields. *[Terminologiya məsələləri, Bakı, Elm, 1987, s.36-37]*

The main tasks of standardization of scientific and technical terminology at the international level include: 1) recording the level of modern scientific knowledge and technical development in the standard of the term; 2) harmonizing the national language and international terminology, ensuring their compatibility and relevance;

In the process of standardization, the solution is to eliminate this variation completely or partially. In this case, it is possible to maintain two variants of the term. However, most of such borrowings are used in parallel with words in the national language. It causes terminological lexical parallelism in the language. The following criteria are proposed for the linguistic accuracy of a term: 1) full expression of meaning; 2) comprehensibility; 3) specialization; 4) accuracy; 5) ambiguity; 6) uniformity. *[Sadıqova S.A. Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı. Bakı, Elm, 2005, s.112]*.

It is important to take into account a number of circumstances for the standardization of terms: 1) the linguistic meaning coincides with the meaning of the concept; 2) there is no linguistic meaning; 3) the meaning of the concept coincides with the linguistic meaning.

BEYNƏLXALQ TERMƏTLƏRİN MİLLİ DİLƏ UYĞUNLAŞDIRILMASI XÜSUSİYYƏTLƏRİ

Elmi-texniki terminologiyanın standartlaşdırılmasının əsas məqsədi beynəlxalq terminlərin birmənalı başa düşülməsini təmin etməkdir. Elə terminlər var ki, müəyyən sahəyə aid olmaqla yanaşı, başqa sahələrdə də işlənir. Belə terminlər ekvivalentliyi təmin edirlər. Müasir dövrdə elmlərin inteqrasiyası və differensiallaşdırılması oxşar və müxtəlif sahələrə aid olan terminlərdən istifadə etməyə imkan verir. *[Terminologiya məsələləri, Bakı, Elm, 1987, s.36-37]*.

Elmi-texniki terminologiyanın beynəlxalq səviyyədə standartlaşdırılmasının əsas vəzifələrinə aşağıdakılar daxildir: 1) müasir elmi biliklərin və texniki inkişafın səviyyəsinin termin standartında təyin edilməsi; 2) milli dilin və beynəlxalq terminologiyanın uyğunlaşdırılması, onların uyğunluğunun və aktuallığının qarşılıqlı şəkildə təmin edilməsi;

Standartlaşdırma prosesində həll yolu terminlər uyğunsuzluğunu tamamilə və ya qismən aradan qaldırmaqdır. Uyğunsuzluğu aradan qaldıra bilmədiyimiz təqdirdə terminin iki variantını saxlamaq mümkündür. Belə olan tıqdirdə alınmaların çoxu milli dildəki sözlərlə paralel işlənir. Standartlaşdırma prosesi zamanı ana dilinə ötürülən terminlər terminoloji leksik paralelliyə səbəb olur. Terminlərin linqvistik dəqiqliyi üçün aşağıdakı meyarlar təklif olunur: 1) mənanın tam ifadəsi və çatdırılması; 2) başa düşülənlik; 3) ixtisasa uyğunluq; 4) dəqiqlik; 5) qeyri-müəyyənliyin aradan qaldırılması; 6) vahidlik. *[Sadıqova S.A. Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı. Bakı, Elm, 2005, s.112]*.

Terminlərin standartlaşdırılması üçün bir sıra halların nəzərə alınması vacibdir. Terminlərin ötürülməsi prosesində anlayışın mənası linqvistik məna ilə üst-üstə düşməlidir.

Açar sözlər: Elmi-texniki terminologiya, terminologiyanın standartlaşdırılması, terminlərin linqvistik uyğunluğu, terminlərin ekvivalentliyi, terminlərin semantik uyğunluğu.

BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ DİLÇİLİK MƏSƏLƏLƏRİ

Məhrux Dövlətzadə
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCİD.org/-0000-0002-2366-6097
mahdovlat@gmail.com
Azərbaycan/Bakı

Azərbaycanın paytaxtı Bakı şəhərində 1926-cı il26 fevral-5 mart tarixlərində keçirilmiş Birinci Türkoloji Qurultay türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni inteqrasiyasında yeni bir mərhələnin təməlini qoyan ən əlamətdar hadisələrdən biridir Bu toplantıda yaxın gələcəyə yönələn mühüm qərarlar qəbul edilmiş və ən başlıcası keçmiş Sovet İttifaqı məkanında yaşayan bütün türk xalqları üçün latın qrafikalı əlifbaya keçidin elmi-metodoloji prinsipləri işlənib hazırlanmışdır. Hələ XIX əsrdən M.F.Axundovun başladığı və mütərəqqi ziyalılarımızın uğrunda fəal mübarizə apardığı yeni əlifba ideyası sovet hakimiyyətinin ilk günlərindən dövlət tərəfindən himayə olunmağa başladı.Əslində 1921-1922-ci illərdən başlayaraq Azərbaycan ziyalıları yığıncaqlarda bu məsələ ilə bağlı müxtəlif fikirlər səsləndirirdilər. Bu da ona gətirib çıxartdı ki, iki dəstə yarandı. Latınçılar və islahatçılar. Latınçılar deyəndə latın əlifbasına keçidin tərəfdarları, islahatçılar deyəndə isə ərəb əlifbasında təkmilləşdirmə aparmaq tərəfdarları nəzərdə tutulur. Latınçılar əlifba layihəsi təqdim etdilər, islahatçılar isə heç nə vermədilər. 1922-ci ilin mayında Azərbaycan Xalq Komissarlar Soveti yanında "Yeni türk əlifba komitəsi" yaradıldı və latın qrafikasına keçidin əsası qoyulurdu.. 1924-1925-ci tədris ilindən başlayaraq 1-ci siniflərə yeni əlifba ilə dərs keçirdilər (*HacıyevT. Azərbaycan ədəbi dili tarixi II hissə, Bakı, Elm, 2012, 389 s.).* Birinci Türkoloji Qurultayda əlifba məsələsinin qoyulması bu işi daha da sürətləndirdi. Türkoloji Qurultayda türklər üçün ədəbi dil məsələsindən də daha səs-küylü, ətrafında ən qızğın mübahisə gedən məsələ əlifba məsələsi oldu. Əlifbanın müzakirəsi beş iclası əhatə etmişdi. Əslində, Moskvanın bu qurultayı təşkil etməsi türk xalqlarını əzizləməsindən irəli gəlmirdi. O, bir tərəfdən türklərin bir-biri ilə ünsiyyətini kəsmək, o biri tərəfdən, onları öz qədim, dolğun tarixlərindən məlumatsızlaşdırmaq istəyirdi. "Elmi terminologiyanın sistemi haqqında" məruzəsində Bəkir Çobanzadə qeyd edir ki, Asiya tarixinin ən mühüm, ən uca dövrləri, monqollar, hunlar, teymurilər dövrü, ya islamın yayılma dövrü bu əlifba ilə yazılmışdı. Gələcək türk nəsilləri öz babalarının bu şanlı tarixini oxuya bilməyəcək, kimin övladları olduqlarından xəbərsiz qalacaq və tarixini 1920-ci illərdən başlandığını sanacaqlar və türklər özlərini "böyük rus tarixinin" qarşısında yazıq sanacaqdılar.

Açar sözlər: Qurultay, Türkoloji, Bakı, əlifba, müqayisəlidilçilik

FIRST TURCOLOGY CONGRESS AND LINGUISTIC ISSUES

The First Turkological Congress, held in Baku, the capital of Azerbaijan, from February 26 to March 5, 1926, is one of the most significant events that laid the foundation for a new stage in the cultural integration of the Turkic peoples, including the Azerbaijani people. Important decisions were made at this meeting, which were aimed at the near future, and most importantly, scientific and methodological principles for the transition to the Latin script for all Turkic peoples living in the former Soviet Union were developed. .The idea of a new alphabet, which was initiated by M.F. Akhundov in the 19th century and for which our progressive intellectuals actively fought, began to be supported by the state from the first days of Soviet power. In fact, starting from 1921-1922, Azerbaijani intellectuals voiced different opinions on this issue at meetings. This led to the formation of two groups. Latinists and reformers.

When we say Latinists, we mean supporters of the transition to the Latin alphabet, and when we say reformers, we mean supporters of improving the Arabic alphabet. The Latinists presented a draft alphabet, while the reformers did not provide anything. In May 1922, the "New Turkic Alphabet Committee" was created under the Council of People's Commissars of Azerbaijan, and the foundation for the transition to Latin graphics was laid. Starting from the 1924-1925 academic year, first graders were taught with the new alphabet (*Hajiyev T. History of the Azerbaijani literary language, part II, Baku, Elm, 2012, 389 p.).* The issue of the alphabet was raised at the First Turkological Congress, which accelerated this work even more. The issue of the alphabet was the most heated debate for the Turks at the Turkological Congress, even louder than the issue of the literary language. The discussion of the alphabet covered five meetings. In fact, Moscow's organization of this congress did not stem from its affection for the Turkic peoples. On the one hand, it wanted to cut off communication between the Turks and each other, and on the other hand, to make them unaware of their ancient, rich history. In his report "On the System of Scientific Terminology," Bekir Chobanzadeh notes that the most important, most glorious periods of Asian history, the era of the Mongols, Huns, Timurids, or the era of the spread of Islam, were written in this alphabet. Future generations of Turks will not be able to read this glorious history of their ancestors, will remain unaware of whose children they are and will think that their history began in the 1920s, and the Turks will feel pitiful in front of the "great Russian history".

Key words: Congress, Turkology, Baku, alphabet, comparative linguistics.

I TÜRKOLOJİ QURULTAY İŞTİRAKÇISI ƏBDÜL-HƏMİD CANİBEKOVUN NOQAY DİLİNİN İNKİŞAFINDA ROLU

Aynur Cəfərova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/0009-0000-2034-186
ceferova1987@internet.ru
Azərbaycan/Bakı

XX əsrin əvvəlləri türk xalqlarının dilinin, tarixinin və mədəniyyətinin elmi şəkildə öyrənilməsində mühüm mərhələ hesab olunur. Bu dövrdə türk xalqları arasında elmi əməkdaşlığın genişlənməsi, ortaq problemlərin müzakirəsi məqsədilə bir sıra elmi toplantılar keçirilmişdir. 1926–cı ildə Bakıda təşkil edilən I Türkoloji Qurultay türk xalqlarının dilinin inkişafı, əlifba məsələsi, ədəbiyyat və tarixi problemlərinin müzakirəsi baxımından böyük əhəmiyyət daşımışdır. Qurultayda iştirak etmiş alimlərdən biri olan noqay alimi Əbdül-Həmid Canibekov noqay xalqının dili, folkloru və etnoqrafiyası ilə məşğul olmuş ziyalılardan biri kimi tanınmışdır. O, 1879-cu ildə Tsarev vilayətinin Həştərxan şəhərində anadan olmuş, ilk təhsilini dini məktəbdə almışdır. Sonralar dünyəvi təhsilini məşhur tatar pedaqoqu Abduraxman Umerovun tələbəsi olaraq öz biliklərini genişləndirmişdir *(https://nogaici.ucoz.ru/publ/1/-dzhanibekov_abdul_khamid_sharshenbievich_1879_1955/4-1-0-726).* O, folklor materiallarının araşdırılması və noqay dilinin inkişafı istiqamətində mühüm işlər görmüş və eyni zamanda maarifçilik fəaliyyəti ilə də məşğul olmuşdur.

Əbdül-Həmid həmçinin ana dilində təhsilin inkişafı istiqamətində çalışaraq, 1901-1917-ci illərdə bir neçə noqay məktəbi açılmasına nail olmuşdur. 1928-ci ildə latın əlifbası əsasında əlifba işini tamamlamış, 1938-ci ildə isə kiril əlifbası əsasında noqay dilinin qrammatikasını yazmışdır. Əsas əsəri dördcildlik noqay folkloru "Soyuz kanası" və "Sözlər xəzinəsi"dir *(https://astrakult.ru/abdul-hamid-dzhanibekov-folklor-stal-smyslom-ego-zhizni/).* Alimin fəaliyyəti yalnız elmi sahə ilə məhdudlaşmamışdır. O, türk xalqları arasında mədəni əlaqələrin güclənməsinə də töhfə vermişdir. Bakıda keçirilən Türkoloji Qurultayda noqay xalqını təmsil edərək türk xalqlarının dillərinin öyrənilməsi və inkişaf ilə bağlı müzakirələrdə iştirak etmiş, xüsusilə kiçik türk xalqlarının dillərinin qorunmasının vacibliyini vurğulamışdır. Alim noqay dilinin öyrənilməsi, onun qrammatik xüsusiyyətlərinin araşdırılması və yazı sisteminin inkişafı məsələlərinə diqqət yetirmişdir. Onun fəaliyyəti türkoloji elmin inkişafına, xüsusilə noqay xalqının mədəni irsinin qorunmasında xüsusi rol oynamış, topladığı folklor materialları və dil haqqında araşdırmaları gələcək tədqiqatçılar üçün dəyərli mənbə olmuşdur. O, türkoloji tədqiqatların inkişafında mühüm iz qoymuş ziyalılardan biri kimi tarixdə öz yerini tutmuşdur.

Açar sözlər: Birinci Türkoloji Qurultay, türk xalqları, Əbdül-Həmid Canibekov, əlifba, noqay dilləri.

THE ROLE OF ABDUL-HAMID DZHANIBEKOV, PARTICIPANT OF THE 1ST TURCOLOGY CONGRESS, IN THE DEVELOPMENT OF THE NOGAI LANGUAGE

The beginning of the 20th century is considered an important stage in the scientific study of the language, history and culture of the Turkic peoples. During this period, a number of scientific meetings were held to expand scientific cooperation between the Turkic peoples and discuss common problems. The First Turkological Congress, organized in Baku in 1926, was of great importance in terms of discussing the development of the language of the Turkic peoples, the issue of the alphabet, literature and historical problems. One of the scientists who participated in the congress, the Nogai scholar Abdul-Hamid Janibekov, was known as one of the intellectuals who dealt with the language, folklore and ethnography of the Nogai people. He was born in 1879 in the city of Astrakhan, Tsarev province, and received his first education in a religious school. Later, he expanded his secular education as a student of the famous Tatar pedagogue Abdurakhman Umerov. He did important work in the direction of researching folklore materials and developing the Nogai language, and at the same time was engaged in educational activities.

Abdul-Hamid also worked towards the development of education in the native language, and in 1901-1917 he succeeded in opening several Nogai schools. In 1928, he completed work on the alphabet based on the Latin alphabet, and in 1938 he wrote a grammar of the Nogai language based on the Cyrillic alphabet. His main works are the four-volume Nogai folklore "Soyuz kana" and "Treasure of Words". The scientist's activities were not limited to the scientific field. He also contributed to the strengthening of cultural ties between the Turkic peoples. Representing the Nogai people at the Turkological Congress held in Baku, he participated in discussions on the study and development of the languages of the Turkic peoples, especially emphasizing the importance of preserving the languages of small Turkic peoples. The scientist paid attention to the study of the Nogai language, the study of its grammatical features and the development of the writing system. His activities played a special role in the development of Turkological science, especially in the preservation of the cultural heritage of the Nogai people, and his collected folklore materials and studies on the language were a valuable source for future researchers. He took his place in history as one of the intellectuals who left a significant mark on the development of Turkological research.

Key words: First Turkological Congress, Turkic peoples, Abdul-Hamid Janibekov, the alphabet, Nogai languages.

TÜRK DİLLƏRİNDƏ KORPUS DİLÇİLİYİ VƏ ELEKTRON LÜĞƏTÇİLİK PERSPEKTİVLƏRİ

Fidan Nəzərli
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/0000-0002-4517-6048
Nazarli.fidan1@gmail.com
Azərbaycan/Bakı

Türk dilləri zəngin tarixə və mədəniyyətə sahib olduğundan lüğətçilik də türk dillərində çox qədim tarixə əsaslanır. Bildiyimiz kimi, türk dillərində lüğətçilik anlayışı daha çox orta əsrlərdən inkişaf etməyə başlamışdır. Bu sahədə ən böyük və məşhur əsər isə müəllifi Mahmud Kaşğari olan "Divani-lüğət-it-türk" hesab olunur.

Buna baxmayaraq, müasir dövrün tələblərinə uyğun olaraq bugünki günümüzdə elektron lüğətçilik daha çox inkişaf etmişdir. Müasir rəqəmsal lüğətlər ənənəvi (çap) lüğətlərdən fərqli olaraq interaktiv axtarış, tez-tez yenilənmə və çoxdilli inteqrasiya imkanları ilə seçilir ki, bu isə öz növbəsində türk dillərinin həm elmi tədqiqi, həm də tədrisi üçün yeni perspektivlər açır. Türk dillərinin rəqəmsal tədqiqində korpus dilçiliyi və elektron lüğətçilik bir-birini tamamlayan iki əsas istiqamət kimi çıxış edir.

Korpus dilçiliyi çərçivəsində yaradılan elektron mətn bazaları dil vahidlərinin real kommunikativ mühitdə işlənməsini sistemli şəkildə izləməyə imkan verir və bu da təbii ki, leksik, qrammatik və praqmatik xüsusiyyətlərin daha obyektiv şəkildə təhlilinə şərait yaradır. Belə ki, korpuslar əsasında əldə olunan məlumatlar elektron lüğətlərin hazırlanmasında mühüm rol oynayır, çünki sözlərin mənası və istifadəsi artıq yalnız nəzəri izahlarla deyil, konkret kontekst nümunələri ilə təqdim olunur. Bu baxımdan, Türk dilləri üzrə ən çox istifadə edilən *Azleks*, *Sesli Sözlük*, *Glosbe*, *Sozdik.kz*, *Lexilogos.com* və s. kimi platformalar da geniş kontekstual nümunələr təqdim etməklə korpus məlumatlarının lüğətçilikdə tətbiqini gücləndirir. Bunları nəzərə alaraq demək olar ki, korpus lingvistikası ilə elektron lüğətçiliyin inteqrasiyası türk dillərinin həm elmi tədqiqi, həm də praktiki öyrənilməsi üçün daha dəqiq, dinamik və istifadəçi yönümlü yanaşma formalaşdırır.

Açar sözlər: korpus linqvistikası, rəqəmsal lüğətlər, platformalar, kontekstual nümunələr, çoxdilli inteqrasiya.

CORPUS LINGUISTICS AND ELECTRONIC DICTIONARY PERSPECTIVES IN TURKIC LANGUAGES

Since Turkic languages have a rich history and culture, lexicography is also based on a very ancient history in Turkic languages. As we know, the concept of lexicography in Turkic languages began to develop in the Middle Ages. The largest and most famous

work in this field is considered to be Divani- lugati`t-Turk, authored by Mahmud Kashgari.

Nevertheless, electronic lexicography has developed more in accordance with the requirements of the modern era. Modern digital dictionaries, unlike traditional (printed) dictionaries, are distinguished by interactive search, frequent updating and multilingual integration capabilities, which in turn opens up new perspectives for both scientific research and teaching of Turkic languages. Corpus linguistics and electronic lexicography act as two main complementary directions in the digital research of Turkic languages.

The first Turkolojical Congress held in Baku in February-March 1926 became an important literary and cultural event in the study of the history, ethnography, language and literature of the Turkic peoples. Professor of Istanbul University M.F.Köprülüzade (1890-1966) was also invited and made a report on "development of literary language in Turkic peoples". He viewed the Congress as a means of showing that the Turks began to boldly advance on the path of enlightenment. M.F.Köprülüzade divided the development of Turkic languages into pre-and post-Islamic stages, showing that the pre-Islamic Turkic languages were divided into several dialects. He came to the conclusion that the Turks who lived before Islam had their own alphabets, writing cultures, and the Turks who spoke some dialects used these alphabets. The scientist considered the language used by the Turks who lived before Islam, including the language of the Orkhan inscriptions, to be a refined and corrected literary language. It also confirmed the existence of works in the Turkish language close to the Sassanid period. He compared kashoarli's "Divan"with historical and linguistic sources, and put forward the idea that there are two Turkic dialects: eastern and Western Turkic literary dialects. He called the East Turkish literary dialect "Khaganiyya" or "Turkish" dialect, stating that it was used in and around Kashöar. The Western Turkic literary dialect was called "Oguz", noting the existence of phonetic and morphological differences between both Turkic dialects. In the Quran, the name of the Prophet (peace and blessings of Allah be upon him) is mentioned in the Qur'an.It was reminiscent of the works of yesavi and his contemporaries. He also emphasized that the Oguz dialect, which was formed under the influence of various historical factors, was divided into Eastern and Western groups in the 8th century A.D. The eastern Oguz dialect was called" Azeri", and the Western Oguz Ahja was called" Anatolian dialect". Thousands of works of art were created in these dialects. The scientist stated that the literary languages of the Turkic peoples were not studied properly, but it was important to study, the possibility of Turkic linguistic unity. and he had expressed confidence that it would arise. One of the issues of concern to köprülüzade was that the literary histories of the Turkic peoples were not studied on such a scientific basis as kifyat. He considered it necessary to create the literary histories of the Turkic peoples, advised to take advantage of the methods of studying world literature. According to köprülüzade, the history of literature is part of the history of culture. He was deeply convinced that the research on the study of the history of Turkish literature would yield great results in a short time.

Key words: literary language, alphabet, Oguz dialect, Turkic language union, history of literature.

TÜRKİYE'DEKİ NİZÂMÎ GENCEVÎ ARAŞTIRMALARININ BİBLİYOMETRİK PROFİLİ: EĞİLİMLER, ODAKLAR VE GELECEK PERSPEKTİFLERİ

Aysun ÇELİK
doçent doctor
Hacettepe Üniversitesi
https//ORCID.org/0000-0002-4734-1676
aysuncelik@hacettepe.edu.tr
Türkiye/Ankara

Klasik Türk edebiyatı hikâyeciliğinin rehberlerinden, mesnevi geleneğinin en önemli temsilcilerinden, hamse geleneğinin bânîsi, Türklük ruhunun hâmîsi, dünyanın en büyük Türk şairlerinden Nizâmî Gencevî; Türkiye'deki akademik çalışmalar içerisinde, uzun yıllar hak ettiği ilgiden mahrum kalmıştır. Ancak 2000'li yıllardan bu yana "Nizâmî Gencevî araştırma ve çalışmaları"nda gözle görülür bir artış olmuştur. Bu bildiri, Türkiye'de Nizâmî Gencevî ve eserleri üzerine yapılan araştırmaların tarihsel sürecini, başlangıçtaki bu ihmal edilmişlikten günümüzdeki yükselen ilgiye kadar olan seyrini, bibliyometrik bir yaklaşımla analiz etmeyi amaçlamaktadır. Araştırma kapsamında, literatürdeki mevcut verilerden hareketle; Türkiye'deki ilgili çalışmaların yıllara göre dağılımı, odaklanılan eserler, akademik türler, tematik yoğunluklar, üniversitelerin ve diğer kurumların Nizâmî çalışmalarına katkıları tespit, tasnif ve tahlil edilmiştir. Yapılan analizler, Nizâmî külliyatına yönelik akademik ilginin özellikle "Leylâ vü Mecnûn" ve "Hüsrev ü Şîrîn" gibi belirli mesneviler üzerinde kümelendiğini göstermektedir. Buna mukabil, zamanla hamsenin diğer mesnevilerine de yönelindiği ve disiplinler arası çalışmaların da yeni yeni şekillenmeye başladığı tespit edilmiştir. Bu bildiride, mevcut literatürün durumu değerlendirilerek Türkiye'deki Nizâmî algısının "ihmalden ilgiye" uzanan dönüşümü somut verilerle ortaya konulacak ve gelecekteki çalışmalar için önerilerde bulunulacaktır. Böylece, Türkiye ile Azerbaycan arasındaki ortak edebî mirasın başında gelen Nizâmî Gencevî'nin Türk ruhu ve kültürel kodlarıyla nasıl yeniden inşa edildiği, nasıl taze tutulduğu ve nasıl korunacağı ortaya konulmuş olacaktır.

Anahtar Kelimeler: Nizâmî Gencevî, Hamse, Bibliyometrik Analiz, Ortak Türk Edebiyatı, Azerbaycan-Türkiye Edebî İlişkileri.

A BIBLIOMETRIC PROFILE OF NIZAMI GANJAVI RESEARCH IN TÜRKİYE: TENDENCIES, FOCUSES, AND FUTURE PERSPECTIVES

Nizami Ganjavi -one of the guides of Classical Turkish literature storytelling, one of the most important representatives of the masnavî tradition, the founder of the khamsa tradition, the protector of the Turkish spirit, and one of the world's greatest Turkish poets- has been deprived of the attention he deserves within academic studies in

Türkiye for many years. However, since the 2000s, there has been a visible increase in "Nizami Ganjavi research and studies". This paper aims to analyze the historical process of the research conducted on Nizami Ganjavi and his works in Türkiye, tracing its course from this initial neglect to the rising interest of today through a bibliometric approach. Within the scope of the research, based on existing data in the literature; the distribution of relevant studies in Türkiye by years, the works focused on, academic types, thematic densities, and the contributions of universities and other institutions to Nizami studies have been identified, classified, and analyzed. The analyses conducted show that academic interest in the Nizami corpus is clustered particularly around specific masnavîs such as "Layla and Majnun" and "Khusraw and Shirin". On the other hand, it has been determined that, over time, interest has shifted towards other masnavîs of the khamsa and that interdisciplinary studies have just begun to take shape. In this paper, by evaluating the current state of the literature, the transformation of the perception of Nizami in Türkiye from "neglect to interest" will be presented with concrete data, and recommendations for future studies will be provided. Thus, it will be revealed how Nizami Ganjavi, who is at the forefront of the shared literary heritage between Türkiye and Azerbaijan, is reconstructed with the Turkish spirit and cultural codes, and how he is kept fresh and protected.

Key words: Nizami Ganjavi, Khamsa, Bibliometric Analysis, Shared Turkish Literature, Azerbaijan-Türkiye Literary Relations.

A.Y.KULAKOVSKİNİN "YAKUT ZİYALILARINA" MƏKTUB ƏSƏRİNDƏN I ÜMUMİTTİFAQ TÜRKOLOJİ QURULTAYA GEDƏN YOL

Sevinc İmanova
filologiya üzrə fəlsəfə doktoru
Bakı Slavyan Universiteti
https://ORCID.org/ 0009-0007-4447-2228
sevinc10@rambler.ru
Azərbaycan/Bakı

A.Y.Kulakovski XX əsrin əvvəllərində yakut-saxa ziyalılarının görkəmli siması, yakut ədəbiyyatının banisi, böyük mütəfəkkir, ictimai xadim və çoxşaxəli alim idi. Onun baxışlarına, yakut dili ilə bağlı əsərlərinə tez-tez istinad edilir. Bu əsərlər müasir elmi tədqiqatlar üçün əsas mənbə yeridir. Onun ən əhəmiyyətli əsərlərindən biri olan 1912-ci ildə "Öksöküleex Ölöksöy" təxəllüsü ilə yazılmış "Yakut ziyalılarına" məktub əsəridir. Gələcəyə məktub olan bu əsərdə müəllif inandırıcı şəkildə yerli əhalinin alkoqolizm, tütün istifadəsi və qumar oyunları səbəbindən məhv olduğunu iddia edir və xalqı bu pis vərdişlərdən azad olmağa çağırır. O, "mədəniyyət" sözünü geniş mənada istifadə edir. Bu məfhum ümumi inkişafı, həyat tərzini və hər kəsin həyat səviyyəsinin yaxşılaşdırılmasını əhatə edir. Yaşamaq yolunu müəyyən etmək üçün Kulakovski iqtisadi təhlil aparmış və gələcəkdə baş verən hadisələri proqnozlaşdırmış, həyat qurmaq üçün istiqamətlər təklif etmişdir. Beləliklə, "Yakut ziyalılarına" məktub aqrar iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid dövründə inkişaf üçün konkret təkliflər verən bir konsepsiyadır. 1926-cı ildə Aleksey Yeliseyeviç Kulakovski Bakıda keçirilən Birinci Türkoloji Qurultayda Yakutiya MSSR-in təmsil edəcək nümayəndə kimi seçilmişdi. Lakin uzaq yol ağır xəstəliyə səbəb oldu. O, üç əməliyyatdan sonra 6 iyun 1926-cı ildə 49 yaşında Moskvada vəfat etdi və Danilovsk qəbiristanlığında dəfn edildi.

Bu baxımdan Azərbaycanın görkəmli ictimai xadimi, tənqidçi, ədəbiyyatşünas, tərcüməçi Vilayət Quliyevin "Buzlu Yakutiyadan Bakıya türklük sevdası ilə..." məqaləsini də qeyd etmək zəruridir. Onun bu barədə fikirləri maraqlıdır: "Bakı qurultayında iştirak nəticəsində... yakutlar bağlı qapıları açmış, hasardan keçib türkoloqlar sırasında haqq etdikləri yeri tutmuşdular". (*Quliyev V.M. Buzlu Yakutiyadan Bakıya türklük sevdası ilə. Birinci Türkoloji Qurultay nümayəndələrinin izi ilə. Yakut-Saxa nümayəndə heyəti Birinci Türkoloji qurultayda.* URL:https://www.anl.az/-down/meqale525/2025/noyabr/975951.htm).

Açar sözlər: Birinci Ümumittifaq Türkoloji Qurultay, milli ədəbiyyat, Yakut ziyalıları, Kulakovski.

FROM A.Y.KULAKOVSKY'S LETTER "TO THE YAKUT INTELLIGENTSIA" THE ROAD TO THE FIRST ALL-UNION TURCOLOGY CONGRESS

A.Y.Kulakovsky was a prominent figure of the Yakut intelligentsia of the beginning of the XX century, the founder of Yakut literature, a great thinker, public figure and multidisciplinary scientist. In researches and works on the Yakut language his works are often referred to. These works are the main source for modern scientific researches. One of his most important works – Address "To the Yakut Intelligentsia", written in 1912 under the pseudonym Oksoekulueeh Oloeksoey is analysed. In the work, the author convincingly claims that the local inhabitant is being destroyed by alcoholism, tobacco use and gambling, and calls the people to free themselves from these bad habits. A.Y.Kulakovsky uses the word "culture" in a broad sense. In this concept different notions, such as general development, lifestyle, and improving the standard of living of everyone are included. In order to determine the way to survive, A.Y.Kulakovsky conducted an economic analysis and predicted future events, suggesting directions for building a life. Thus, the Adress "To the Yakut Intelligentsia" is a program that provides specific proposals for development in period of transition from an agrarian economy to a market economy. In 1926, Alexei Yeliseyevich Kulakovsky was elected in the First Turkological Congress held in Baku as a delegate, representing the Yakut ASSR. However, the long journey caused a serious illness. After three operations, he died in Moscow on June 6, 1926 at the age of 49 and was buried at the Danilovsk cemetery.

In this regard, it is necessary to mention the article "From icy Yakutia to Baku with a love of Turkism..." by Vilayat Guliyev, a prominent Azerbaijani public figure, critic, literary critic, and translator. His thoughts on this are interesting: "As a result of participating in the Baku congress... the Yakuts opened closed doors, broke through the fence, and took their rightful place among Turkologists".

(*Quliyev V.M. Buzlu Yakutiyadan Bakıya türklük sevdası ilə. Birinci Türkoloji Qurultay nümayəndələrinin izi ilə. Yakut-Saxa nümayəndə heyəti Birinci Türkoloji qurultayda.* URL:https://www.anl.az/down/meqale/525/2025/noyabr/975951.htm).

Key words: First All-Union Turkological Congress, national literature, Yakut intellectuals, Kulakovsky.

"LİSÂNÜ'T-TAYR" MUKADDİMESİNDE DÖRT HALİFE (HULEFÂ-İ RÂŞİDÎN) TASVİRİ VE MANEVÎ DOSTLUK ÖLÇÜTLERİ

A'loxon Maxmudov
Şehrisebz Devlet Pedagoji Enstitüsü
https://ORCID.org/0009-0004-8269-9034
aloxonmaxmudov54@mail.ru
O'zbekiston/ Shahrisebz

"Lisanü't-tayr" mesnevisinin mukaddime bölümleri, klasik Doğu edebiyatı mesnevilerine özgü bir yapıda düzenlenmiş olup; hamd (Allah'a övgü), na't (Peygamber Muhammed s.a.v'e methiye), halifelerin övgüsü, sebeb-i telif (eserin yazılış nedeni) ve kuşların toplanmasını kapsar. Ancak Navoî, bu bölümleri yalnızca biçimsel bir unsur olarak değil, tasavvufî fikirlerin ilk tezahürü olarak yorumlar.Ali Şîr Nevaî'nin "Lisanü't-tayr" eserinin mukaddimesinde yer alan Dört Halife (Hulefâ-yi Râşidîn) methi, sadece dinî-tarihî bir saygı ifadesi olmayıp, eserin merkezî kavramı olan "Dost"a (Mutlak Hakikat) ulaşan manevî yolun temelini oluşturur. Navoî, Dört Halife şahsiyetinde kemal düzeyindeki dostluğun dört temel ilkesini sanatsal bir biçimde somutlaştırır.

1. **Ebû Bekir Sıddîk: Doğruluk ve sadakat ölçütü** Navoî onu "Yâr-ı Gâr" olarak nitelendirirken, dostluğun ilk şartı olarak mutlak güveni öne çıkarır. "Hazine ve Ejderha" mecazı aracılığıyla Peygamber'i (s.a.v) ilahî bir hazineye, Sıddîk'ı ise onu fedakârca koruyan bir bekçiye benzetir. Bu, sâlikin mürşidine veya Hakikat'e olan bağlılığında sadakatin ölçüsüdür

2. Hz**. Ömer: Adalet ve zühd ölçütü** Navoî, Hz. Ömer (r.a) şahsiyetinde dostluğun adalet ve nefse galip gelme boyutlarını açığa çıkarır. Medâin'in fethi kıssası aracılığıyla, gerçek dostluğun kişisel menfaatten vazgeçip dostun emanetine (ilahî yola) ihanet etmemek olduğunu ortaya koyar. Onun heybeti ve kanaatkârlığı, sâlikin kalbinin maddiyattan arınması gerektiğini ifade eder.

3. Hz**. Osman: Haya ve edep ölçütü** Müellif, Hz. Osman'ı (r.a) "haya hazinesi" ve "Zinnûreyn" olarak tasvir eder. Peygamberimizin onun huzuruna girdiğinde hâlini düzeltmesiyle ilgili rivayet, manevî dostlukta "edep perdesi"nin ne kadar önemli olduğunu gösterir. Dostluk, birbirinin iç dünyasına derin bir saygı göstermenin sanatıdır.

4. Hz. Ali: İlim ve istiğrak ölçütü Hz. Ali (r.a) methinde dostluğun en yüksek mertebesi olan "ittihad" (birleşme) kavramı ele alınır. Namaz esnasında ayağından okun çıkarılması kıssası üzerinden, sâlikin ilahî aşka dalma hâli ve bu süreçte kâmil rehberin kurtarıcı rolü temellendirilir.

Mukaddimede yer alan bu dört özellik – doğruluk (sidk), adalet (adl), haya ve ilim – sâlikin "Simurg"a doğru yolculuğunda gerekli temel vasıtalardır. Navoî'nin

"Dost" anlayışı, eserin daha başlangıcında sistemli bir şekilde ortaya konmuş olup, bu ölçütler olmaksızın manevî kemale ulaşmak mümkün değildir.

Anahtar kelimeler: Dört Halife (Ebu Bekir es-Sıddık, Hz. Ömer, Hz. Osman, Hz. Ali), dostluk, hakikat, mizan (ölçü), Semrug, ruhsal yolculuk.

THE DEPICTION OF THE FOUR RIGHTLY GUIDED CALIPHS (AL-KHULAFĀʾ AL-RĀSHIDŪN) IN THE PROLOGUE OF "LISĀN AL-ṬAYR" AND THE CRITERIA OF SPIRITUAL FRIENDSHIP

The introductory (muqaddima) sections of Lisanü't-tayr by Ali Shir Navai are structured in accordance with the conventions typical of classical Eastern masnavi literature. These include *hamd* (praise of God), *na'ṭ* (eulogy of the Prophet Muhammad, peace be upon him), praise of the Rightly Guided Caliphs, *sabab-i ta'līf* (the reason for composition), and the gathering of the birds. However, Navai interprets these sections not merely as formal components, but as the initial manifestations of Sufi thought.In the muqaddima of *Lisanü't-tayr*, the praise of the Four Rightly Guided Caliphs (*al-Khulafā' al-Rāshidūn*) is not simply an expression of religious-historical reverence; rather, it constitutes the foundation of the spiritual path leading to the "Friend" (the Absolute Truth), which stands as the central concept of the work. Through the personalities of the Four Caliphs, Navai artistically embodies four fundamental principles of perfected spiritual friendship.**Abū Bakr al-Ṣiddīq: معيار الصدق والإخلاص (Criterion of Truthfulness and Fidelity)** Referring to him as *Yār-i Ghār* (the Companion of the Cave), Navai emphasizes absolute trust as the primary condition of friendship. Through the metaphor of the "Treasure and the Dragon," he likens the Prophet (peace be upon him) to a divine treasure and al-Ṣiddīq to a devoted guardian who protects it selflessly. This symbolizes the measure of fidelity in the seeker's devotion to the spiritual guide or to the Truth itself.

ʿ**Umar ibn al-Khaṭṭāb: Criterion of Justice and Asceticism** In the figure of ʿUmar, Navai reveals the dimensions of justice and mastery over the self within friendship. Through the narrative of the conquest of Madā'in, he illustrates that true friendship requires renouncing personal gain and remaining faithful to the trust of the Beloved (the divine path). His majesty and contentment signify the necessity for the seeker's heart to be purified from material attachments. ʿ

Uthmān ibn ʿAffān: Criterion of Modesty and Decorum The author portrays ʿUthmān as the "treasure of modesty" and *Dhū al-Nūrayn* (the Possessor of Two Lights). The well-known narration that the Prophet adjusted his posture upon his arrival demonstrates the importance of the "veil of etiquette" in spiritual companionship. Friendship, in this sense, is the art of showing profound respect for the inner world of another. ʿ

Alī ibn Abī Ṭālib: Criterion of Knowledge and Spiritual Immersion In the

praise of ʿAlī, the highest stage of friendship – *ittiḥād* (union) – is addressed. Through the account of the arrow being removed from his foot during prayer, Navai establishes the state of immersion in divine love and highlights the salvific role of the perfected guide in this process.

The four qualities presented in the muqaddima − truthfulness (*ṣidq*), justice (*ʿadl*), modesty, and knowledge − constitute the essential means for the seeker's journey toward the Simurgh. Navai's conception of the "Friend" is thus systematically articulated at the very beginning of the work, and without adherence to these principles, the attainment of spiritual perfection remains impossible.

Key words: The Four Caliphs (Abu Bakr al-Siddiq, Caliph Umar, Caliph Uthman, Caliph Ali), friendship, truth, balance (criterion), Simurgh, spiritual journey.

"TÜRKLƏŞMƏK, İSLAMLAŞMAQ, AVROPALAŞMAQ" TRİADASININ YARADICISI

Şöhrət Məmmədova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/.0009-0006-6553-6385
sohret.nesirova24@gmail.com
Azəbaycan/Bakı

XX əsrdə Azərbaycan-Türkiyə ictimai fikrinin ən görkəmli simalarından biri, türkçülüyü sistemləşdirən və "türkləşmək, islamlaşmaq, avropalaşmaq" formulunu ortaya atan Əli bəy Hüseynzadə Azərbaycan mütəfəkkiri, yazıçısı və publisisti olmaqla yanaşı, uzun müddət alim, həkim, rəssam, şair, ədəbiyyatşünas, tərcüməçi, müəllim və jurnalist kimi çalışmışdır. O, babası Qafqaz Şeyxülislamı Əhməd Hüseynzadə və Mirzə Fətəli Axundzadənin təsiri altında böyümüşdür ki, bu iki şəxsiyyət də Əli bəy Hüseynzadənin uşaqlıqdan xalqına olan sevgisinə və türkçülüyü anlamasına dərin təsir göstərmişdir.

1885-ci ildə o, Sankt-Peterburq Universitetinin Riyaziyyat fakültəsinə daxil olmuş və Şərqşünaslıq fakültəsinin görkəmli professorlarının mühazirələrində iştirak etmişdir. Burada dövrün tanınmış alimləri - Dmitri Mendeleyev, Yeqor Vaqner, Nikolay Menşutkin, Nikolay Beketov, Valentin Jukovski və başqalarından təhsil alan Əli bəy həyatı boyu ümumbəşəri türk mənəvi dəyərlərini öyrənib təbliğ etmiş və parlaq istedadının bütün gücü ilə türklərin tərəqqisi uğrunda mübarizə aparmışdır.

Hüseynzadəni Azərbaycana "ağır başlı" filosof, "sədrə şəfa verən" sözlər (ağla qida verən sözlər) söyləyən mütəfəkkir kimi tanıdan "Həyat" qəzetinin nəşrinə dövrünün tanınmış ilahiyyatçısı, ictimai xadimi və publisisti Əhməd bəy Ağaoğlu ilə birlikdə milyonçu Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə nail olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağındakı üç rəngin (mavi, qırmızı və yaşıl) simvolizmi Əli bəy Hüseynzadənin və füyuzatçıların Azərbaycan vətəndaşının ideoloji və mənəvi dəyərlərinə tarixi töhfələri ilə əlaqələndirilir.

Ə.Hüseynzadə Azərbaycanda ortaq türk ədəbi dili konsepsiyasını irəli sürən bir türkoloq idi və bu ideyanı əsərlərində tətbiq etmiş və müdafiə etmişdir. O, türklərin təkcə Azərbaycanda deyil, həm də Rusiyada dövlət qurmaq potensialı haqqında nəzəriyyələr də irəli sürmüşdür. Hüseynzadə həmçinin bütün türklərin vahid bir millət olduğuna və buna görə də onların ortaq bir dili və yazılı mədəniyyəti olmalı olduğuna inanırdı. Hüseynzadə türk xalqları arasında milli və mənəvi birliyə nail olmaq üçün ortaq türk ədəbi dili üçün qaydalar hazırlamağın və ondan orta məktəblərdə və mətbuatda istifadə etməyin vacib olduğunu düşünürdü. Hüseynzadəyə görə, ədəbi dil bir millətin mövcudluğu və yaşaması üçün ən vacib şərtdir.

Açar sözlər: Türkoloq, alim, mütəfəkkir, şəxsiyyət, yazıçı.

THE CREATOR OF THE TRIAD "TURKISHIZATION, ISLAMIZATION, EUROPEANIZATION"

One of the most prominent figures of Azerbaijani-Turkish public opinion in the 20th century, Ali bey Huseynzade, who systematized Turkism and put forward the formula "Turkishization, Islamization, Europeanization", was an Azerbaijani thinker, writer and publicist, as well as a scientist, doctor, artist, poet, literary critic, translator, teacher and journalist for a long time. He grew up under the influence of his grandfather, the Caucasian Sheikh-ul-Islam Ahmad Huseynzade, and Mirza Fatali Akhundzade, both of whom had a profound impact on Ali bey Huseynzade's love for his people and understanding of Turkism from childhood. In 1885, he entered the Mathematics Faculty of St. Petersburg University and attended lectures by prominent professors of the Faculty of Oriental Studies. Here, Ali Bey, who studied with famous scientists of the time - Dmitry Mendeleyev, Yegor Wagner, Nikolai Menshutkin, Nikolai Beketov, Valentin Zhukovsky and others, studied and propagated universal Turkish spiritual values throughout his life and fought for the progress of the Turks with all the power of his brilliant talent.

He achieved the publication of the newspaper "Hayat", which introduced Huseynzade to Azerbaijan as a "heavy-headed" philosopher, a thinker who spoke "healing words" (words that feed the mind), together with the well-known theologian, public figure and publicist of the time, Ahmed Bey Ağaoğlu, with the financial support of millionaire Haji Zeynalabdin Tagiyev.

The symbolism of the three colors (blue, red and green) on the state flag of the Azerbaijan Democratic Republic is associated with the historical contributions of Ali Bey Huseynzade and the Fuyuzatists to the ideological and spiritual values of Azerbaijani citizens.

A.Huseynzade was a Turkologist who put forward the concept of a common Turkish literary language in Azerbaijan, and he applied and defended this idea in his works. He also put forward theories about the potential of the Turks to establish a state not only in Azerbaijan, but also in Russia. Huseynzade also believed that all Turks were a single nation and therefore they should have a common language and written culture. Huseynzade believed that in order to achieve national and spiritual unity among the Turkic peoples, it was necessary to develop rules for a common Turkish literary language and use it in secondary schools and the press. According to Huseynzade, a literary language is the most important condition for the existence and survival of a nation.

Key words: Turkologist, scientist, thinker, personality, writer**.**

İPƏK YOLU MƏDƏNİYYƏTİ KONTEKSTİNDƏ ŞƏRQ NƏSRİNDƏ MODERNLƏŞMƏ VƏ QƏRB TƏSİRLƏRİ (LU SİN, HYON CİN-GON VƏ NA DO-HYANG YARADICILIĞI ƏSASINDA)

Leyla Həsənzadə
filologiya üzrə fəlsəfə doktoru
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
https://ORCID.org/0009-0006-7093-0598
qasanzade.leyla@mail.ru
Azərbaycan/Bakı

Böyük İpək Yolu tarixən Şərq və Qərb arasında yalnız iqtisadi deyil, həm də mədəni və ədəbi mübadilənin əsas kanallarından biri kimi mühüm rol oynamışdır. Bu tədqiqatda İpək Yolunun ədəbi modernləşmə prosesində rolu Çin və Koreya nəsrinin inkişafı kontekstində geniş şəkildə araşdırılır. XIX əsrin sonu – XX əsrin əvvəllərində baş verən dərin sosial, siyasi və ictimai dəyişikliklər Şərq ədəbiyyatında yeni bədii axtarışlara, estetik yenilənməyə və janr transformasiyalarına səbəb olmuşdur. Müasir dünya ədəbiyyatının çoxmərkəzli sistem kimi dəyərləndirilməsi "Şərq və Qərb ədəbi münasibətlərinə yeni baxış imkanı yaradır" (*Həbibbəyli, İ.)* və bu münasibətlərin qarşılıqlı təsir mexanizmlərini daha dərindən anlamağa şərait yaradır. Lu Sin yaradıcılığında realizm sosial tənqid vasitəsinə çevrilərək ənənəvi düşüncə tərzinin və konservativ dəyərlərin məhdudiyyətlərini ifşa edir – "realizm burada ictimai şüurun oyanışına xidmət edir" (*Cahangırova, N.).* Onun əsərlərində fərd və cəmiyyət münasibətləri kəskin şəkildə qoyularaq ictimai problemlər bədii müstəviyə çıxarılır. Hyon Cin-gon isə Koreya nəsrində sosial realizmin formalaşmasına mühüm töhfə verərək şəhər mühiti, yoxsulluq və sosial bərabərsizlik problemlərini realist təsvirlərlə təqdim edir – "şəhər həyatının ziddiyyətləri onun əsərlərinin əsas xəttini təşkil edir" **(**Əhmədli, B.). Na Do-hyang realizmi psixoloji və emosional çalarlarla zənginləşdirərək fərdin daxili dünyasını, mənəvi gərginliyini və psixoloji konfliktlərini ön plana çıxarır, insanın daxili aləmini dərinliklə açır.

Aparılan təhlil göstərir ki, Qərb realizmi Şərq ədəbiyyatında mexaniki şəkildə deyil, yaradıcı transformasiya yolu ilə mənimsənilmiş, yerli milli-mədəni xüsusiyyətlərlə uyğunlaşdırılmışdır. Bu prosesdə İpək Yolu yalnız tarixi ticarət marşrutu deyil, həm də mədəniyyətlərarası dialoqu təmin edən simvolik və real körpü funksiyasını yerinə yetirmişdir. Beləliklə, Şərq modern nəsri interkultural təsir, yaradıcılıq sintezi və davamlı ədəbi qarşılıqlı əlaqələrin nəticəsi kimi formalaşmışdır.

Açar sözlər: İpək Yolu, realizm, ədəbi modernləşmə, Şərq nəsri, mədəni mübadilə, interkultural əlaqələr.

THE SILK ROAD IN THE CONTEXT OF CULTURAL INTERACTION: MODERNIZATION AND WESTERN INFLUENCES IN EASTERN PROSE (BASED ON LU XUN, HYON JIN-GEON AND NA DO-HYANG)

The Great Silk Road has historically functioned not only as an economic route between East and West but also as a significant channel of cultural and literary exchange. This study examines the role of the Silk Road in the process of literary modernization within the context of the development of Chinese and Korean prose. The profound social, political, and cultural transformations of the late nineteenth and early twentieth centuries stimulated new artistic explorations, aesthetic innovations, and genre transformations in Eastern literature. The evaluation of world literature as a multi-centered system "creates an opportunity for a new perspective on East–West literary relations" *(Habibbeyli, I.),* allowing a deeper understanding of intercultural dynamics. In the works of Lu Xun, realism becomes a powerful instrument of social criticism, exposing the limitations of traditional thinking and conservative values – "realism here serves the awakening of social consciousness" *(Jahangirova, N.).* His writings highlight the tension between the individual and society, bringing social issues into the literary foreground. Hyon Jin-geon made a significant contribution to the formation of social realism in Korean prose by portraying urban environments, poverty, and social inequality – "the contradictions of urban life form the central line of his works" *(Ahmadli, B.).* Na Do-hyang, in contrast, enriches realism with psychological and emotional depth, emphasizing the inner world, moral struggles, and existential conflicts of individuals.

The analysis demonstrates that Western realism was not mechanically adopted in Eastern literary traditions but was creatively transformed and adapted to national and cultural contexts. In this process, the Silk Road functioned not only as a historical trade route but also as a symbolic and practical cultural bridge facilitating the exchange of literary ideas and aesthetic principles. Consequently, modern Eastern prose emerged as a product of intercultural interaction, creative synthesis, and continuous literary exchange.

Key words: Silk Road, realism, literary modernization, Eastern prose, cultural exchange, intercultural relations.

ELİF ŞAFAKIN "EŞQ" ROMANINDA RUMİ SUFİZMİNİN POSTMODERN REİNTERPRETASİYASI

Sevinc Əliyeva
filologiya üzrə fəlsəfə doktoru
Bakı Slavyan Universiteti
https://ORCID.org/0000-0002-6878-6148
sevinj230623@gmail.com
Azərbaycan/Bakı

Elif Şafakın "Eşq" romanı müasir türk ədəbiyyatında Rumi sufizminin postmodern interpretasiyası baxımından mühüm ədəbi nümunələrdən biri kimi dəyərləndirilir. Tezisdə sufi düşüncənin əsas kateqoriyalarının – sevgi, vəhdət, mənəvi kamilləşmə və tolerantlığın – postmodern narrativ strategiyalar vasitəsilə necə yenidən şərh edildiyi araşdırılır. Şafak klassik sufi mətnlərində formalaşmış metafizik və ontoloji ideyaları sadələşdirərək onları müasir oxucu üçün daha anlaşıqlı bədii formaya gətirir və intertekstual əlaqələr vasitəsilə Rumi irsini yenidən kodlaşdırır.

Romanda sevgi anlayışı yalnız emosional münasibət çərçivəsində deyil, həm də insanın öz "mən"indən uzaqlaşaraq "digəri" vasitəsilə mənəvi yüksəlişə çatması kimi təqdim olunur. Bu yanaşma Ruminin sufi fəlsəfəsində mövcud olan vəhdət ideyası ilə uyğunluq təşkil edir, lakin postmodern kontekstdə daha çox psixoloji və sosial məna qazanır. Əsərdə çoxqatlı narrativ struktur, paralel süjet xətləri və fərqli zaman planlarının bir arada verilməsi sufi ideyaların müasir ədəbi formaya transformasiyasını təmin edir.

Eyni zamanda romanda Rumi və Şəms obrazları ilə paralel şəkildə Ella və Azizin münasibətləri qurularaq sufi mürşid–mürid modeli müasir sevgi diskursu ilə sintez edilir. Bu yanaşma klassik mistik təlimin müasir oxucuya yaxınlaşdırılmasına xidmət edir və sufi ideyaların gündəlik həyat kontekstində anlaşılmasını asanlaşdırır. Şafakın mətni həmçinin tolerantlıq, mədəni müxtəliflik və universal humanizm ideyalarını ön plana çıxarır, sufi təlimini yalnız dini-fəlsəfi sistem kimi deyil, eyni zamanda qlobal etik dəyər sistemi kimi təqdim edir. Beləliklə, roman sufi metafizikasının postmodern ədəbi diskursda transformasiyasını nümayiş etdirən əhəmiyyətli bir mənbə kimi çıxış edir.

Sufi ədəbiyyatının yeni dövr türk ədəbiyyatına təsiri ilk növbədə intertekstualıq vasitəsilə reallaşır. Romanda Quran motivləri, peyğəmbər hekayələri və klassik türk-sufi poetikasına aid obrazlar müasir narrativ struktura inteqrasiya olunur *[Furlanetto, 2013]*.

Beləliklə, sufi ədəbiyyatı yeni dövr türk ədəbiyyatında yalnız mövzu və motiv səviyyəsində deyil, həm də struktur, üslub və ideya baxımından mühüm təsir göstərir. Bu təsir nəticəsində klassik mistik təlimlər fərdin daxili harmoniyaya, tolerantlığa və mənəvi kamilliyə çatması üçün müasir bədii modelə çevrilir *[Şafak, 2009]*.

Açar sözlər: sufizm, Rumi, postmodernizm, tolerantlıq, intertekstual əlaqələr.

POSTMODERN REINTERPRETATION OF RUMI'S SUFISM IN ELIF SHAFAK'S NOVEL "THE FORTY RULES OF LOVE"

Elif Shafak's novel "The Forty Rules of Love" is regarded as one of the significant works in contemporary Turkish literature in terms of the postmodern interpretation of Rumi's Sufism. The thesis examines how the main categories of Sufi thought − love, unity, spiritual perfection, and tolerance − are reinterpreted through postmodern narrative strategies. Shafak simplifies the metaphysical and ontological ideas formed in classical Sufi texts, presenting them in a more accessible literary form for the modern reader, and re-encodes Rumi's legacy through intertextual connections.

In the novel, the concept of love is presented not only within the framework of emotional relationships but also as a means for an individual to transcend the self and achieve spiritual elevation through the "other." This approach corresponds to the idea of unity in Rumi's Sufi philosophy, yet within a postmodern context it acquires a more psychological and social dimension.

At the same time, the relationships between Rumi and Shams are paralleled with those of Ella and Aziz, thereby synthesizing the classical Sufi master–disciple model with contemporary discourse on love. This approach serves to bring classical mystical teachings closer to the modern reader and facilitates the understanding of Sufi ideas within the context of everyday life.

The influence of Sufi literature on modern Turkish literature is primarily realized through intertextuality. In the novel, Koranic motifs, prophetic narratives, and images from classical Turkish Sufi poetics are integrated into the modern narrative structure *[Furlanetto, 2013]*.

Thus, Sufi literature exerts a significant influence on modern Turkish literature not only at the level of themes and motifs but also in terms of structure, style, and ideas. As a result of this influence, classical mystical teachings are transformed into a modern literary model that promotes inner harmony, tolerance, and spiritual perfection *[Shafak, 2009]*.

Key words: sufism, Rumi, postmodernism, tolerance, intertextual connections.

ABŞ VƏ AZƏRBAYCAN ƏDƏBİYYATINDA "KİÇİK ADAM" OBRAZININ DİL VƏ ÜSLUB XÜSUSİYYƏTLƏRİ

Şükufə Vəliyeva
filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
https://ORCID.org/0009-0004-5425-5366
valiyevashukufa@gmail.com
Azərbaycan/Bakı

Ədəbiyyatda "kiçik adam" anlayışı cəmiyyət daxilində sosial, iqtisadi və mənəvi çətinliklərlə üzləşən fərdin bədii təcəssümünü ifadə edir və müxtəlif ədəbi mühitlərdə müxtəlif dil və üslub vasitələri ilə təcəssüm olunur. ABŞ və Azərbaycan ədəbiyyatında bu obrazın ifadə üsullarının və bədii vasitələrinin ayrı-ayrı estetik-ideoloji kontekstlərdə inkişafını nəzərə alsaq, "kiçik adam" obrazının dil və üslub xüsusiyyətlərinin müqayisəli təhlili həm nəzəri, həm də tarixi-praktik baxımdan böyük elmi əhəmiyyət kəsb edir.

ABŞ ədəbiyyatında "kiçik adam" obrazının formalaşması sistemli şəkildə, xüsusən 20-ci əsrdə minimalizm estetikası çərçivəsində müşahidə olunur. Minimalist üslubun əsas xüsusiyyətlərindən biri dilin maksimum sadələşdirilməsidir. Bu zaman "göstəriş" prinsipi əsas götürülür; yəni hadisələr və duyğular birbaşa izah edilmir, yalnız onların müəyyən əlamətləri təqdim olunur. M.Tven, C.Steinbek, C.Bukovski və E.Heminquey kimi yazıçıların əsərlərində sosial iyerarxiyanın aşağı və ya orta təbəqəsinə mənsub olan adi fərdlərin gündəlik həyat təcrübələri, onların daxili psixoloji gərginlikləri və cəmiyyət daxilində yaşadıqları təcrid diqqət mərkəzindədir. Xüsusilə, fərdin uğursuzluq hissi, kommunikativ böhran və sosial uyğunlaşmada çətinliklər bu əsərlərdə aparıcı tematik cizgilər kimi çıxış edir.

Azərbaycan ədəbiyyatında "kiçik adam" obrazı əsasən sosial realizm ənənəsi çərçivəsində formalaşmış və inkişaf etmişdir. Bu istiqamətdə Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Süleyman Rəhimov, İsmayıl Şıxlı və Anar kimi müəlliflərin yaradıcılığında bu obraz kənd-şəhər mühitində yaşayan, sosial ədalətsizliklə, məişət çətinliyi ilə üzləşən insanların obrazı kimi təqdim olunur. Burada dil daha təsviri və ifadəlidir; müəlliflər hadisələri, mühiti və sosial şəraiti ətraflı təsvir etməyə üstünlük verirlər. "İzahat" prinsipi dominant poetik strategiya kimi çıxış edir.

Müqayisəli aspektdə qeyd etmək olar ki, hər iki ədəbiyyatda "kiçik adam"ın dili onun sosial vəziyyətini, daxili aləmini, cəmiyyətlə münasibətini əks etdirən əsas göstəricidir. Lakin ABŞ ədəbiyyatında minimalist poetika üstünlük təşkil etdiyi halda, Azərbaycan ədəbi kontekstində sosial realist təsvir üsulu üstünlük təşkil edir. Bu fərq, nəticədə "kiçik adam" obrazının həm struktur, həm də üslub səviyyəsində təqdimatında müxtəlif bədii modellərin formalaşmasına gətirib çıxarır.

Açar sözlər: kiçik adam, dil, üslub, Amerika ədəbiyyatı, Azərbaycan ədəbiyyatı,

sosial realizm, minimalizm.

LANGUAGE AND STYLISTIC FEATURES OF THE "LITTLE MAN" IMAGE IN UNİTED STATES AND AZERBAİJAN LITERATURE

In literature, the concept of "little man" expresses the artistic embodiment of an individual facing social, economic and moral difficulties within society and is personified with different linguistic and stylistic means in different literary environments. Considering the development of the methods of expression and artistic means of this image in the literature of the USA and Azerbaijan in separate aesthetic and ideological contexts, a comparative analysis of the linguistic and stylistic features of the image of "little man" is of great scientific importance both from a theoretical and historical-practical point of view.

The formation of the image of "little man" in US literature is systematically observed, especially in the 20th century within the framework of the aesthetics of minimalism. One of the main features of the minimalist style is the maximum simplification of language. In this case, the principle of "indication" is taken as the basis; that is, events and emotions are not directly explained, only certain signs of them are presented. In the works of writers such as M. Twain, J. Steinbeck, C. Bukowski and E. Hemingway, the focus is on the daily life experiences of ordinary individuals belonging to the lower or middle strata of the social hierarchy, their internal psychological tensions and the isolation they experience within society. In particular, the individual's sense of failure, communicative crisis and difficulties in social adaptation act as the leading thematic lines in these works.

In Azerbaijani literature, the image of the "little man" has been formed and developed mainly within the framework of the tradition of social realism. In this direction, in the work of authors such as Jalil Mammadguluzadeh, Mirza Alakbar Sabir, Suleyman Rahimov, Ismayil Shikhli and Anar, this image is presented as the image of people living in rural and urban environments, facing social injustice and everyday difficulties. Here, the language is more descriptive and expressive; the authors prefer to describe events, the environment and social conditions in detail. The principle of "explanation" acts as a dominant poetic strategy.

In a comparative aspect, it can be noted that in both literatures, the language of the "little man" is the main indicator reflecting his social status, inner world and relationship with society. However, in US literature, minimalist poetics prevails, while in the Azerbaijani literary context, the social realist method of description prevails. This difference, as a result, leads to the formation of different artistic models in the presentation of the image of the "little man" both at the structural and stylistic levels.

Key words: little man, language, style, US literature, Azerbaijan literature, social realism, minimalism.

MÖVLUD SÜLEYMANLININ YARADICILIĞINDA TÜRKÇÜLÜK ƏNƏNƏLƏRİ

Suad Əfəndiyeva
filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Slavyan Universiteti
https://ORCID.org/0000-0001-6856-1136
suadefendi76@gmail.com
Azərbaycan/Bakı

Folklor milli-mənəvi dəyərlərin qorunmasında, tarixi yaddaşın yaşadılmasında və xalqın özünüdərk prosesinin formalaşmasında mühüm rol oynayır. O, yalnız dilin və ənənələrin mənbəyi deyil, həm də bədii ədəbiyyatın inkişafının əsas dayaqlarından biridir. Folklor vasitəsilə dünyagörüşü, mənəvi meyarlar və mədəni kimlik nəsildən-nəslə ötürülür.

Mövlud Süleymanlı yaradıcılığı bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Onun əsərləri birbaşa folklor qaynaqları ilə bağlı olub, milli-mənəvi mühitin bədii inikasını təqdim edir. Yazıçı xalq ruhunu və etnoqrafik yaddaşı dərindən mənimsəmiş, onu əsas bədii vasitəyə çevirmişdir. "Dəyirman", "Köç" kimi əsərlərində türk mifoloji simvolika və milli mahiyyət aydın şəkildə əks olunur.

"Dəyirman" (1979) povestində "dəyirman" obrazı ilkin olaraq bolluq və həyat rəmzi kimi təqdim olunsa da, sonradan mənəvi tənəzzülün simvoluna çevrilir. "Qan" metaforası isə cəmiyyətdə baş verən mənfi dəyişiklikləri və mənəvi deqradasiyanı ifadə edir. Əsərdəki obrazlar mifoloji arxetiplər ilə bağlı olub, xeyirlə şərin mübarizəsini təcəssüm etdirir. Eyni zamanda, bu əsərlərdə sovet ideologiyasına qarşı dolayı tənqid də özünü göstərir.

"Köç" (1980) romanında da yazıçı türkçülük ənənələrinin və türk mifoloji təfəkküründün dərin köklərini təsvir edir və bu ideyaları ardıcıl şəkildə inkişaf etdirir. Əsərdə zəngin mifoloji obrazların və arxetiplərin geniş qalereyası təqdim olunur: Domrul, Dədə, Qarı kimi surətlər xalqın qədim dünyagörüşünü və kollektiv yaddaşını əks etdirir. Bundan əlavə əsərdə su, od, buta, dəvə, at və digər obrazların təsviri mifoloji kontekstdən xüsusi maraq doğurur. Yazıçı simvol və alt mətn vasitəsilə milli kimliyin sıxışdırılmasına, mənəvi dəyərlərin itirilməsinə etirazını ifadə edir. Bu baxımdan, onun yaradıcılığı milli oyanışın və azadlıq ideyalarının bədii ifadəsi kimi çıxış edir.

Beləliklə, Mövlud Süleymanlının əsərlərində folklora müraciət yalnız estetik vasitə deyil, həm də milli varlığın qorunması, tarixi həqiqətin və yaddaşın ifadəsi, mənəvi müqavimətin formasıdır.

Açar sözlər: türkçülük ənənələri, Mövlud Süleymanlı, milli təfəkkür, folklor, arxetip.

TURKIC TRADITIONS IN THE CREATIVE WORK OF MOVLUD SULEYMANLI

Folklore plays a significant role in the preservation of national-spiritual values, the transmission of historical memory, and the formation of a people's process of self-awareness. It is not only a source of language and tradition but also one of the fundamental pillars of the development of literary art. Through folklore, worldview, moral standards, and cultural identity are transmitted from generation to generation.

The creative work of Movlud Suleymanlı is of particular importance in this regard. His works are directly connected to folkloric sources and present an artistic reflection of the national-spiritual environment. The writer has deeply assimilated the spirit of the people and ethnographic memory, transforming it into a primary means of artistic expression. In works such as The Mill and Migration, Turkic mythological symbolism and national-cultural essence are clearly manifested.

In the novella "The Mill" (1979), the image of the "mill" is initially presented as a symbol of abundance and life; however, it later transforms into a representation of moral decline. The metaphor of "blood" expresses negative social changes and moral degradation. The characters in the work are associated with mythological archetypes and embody the struggle between good and evil. At the same time, the text also contains an implicit critique of Soviet ideology.

In the novel "Migration" (1980), the writer depicts the deep roots of Turkic traditions and Turkic mythological thinking, further developing these ideas in a consistent manner. The work presents a rich gallery of mythological images and archetypes: figures such as Domrul, Dede, and the Old Woman reflect the ancient worldview and collective memory of the people. In addition, symbols such as water, fire, buta, camel, and horse acquire particular semantic significance within a mythological context. Through symbols and subtext, the author expresses his opposition to the suppression of national identity and the erosion of moral values. In this sense, his work serves as an artistic expression of national awakening and the ideals of freedom.

Thus, in the works of Movlud Suleymanlı, the use of folklore is not merely an aesthetic device but also a means of preserving national existence, expressing historical memory, and articulating moral resistance.

Key words: Turkic Traditions, Movlud Suleymanlı, National Thinking, Folklore, Archetype.

"DİLDƏ, FİKİRDƏ, İŞDƏ BİRLİK" DOKTRİNASI VƏ MİLLI İNTİBAH

Məlahət Babayeva
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/0000-0002-3600-8499
milababayeva@mail.ru

XIX əsrin sonu və XX əsrin əvvəlləri türk xalqlarının tarixində sadəcə siyasi oyanış deyil, həm də "Mədəni Müasirləşmə" dövrü kimi xarakterizə olunur. Bu dövrdə ortaq türk ədəbiyyatı və mədəniyyəti konsepsiyası emosional bağlılıqdan çıxaraq, elmi-nəzəri və ideoloji bir sistemə çevrilmişdir. Bu sistemin mərkəzində isə böyük mütəfəkkir İsmayıl bəy Qaspıralının müəllifi olduğu "Dildə, Fikirdə, İşdə Birlik" triadası dayanırdı.

"Dildə birlik" prinsipi sadəcə bir ünsiyyət vasitəsi deyil, türk xalqlarının intellektual bütövlüyünü təmin edən strateji bir hədəf idi. Qaspıralı tərəfindən Krımda nəşr edilən "Tərcüman" qəzeti bu birliyin canlı laboratoriyasına çevrildi.

Dövrün ziyalıları (Əli bəy Hüseynzadə, İsmayıl Qaspıralı, Yusuf Akçura) anlayırdılar ki, ortaq bir ədəbi dil olmadan türk dünyasının elmi və ədəbi birliyi mümkün deyil. O dövrün ədəbi-tənqidi fikrində "İstanbul türkçəsi" əsasında qurulan, lakin bütün türk xalqlarının anlaya biləcəyi sadələşdirilmiş bir dil modeli təbliğ olunurdu. Bu, ədəbi mətnlərin Bakıdan Qazana, İstanbuldan Daşkəndə qədər maneəsiz yayılmasına şərait yaratdı.

Ədəbiyyatda "fikirdə birlik" özünü Cədidçilik (Yeniləşmə) hərəkatında göstərirdi. Bu dövrün ədəbiyyatı artıq klassik qəliblərdən (divan poeziyası) uzaqlaşaraq, sosial problemlərə, maarifçiliyə və milli kimlik məsələlərinə yönəlmişdi.

Müştərək problemlər-Azərbaycan ədəbiyyatında Mirzə Fətəli Axundzadənin təməlini qoyduğu realizm, Türkiyədə "Tənzimat" və "Sərvət-i fünun" ədəbiyyatı, Orta Asiyada isə Abdurauf Fitrət və Mahmudxoca Behbudi kimi simaların yaradıcılığı eyni hədəfə – xalqın cəhalətdən qurtulmasına xidmət edirdi.

Həmin dövrdə mətbuat – ədəbiyyatın tribunası kimi çıxış edirdi. "Molla Nəsrəddin", "Füyuzat", "Tərcüman" və "Türk Yurdu" kimi dərgilər ortaq türk fikir dünyasının əsas daşıyıcıları idi. Bu nəşrlərdə çap olunan əsərlər ortaq bir mənəvi coğrafiya formalaşdırırdı.

"İşdə birlik" fəlsəfəsi ədəbiyyatın praktiki müstəviyə keçməsini nəzərdə tuturdu. Bu, yazıçıların bir-biri ilə sıx təmasda olması, kitab mübadiləsi və ortaq nəşriyyat siyasəti demək idi. Əli bəy Hüseynzadənin İstanbuldakı fəaliyyəti, Mehmed Emin Yurdakulun şeirlərinin Bakıda əzbərlənməsi, Abdulla Tuqayın yaradıcılığının Azərbaycan mətbuatında işıqlandırılması bu "iş birliyinin" bariz nümunələri idi.

Azərbaycan teatr truppalarının Türkiyəyə və Türküstana qastrolları, orada səhnələşdirilən "O olmasın, bu olsun" və ya "Vətən" (Namik Kamal) kimi pyeslər ortaq bədii zövqün və kollektiv fəaliyyətin nəticəsi idi.

XX əsrin əvvəllərində formalaşan bu "İdeoloji Körpü" türk xalqlarının totalitar rejimlər tərəfindən bir-birindən təcrid edildiyi illərdə belə daxili mənəvi bağlılığı qoruyub saxlamağa kömək etdi. "Dildə, Fikirdə, İşdə Birlik2 şüarı bu gün müasir 2Türk Dünyası 2040 Baxışı" sənədinin və ortaq türk ədəbiyyatı dərsliklərinin hazırlanmasının fundamental elmi bazasını təşkil edir.

Açar sözlər: dildə, fikirdə, işdə birlik, İ.Qaspıralı, Ə.Hüseynzadə, Yusuf Akçura, ortaq türk ədəbiyyatı.

THE DOCTRINE OF "UNITY IN LANGUAGE, THOUGHT AND WORK" AND NATIONAL RENAISSANCE

The end of the 19th century and the beginning of the 20th century are characterized not only as a political awakening in the history of the Turkic peoples, but also as a period of "Cultural Modernization". During this period, the concept of common Turkish literature and culture, moving away from emotional attachment, turned into a scientific-theoretical and ideological system. At the center of this system was the triad "Unity in Language, Thought, and Work", authored by the great thinker Ismayil bey Gaspirali.

The principle of "unity in language" was not just a means of communication, but a strategic goal that ensured the intellectual integrity of the Turkic peoples. The newspaper "Terjuman", published by Gaspirali in Crimea, became a living laboratory of this unity.

The intellectuals of the period (Ali bey Huseynzade, Ismayil Gaspirali, Yusuf Akchura) understood that the scientific and literary unity of the Turkic world was impossible without a common literary language. In the literary-critical thought of that period, a simplified language model was promoted, based on "Istanbul Turkish", but understandable to all Turkic peoples. This created conditions for the unhindered spread of literary texts from Baku to Kazan, from Istanbul to Tashkent.

In literature, "unity of thought" manifested itself in the Jadid (Renewal) movement. The literature of this period had already moved away from classical molds (divan poetry) and was focused on social problems, enlightenment, and issues of national identity.

Common problems − realism, founded by Mirza Fatali Akhundzadeh in Azerbaijani literature, "Tanzimat" and "Servat-i Funun" literature in Turkey, and the creativity of figures such as Abdurauf Fitret and Mahmudhoja Behbudi in Central Asia, served the same goal − the liberation of the people from ignorance.

At that time, the press acted as a tribune of literature. Magazines such as "Molla Nasreddin", "Füyuzat", "Terjuman" and "Türk Yurdu" were the main carriers of the common Turkish world of thought. The works published in these publications formed a common spiritual geography.

The philosophy of "unity in work" meant the transition of literature to a practical level. This meant close contact between writers, book exchange and a common publishing policy. The activities of Ali bey Huseynzadeh in Istanbul, the memorization of Mehmed Emin Yurdakul's poems in Baku, and the coverage of Abdulla Tugay's work in the Azerbaijani press were vivid examples of this "cooperation".

The tours of Azerbaijani theater troupes to Turkey and Turkestan, the plays "Let it not be, let it be" or "Homeland" (Namik Kemal) staged there were the result of common artistic taste and collective activity.

This "Ideological Bridge", formed at the beginning of the 20th century, helped to maintain internal spiritual unity even in the years when the Turkic peoples were isolated from each other by totalitarian regimes. The slogan "Unity in Language, Thought, Work" today forms the fundamental scientific basis for the preparation of the modern "Turkic World 2040 Vision" document and common Turkish literature textbooks.

Key words: unity in language, thought, and work, I.Gaspıralı, A.Huseynzade, Yusuf Akçura, common turkish literature.

ƏZİZ NESİNİN ŞEİRLƏRİ: SATİRİK DÜŞÜNCƏ VƏ LİRİK TƏRƏNNÜM

Maya Həsənli
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
https://ORCID.org/0009-0002-4535-7831
mayaaxundova93@gmail.com
Azərbaycan/Bakı

Dünyaca məşhur türk satira ustası Əziz Nesin (1915-1995) bədii yaradıcılığa XX əsrin 30-40-cı illərində hərbçilik peşəsindən gəlmişdir. Məktəb illərindən ilk qələm təcrübələri dram və roman janrı qaralamaları olsa da, ciddi və davamlı bədii yaradıcılığı lirik şeirlərlə başlamışdır. Zabit olduğu üçün öz adından istifadə edə bilmədiyi üçün o zamankı həyat yoldaşının adı olan Vedia Nesin imzası ilə qəzet və jurnallara şeirlərini göndərmişdir. Şeirlə yanaşı hekayə də yazmağı paralel davam etdirmiş və ilk hekayə nümunələrini Oya Atəş (övladlarının adlarının birləşməsi), Əziz Nesin (atası Əbdüləziz əfəndinin adına uyğun) imzaları ilə nəşr etdirmişdir.

Hərbçilikdən ayrıldıqdan sonra isə artıq peşəkar yazıçı, jurnalist kimi fəaliyyət göstərmiş, ədibin özünün də qeyd etdiyi kimi *"həyat onu satira yazıçılığına çəkmişdir"*. Fikirlərini oxuculara çatdırmaqda daha operativ hesab etdiyi üçün hekayə janrına üstünlük vermiş və "satirik hekayə ustası Əziz Nesin" kimi dünya şöhrəti qazanmışdır. Lakin yenə də şeir yazmağı tərgitməmiş ömrünün son illərinədək poetik fəaliyyətini davam etdirmişdir. Əziz Nesinin həm lirik şeirlər yazmış, həm də daşlama-həcv şeirləri qələmə almışdır. Ədib özü daşlamalarını şeir hesab etməmiş, poetik dəyərdən daha artıq funksionallıq daşıdığı üçün daşlamalarını *"sosial qüsurlarla mübarizə silahı"* olaraq dəyərləndirmişdir. Əziz Nesinin ilk daşlama kitabı olan "Əziznamə" 1948-ci ildə çap olunmuş, kəskin tənqidi məzmununa görə müəllifi həbs edilmişdir. 1960-cı ildə çap olunan "Həzrəti-Danqalaq" daşlama kitabı isə "Əziznamə"nin ikinci cildi sayılır. Əziz Nesin 1957-1995-ci illər aralığında "On dəqiqə", "Sondan başa", "Sevgiyə on, ölümə beş qala", "Özünə çatmaq", "Sağlıqla qalın", "Bir eşq var, bir də ölüm", "Sivas acısı" kimi lirik şeir kitablarının müəllifidir. Satirik şeirlərində dövrün ictimai, siyasi qüsurlarına sərt münasibətini bildirən Əziz Nesini lirik şeirlərində sevgi, həsrət, ölüm haqqında duyğular böhranı yaşayan, həyatının ağrılı və həyəcanlı illərini göz önündən keçirdən qayğılı şair kimi müşahidə edirik.

Açar sözlər: Əziz Nesin, satira, yumor, şeir, həcv, daşlama, tənqidi gülüş.

AZIZ NESIN'S POETRY: SATIRICAL THOUGHT AND LYRICAL EXPRESSION

The renowned Turkish master of satire, Aziz Nesin (1915–1995), entered the field of literary in the 1930s–1940s, transitioning from a military career. Although his earliest writing attempts during his school years consisted of draft works in the genres of drama and the novel, his serious and sustained literary activity began with lyrical

poetry. Due to his status as a military officer, he was unable to publish under his own name; therefore, he submitted his poems to newspapers and journals under the pseudonym Vedia Nesin, the name of his then wife. Alongside poetry, he continued to write short stories in parallel and published his first examples under the pseudonyms Oya Ateş (a combination of his children's names) and Aziz Nesin (derived from his father Abdülaziz Efendi's name).

After leaving the military, he pursued a professional career as a writer and journalist. As the author himself noted, *"life drew him toward satirical writing"*. Considering it a more immediate and effective medium for conveying his ideas to readers, he gave preference to the short story genre and gained worldwide recognition as *"the master of the satirical short story".* Nevertheless, he never abandoned poetry and continued his creative writing until the final years of his life. Aziz Nesin composed both lyrical poems and satirical lampoons. However, he did not regard his satirical verses as poetry in the strict sense; rather, emphasizing their functional dimension over their aesthetic value, he characterized them as a *"weapon in the struggle against social vices".* His first collection of satirical verse, "Azizname" (1948), led to his imprisonment due to its sharply critical content. His later work "Hazreti-Dangalaq" (1960) is considered the second volume of "Azizname". Between 1957 and 1995, Nesin authored several collections of lyrical poetry, "Ten Minutes", "From the End to the Beginning", "Ten to Love, Five to Death", "Reaching Oneself", "Stay Well", "There Is Love, and Then There Is Death", "The Pain of Sivas". While his satirical poems articulate a harsh critique of the social and political shortcomings of his time, his lyrical poetry reveals a more introspective dimension: a troubled poet grappling with themes of love, longing, and death, revisiting the painful and emotionally charged periods of his life.

Key words: Aziz Nesin, satire, humor, poetry, lampoon, invective, critical laughter.

TÜRK DÜNYASININ ELMİ KÖRPÜSÜ: MEHMET FUAD KÖPRÜLÜ VƏ ORTAQ MƏDƏNİ İRS

Ramidə Abbasova
elmi işçi
Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
https://ORCID.org/ 0009-0001-6301-8588
ramideabbasova87@gmail.com
Azərbaycan/Bakı

Türkologiya elminin banilərindən biri, görkəmli tarixçi və dövlət xadimi Mehmet Fuad Köprülü (1890-1966) yalnız Türkiyənin deyil, bütün türk dünyasının intellektual oyanışında müstəsna rol oynamış bir şəxsiyyətdir. Onun elmi fəaliyyəti türk ədəbiyyatı və tarixini klassik şərqşünaslıq qəliblərindən çıxararaq müasir və elmi metodologiya əsasında yenidən qurmuşdur.

Köprülü türk ədəbiyyatı tədqiqatlarına elmi metodu gətirmiş ədəbiyyatı yalnız estetik hadisə kimi deyil, tarixi və sosioloji kontekst çərçivəsində dəyərləndirən bir alim olmuşdur. "Edebiyat Tarihinde Usul" adlı əsəri ilə ədəbiyyat tarixçiliyinə yeni yanaşma gətirmiş, "Türk Edebiyatında İlk Mutasavvıflar" və "Türk Edebiyatı Tarihi" adlı əsərləri ilə bu yanaşmanı sistemli elmi çərçivəyə salmışdır.

Köprülüzadə türkoloji tədqiqatlarda Azərbaycan ədəbiyyatının yerini xüsusi vurğulamış və onu ortaq türk mədəni irsinin ayrılmaz hissəsi kimi qiymətləndirmişdir. "Azerbaycan Edebiyatına Ait Tetkikler" adlı tədqiqatında Həsənoğlu, Nəsimi, Qazi Bürhanəddin və Füzuli kimi klassik şairlərin əsərlərini sistemli şəkildə araşdırmışdır. Köprülü, Füzulinin mənsubiyyətini elmi dəlillərlə Azərbaycan ədəbiyyatına aid etmiş, şairin əsərlərinin siyahısını tərtib edərək elm dünyasına təqdim etmişdir. Köprülüzadənin folklor və şifahi ədəbiyyat sahəsindəki tədqiqatları da böyük əhəmiyyət daşıyır. O, aşıq ədəbiyyatını və "Dədə Qorqud Kitabı"nı türk mədəniyyətinin əsas qaynaqları sırasında dəyərləndirmiş, ozan anlayışını elmi baxımdan izah etmişdir.

1926-cı ildə Bakıda keçirilən Türkologiya Qurultayında Türkiyə nümayəndə heyətinə rəhbərlik edən Mehmet Fuad Köprülüzadənin iştirakı toplantının elmi və ideoloji əhəmiyyətini daha da artırmışdır. Köprülünün qurultaydakı çıxışı ortaq türk ədəbi dili, mədəni birlik və türk xalqları arasında elmi əməkdaşlıq məsələlərinə həsr olunmuş; irəli sürdüyü fikirlər iştirakçılar tərəfindən böyük maraq və rəğbətlə qarşılanmışdır. Bu iştirak Türkiyə elmi dairələrinin ortaq türk ideallarına verdiyi dəstəyin açıq göstəricisi kimi qiymətləndirilir.

Ümumilikdə, Köprülünün fəaliyyəti ədəbiyyat tarixi nəzəriyyəsi, türkologiyada metodoloji yeniliklər, Azərbaycan ədəbiyyatının tədqiqi və folklor araşdırmaları baxımından mühüm elmi nəticələr ortaya qoymuş, türk dünyasının elmi-mədəni inteqrasiyasına böyük töhfə vermişdir. Köprülünün irəli sürdüyü ideyalar türk xalqları arasında ortaq mədəni yaddaşın güclənməsinə, elmi əməkdaşlığın inkişafına və türk

dünyasında mədəni inteqrasiya proseslərinin dərinləşməsinə xidmət etmişdir. Bu baxımdan onun elmi irsi bu gün də türkologiya sahəsində əsas istinad mənbələrindən biri olaraq aktuallığını qoruyur.

Açar sözlər: Ortaq irs, türk birliyi, Mehmet Fuad Köprülüzadə, Türkologiya Qurultayı, Azərbaycan ədəbiyyatı.

THE SCIENTIFIC BRIDGE OF THE TURKIC WORLD: MEHMET FUAD KÖPRÜLÜ AND THE COMMON CULTURAL HERITAGE

One of the founders of Turkology, the prominent historian and statesman Mehmet Fuad Köprülü played an exceptional role not only in Turkey but also in the intellectual awakening of the entire Turkic world. His scholarly work reconstructed Turkish literary and historical studies by moving beyond the frameworks of classical Orientalism and establishing them on a modern scientific methodology. Köprülü introduced a scientific method into the study of Turkish literature, evaluating literature not merely as an aesthetic phenomenon but within its historical and sociological context. With his work "Edebiyat Tarihinde Usul," he brought a new approach to literary historiography, while his books "Türk Edebiyatında İlk Mutasavvıflar" and "Türk Edebiyatı Tarihi" systematized this approach within a comprehensive scholarly framework.

Köprülüzade emphasized the significant place of Azerbaijani literature in Turkological studies, considering it an integral part of the common Turkic cultural heritage. In his study "Azerbaycan Edebiyatına Ait Tetkikler," he systematically analyzed the works of classical poets such as İzzəddin Həsənoğlu, İmadəddin Nəsimi, Qazi Bürhanəddin, and Məhəmməd Füzuli. Köprülü also demonstrated, through scholarly evidence, Fuzuli's belonging to Azerbaijani literature and compiled a systematic list of his works, presenting it to the academic world. His research in folklore and oral literature is equally significant. He evaluated ashik poetry and the Book of Dede Korkut among the primary sources of Turkic culture and provided a scholarly explanation of the concept of the "ozan."

His participation in the Baku Turkological Congress held in Baku in 1926, where he led the Turkish delegation, further enhanced the scientific and ideological importance of the event. In his speech, Köprülü addressed issues such as a common Turkic literary language, cultural unity, and scientific cooperation among Turkic peoples, and his ideas were met with great interest and appreciation. This participation is regarded as a clear demonstration of the support of Turkish academic circles for common Turkic ideals.

Overall, Köprülü's scholarly work has made significant contributions to literary historiography, methodological innovations in Turkology, the study of Azerbaijani literature, and folklore research, while also playing a major role in the scientific and cultural integration of the Turkic world. His ideas have contributed to strengthening a shared cultural memory among Turkic peoples, promoting academic cooperation, and

deepening cultural integration within the Turkic world. In this respect, his scholarly legacy continues to serve as one of the key reference points in contemporary Turkological studies.

Key words: Common heritage, Turkic unity, Mehmet Fuad Köprülüzade, Turkological Congress, Azerbaijani literature.

BİRİNCİ TÜRKOLOJİ QURULTAYDA XALİD SƏİD XOCAYEVİN ROLU

Sahilə İbrahimova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/0009-0008-6960-524X
sahila.ibrahimova@yahoo.com
Azərbaycan/Bakı

Birinci Türkoloji Qurultay böyük tarixi bir hadisə olmaqla bütün türk millətlərinin milli dərəyrləinin tədqiqinin və təbliğinin keşiyində dayanmışdır. 1926-cı ildə Birinci Türkolojı Qurultay tarixi əhəmiyyət daşıyan hadisə olmuşdur. Qurultay türkdilli xalqlarının latın qrafikasına keçmək işi və bu işdə uğur qazanmaları ilə bağlı xeyli işlər görmüşdür. Qurultay qabağı Ağamalıoğlu başda olmaqla latın əlifbasına keçməklə əlaqədər xüsusi Komissiya yaradılmışdır. Komissiyanın tərkibində başqa üzvlərlə yanaşı Xalid Səid Xocayev də var idi. Onun Türkolojı Qurultayın hazırlıq işində və təşkilat baxınından, istərsə də müxtəlif əsərlər yazmaq baxımından əməyini xüsusi qeyd etmək lazımdır. Buna sübut olaraq Qurultaydan sonra "Yeni Əlifba yollarında..." adlı əsərini göstərmək yerinə düşərdi. Xalid Səid 1937-ci il qurbanlarından olan görkəmli alim-türkoloq, bir çox elmi əsərlərin, o cümlədən X1 əsr abidəsi olan Mahmud Qaşqarının "Divani Lüğət-it Türk" əsərinin dünyada ilk dəfə məhz Azərbaycan dilinə tərcümə edən müəllifdir. Xalid Səid Xoca 12 dili bilirdi.

Xalid Səid Komissiyanın tərkibində bütün türkdilli respublika və ölkələrdə olmuş, yerli rəhbəlik və bütün cəmiyyətin nümayəndələri ilə birlikdə danışıqlarda iştirak etmişdi. Qeyd edim ki, bu məsələ ilə əlaqədar olaraq o, Tatarıstan, Qazağıstan və Orta Asiya ölkələrində dəfələrlə olmuş, danışıqlar aparmışdır. Onun Bakıda qurultay nümayəndələri ilə apardığı, lakin heç də asan olmayan danışıqları olmuş və onları yeni əlifbaya keçmək haqqında razılığa gətirmişdir. Bunları Qurultaydan sonra, 1928-ci ildə yazdığı "Yeni Əlifba yollarında..." kitabinda əks etdirmişdir. Xalid Səidin bu işdə nə dərəcədə fəal olduğuna daha bir məqam da subut ola bilər. Qurultaya həsr olunmuş banket məhz onun evində keçirilmişdir. Burada türk nümayəndələri ilə yanaşı digər Birinci Türkoloji Qurultay iştirakçıları da qonaq olmuşdur. Bu qonaqlar arasında Türkiyədən gəlmiş Köpürülüzadə, Əli bəy Hüseynzadə və bir çox başqa qonaqlar da var idi. Beləliklə, birinci Türkolojı Qurultayın 100-cü ildönümünün qeyd edilməsi, Azərbaycanın və bütün Türk dünyasının ictimai həyatında əhəmiyyətli bir hadisə kimi dəyərlidir. Bu tədbir yeni əlifbaya keçid işində fəaliyyət göstərən şəxsləri bir daha yad etmək imkanını da yaradır.

Açar sözlər: Birinci Türkoloji Qurultay, Xalid Səid Xocayev, latın əlifbası, türk xalqları, dil islahatı.

THE ROLE OF KHALID SAID KHOJAYEV IN THE FIRST TURKOLOGY CONGRESS

The First Turkology Congress, held in 1926, was a significant historical event that played a crucial role in the study and promotion of the national values of Turkic peoples. This congress was of great importance, particularly in relation to the transition of Turkic-speaking nations to the Latin alphabet and the achievements gained in this direction.

Prior to the congress, a special commission was established under the leadership of Samad Aghamalioglu to oversee the transition to the Latin script. Among its members was Khalid Said Khojayev, whose contributions to both the preparatory process and organizational aspects of the congress, as well as his scholarly works, deserve special attention. As evidence, one may refer to his book "On the Paths of the New Alphabet…", written after the congress.

Khalid Said Khojayev, a prominent Turkologist and one of the victims of the 1937 repressions, authored numerous scientific works. Notably, he was the first in the world to translate the 11th-century monument Divan-i Lughat al-Turk by Mahmud al-Kashgari into the Azerbaijani language. He was proficient in 12 languages.

As a member of the commission, Khalid Said traveled extensively across Turkic republics and countries, participating in negotiations with local authorities and representatives of society. He visited regions such as Tatarstan, Kazakhstan, and Central Asian countries multiple times to discuss the transition to the new alphabet. His discussions with Turkish representatives in Baku, which were not easy, eventually led to their agreement on adopting the new alphabet. These efforts were later documented in his 1928 book "On the Paths of the New Alphabet…"

Another fact demonstrating his active involvement is that a banquet dedicated to the congress was held at his home. Among the guests were Turkish delegates as well as other congress participants, including Mehmed Fuad Koprulu and Ali bey Huseynzade.

Thus, the celebration of the 100th anniversary of the First Turkology Congress is of great importance in the social life of Azerbaijan and the entire Turkic world. This event also provides an opportunity to once again commemorate the individuals who played an active role in the transition to the new alphabet.

Key words: First Turkology Congress, Khalid Said Khojayev, latin alphabet, turkic peoples, language reform.

BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ AZƏRBAYCAN FOLKLORŞÜNASLIĞININ TƏŞƏKKÜLÜNDƏ HƏNƏFİ ZEYNALLININ ROLU

Aytən Heybətova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https:ORCID.org/0000-0001-5338-7550
Azərbaycan/Bakı

I Türkoloji Qurultayın keçirilməsində Azərbaycan ərazi olaraq mərkəz deyildi, həm də intellektual türk məfkurəsini formalaşdıran şəxsiyyətlərin yaşayıb yaratdığı bir ocaq idi. Məhz bu səbəbdən Qurultayın Bakıda keçirilməsi qərarı verilmişdi. Dünyanın bir çox ucqar yerlərindən, o cümlədən Sibir və Yakutiyadan Avropada azsaylı olan türk xalqlarının nümayəndələrindən tutmuş Yaxın Şərq və Mərkəzi Asiya türklərinin də iştirak etdiyi bu möhtəşəm qurultayda Azərbaycanı təmsil edən böyük ziyalıların içində Hənəfi Zeynallı da var idi. O Azərbaycan folklorunun ilk araşdırmaçılarından olmaqla yanaşı həm də tənqidçi idi. M.F.Axundov və H.Cavid haqqında tədqiqat aparan, fundamental elmi əsərlərin ortaya qoyan müəllif həmin mütəfəkkirlərə obyektiv qiymət verən azsaylı tədqiqatçılardan sayılırdı. Çətin və məhrumiyyətlərlə dolu uşaqlıq yaşamasına baxmayaraq Hənəfi Zeynallı güclü iradəsi və bacarığı sayəsində Azərbaycan ədəbiyyatı tarixinə öz adını qızıl hərflərlə yazmağı bacaran şəxsiyyətlərdəndir. Bakı Dövlət Universitetində, Ali Pedaqoji İnstitutda çalışımış, Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti olmuşdur. 1925-26-cı illərdə Firudin bəy Köçərlinin iki cilddən ibarət "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabına redaktorluq etmişdir.

Hənəfi Zeynallının I türkololji Qurultayın qarşısında qaldırdığı məsələ heç şübhəsiz ki, Azərbaycan folklorunun vahid sistem şəklində, elmi prinsiplər əsasında tədqiq və nəşr olunması idi. Bundan başqa tədqiq olunmuş folklor materiallarının sistemli bir şəklə salınması, bununla da Azərbaycan və türk dünyasında folklorşünaslıq elminin təşəkkülü və inkişafı yolunda böyük işlər görlüməsi onun qarşısında vəzifə kimi dururdu. "Əgər bizim el ədəbiyyatımız toplanarsa, cildlərlə kitablar nəşr edilər" söyləyən alim bir çox məqalələrində folklor tarixində ilk dəfə olaraq xalq ədəbiyyatının tədqiqini sistemli şəklə salmışdır. Rejim imkan versəydi bu yolda tədqiqatları ilə ədəbiyyat tariximizə daha böyük töhfələr verəcəkdi. Lakin Azərbaycanın bir çox ziyalıları kimi Hənəfi Zeynallı da Sovet rejimi üçün təhlükəli şəxslərdən sayıldı və göstərmədiyi fəaliyyətlərdə ittiham olundu. İttihamlar güllələnməni qaçılmaz etdi və böyük mütüfəkkir 41 yaşında Bakıda ölüm hökmünün icrası nəticəsində həyatla faciəli şəkildə vidalaşdı.

Açar sözlər: Birinci Türkoloji Qurultay, folklor, Hənəfi Zeynallı, folklorşünaslıq, ədəbiyyat tarixi.

THE FIRST TURKOLOGICAL CONGRESS AND THE ROLE OF HANAFI ZEYNALLI IN THE FORMATION OF AZERBAIJANI FOLKLORE STUDIES

The organization of the First Turkological Congress in Azerbaijan was not merely a consequence of geographical considerations. Rather, Azerbaijan had long functioned as a prominent intellectual and cultural center within the Turkic world, where influential scholars and thinkers who contributed to the formation of Turkic intellectual discourse lived and carried out their scholarly activities. In this context, Baku emerged as a natural venue for such an important academic gathering, and the decision to convene the Congress there reflected Azerbaijan's significant role in the intellectual and cultural life of Turkic societies.

The First Turkological Congress represented a landmark event in the development of Turkological studies. The congress brought together representatives of Turkic peoples from geographically distant regions, including Siberia and Yakutia, as well as delegates from relatively small Turkic communities in Europe and representatives of Turkic populations from the Middle East and Central Asia. Among the Azerbaijani intellectuals who participated in this significant scholarly forum was the distinguished researcher Hanafi Zeynalli.

Hanafi Zeynalli occupies a noteworthy place in the history of Azerbaijani literary scholarship. He was among the pioneering scholars who initiated the systematic study of Azerbaijani folklore and at the same time established himself as a prominent literary critic. Zeynalli conducted extensive research on the literary and intellectual legacy of Mirza Fatali Akhundov and Huseyn Javid, producing substantial scholarly works and offering balanced and objective evaluations of these influential figures. His analytical approach and methodological rigor place him among the limited number of researchers who assessed the works of these writers from a scholarly and critical perspective.

Despite experiencing a childhood marked by severe hardship and deprivation, Hanafi Zeynalli demonstrated remarkable perseverance and intellectual capability. Owing to his determination and scholarly dedication, he succeeded in leaving a lasting imprint on the development of Azerbaijani literary studies. Zeynalli carried out academic and pedagogical activities at Baku State University and the Higher Pedagogical Institute, where he served as an associate professor at the Department of the History of Azerbaijani Literature. In 1925–1926, he served as the editor of Firidun bey Kocharli's two-volume work *Materials on the History of Azerbaijani Literature*, thereby contributing significantly to the preservation and scholarly examination of Azerbaijan's literary heritage.

One of the central issues raised by Hanafi Zeynalli during the First Turkological Congress concerned the systematic collection, scholarly study, and publication of Azerbaijani folklore on the basis of scientific principles. He emphasized the necessity of classifying and organizing collected folklore materials within a coherent methodological

framework. Such an approach was essential for the institutionalization and further development of folklore studies not only in Azerbaijan but also throughout the broader Turkic world.

In his numerous scholarly publications, Zeynalli repeatedly highlighted the richness and potential of Azerbaijani folk literature, emphasizing that "if our folk literature were systematically collected, volumes of books could be published." Through these contributions, he became one of the earliest scholars to advocate for a systematic and methodologically grounded approach to the study of folk literature. Had the political conditions of the time been more favorable, his research would undoubtedly have made even more substantial contributions to the historiography of Azerbaijani literature and folklore studies.

However, like many Azerbaijani intellectuals of his era, Hanafi Zeynalli became a victim of the repressive policies of the Soviet regime. He was accused of activities he had never committed and was subsequently declared a politically dangerous figure. As a result of these fabricated accusations, he was sentenced to death and executed in Baku at the age of forty-one, thus bringing his life and promising scholarly career to a tragic end.

Key words: First Turkological Congress, folklore, Hanafi Zeynalli, folklore studies, history of literature.

BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ XX ƏSR TÜRK DİLÇİLİYİNDƏ ƏHMƏD CAVAD ƏMRƏ ŞƏXSİYYƏTİ

Nərmin Qasımova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
narminrahimova7@gmail.com
https://orcid.org/0009-0008-6350-6144
Azərbaycan/Bakı

XX əsr türk dilçiliyi və türkçülük düşüncəsinin formalaşması və inkişafında mühüm rol oynamış görkəmli şəxsiyyətlərdən biri də Əhməd Cavad Əmrədir. O yalnız dilçi və yazıçı kimi deyil, eyni zamanda jurnalist, tərcüməçi, siyasətçi və maarifçi kimi çoxşaxəli fəaliyyət göstərmişdir. Onun elmi və ictimai fəaliyyəti türk dilinin milli əsaslar üzərində inkişafı və sistemli şəkildə tədqiqi baxımından xüsusi əhəmiyyət kəsb edir. Əhməd Cavad Əmrə 1 sentyabr 1878-ci ildə Giritin Resmo şəhərində anadan olmuşdur. O, Osmanlı imperiyasının son dövrü ilə Türkiyə Cümhuriyyətinin təşəkkülü mərhələsində yaşamış, bu dövrün mürəkkəb ictimai-siyasi prosesləri onun elmi baxışlarının formalaşmasına ciddi təsir göstərmişdir. Əmrə dili yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də milli kimliyin, mədəni yaddaşın və ictimai tərəqqinin əsas amillərindən biri kimi qiymətləndirmişdir. Onun fəaliyyəti türk dilinin sadələşdirilməsi, əlifba islahatı, dilin normalaşdırılması və elmi əsaslarla öyrənilməsi istiqamətlərini əhatə etmişdir. Xüsusilə də latın qrafikalı türk əlifbasının tətbiqi prosesində fəal iştirak etməsi onun dil islahatlarındakı rolunu daha da gücləndirmişdir. Əmrənin elmi irsi türk dilinin qrammatik quruluşu, söz yaradıcılığı, dialektologiya və müqayisəli dilçilik sahələrini əhatə edir. Onun "Türkçede kelime teşkili hakkında bir anket" və "Türk lehçelerinin mukayeseli grameri" adlı əsərləri bu sahədə aparılan tədqiqatlar üçün mühüm mənbə hesab olunur. Bundan əlavə, onun elmi baxışları 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın əsas ideyaları ilə səsləşir. I Türkoloji Qurultay türk xalqlarının dili, əlifbası və mədəni inteqrasiyası məsələlərinin müzakirə olunduğu mühüm elmi platforma olmuşdur. Əmrənin irəli sürdüyü prinsiplər ümumtürk dilçiliyi kontekstində xüsusi aktuallıq kəsb etmişdir. O, Türkiyə Böyük Millət Məclisində Çanaqqala millət vəkili kimi fəaliyyət göstərmiş, həmçinin Türk Dil Qurumu çərçivəsində vacib elmi və təşkilati işlər görmüşdür. Əhməd Cavad Əmrə 10 dekabr 1961-ci ildə Ankarada vəfat etmişdir. Nəticə etibarilə, Əhməd Cavad Əmrə türk dilçiliyi və türkologiya elminin inkişafında mühüm iz qoymuş, milli dil quruculuğu prosesinə əhəmiyyətli töhfələr vermiş görkəmli alim kimi qiymətləndirilir.

Açar sözlər: Əhməd Cavad Əmrə, Birinci Türkoloji Qurultay, Türk Dil Qurumu, Türkologiya, əlifba islahatı, latın qrafikası.

AHMAD JAVAD EMRE'S FACTOR AT THE FİRST TURKOLOGİCAL CONGRESS AND IN THE 20TH CENTURY TURKISH LINGUISTICS

One of the prominent figures who played an important role in the formation and development of 20th century Turkish linguistics and Turkic thought is Ahmad Javad Emre. He was not only a linguist and writer, but also a journalist, translator, politician and educator. His scientific and public activities are of particular importance in terms of the development of the Turkish language on national grounds and its systematic study. Ahmad Javad Emre was born on September 1, 1878 in the city of Rethymno, Crete. He lived during the last period of the Ottoman Empire and the formation of the Republic of Turkiye, and the complex socio-political processes of this period had a serious impact on the formation of his scientific views. Emre evaluated language not only as a means of communication, but also as one of the main factors of national identity, cultural memory and social progress. His activities covered the directions of simplification of the Turkish language, alphabet reform, language standardization and its study on scientific grounds. In particular, his active participation in the process of introducing the Turkish alphabet with Latin script further strengthened his role in language reforms. Emre's scientific heritage covers the grammatical structure of the Turkish language, word formation, dialectology and comparative linguistics. His works entitled "Türkçede kelime teşkili hakkında bir anket" and "Türk lehçelerinin mukayeseli grameri" are considered important sources for research in this field. In addition, his scientific views are in line with the main ideas of the First Turkological Congress held in Baku in 1926. The First Turkological Congress was an important scientific platform where issues of language, alphabet and cultural integration of the Turkic peoples were discussed. The principles put forward by Emre have gained particular relevance in the context of pan-Turkic linguistics. He served as a deputy for Çanakkale in the Grand National Assembly of Turkiye and also carried out important scientific and organizational work within the framework of the Turkish Language Association. Ahmad Javad Emre died on December 10, 1961 in Ankara. As a result, Ahmad Javad Emre is considered an outstanding scholar who left a significant mark on the development of Turkish linguistics and Turkology and made significant contributions to the process of national language building.

Key words: Ahmad Javad Emre, First Turkological Congress, Turkish Language Association, Turkology, alphabet reform, Latin script.

TÜRKÇÜLÜYÜN ƏBƏDİYYƏT YOLÇUSU XALİD SƏİD XOCAYEV VƏ ONUN TÜRKOLOJİ FƏALİYYƏTİ

Leyla Kərimova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
https://ORCİD.org/0009-0009-2914-786X
cool.kerimova@bk.ru
Azərbaycan/Bakı

Türk dünyasının görkəmli nümayəndələrindən biri Xalid Səid Xocayevdir. O, müasir Azərbaycan dilinin qrammatikasının işlənib hazırlanmasında, araşdırılmasında, türk dillərinin müqayisəli tədqiqində, Mahmud Kaşğarinin "Divani lüğət it-türk" əsərinin tərcümə olunmasında müstəsna xidmətlər göstərmişdir. Özbəkistandan Türkiyəyə və daha sonra Azərbaycana təşrif buyuran Xalid Səid Xocayev elmi və pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Türk dillərinin qrammatikası, üslubiyyatı, sintaksisi, morfologiyası, nəzəriyyəsi sahəsində mühüm tədqiqlər müəllifi olan X.S.Xocayev dilçilik haqqında çoxsaylı kitablar müəllifidir. O, Azərbaycan dilçiliyinin inkişafında və dərslik yazılmasında müstəsna xidmətlər göstərmiş, bir sıra ilklərə imza atmışdır.

1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayın iştirakçılarından biri Xalid Səid Xocayev idi. Bu qurultayda X.S.Xocayev latın əlifbasına keçid, ortaq türk dili məsələsi, türk dillərinin bölgüsü, terminologiyası barədə maraqlı təkliflər irəli sürmüşdür. Onun ən böyük arzularından biri ortaq türk dilinin yaradılması, türk xalqlarının maariflənməsi idi. "Osmanlı, özbək, qazax dillərinin müqayisəli sərfi" kitabında X.S.Xocayev türk dillərinin qrammatik quruluşunu müqayisəli şəkildə incələmiş, ortaq dilin mümkünlüyünü vurğulamışdır. X.S.Xocayevin "Yeni əlifba yollarında əski xatirə və duyğularım" kitabı ədibin türk ellərinə olan səyahətlərindən və gəldiyi qənaətlərdən, araşdırmalarından bəhs edir. Burada müəllifin türk xalqlarının əlifbası ilə bağlı fikirləri, ortaq türk əlifbası məsələləri yer alır. X.S.Xocayev tədqiqatlarında həm də ortaq əlifbaya keçməyin düşünülən qədər asan iş olmadığını, buna hazırlıq prosesinin aparılmalı olduğunu, təbliğatın vacibliyini vurğulayırdı.

X.S.Xocayevin elmi fəaliyyəti bunlarla yekunlaşmır. O həm də böyük tərcüməçi olmuşdur. Rəşad Nuri Güntəkin, Abdulla Qədiri və neçə-neçə ədiblərin əsərlərini Azərbaycan dilinə çevirən X.S.Xocayevin bu sahədəki ən böyük xidmətlərindən biri Mahmud Kaşğarinin "Divani lüğət it-türk" əsərinin tərcüməsidir. Müəllif təxminən iki il ərzində bu işi həyata keçirmiş, lakin nəşr etdirə bilməmişdir.

Təəssüf ki, repressiya dalğası X.S.Xocayevdən də yan keçməmiş və o həbs olunaraq güllələnməyə məhkum edilmişdir. Buna baxmayaraq, Xalid Səid Xocayevin elmi araşdırmaları, tərcümələri, ümumilikdə türkologiya sahəsindəki xidmətləri çağdaş dövrümüzdə də öz aktuallığını qoruyub saxlamaqdadır.

Açar sözlər: Xalid Səid Xocayev, qurultay, əlifba, dil, tərcümə

KHALED SAID KHOJAEV, THE ETERNAL VOYAGER OF TURKISM AND HIS TURKOLOGY ACTIVITIES

One of the prominent representatives of the Turkic world is Khaled Said Khojayev. He rendered exceptional services in the development and research of the grammar of the modern Azerbaijani language, in the comparative study of Turkic languages, and in the translation of Mahmud Kashgari's "Divani lugat it-turk". Khalid Said Khojayev, who traveled from Uzbekistan to Turkey and then to Azerbaijan, was also engaged in scientific and pedagogical activities. Kh.S.Khojayev, the author of important studies in the field of grammar, stylistics, syntax, morphology, and theory of Turkic languages, is the author of numerous books on linguistics. He rendered exceptional services in the development of Azerbaijani linguistics and in writing textbooks, and was a pioneer in a number of areas.

One of the participants of the First Turkological Congress held in Baku in 1926 was Khaled Said Khojayev. At this congress, Kh.S.Khojayev put forward interesting proposals on the transition to the latin alphabet, the issue of a common Turkic language, the division of Turkic languages, and terminology. One of his greatest dreams was the creation of a common Turkic language and the enlightenment of the Turkic peoples. In his book "Comparative use of the ottoman, uzbek, and kazakh languages" Kh.S.Khojayev analyzed the grammatical structure of the Turkic languages in a comparative manner and emphasized the possibility of a common language. Kh.S.Khojayev's book "My old memories and feelings on the paths of the new alphabet" tells about the writer's travels to the Turkic lands and his conclusions and research. It contains the author's thoughts on the alphabet of the Turkic peoples and the issues of a common Turkic alphabet. In his research, Kh.S.Khojayev also emphasized that switching to a common alphabet was not as easy as one might think, that a preparatory process had to be carried out, and the importance of propaganda.

Kh.S.Khojayev's scientific activity does not end there. He was also a great translator. One of Kh.S.Khojayev's greatest contributions in this field, who translated the works of Rashad Nuri Guntekin, Abdullah Gadiri and several other writers into Azerbaijani, is the translation of Mahmud Kashgari's "Divani lugat it-turk". The author carried out this work for about two years, but was unable to publish it.

Unfortunately, the wave of repression did not bypass Kh.S.Khojayev, and he was arrested and sentenced to be shot. Despite this, Khalid Said Khojayev's scientific research, translations, and overall contributions to the field of Turkology remain relevant in our modern era.

Key words: Khaled Said Khojayev, congress, alphabet, language, translation.

ƏLİŞİR NƏVAİNİN İRSİ VƏ TÜRKDİLLİ ƏDƏBİYYATLARIN QARŞILIQLI TƏSİRİ: ALMAZ ULVİ BÜNYATZADƏ TƏDQİQATLARI KONTEKSTİNDƏ

Müjkan Məmmədzadə
pedaqogika üzrə fəlsəfə doktoru
Azərbaycan İdman Akademiyası
https://ORCID.org/0000-0001-5693-3748
mujkan@mail.ru
Azərbaycan/Bakı

Əlişir Nəvai (1441–1501) türkdilli poeziya və ədəbiyyatın inkişafında önəmli rol oynamış, həm klassik, həm də mənəvi-estetik baxımdan zəngin irs qoymuşdur. Onun əsərləri yalnız Çağatay türkcəsində deyil, bütövlükdə türkdilli ədəbi məkanın formalaşmasına təsir göstərmişdir. Nəvainin yaradıcılığı həm Azərbaycan, həm də ümumtürkdilli ədəbiyyat sahəsində tədqiq edilmiş və bu sahədə bir sıra müasir tədqiqatçılar onun irsini araşdırmışdır. Belə tədqiqatçılardan biri də Almaz Ulvi Bünyatzadədir. Onun elmi işləri, Əlişir Nəvainin əsərlərinin türkdilli ölkələrdə tərcüməsi və təbliği baxımından əhəmiyyətli nəticələr təqdim edir.

Bünyatzadənin araşdırmalarında əsas diqqət Nəvainin irsinin yalnız ədəbi-mədəni aspektləri ilə məhdudlaşmır, eyni zamanda onun müxtəlif türkdilli ədəbi ənənələrlə qarşılıqlı təsirini ortaya qoyur. Məsələn, Nəvainin "Xəmsə"si əsasında aparılan müqayisəli təhlillər göstərir ki, onun poetik üslubu və fəlsəfi konsepsiyaları Azərbaycan və Qazaxıstan ədəbiyyatında birbaşa təsirə malik olmuşdur (*Bünyatzadə, 2020*). Bu təsir, həm də ədəbi tərcümə və təbliğ prosesində özünü göstərir; Nəvainin əsərləri müxtəlif dövrlərdə Azərbaycan türkcəsinə və digər türkdilli dillərə çevrilmişdir ki, bu da mədəniyyətlərarası dialoqun inkişafına səbəb olmuşdur.

Müasir ədəbiyyatşünaslıqda Nəvainin irsinin öyrənilməsi həm də türkdilli ölkələrdə ədəbi proseslərin qarşılıqlı təsirinin anlaşılmasına xidmət edir. Bünyatzadə, tədqiqatlarında göstərir ki, Nəvainin poetik-metodoloji yanaşmaları yalnız estetik zövq yaratmaqla kifayətlənmir, həm də ədəbi tərcümə və təbliğ vasitəsi ilə milli-mədəni identikliyi qorumağa və eyni zamanda digər türkdilli ədəbiyyatla əlaqələr qurmağa imkan verir (*Bünyatzadə, 2021*). Bu məqam xüsusilə müasir dövrdə, türkdilli ölkələr arasında ədəbi əməkdaşlıq və qarşılıqlı təsirin gücləndirilməsi baxımından əhəmiyyətlidir.

Ümumilikdə, Almaz Ulvi Bünyatzadənin tədqiqatları göstərir ki, Əlişir Nəvainin irsi həm tarixi, həm də müasir ədəbi kontekstdə türkdilli ədəbiyyatlar üçün bir körpü funksiyasını daşıyır. Onun əsərlərinin tərcüməsi və təbliği yalnız ədəbi maraq obyektinə çevrilmir, eyni zamanda mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi və ümumtürkdilli ədəbi məkanın inkişafı üçün strateji rol oynayır. Beləliklə, Nəvainin irsi müasir Azərbaycan ədəbiyyatşünaslığında sistemli şəkildə öyrənilməli və onun təsiri türkdilli ədəbiyyatların qarşılıqlı təsiri kontekstində qiymətləndirilməlidir.

Açar sözlər: Ələşir Nəvai, Almaz Ulvi Bünyatzadə, türkdilli ədəbiyyat, ədəbi tərcümə, ədəbi təbliğ, qarşılıqlı təsir.

THE LEGACY OF ALISHER NAVOI AND THE INTERACTION OF TURKIC-LANGUAGE LITERATURES: THE CASE OF ALMAZ ULVI BÜNYATZADE

Alisher Navoi (1441–1501) played a significant role in the development of Turkic-language poetry and literature, leaving a rich legacy both in classical and spiritual-aesthetic terms. His works influenced not only Chagatai Turkish but also the broader Turkic literary space. Navoi's creativity has been studied in both Azerbaijani and pan-Turkic literary contexts, and a number of contemporary scholars have examined his heritage. One such researcher is Almaz Ulvi Bünyatzade, whose scholarly works provide important insights regarding the translation and dissemination of Navoi's works in Turkic-language countries.

In Bünyatzade's research, the focus is not limited to the literary and cultural aspects of Navoi's legacy; it also highlights his interactions with various Turkic literary traditions. For instance, comparative analyses based on Navoi's Khamsa demonstrate that his poetic style and philosophical concepts have directly influenced Azerbaijani and Kazakh literature (*Bünyatzade, 2020*). This influence is also evident in the processes of literary translation and dissemination; Navoi's works have been translated into Azerbaijani Turkish and other Turkic languages at different periods, contributing to the development of intercultural dialogue.

The study of Navoi's legacy in contemporary literary scholarship also serves to understand the mutual influence of literary processes across Turkic-language countries. Bünyatzade shows that Navoi's poetic-methodological approaches not only create aesthetic pleasure but also help preserve national-cultural identity while fostering connections with other Turkic literatures through translation and dissemination (*Bünyatzade, 2021*). This aspect is particularly significant today in strengthening literary cooperation and mutual influence among Turkic-speaking countries.

Overall, Almaz Ulvi Bünyatzade's research demonstrates that Alisher Navoi's legacy functions as a bridge for Turkic-language literatures, both historically and in the contemporary literary context. The translation and dissemination of his works are not merely objects of literary interest but also play a strategic role in reinforcing intercultural dialogue and developing the pan-Turkic literary space. Consequently, Navoi's legacy should be systematically studied in contemporary Azerbaijani literary scholarship, and its influence assessed in the context of the mutual interaction of Turkic-language literatures.

Key words: Alisher Navoi, Almaz Ulvi Bünyatzade, Turkic-language literature, literary translation, literary dissemination, mutual influence.

"KİTABİ-DƏDƏ QORQUD" BOYLARINDA TÜRK MİFOLOGİYASI

Türkan Mahmudzadə
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/0009-0000-4379-8014
mahmudzadturkan@gmail.com
Azərbaycan/Bakı

Türk xalqlarının ən qədim epik abidələrindən biri "Kitabi-Dədə Qorqud" dastanıdır. Bu dastan yalnız bədii ədəbiyyat nümunəsi deyil, eyni zamanda qədim türk dünyagörüşünün və sosial-mədəni həyatının zəngin qaynağı kimi xüsusi əhəmiyyət kəsb edir. Dastanın ilkin formaları XI əsrə aid edilsə də, mövcud nüsxələr XVI əsrdə yazıya köçürülmüşdür. Dastanın iki əsas əlyazma nüsxəsi məlumdur: biri alman şərqşünası Fridrix fon Dits tərəfindən Drezden kitabxanasına təqdim edilmiş bir müqəddimə ilə on iki boydan ibarət olan Drezden nüsxəsidir, digəri isə XX əsrin 50-ci illərində Vatikan kitabxanasında aşkar edilmiş bir müqəddimə və altı boydan ibarət Vatikan nüsxəsidir. Fridrix fon Ditsin araşdırmalarına əsasən, "Kitabi-Dədə Qorqud" dastanında yer alan bəzi mifoloji süjetlər digər xalqların epik ənənələri ilə müqayisədə daha qədim xüsusiyyətlərə malikdir. Xüsusilə Təpəgöz obrazı ilə bağlı süjet qədim yunan mifologiyasındakı analoji motivlərlə səsləşir. Bu baxımdan, Homerin "Odisseya" əsərindəki Polifem obrazı ilə müqayisə aparıldıqda, Təpəgöz motivinin daha arxaik qatlara aid olduğu ehtimal edilir. Həmçinin dastanda totemizm (xüsusilə qurd və quş kultu), ilahi varlıqlara inam (Tanrı anlayışı), müqəddəs rəqəmlər, yuxu yozumu kimi elementlər geniş şəkildə əks olunur, dastanın müxtəlif boylarında mifoloji dünyagörüşünün izləri aydın şəkildə görünür. Məsələn, "Dəli Domrul" boyunda ölüm kultunun qədim izləri və onların sonrakı dini təsəvvürlər kontekstində interpretasiyası diqqəti cəlb edir. Boyda Əzrayıl obrazının iştirakı dastanın islamlaşma dövründə müəyyən əlavələrə məruz qaldığını göstərir, həmin süjetin ölüb-dirilmə motivləri baxımından qədim Şumer, Babil və Misir mifologiyaları ilə tipoloji oxşarlıqları müşahidə olunur. Dastanda əks olunan adət-ənənələr: muştuluqvermə, ələpmə, qurban kəsmə, yuxu yozma kimi davranış formaları xalqın sosial həyatında mühüm rol oynamış, bu günə qədər qorunub saxlanılmışdır. Bu baxımdan, "Kitabi-Dədə Qorqud" yalnız ədəbi və mifoloji deyil, həm də etnoqrafik baxımdan qiymətli mənbə kimi çıxış edir.

Nəticə də "Kitabi-Dədə Qorqud" dastanı türk xalqlarının qədim mifoloji düşüncəsinin, dini inanclarının və sosial-mədəni ənənələrinin kompleks ifadəsi olmaqla, həm tarixi, həm də mədəni baxımdan əvəzsiz bir irs nümunəsidir.

Açar sözlər: "Kitabi-Dədə Qorqud", dastan, mifologiya, Təpəgöz, totemizm.

TURKİC MYTHOLOGY İN THE BOOKS OF DEDE GORGUD

One of the oldest epic monuments of the Turkic peoples is the epic "Kitabi-Dede Gorgud". This epic is not only an example of fiction, but also holds special significance as a rich source of ancient Turkic worldview and socio-cultural life. Although the original forms of the epic are dated to the 11th century BC, the extant copies were transcribed in the 16th century. Two main manuscript copies of the epic are known: one is the Dresden copy, presented to the Dresden library by the German orientalist Friedrich von Dietz, consisting of a prologue and twelve stanzas, and the other is the Vatican copy, discovered in the Vatican library in the 1950s, consisting of a prologue and six stanzas. According to Friedrich von Dietz's research, some mythological plots in the epic "Kitabi-Dede Gorgud" have more ancient characteristics than the epic traditions of other peoples. In particular, the plot surrounding the image of Tepegoz resonates with analogous motifs in ancient Greek mythology. In this regard, when compared with the image of Polyphemus in Homer's "Odyssey", it is assumed that the Tepegoz motif belongs to more archaic layers. Also, elements such as totemism (especially the cult of wolves and birds), belief in divine beings (the concept of God), sacred numbers, and dream interpretation are widely reflected in the epic, and traces of a mythological worldview are clearly visible in various parts of the epic. For example, the ancient traces of the death cult in the "Dali Domrul" tribe and their interpretation in the context of later religious ideas attract attention. The customs and traditions reflected in the epic: forms of behavior such as greetings, kissing, sacrificing, and interpreting dreams, played an important role in the social life of the people and have been preserved to this day. In this regard, "The Book of Dede Gorgud" serves as a valuable source not only from a literary and mythological perspective, but also from an ethnographic perspective.

The conclusion is that the epic "Kitabi-Dede Gorgud" is a complex expression of the ancient mythological thought, religious beliefs, and socio-cultural traditions of the Turkic peoples, and is an invaluable example of heritage from both a historical and cultural perspective.

Key words: "Kitabi-Dede Gorgud", epic, mythology, Tepegoz, totemism.

SÜNİ İNTELLEKTİN DİLİMİZƏ TƏSİRİ

Gülnarə Həsənova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Gulnarahasanova3@gmail.com
https://ORCID.org/0009-0002-7239-1146
Azərbaycan/Bakı

Texnologiyanın sürətli inkişafı, xüsusilə süni intellekt (AI) sistemlərinin həyatın bütün sahələrinə daxil olması, dilin qarşısında həm yeni imkanlar, həm də ciddi sınaqlar yaradır. Əvvəllər dilin qorunması yalnız lüğət və tədris müstəvisində müzakirə olunurdusa, indi artıq rəqəmsal reallıqda dilin varlığı və təmsil səviyyəsi müzakirə mövzusuna çevrilib.

Süni intellekt texnologiyaları, tərcümə proqramları, səsli köməkçilər, chatbot sistemləri, avtomatik yazı operatorları gündəlik ünsiyyətin ayrılmaz hissəsinə çevrilib. Lakin bu alətlər hansı dildə daha çox məlumatla qidalanırsa, o dil rəqəmsal üstünlüyə malik olur. İngilis dili bu baxımdan qlobal miqyasda dominant vəziyyətdədir.

Burada əsas təhlükə ondan ibarətdir ki, süni intellekt alqoritmləri çox zaman dilin orijinal strukturunu və mədəni kontekstini nəzərə almır. Nəticədə tərcümələrdə semantik incəliklər, üslubi çalarlar və mədəni metaforalar itir. Məsələn, "ürək yanmaq" ifadəsini sistem "heart burn" kimi fizioloji anlamda tərcümə etdikdə, onun emosional-mənəvi dərinliyi yox olur. Bu, yalnız dil səhvi deyil, mədəniyyətin anlam kodlarının zədələnməsidir.

Süni intellektin dil üzərində yaratdığı ən mühüm reallıq "rəqəmsal yaddaş" anlayışıdır. Yəni, bir dil haqqında nə qədər çox məlumat, mətn, səs və kontekst sistemlərə daxil edilirsə, həmin dil süni intellektin "yaddaşında" bir o qədər dərin yer tutur. Bu, Azərbaycan dili üçün həm çağırış, həm də fürsətdir. Əgər biz dilimizi elmi məqalələrdə, vikipediya mətnlərində, elektron dərsliklərdə, rəsmi sənədlərdə və media platformalarında aktiv şəkildə işlətməsək, süni intellekt sistemləri onu ikinci dərəcəli informasiya dili kimi qəbul edəcək. Nəticədə gələcəkdə virtual mühitlərdə Azərbaycan dilində danışan süni sistemlər, köməkçilər və ya tərcümə platformaları məhdud səviyyədə fəaliyyət göstərəcək.

Əgər bu gün dilimizi süni intellekt sistemlərində layiqincə təmsil edə bilsək, sabah Azərbaycan dili yalnız dərsliklərdə və poeziyada deyil, həm də rəqəmsal dünyada yaşayan, düşünən və öyrədən bir dil olacaq. Bu, milli kimliyimizin gələcəkdə də dinamik, yaradıcı və intellektual qalmasının əsas təminatıdır.

Beləliklə, süni intellekt təkcə texnologiya deyil, həm də dil siyasətinin yeni mərhələsidir.

Açar sözlər: Süni intellekt, texnologiya, dilçilik, lüğət, dominant.

THE IMPACT OF ARTIFICIAL INTELLIGENCE ON OUR LANGUAGE

The rapid development of technology, especially the penetration of artificial intelligence (AI) systems into all areas of life, creates both new opportunities and serious challenges for language. If previously the preservation of language was discussed only at the level of vocabulary and teaching, now the existence and level of representation of language in digital reality has become a topic of discussion.

Artificial intelligence technologies, translation programs, voice assistants, chatbot systems, automatic writing operators have become an integral part of everyday communication. However, the language in which these tools are fed with more information, that language has a digital advantage. English is dominant in this regard on a global scale.

The main danger here is that artificial intelligence algorithms often do not take into account the original structure and cultural context of the language. As a result, semantic subtleties, stylistic nuances and cultural metaphors are lost in translations. For example, when the system translates the expression "heart burn" in a physiological sense as "heart burn", its emotional and spiritual depth disappears. This is not just a linguistic error, but also a damage to the semantic codes of culture.

The most important reality that artificial intelligence creates on language is the concept of "digital memory". That is, the more information, text, sound and context about a language are entered into the systems, the deeper that language occupies in the "memory" of artificial intelligence. This is both a challenge and an opportunity for the Azerbaijani language. If we do not actively use our language in scientific articles, Wikipedia texts, electronic textbooks, official documents and media platforms, artificial intelligence systems will perceive it as a secondary information language. As a result, in the future, artificial systems, assistants or translation platforms that speak Azerbaijani in virtual environments will operate at a limited level.

If we can adequately represent our language in artificial intelligence systems today, tomorrow the Azerbaijani language will be a language that lives, thinks and teaches not only in textbooks and poetry, but also in the digital world. This is the main guarantee that our national identity will remain dynamic, creative and intellectual in the future.

Thus, artificial intelligence is not only a technology, but also a new stage in language policy

Key words: Artificial intelligence, technology, linguistics, vocabulary, dominant.

BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN TÜRK FOLKLORU VƏ ORTAQ MƏDƏNİ YADDAŞIN ARAŞDIRILMASINA TƏSİRİ

Aynur Bədəlova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/0009-0002-2886-218
badalovaaynurrr@gmail.com
Azərbaycan/Bakı

Birinci Türkoloji Qurultayı türk xalqlarının dili, tarixi, mədəniyyəti ilə yanaşı, onların zəngin folklor irsinin elmi öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qurultayda açıq şəkildə vurğulanırdı ki, türk xalqlarını bir-birinə bağlayan əsas mənəvi təməllərdən biri ortaq mifoloji təfəkkür, dastan yaradıcılığı, şifahi xalq ədəbiyyatıdır. Bu baxımdan Qurultay sonrakı dövrlərdə folklorşünaslığın inkişafına ciddi təkan vermişdir. Toplantıda folklor irsi dil, ədəbiyyat, etnoqrafiya və mədəniyyət məsələlərinin tərkib hissəsi kimi dəyərləndirilirdi. Çünki xalqın keçmişi, həyat tərzi, dünyagörüşü və mənəvi dəyərləri canlı şəkildə məhz şifahi yaradıcılıq nümunələrində yaşayırdı. Qurultay iştirakçıları bu irsin toplanmasını, sistemləşdirilməsini və gələcək nəsillərə çatdırılmasını elmi vəzifə kimi irəli sürürdülər.

Qurultayda iştirak edən Mehmed Fuad Köprülünün türk xalqlarının ədəbi dillərinin inkişafı haqqında məruzəsi birbaşa xalq ədəbiyyatı ənənəsinin öyrənilməsi ilə səsləşirdi *[Köprülü, 2017*]. Onun elmi baxışlarında dastanlar, xalq şeiri və tarixi yaddaş türk mədəniyyətinin əsas qaynaqlarından biri hesab olunurdu. Azərbaycan nümayəndələri arasında yer alan Salman Mümtazın fəaliyyəti də bu istiqamətdə diqqətəlayiq idi. O, klassik irsin toplanması, qədim mətnlərin qorunması və milli yaddaşın yaşadılması sahəsində mühüm işlər görmüş, Qurultay günlərində iştirakçılara "Nəsimi" adlı kitabını təqdim etmişdi. Eyni zamanda Bəkir Çobanzadənin türk ləhcələrinin yaxın qohumluğu haqqında məruzəsi folklorun ortaq köklərini araşdırmaq baxımından xüsusi əhəmiyyət daşıyırdı. Qurultaydan sonra Azərbaycan, Qazaxıstan, Qırğızıstan və digər türk ölkələrində xalq ədəbiyyatı nümunələrinin toplanması, o cümlədən aşıq yaradıcılığı, bayatılar və "Manas" dastanının variantlarının qeydə alınması kimi işlər sürətlənərək elmi folklorşünaslığın praktik inkişafına təkan verdi. Xüsusilə "Kitabi-Dədə Qorqud" abidəsinin ümumtürk mədəni irsi kimi dəyərləndirilməsi Qurultayın irəli sürdüyü ideyalarla səsləşirdi.

Müasir dövrdə Qurultayın bu xətti daha geniş miqyasda davam edir. Türk Dövlətləri Təşkilatı, TÜRKSOY və digər beynəlxalq qurumlar vasitəsilə folklor günləri, elmi konfranslar və ədəbi-mədəni layihələr həyata keçirilir. Aşıq sənəti, Novruz ənənələri, dastan ənənəsi və qədim mərasimlər ümumtürk irsi kimi təqdim olunur. Bu gün ortaq mədəni yaddaşın qorunması və türk dünyasında inteqrasiyanın güclənməsi istiqamətində əldə olunan nəticələr həmin tarixi Qurultayın uzaqgörən ideyalarının real davamıdır.

Açar sözlər: qurultay, folklor irsi, ortaq fikir, ənənə, türk xalqaları.

THE IMPACT OF THE FIRST TURKOLOGICAL CONGRESS ON THE RESEARCH OF TURKISH FOLKLORE AND COMMON CULTURAL MEMORY

The First Turkological Congress plays an important role in the scientific study of the languages, history and culture of the Turkic peoples, as well as their rich folkloric heritage. At the Baku Turkological Congress, it was explicitly emphasized that one of the main spiritual foundations connecting the Turkic peoples is their shared mythological thinking, epic tradition and oral folk literature. In this sense, the Congress later gave a serious impetus to the development of folkloristics. At the meeting, folk heritage was evaluated as an integral part of language, literature, ethnography and cultural studies. This is because the people's past, way of life, worldview and moral values were vividly preserved precisely in examples of oral creativity. The participants of the Congress put forward the collection, systematization and transmission of this heritage to future generations as a scientific duty. The report of Mehmed Fuad Köprülü on the development of literary languages of the Turkic peoples directly corresponded with the study of folk literature traditions [*Köprülü, 2017*]. In his scholarly views, epics, folk poetry and historical memory were considered among the main sources of Turkic culture. The activity of Salman Mümtaz, one of the Azerbaijani delegates was also notable in this direction. He carried out important work in collecting classical heritage, preserving ancient texts and maintaining national memory and during the Congress he presented his book "Nasimi" to the participants. At the same time, the report of Bakir Chobanzade on the close kinship of Turkic dialects was of special importance for studying the common roots of folklore. After the Congress, the collection of folk literature samples, recording of ashug traditions, bayatis, and variants of the Manas epic in Azerbaijan, Kazakhstan, Kyrgyzstan, and other Turkic countries accelerated, giving impetus to the practical development of scientific folklore. In particular, the assessment of the "Kitabi-Dede Gorgud" as a common Turkic cultural heritage was consistent with the ideas put forward by the Congress.

In the modern period, this line of the Congress continues on a broader scale. Through organizations such as the Turkic States Organization and TURKSOY, folk festivals, scientific conferences and cultural-literary projects are being implemented. Ashig art, Nowruz traditions, epic storytelling, and ancient rituals are presented as common Turkic heritage. Today, the results achieved in the protection of shared cultural memory and the strengthening of integration in the Turkic world are the real continuation of the far-sighted ideas of that historic Congress.

Key words: congress, folkloric heritage, shared idea, tradition, Turkic peoples.

ZEYNEL BEKSAÇIN POEZİYASI: KİMLİK VƏ POETİKA

Fatma Hüseynova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Slavyan Universiteti
https://ORCİD.org/0000-0002-2690-2358
elifat@inbox.ru
Azərbaycan/Bakı

Balkan coğrafiyasında əsrlər boyu mövcudluğunu qoruyub saxlayan Türk icmaları, xüsusilə XIX əsrin sonlarından etibarən siyasi və sosial çevrilişlərin təsiri altında dərin dəyişikliklər yaşamışdır. Bu dövr, Osmanlı imperiyasının zəifləməsi və regionda formalaşan yeni milli dövlətlər sisteminin yaranması ilə səciyyələnirdi. Balkan Türk ədəbiyyatı, yaranma və inkişaf prosesində həm Osmanlı irsini, həm də müstəqillik dövrü dövlətlərinin yeni mədəni reallıqlarını əks etdirir. Bu ədəbiyyatın nümayəndələri hər iki dünyaya, həm türk-islam mədəniyyətinə, həm də Avropa modernizm estetikasına -estetik baxımdan yaxın olmuşlar. Belə paralellik Balkan türklərinin ədəbi düşüncəsində ikili kimlik məsələsini daim aktuallaşdırmışdır: bir tərəfdən milli-mədəni yaddaşı qorumaq, digər tərəfdən isə sosial-mədəni çevrənin tələblərinə uyğun modern sənət formaları yaratmaq.

Bu ədəbi istiqamətin XX əsrdəki ən mühüm simalarından biri Zeynel Beksaç hesab olunur. 1952-ci ildə Prizren şəhərində (Kosova) dünyaya gələn Beksaç, yalnız şair kimi deyil, həm də rəssam, musiqiçi, jurnalist və ictimai xadim kimi çoxşaxəli bir fəaliyyət göstərmişdir. Onun yaradıcılığı Kosova türklərinin mədəni dirənişinin poetik ifadəsi kimi qiymətləndirilə bilər. Beksaçın 2017-ci ildə nəşr edilən *"Rumeli O mənim İşdə"* şeir külliyatı, onun poetik yaradıcılığının zirvəsini təmsil edir. Bu əsər Kosova türklərinin tarixində baş verən sosial-siyasi dəyişiklikləri, mədəni köklərin qorunması uğrunda mübarizəni və azlıq kimliyinin sənət vasitəsilə ifadəsini özündə cəmləyir. Beksaçın poeziyasında kollektiv yaddaş anlayışı mərkəzi mənəvi fiqura çevrilir. Onun şeirləri, adətən, Balkan türklərinin yaddaşını, məxsusiyyətlərini və dil mübarizəsini sənədləşdirən bir poetik arxiv funksiyası daşıyır. Beksaçın poetik təbiəti, Yunus Əmrənin tolerant ruhu ilə Nazim Hikmətin inqilabi tənzimi arasında bir körpü yaradır. Bu sintez onun yaradıcılığını Anadolu ilə Balkan ədəbiyyatları arasında bir mədəni və estetik bağ halına gətirir. Belə qarşılaşdırma, Beksaçın poetikasının həm sülh və sevgi fəlsəfəsinə, həm də sosial ədalət ideyasına söykəndiyini göstərir. Eyni zamanda bu münasibət, onun yaradıcılığını Türk dünyası ədəbiyyatı kontekstində mühüm bir mövqeyə çıxarır. Zeynel Beksaçın yaradıcılığı, yalnız Kosova türklərinin ədəbi tarixi üçün deyil, ümumtürk ədəbiyyatı üçün də strateji əhəmiyyət daşıyır. Onun poeziyası kimliyin qorunması, dilin yaşadılması və yaddaşın bərpası kimi idealları sənət dili ilə ifadə edir.

Beləliklə, Beksaçın poetik dünyası Balkan türklərinin ruhunda yaşayan tarixi həsrətin və mədəni dirənişin simvolu olaraq dəyərləndirilə bilər. Onun əsərləri həm milli kimlik mübarizəsinin sənət forması, həm də Türk dünyasında poetik yaddaşın qorunma manifesti kimi oxuna bilər.

Açar sözlər: Balkan Türkləri ədəbiyyatı, Kosova, Zeynel Beksaç, şeir, poeziya, kimlik mübarizəsi, poetika.

THE POETRY OF ZEYNEL BEKSAÇ: IDENTİTY AND POETİCS

Turkish communities in the Balkans, which maintained their presence for centuries, underwent profound transformations, particularly from the late nineteenth century onward, due to political and social upheavals. This period, marked by the decline of the Ottoman Empire and the emergence of new nation-states, significantly influenced the formation of Balkan Turkish literature. This literary tradition reflects both Ottoman heritage and the new cultural realities of post-independence societies, combining elements of Turkish-Islamic culture with European modernist aesthetics. Such duality has foregrounded the issue of identity, as writers strive to preserve collective memory while adapting to modern socio-cultural conditions.

One of the most prominent representatives of this literary tradition in the twentieth century is Zeynel Beksaç. Born in 1952 in Prizren, Beksaç is a multifaceted figure − poet, painter, musician, journalist, and public intellectual − whose work represents the cultural resistance of Kosovo Turks. His poetry collection "*Rumeli O Benim İşte"* (2017) constitutes the culmination of his artistic oeuvre, addressing socio-political transformations, the preservation of cultural roots, and the articulation of minority identity through poetic discourse. In his work, collective memory functions as a central thematic and symbolic framework, transforming poetry into a form of cultural archive.

Beksac's poetics establish a synthesis between the humanistic tradition of Yunus Emre and the socially engaged aesthetics of Nazim Hikmet, thereby creating a cultural bridge between Anatolian and Balkan literary spaces. His work holds significant importance not only within Kosovo Turkish literature but also within the broader context of Turkic literary studies, as it articulates themes of identity preservation, linguistic continuity, and cultural memory.

In conclusion, Beksac's poetry can be interpreted as a manifestation of historical longing and cultural resistance, functioning both as an artistic expression of identity struggle and as a poetic preservation of collective memory in the Turkic world.

Key words: Balkan Turkish literature, Kosovo, Zeynel Beksac, poetry, identity, poetics.

"KİTABİ-DƏDƏ QORQUD" VƏ YUNAN DASTANLARINDA SƏYYAR MÖVZULAR

Leyla Ramazanova
filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
https://ORCID.org/0009-0008-9627-9945
leylamuellim@gmail.com

Dünya xalqlarının bir çoxunun şifahi xalq ədəbiyyatında ümumi, səyyar mövzular mövcuddur. Bu mövzuların vətənini, yarandığı dövrü dəqiq söyləmək cəhdləri çox zaman nəticəsiz qalmışdır. Səyyar adlanan bu mövzuların nüvəsi müstəqil şəkildə hər bir qədim tayfa, hər bir qəbilə arasında doğa bilərdi. Bunların doğması üçün iqtisadi şərait, ictimai quruluş, təxmini əqidə eyniyyəti var idi. Nüvələr eyniyyət təşkil etsə də, təfsilat yerli koloritdən asılı olmuş, hər qəbilənin, hər xalqın öz milli xüsusiyyətləri, milli ənənələri, mənəviyyatı həmin təfsilatlarda öz əksini tapmışdır. Ə.Sultanlı "Kitabi-Dədə Qorqud" dastanı və yunan dastanları arasında müqayisələr apararaq aşağıdakı ortaq, səyyar mövzuları qeyd etmişdir:

1. Ata ilə oğlunun vuruşu;
2. Qardaş ilə qardaşın üz-üzə gəlməsi;
3. Ər öz nişanlısının toyunda;
4. Qəhrəmanın Təpəgözlə vuruşu;
5. Oğula ana haqqında şər atmaq;
6. Ölməli olan ərin ata-anasına müraciəti, rədd cavabı alması, arvadı ər üçün ölümə gedir;
7. Qəhrəmana fövqəladə qüvvəti aşılamaq və s.

Bu müqayisələrdən belə bir nəticəyə gəlmək olar ki, bir kökdən olan insan eyni real hadisələr, eyni sosial, ailə-məişət problemlərindən, eyni mif və əfsanələr əsasında dastanlar yaradır və həmin dastanlar tədricən öz səciyyəsinə, öz təfəkkür tərzinə müvafiq şəkildə cilalanır, yaranmış olduğu xalqın mənəvi sərvətinə çevrilir.

XX əsrin birinci yarısında Avropa ağız ədəbiyyatı və miflərilə bağlı aparılan araşdırmalardan belə bir qənaətə gəlmək olur ki, bu tədqiqatlar yalnız Avropa ağız ədəbiyyatının tərcüməsi və tədqiqi ilə məhdudlaşmamış, həm də Azərbaycan folklorşünaslığının inkişafında önəmli rola malik olmuşdur. Məhz bu tədqiqatlar nəticəsində "Kitabi Dədəd Qorqud" dastanı ən qədim yunan əsatirlərilə müqayisə olunaraq qədimliyinə zəmanət verilmişdir. Sonrakı qorqudşünaslar əsası bu illlərdə qoyulan nəzəri konsepsiyaları daha da inkişaf etdirmişlər.

Açar sözlər: Əli Sultanlı, dastan, müqayisə, milli dəyərlər, səyyar mövzular.

MOBILE THEMES IN "KITABI-DADE GORGUD" AND GREEK EPISTLES

There are common, mobile themes in the oral folk literature of many peoples of the world. It is often difficult to say exactly when these themes arose. The core of these so-called mobile themes could arise independently among every ancient tribe, every clan. There were economic conditions, social structure, and approximate identity for their emergence. Although the cores formed an identity, the details depended on the local color, and the national characteristics, national traditions, and spirituality of each tribe and every people were reflected in those details. The common, mobile themes between A. Sultanli's "Kitabi-Dade Gorgud" epic and Greek epics were noted separately, in the following environments:

1. A fight between a father and a son
2. A brother and a brother coming face to face
3. A husband at his fiancée's wedding
4. The hero's fight with Tepegöz
5. Slandering his son about his mother
6. A dying husband's appeal to his parents, receiving a rejection, his wife going to die for her husband
7. Instilling extraordinary strength in the hero, etc.

From these comparisons, we can conclude that people of the same origin create epics based on the same real events, the same social, family and household problems, the same myths and legends, and these epics are gradually polished in accordance with their own characteristics and way of thinking, and become the spiritual wealth of the people they were created from.

From the research conducted on European oral literature and myths in the first half of the 20th century, it can be concluded that these studies were not limited to the translation and study of European oral literature, but also played an important role in the development of Azerbaijani folklore. It was as a result of these studies that the epic "Kitabi Dedad Gorgud" was compared with the most ancient Greek myths and its antiquity was guaranteed. Later Gorgud scholars further developed the theoretical concepts laid down in these years.

Key words: Ali Sultanli, epic, national values, mobile themes.

"KİTABİ-DƏDƏ QORQUD" VƏ "MONQOLLARIN GİZLİ TARİXİ" DASTANINDA SAKRAL SAYLARIN XALQLARIN BƏDİİ TƏFƏKKÜRÜNDƏ ROLU

Lamiyə Nəsirova
filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
https://ORCID.org/0000-0002-3240-9295
nasiroff11@gmail.com
Azərbaycan/Bakı

Sakral saylara inam "Kitabi Dədə Qorqud" eposunun boylarında və "Monqolların gizli tarixi" dastanlarında çox geniş, anlamlı şəkildə öz əksini tapmışdır. "Kitabi Dədə Qorqud" dastanında rəqəmlərin simvolikası mahiyyət və məzmun etibarilə harmonik biçimdə əks olunmaqla bərabər, özündə müqəddəslik ünsürü də daşımaqdadır. Dastanda oğuzların inam və etiqadlarından irəli gələrək üç, yeddi, doqquz, qırx saylarının daha çox yer aldığı görülməkdədir. Monqol dastanı və monqolların inanc sistemində müqəddəs və tipik doqquz rəqəminin böyük önəm daşıması əsas götürülərək oğuz eposu ilə müqayisəli təhlillər əsasında araşdırılmışdır. Oğuz dastanının müqəddiməsində və boylarında doqquz rəqəminin işləndiyi görülməkdədir. Müqəddimədə Dədə Qorqud qadınları dörd soya bölərək hər birinin təsvirini vermişdir. "Soy solduran" qadının təsvirində doqquz sayı yer almaqdadır. Aruz doqquz tayfanın başçısı olaraq adlandırılır."Salur Qazanın evinin yağmalandığı", "Baybərənin oğlu Bamsı Beyrək", "Duxa qoca oğlu Dəli Domrul", "Qazılıq qoca oğlu Yeynək" və "Bəkil oğlu İmranın boyu"nda doqquz rəqəminin izlərinə rastlanmaqdadır.

"Monqolların gizli tarixi" dastanında monqolların müqəddəs və sakral sayı olan doqquz sayının müxtəlif hadisələrin nəqlində, monqolların inanc sistemində və həyat tərzində yetəri qədər önəm daşıdığı izlənmişdir. Dastanda doqquz rəqəminin ən çox rast gəlindiyi məqamlar Təmücinin adıyla bağlı olmuş və ya onun Çingiz xan ünvanı almasından etibarən iştirak etdiyi hadisələrdə yer almışdır. Monqol inanclarında dağa tapınma, ona qarşı tövbə və istiğfar etmə adətləri bu sayla sıx bağlı olmuş, dastanda Təmücinin Burxan-xaldun dağına səcdə etməsi ayinində görülməkdədir. Monqol xalqının dünyagörüşündən irəli gələrək dastanda doqquz sayının tamamlanmasına diqqət yetirilmiş, monqol inanclarında dağa tapınma, ona qarşı tövbə və istiğfar etmə adətlərindən əlavə cəza və rəğbətləndirmə sayının təyinində də vacib bir sakral saya çevrilmişdir.

Açar sözlər: türk, monqol, dastan, dini inanclar, sakral say.

THE ROLE OF SACRED NUMBERS IN THE LITERARY THOUGHT OF PEOPLES IN THE EPICS "THE BOOK OF DEDE GORGUD" AND "THE SECRET HISTORY OF THE MONGOLS"

Belief in sacred numbers is reflected in a very broad and meaningful way in the epics of the "Book of Dede Gorgud" and the "Secret History of the Mongols". In the epic "Book of Dede Gorgud", the symbolism of numbers is reflected in a harmonious form in terms of essence and content, and also carries an element of holiness. It is seen that the numbers three, seven, nine, and forty are more common in the epic, based on the beliefs and beliefs of the Oghuz. The great importance of the sacred and typical number nine in the Mongolian epic and the belief system of the Mongols was investigated based on comparative analyses with the Oghuz epic. It is seen that the number nine is used in the introduction and chapters of the Oghuz epic. In the introduction, Dede Gorgud divided women into four clans and described each of them. The number nine is included in the description of the woman who "faded the clan". Aruz is called the leader of the nine tribes. Traces of the number nine can be found in "The House of Salur Qazan was plundered", "Bamsi Beyrak, son of Baybara", "Dali Domrul, son of Dukha", "Yeynek, son of Ghazilig" and "The Life of Imran, son of Bekil".

In the epic "The Secret History of the Mongols", it is observed that the number nine, which is the holy and sacral number of the Mongols, has considerable importance in the narration of various events, in the belief system and lifestyle of the Mongols. The most frequent moments in the epic are related to the name of Temujin or in the events in which he participated since he received the title of Genghis Khan. In Mongolian beliefs, the customs of mountain worship, repentance and seeking forgiveness were closely linked to this number, as seen in the epic in the ritual of Temujin's prostration to Mount Burkhan-Khaldun. Based on the worldview of the Mongolian people, attention was paid to completing the number nine in the epic, and in addition to the customs of mountain worship, repentance and seeking forgiveness in Mongolian beliefs, it also became an important sacred number in determining the number of punishment and favor.

Key words: turkish, mongolian, epic, religious beliefs, sacral number.

OĞUZNAME EPİK GELENEĞİ VE DÜNYA FOLKLORU: TÜR VE TEMA AÇISINDAN KARŞILAŞTIRMALI BİR ANALİZ

Baba Alibabaoğlu
Doktora öğrencisi
Azerbaycan Devlet Pedagoji Üniversitesi
https://ORCID.org/0009-0003-0322-3023
elibabaoglu@mail.ru
Azerbaycan/Bakü

Dünya halklarının büyük çoğunluğunun epik mirasında, söz konusu halkların kökeni, kahramanlarının yiğitlikleri, bilgelerin hikmetleri, yaşadıkları ülkelerin mistik tarihi vb. unsurları yansıtan örneklerle karşılaşmak mümkündür. Hindistan halkının epik mirasında "Mahabharata", Yahudilerde Tanah, Farslarda "Şehname" gibi eserler bu tür örneklerdendir. Dünyanın yaratılışı, ilk insanın ortaya çıkışı, ardından insanların çoğalması ve kavimlere ayrılması gibi konulara ilişkin anlatılara birçok halkın folklorunda rastlanmaktadır. Bu anlatılar genellikle aşamalı, silsileli kronoloji içinde ilerler: dünyanın, ilk insanın yaratılışı, insanların çoğalması, farklı halklara ayrılması, epik metni oluşturan halkın kendi ortaya çıkışı, hükümdarların soy silsilesi vb.

Örneğin Mahabharata, Hindistan'daki ünlü Bharata oğullarının soyundan bahseder *(Kadim Şark Edebiyatı, 2007: 323-465)* Tanah'ın kanonik metinlerinde ise dünyanın yaratılışı, Nuh Tufanı, İbrahim'in soyunun ortaya çıkışı, Yusuf'un İsrailoğullarını Mısır'a yerleştirmesi, Musa'nın onları Mısır'dan çıkarması, Davudla Süleyman'ın krallıkları, hikmetler, ilahiler ve benzeri anlatılar yer almaktadır (*Kutsal Kitap: 2002)* Firdevsî'nin Şehnâme'sinde ise birçok Fars hükümdarının saltanat dönemleri, gerçekleştirdikleri savaşlar ve benzeri olaylar ele alınmaktadır.

Türk epik geleneğinde ise bu işlevi alternatif olarak oğuznameler yerine getirmektedir. el-Davâdârî, oğuznamelerin çok eski zamanlardan beri var olduğunu belirtmektedir. Eldeki ilk oğuzname olan Uygur Oğuznamesi ("Oğuz Kağan" destanı), Oğuz'un hükümdarlığından bahsetmektedir *(Dede Korkut Kitabı: Ansiklopedik Lügat:2004).*

Bazı oğuznameler, tıpkı Tanah'taki Süleyman'ın Meselleri gibi tamamen atasözlerinden oluşmaktadır. Ayrıca Dede Korkut Kitabı ile Hakimler Kitabı'ndaki çeşitli epizotlar arasında birçok benzerlik kurulabilir. Örneğin Samson ile Karaça Çoban'ın, bağlandıkları direği ya da ağacı söküp atmaları bu benzerliklere örnek teşkil etmektedir.

Şehnâme'de Feridun'un hâkimiyetini oğulları arasında bölmesi, farklı hükümdarların soyu devam ettirmesi, Oğuz ve oğullarıyla ilgili anlatıları hatırlatmaktadır. Oğuznamelerin bu tür alternatif benzerleri Yunan ve Roma gibi halkların mitolojilerinde de görülmektedir. Orta Çağ'da çoğu Türk hanedanı, Türk olduğunu, kutlu aileden geldiğini ispat etmek amacıyla oğuzname yazdırmıştır.

Safevîler gibi oğuzname yazdırmayan Türk hanedanlarının etnik kimliği ise bu nedenle tartışmalı bir hâl almıştır.

Anahtar kelimeler: Oğuzname epik geleneği, dünya folkloru, tür, tema, karşılaştırmalı analiz.

THE OGHUZ EPIC TRADITION AND WORLD FOLKLORE: A COMPARATIVE ANALYSIS OF GENRE AND THEMES

Across the epic traditions of many peoples, one encounters narratives reflecting origins, heroic exploits, wisdom, and sacred histories. Works such as the Mahabharata, the Tanakh, and the Shahnameh stand as prominent examples of this tradition. Narratives concerning the creation of the world, the first human, and the subsequent division of humankind into distinct peoples are widespread in folklore. These accounts typically follow a structured, genealogical sequence: from creation to the emergence of a particular community and the dynastic lineage of its rulers.

For instance, the Mahabharata recounts the lineage of the Bharata dynasty (*Anthology of Ancient Eastern Literature, 2007:323-465).* The Tanakh includes narratives of creation, Noah's Flood, the lineage of Abraham, the history of the Israelites in Egypt and their exodus under Moses, as well as the reigns of David and Solomon. *(The Holy Bible: 2002)* In the Shahnameh, the reigns and wars of Persian rulers are depicted.

In the Turkic epic tradition, this function is fulfilled by the Oghuznamas. Abu Bakr al-Dawadari notes their ancient origins, while the earliest extant example, the Uighur Oghuznama (Oghuz Khagan), recounts the rule of Oghuz himself. Some Oghuznamas consist of proverbial material, comparable to the Book of Proverbs in the Tanakh (*The Book of Dede Korkut: Encyclopedic Dictionary, 2004)*

Parallels can also be observed between the Book of Dede Korkut and the Book of Judges, such as the shared motif of a hero breaking free by uprooting a pillar or tree. Similarly, the division of Fereydun's realm in the Shahnameh recalls the narratives of Oghuz and his sons.

Analogues of the Oghuznamas are also found in Greek and Roman mythologies. In the Middle Ages, many Turkic dynasties commissioned such texts to legitimize their sacred lineage, whereas those that did not, such as the Safavids, faced later debates regarding their ethnic identity.

Key words: The Oghuzname Epic Tradition, World Folklore, Genre, Theme, Comparative Analysis.

BOZQURD MİFOLOGEMİ ARXAİK SÜJETLƏRİN QOVUŞMA NÖQTƏSİ KİMİ

Nərmin Sadəddinli
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org//0000-0002-4447-9493
nermin.sadeddinli@gmail.com
Azərbaycan/Bakı

Qurd türk mifoloji düşüncəsində müqəddəs və uğurlu varlıq kimi qəbul olunur. O, totemik səviyyədə həm əcdad (ana-ata), həm də qoruyucu, yolgöstərən, hami-sərkərdə, cəsarət və şəfqət simvolu kimi çıxış edir. Bu xüsusiyyətlər Bozqurd mifologeminin çoxqatlı semantikasını formalaşdırır və onun arxaik mifoloji sistemdə xüsusi yer tutduğunu göstərir.

Qurdla bağlı süjetlərin moğol mühitində də yayılması müşahidə olunsa da, araşdırmalar göstərir ki, monqolların əsas kult heyvanı köpək olmuş, qurd isə daha çox simvolik səviyyədə təqdim edilmişdir. Bu fakt Bozqurd mifologeminin əsasən türk etnomədəni mühitində formalaşdığını təsdiqləyir.

Göytürk dövründə qurd artıq təkcə totem deyil, həm də siyasi-mədəni simvola çevrilmiş, bayraq və sancaqlarda öz əksini tapmışdır. "Kutadqu bilik" kimi mənbələrdə "Gök-börü" ifadəsi hakimiyyət və xaqanlıq semantikası ilə əlaqələndirilir *[Gültepe,2015]*. Çin qaynaqlarında verilən Kun-Mo əfsanəsi isə qurdun xilaskar və himayəçi funksiyasını açıq şəkildə nümayiş etdirir *[Ögel,1989]*.

Bozqurd mifologemində qurdun kosmik mahiyyəti də xüsusi yer tutur. Göy rənglə bağlı "Kök böri" anlayışı onun səmavi mənşəyini və Tanrı ilə əlaqəsini ifadə edir. Bu kontekstdə qurd həm Günəş, həm də Ay kultu ilə bağlı mifoloji təsəvvürlərdə iştirak edir *[Gültepe,2015]*. Eyni zamanda, Oğuz və Göytürk dastanlarında onun yolgöstərən və əcdad funksiyaları aparıcıdır.

Qurdla bağlı ritual və inanclar bu obrazın kultlaşdığını göstərir. "Qurd ağzı bağlama" mərasimi insan-qurd münasibətlərinin magik modelini əks etdirir və qurdun fövqəladə gücə malik varlıq kimi qavranıldığını sübut edir *[İsmayılov, Quliyeva,2004]*. "Kitabi-Dədə Qorqud"da isə qurd həm qorxulu, həm də "mübarək" sayılan kosmik obraz kimi təqdim olunur *[Ögel,1989; Rzasoy, 2015]*.

Nəticə etibarilə, Bozqurd mifologemi müxtəlif arxaik süjetləri – törəyiş, xilaskarlıq, qoruyuculuq və yolgöstərmə motivlərini özündə birləşdirən kompleks mifoloji sistemdir. Bu mifologem türk kollektiv yaddaşında formalaşan arxetipik təsəvvürlərin sintez olunmuş ifadəsi kimi çıxış edir və milli-mədəni identikliyin əsas komponentlərindən biri kimi dəyərləndirilə bilər *[Sadeddinli,2021]*.

Açar sözlər: Bozqurd, etnomədəni mühit, Ay kultu, kosmik obraz, yolgöstərmə motivi, arxetipik təsəvvürlər, mifoloji sistem

THE GREY WOLF MYTHOLOGEM AS THE CONVERGENCE POINT OF ARCHAIC NARRATIVES

The wolf is regarded as a sacred and auspicious being in Turkic mythological thought. At a totemic level, it functions both as an ancestor (male-female) and as a symbol of protection, guidance, patronage, courage, and compassion. These characteristics shape the multilayered semantics of the Grey Wolf mythologem and underscore its distinctive place within the archaic mythological system.

Although narratives involving the wolf also appeared in the Mongol context, research indicates that the primary cult animal among the Mongols was the dog, while the wolf was mainly presented symbolically. This evidence confirms that the Grey Wolf mythologem primarily developed within the Turkic ethno-cultural milieu.

During the Göktürk period, the wolf became not only a totem but also a socio-political and cultural symbol, reflected in flags and standards. Sources such as "*Kutadgu Bilig"* associate the term "Gök-börü" with authority and khanate semantics *[Gültepe, 2015]*. Similarly, the Kun-Mo legend documented in Chinese sources demonstrates the wolf's salvific and protective functions *[Ögel, 1989]*.

The cosmic dimension of the wolf also occupies a special place in the Grey Wolf mythologem. The concept of "Kök böri," associated with the color blue, signifies its celestial origin and connection with the divine. In this context, the wolf participates in mythological representations linked to both the Sun and Moon cults *[Gültepe, 2015]*. Moreover, in Oghuz and Göktürk epics, the wolf's guiding and ancestral roles are predominant.

Rituals and beliefs associated with the wolf further indicate the cultic status of this figure. The "binding of the wolf's mouth" ceremony reflects the magical model of human-wolf relations and attests to the perception of the wolf as a being of extraordinary power *[İsmayılov, Quliyeva, 2004]*. In "*Kitabi-Dede Gorgud"*, the wolf is depicted as both fearsome and "blessed," presenting a cosmic figure within the epic imagination *[Ögel,1989; Rzasoy,2015]*.

Consequently, the Grey Wolf mythologem represents a complex mythological system that integrates various archaic narratives- including creation, salvation, protection, and guidance motifs. This mythologem functions as a synthesized expression of archetypal concepts formed in the Turkic collective memory and can be considered a fundamental component of national-cultural identity *[Sadəddinli, 2021]*.

Key words: Grey Wolf, ethno-cultural context, Moon cult, cosmic figure, guiding motif, archetypal concepts, mythological system.

TARİX VƏ ETNOQRAFİYA
TARİH VE ETNOGRAFİ
HISTORY AND ETHNOGRAPHY

TÜRK BASININA GÖRE TÜRKİYE'DEN AZERBAYCAN'A YAPILAN ÜST DÜZEY ZİYARETLER (1992-2002)

Selçuk Ural[1], Sema Akılmak Topçu[2]
professor doctor[1]
Kafkas Üniversitesi[1, 2]
sural25@hotmail.com[1], semakilmaktopcu@hotmail.com[2]
Türkiye/Kars

Sovyetler Birliği'nin dağılmasıyla bağımsızlığını kazanan Azerbaycan, 1990'lı yıllarda Türkiye'nin dış politikasında tarihî, kültürel ve jeopolitik bakımdan özel bir konum edinmiştir. Türkiye'nin Azerbaycan'ı tanıyan ilk devlet olması ve Bakü'de ilk büyükelçiliğini açması, iki ülke ilişkilerinin başlangıçtan itibaren stratejik bir zemine oturduğunu göstermektedir. 1991–2002 yılları arasında karşılıklı olarak gerçekleştirilen üst düzey ziyaretler, Türkiye-Azerbaycan ilişkilerinin yalnızca diplomatik temsil çerçevesinde kalmadığını; siyasal, askerî, ekonomik, kültürel ve eğitim alanlarında çok yönlü bir iş birliğine dönüştüğünü ortaya koymaktadır.

Bu süreçte Süleyman Demirel'in başbakan ve cumhurbaşkanı sıfatıyla Azerbaycan'a gerçekleştirdiği ziyaretler belirleyici bir rol oynamıştır. 1992 yılında yapılan ilk ziyaret, Azerbaycan'ın devlet inşa sürecinin henüz başlangıç aşamasında olduğu, siyasal istikrar arayışının sürdüğü ve Karabağ sorununun giderek derinleştiği bir döneme rastlamıştır. Bu dönemde demokratikleşme, seçimlerin meşruiyeti, askerî yapılanma, diplomatik temsil, eğitim iş birliği ve toplumsal yakınlaşma gibi konular ön plana çıkmıştır. Türkiye'nin Azerbaycan'a yönelik askerî ve kurumsal destek iradesi ile öğrenci değişimi ve vize kolaylıkları gibi adımlar, ilişkilerin kurumsallaşma sürecine katkı sağlamıştır.

1995 sonrasında gerçekleştirilen ziyaretlerde ise Karabağ sorununun barışçıl çözümü, Azerbaycan'ın toprak bütünlüğünün korunması, bölgesel istikrarın sağlanması ve enerji projeleri temel gündem başlıklarını oluşturmuştur. Özellikle Bakü-Ceyhan petrol boru hattı ve Trans-Hazar doğalgaz projeleri, Türkiye'nin enerji jeopolitiğinde merkezi bir aktör olma hedefini somutlaştırmıştır. Tansu Çiller, Mesut Yılmaz ve Ahmet Necdet Sezer'in Azerbaycan ziyaretleri de bu stratejik çerçevenin devamı niteliğinde olmuş; enerji, ekonomi ve Karabağ meselesi etrafında ilişkilerin daha da derinleşmesine katkı sağlamıştır.

Türkiye–Azerbaycan ilişkileri 1990'lı yıllar boyunca tarihî ve kültürel yakınlık, liderler arası güven ilişkileri ve ortak jeostratejik çıkarlar temelinde gelişmiş; "bir millet, iki devlet" anlayışı siyasal ve diplomatik içeriği güçlenen bir iş birliği modeline

dönüşmüştür.

Anahtar Kelimeler: Türkiye, Azerbaycan, Süleyman Demirel, Karabağ sorunu, enerji politikası, üst düzey ziyaretler.

Following the dissolution of the Soviet Union, Azerbaijan gained independence and emerged as a country of particular historical, cultural, and geopolitical importance in Türkiye's foreign policy during the 1990s. Türkiye's recognition of Azerbaijan as the first state to do so and the opening of its first embassy in Baku demonstrate that bilateral relations were established on a strategic foundation from the outset. The high-level mutual visits carried out between 1991 and 2002 indicate that Türkiye-Azerbaijan relations extended far beyond diplomatic representation and evolved into a multidimensional cooperation encompassing political, military, economic, cultural, and educational fields.

Within this period, the visits of Süleyman Demirel to Azerbaijan, both as Prime Minister and later as President, played a decisive role. His first visit in 1992 coincided with a critical phase when Azerbaijan was at the early stage of state-building, facing political instability and an intensifying Karabakh conflict. During this period, issues such as democratization, the legitimacy of elections, military structuring, diplomatic representation, educational cooperation, and social rapprochement came to the forefront. Türkiye's willingness to provide institutional and military support, along with initiatives such as student exchange programs and visa facilitation, contributed significantly to the institutionalization of bilateral relations.

After 1995, the agenda of the visits became more focused on the peaceful resolution of the Karabakh conflict, the protection of Azerbaijan's territorial integrity, the promotion of regional stability, and strategic energy projects. In particular, the Baku-Ceyhan oil pipeline and the Trans-Caspian natural gas initiatives embodied Türkiye's ambition to become a central actor in energy geopolitics. The visits of Tansu Çiller, Mesut Yılmaz, and Ahmet Necdet Sezer reflected the continuity of this strategic framework and further deepened bilateral relations, especially in the areas of energy, economy, and the Karabakh issue.

Throughout the 1990s, Türkiye-Azerbaijan relations developed on the basis of historical and cultural affinity, strong personal leadership ties, and shared geostrategic interests. The concept of "one nation, two states" gradually evolved into a comprehensive political and diplomatic partnership with a solid strategic dimension.

Key words: Türkiye, Azerbaijan, Süleyman Demirel, Karabakh conflict, energy policy, high-level visits.

AZƏRBAYCAN XALQININ EYNOGENEZİNDƏ BULQAR VƏ XƏZƏR ELEMENTLƏRİ

Sevinc Seyidova
tarix elmləri doktoru, professor
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/0009-0003-8839-3506
seyidovasevinj7@gmail.com
Azərbaycan/Bakı

Ümumdünya tarixində hər bir xalqın özünəməxsus yeri və rolu vardır. Bu cəhətdən türk xalqları da istisnalıq təşkil etmir. Minilliklər boyu Avrasiyanın həyatında mühüm rol oynayan türk etnoslarının mənşəyinin tədqiq edilməsi olduqca vacibdir. Bu məsələ ilə bağlı mövcud olan mənbə və ədəbiyyatları yenidən araşdırıb təhlil etmək lazımdır. Bu baxımdan Azərbaycan xalqının etnogenezi məsələlərinə elmi ədəbiyyatda xüsusi diqqət yetirilir.

Azərbaycan xalqının formalaşmasında digər türk tayfalarl ilə yanaşı bulqarlar, xəzərlər və qıpçaqlar da mühüm yer tutur. Bulqar komponentindən bəhs edərkən qeyd etmək lazımdır ki, Qafqazın toponimiyasında oğuz tayfaları ilə yanaşı ən dərin iz qoymuş tayfalar bulqar, xəzər və qıpçaq tayfalarıdır. Bəzi tədqiqatçılar belə hesab edir ki, bulqarlar Şimali Qara dəniz bölgəsinin ən qədim tayfaları idilər. Azərbaycanda bulqarlarla bağli toponimlər Azərbaycan toponimiyasinda öz əksini tapmışdir. İstər Azərbaycan ərazisində, istərsə də Şimali Qafqazda "bulqar" etnonimi ilə bağli kənd, çay və s. adlari mövcuddur.

Türklərin ikinci böyük köçü II-IV əsrlərdə (bəzi mənbələrdə I-IV əsrlər) başladı. Bu, türk tayfaları olan hunların kütləvi köçü ilə əlaqəli idi. Hunlar eramızdan əvvəl III əsrdə Mərkəzi Asiyada ilk dövlətlərini qurdular. Çin mənbələri onları "Hunnu", yaxud "Sünnu" adlandırırdı. Eramızdan əvvəl I əsrin ortalarında Hun imperiyası qərb və şərq hissələrinə bölündü. Hun birliyinə daxil olan tayfalar mənbələrdə, məsələn, bulqarlar, peçeneqlər, qıpçaqlar, kəngərlər, barsillər, xəzərlər, sabirlər (subarlar/suvarlar/savirlər) və digərləri Azərbaycan ərazisi ilə əlaqədar olaraq xatırlanır. Erkən orta əsrlərdə türkdilli tayfalar üçün ümumi etnonim "Hun" idi. Hunlara eftalilər, sabirlər, utiqurlar, onoqurlar, bulqarlar, uzlar/quzlar və digərləri daxil idi.

Qafqazda dərin iz buraxmış türk tayfalarından digəri də xəzərlərdir. Xəzərlər Xəzəryanı çöllərin və Şimali Ön Qafqazın yerli əhalisi olmuşlar. Q.Qeybullayev xəzər etnoniminin qədim türk sözləri olan "kas" və "ər"dən ibarət olduğunu göstərir.

Xəzər tayfalarından abas, bizal, kabar, kylas, itil, qaraçor, tarna və s. adları Qafqaz toponimikasında öz əksini tapmışdır.

Açar sözlər : Azərbaycan, türklər, bulqarlar, xəzərlər, etnogenez

BULGARIAN AND CASPIAN ELEMENTS IN THE ETHNOGENESIS OF THE AZERBAIJAN PEOPLE

Every nation has its own place and role in world history. In this regard, the Turkic peoples are no exception. It is extremely important to study the origin of the Turkic ethnos, which have played an important role in the life of Eurasia for millennia. It is necessary to re-examine and analyze the existing sources and literature on this issue. In this regard, special attention is paid in the scientific literature to the issues of ethnogenesis of the Azerbaijani people.

Along with other Turkic tribes, the Bulgars, Khazars and Kipchaks also occupy an important place in the formation of the Azerbaijani people. When talking about the Bulgar component, it should be noted that the tribes that left the deepest mark on the toponymy of the Caucasus, along with the Oghuz tribes, are the Bulgars, Khazars and Kipchak tribes. Some researchers believe that the Bulgars were the most ancient tribes of the Northern Black Sea region. In Azerbaijan, toponyms associated with the Bulgars are reflected in Azerbaijani toponymy. Both in the territory of Azerbaijan and in the North Caucasus, there are village, river, etc. names associated with the ethnonym "Bulgar".

The second great migration of the Turks began in the 2nd-4th centuries (in some sources, the 1st-4th centuries). It was associated with the mass migration of the Huns, a Turkic tribe. The Huns founded their first state in Central Asia in the 3rd century BC. Chinese sources called them "Hunnu" or "Sunnu". In the middle of the 1st century BC, the Hun Empire was divided into western and eastern parts. The tribes that were part of the Hunnic union are mentioned in sources, for example, Bulgars, Pechenegs, Kipchaks, Kangars, Barsils, Khazars, Sabirs (Subars/Suvars/Savirs) and others in connection with the territory of Azerbaijan. In the early Middle Ages, the common ethnonym for Turkic-speaking tribes was "Hun". The Huns included the Hephthalites, Sabirs, Utigurs, Onogurs, Bulgars, Uz/Guz and others.

Another of the Turkic tribes that left a deep mark on the Caucasus is the Khazars. The Khazars were the indigenous population of the Caspian steppes and the Northern Front Caucasus. G.Geybullayev shows that the ethnonym Khazar consists of the ancient Turkic words "kas" and "er".

The names of the Khazar tribes, such as abas, bizal, kabar, kylas, itil, karachor, tarna, etc., are reflected in the toponymy of the Caucasus.

Key words: Azerbaijan, Turks, Bulgarians, Khazars, ethnogenesis

ХОРЕЙЗМИЙЦЫ В СРЕДНЕВЕКОВЫХ АРАБСКИХ И ПЕРСИДСКИХ РУКОПИСЯХ

Раъно Ходжаева
доктор филологических наук, профессор
Ташкентский государственный университет востоковедения
ranoxodjaeva1941@gmal.com
Узбекистан/ Ташкент

Ряд средневековых арабских и персидских источников позволяют определить какую историческую роль играли хорезмийцы в социально-политической жизни арабских стран в 30-60 годы XIII в. Как известно, после захвата монголами Хорезма последний шах из династии Хорезмшахов – отважный Джалал ад-Дин Мангуберды, уже за пределами Хорезма собрав десятитысячную армию из хорезмийцев, неоднократно вступал в бой с монголами и сдерживал их нашествие далее на Запад на арабский мир. Но он погиб в 1231 г. и его войско кочевало по всему Ближнему Востоку, состоя на службе то у сельджукских султанов, то у аййубидских принцев в Сирии (Шам), вступивших в междоусобную борьбу за центральную власть в Сирии и Египте. Хорезмийцы помогли аййубидам одержать победу над крестоносцами, освободив от них священный мусульманский город аль-Кудс и несколько городов-крепостей, а позже нанести сокрушительное поражение монголам, хлынувшим на арабские земли. Все эти важные события нашли своё подробное отражение в исторических хрониках аль-Макризи, Ибн Ийаса, аль-Ханбали, ас-Суйути, Ибн Тагри Берди, аль-Хамадани и многих других историков мамлюкского периода XIII-XV в.в., связанного с приходом к власти в Египте и Сирии тюрков-мамлюков. В этих трудах неоднократно подчеркивается решающая роль хорезмийцев на исторической арене Ближнего Востока 30-60 годов XIII в., когда они выступали грозной военной силой в судьбоносных для народов этого региона сражениях. Большое внимание авторы хроник уделяют и отдельным историческим личностям, которых они считали хорезмийцами по происхождению, таким как например, египетская султанша Шаджарат ад-Дур и мамлюкский султан Сайф ад-Дин Кутуз. Кутуз, вместе со своими эмирами, среди которых были и хорезмийцы, одержал в местечке Айн Джалут в 1260 г. сокрушительную победу над монголами, остановив их победоносное шествие по арабскому миру. В хрониках единогласно утверждается, что настоящее имя Кутуза Махмуд ибн Мамдуд и он происходит из династии Хорезмшахов, так как является сыном сестры Джалал ад-Дина Мангуберды.

В трудах вышеуказанных авторов осталась память о хорезмийцах как отважных, мужественных воинах, волей судьбы заброшенных на чужбину, вынужденных скитаться вдали от родины, пока они не осели в разных уголках ближневосточного региона. И пока существуют эти рукописи не исчезнет

историческая память о славных сыновьях Хорезма,боровшихся с врагами попранной отчизны далеко за ее пределами.

Ключевые слова: хорезмийцы, исторические хроники, хорезмшах, Ближний Восток, мамлюки, аййубиды, Джалал ад-Дин Мангуберды, Сайф ад-Дин Кутуз, Айн Джалут.

THE KHAWEZMIANS IN MEDIEVAL ARABIK AND PERSIAN MANUSCRIPT

The article examines the historical role of the Khwarezm people in the socio-political life of the Middle East countries of the 1330-60th based on Medieval Arabic and Persian manuscripts. It is known, the brave Jalal al-Din Mingburnu, the last Shah of the Khwarezmshah dynasty, had already gathered a ten-thousand-strong army of the Khwarezmians outside of Khwarezm, and he was repeatedly engaged in the battle with the Mongols and won their invasion further to West into the Arab world. But he died in 1231, and his army roamed all over the Middle East, serving either the Seljuq empire sultans, or the Ayyubid princes in Syria (Sham), who entered into an internecine struggle for Central power in Syria and Egypt. The Khwarezmians helped the Ayyubids defeat the crusaders, liberate the Holy Muslim city of al-Quds and several fortress cities from them, and later inflict a crushing overthrow the Mongols who entered the Arab lands. These important events are reflected in detail in the historical Chronicles by al-Maqrizi, Ibn Iyas, al-Khanbali, as-Suyuti, Ibn Taghriberdi, al-Khamadani and many other historians of the Mamluk period of the 13-15th centuries, associated with the arrival of the Mamluk Turks in Egypt and Syria. These works repeatedly emphasize the crucial role of the Khwarezmians in the historical arena of the Middle East in the 1330-60th, when they were considered to be a formidable military force in the fateful battles for the peoples of this region. The authors of the Chronicles also pay great attention to certain historical figures, whom they concede to be of Khwarezm origin, such as the Egyptian Sultana Shajarat ad-Dur and the Mamluk Sultan Sayf ad-din Qutuz. Qutuz, along with his emirs, including the Khwarezmians, won a crushing victory over the Mongols in the town of Aynjalut in 1260, stopping their victorious march through the Arab world. The Chronicles unanimously state that Qutuz's real name is Mahmud Ibn Mamdud and he comes from the Khwarezmshah dynasty, as he is the son of Jalal al-Din Mingburnu's sister.

In the works of the above-mentioned authors, the memory of the Khwarezmians remains as brave, courageous soldiers, who were abandoned by fate to a foreign land, forced to wander far from their homeland until they settled in different parts of the Middle East region. Their further fate is unknown, but the historical memory of the deeds of the glorious sons of Khwarezm in the vastness of the Middle East in the 13th century is forever preserved in handwritten works.

Key words: Khwarezmians, historical chronicles, Khwarezmshah, Middle East, Mamluks, Ayyubids, Jalal al-Din Mingburnu, Sayf ad-din Qutuz, ain Jalut.

TÜRKOLOJİ QURULTAY İŞTİRAKÇILARININ SİYASİ REPRESSİYALARA MƏRUZ QALMASI: SƏBƏBLƏR VƏ NƏTİCƏLƏR

Şirxan Səlimov
tarix elmləri doktoru, professor
Sumqayıt Dövlət Universiteti
salimov.shirxan@sdu.edu.az
https://ORCID.org/ 0000-0002-5723-2123
Azərbaycan/Sumqayıt

1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay türkoloji elmin inkişafında, həmçinin türk xalqları arasında elmi və mədəni inteqrasiyanın gücləndirilməsində mühüm mərhələ təşkil edir. Qurultayda 131 rəsmi nümayəndə və yüzlərlə qonaq iştirak etmiş, türk dilləri, tarix, etnogenez, etnoqrafiya və ədəbiyyat sahələrini əhatə edən 38 məruzə təqdim olunmuşdur. Ə.Hüseynzadə, F.Köprülü, eləcə də Bartold, Samoyloviç kimi nüfuzlu alimlərin iştirakı tədbirin beynəlxalq elmi əhəmiyyətini daha da artırmışdır.

Bununla yanaşı, qurultay yalnız elmi hadisə deyil, həm də sovet ideoloji sisteminin şübhə ilə yanaşdığı ictimai-siyasi platforma kimi çıxış etmişdir. Qurultay çərçivəsində türk dillərinin standartlaşdırılması, əlifba islahatı və ümumtürk elmi əməkdaşlığının genişləndirilməsi kimi məsələlərin müzakirəsi milli kimliyin gücləndirilməsi və türk xalqları arasında inteqrasiya meyillərinin artmasına zəmin yaradırdı. Qurultayda səsləndirilən elmi fikirlər və irəli sürülən konsepsiyalar mərkəzləşdirilmiş sovet milli siyasəti ilə ziddiyyət təşkil edirdi. Türk xalqları arasında ortaq dil, əlifba və mədəni yaxınlaşma ideyaları "pantürkizm" və "burjua millətçiliyi" kimi damğalanaraq siyasi ittiham predmetinə çevrilirdi. Məhz bu tendensiyalar sovet hakimiyyəti tərəfindən potensial ideoloji təhlükə kimi qiymətləndirilirdi.

Xüsusilə 1930–1938-ci illər repressiyaları dövründə qurultay iştirakçılarının əhəmiyyətli bir qismi "pantürkizm", "panislamizm", "burjua millətçiliyi" və "antisovet fəaliyyət" kimi ittihamlarla təqiblərə məruz qalmışdır. Bəkir Çobanzadə, Salman Mümtaz kimi görkəmli alimlərin həbs və edam edilməsi türkoloji elmin inkişafına ciddi zərbə vurmuş, elmi mühitdə intellektual boşluq yaratmışdır. Digər ziyalılar isə ideoloji təzyiq, senzura və sürgün şəraitində fəaliyyət göstərməyə məcbur olmuşdur.

Repressiya mexanizmi fərdləri deyil, bütövlükdə milli-mədəni özünüdərk prosesini zəiflətməyə yönəlmişdir. Elmi fəaliyyət ideoloji loyallıq meyarları ilə qiymətləndirilmiş, nəzəri mübahisələr isə siyasi təhlükə kimi təqdim olunmuşdur.

Nəticə etibarilə, I Türkoloji Qurultay həm türkoloji elmin inkişafında yeni mərhələnin başlanğıcını qoymuş, həm də onun iştirakçılarının taleyinə faciəvi təsir göstərmiş tarixi hadisə kimi qiymətləndirilməlidir. Müasir dövrdə həmin alimlərin elmi irsi yenidən tədqiq olunur və obyektiv şəkildə dəyərləndirilir.

Açar sözlər: Türkoloji qurultay, repressiyalar, sovet ideologiyası, pantürkizm, ziyalılar, elmi irs.

ПОЛИТИКО-ПРАВОВАЯ РЕЦЕПЦИЯ ИДЕЙ I ТУРКОЛОГИЧЕСКОГО КОНГРЕССА В КОНТЕКСТЕ СОВРЕМЕННОЙ ИНТЕГРАЦИИ ОБЩЕСТВА

Евгений Чирков
доктор политических наук
Комратский государственный университет
https://ORCID..org/0000-0002-6148-5924
chirkove0@gmail.com
Молдова/Комрат

Столетний юбилей Первого тюркологического конгресса 1926 года в Баку представляет собой не только историческую веху, но и методологический фундамент для анализа современных процессов консолидации тюркских государств. В рамках политической политологии идеи конгресса рассматриваются как первичный институциональный импульс к созданию единого культурно-правового пространства. Исследование фокусируется на преемственности между гуманитарными инициативами начала XX века и деятельностью Организации тюркских государств (OTS) в XXI веке. Автор анализирует, как языковая унификация и переход на латинскую графику, обсуждавшиеся в 1926 году, трансформировались в современные инструменты политической интеграции и «мягкой силы». В контексте идей *М. Э. Расулзаде* и других деятелей эпохи, лингвистический вопрос всегда стоял в центре политической субъектности. Особое внимание уделяется правовым аспектам сохранения идентичности малых тюркских народов в условиях глобализации. Научная значимость работы заключается в переосмыслении наследия конгресса как детерминанты формирования будущих векторов сотрудничества в евразийском регионе, где лингвистическое единство выступает гарантом политической стабильности и суверенитета. Как отмечается в современных исследованиях *Организации тюркских государств*, культурный код является базой для экономической и оборонной интеграции. Таким образом, преемственность решений 1926 года находит свое прямое отражение в современной архитектуре безопасности и стратегического партнерства тюркоязычных стран.

Digital Turkology is the study and research of Turkic languages and culture using digital technologies. This field includes the following:

- Creation of electronic text corpora
- Digital dictionaries and encyclopedias
- Natural language processing (NLP technologies)
- Online learning platforms
- Multimodal (text, audio, video) resources

This approach expands upon classical Turkology, making it more accessible and dynamic. The following are potential applications in the education system:

1. Use of electronic resources. In the educational process, e-books and dictionaries help students master language material more quickly. Empirical observations show that visual and interactive materials enhance memorization.

2. The role of language corpora. Corpus technologies allow students to work with real language samples: conduct comparative linguistic studies, use words in context, and analyze usage frequency.

3. Online educational platforms. Turkic language instruction is organized remotely and flexibly using digital platforms (LMS systems). These platforms accommodate individual learning pace, offer interactive tasks, and conduct automated assessment.

4. Artificial intelligence and language technologies. Artificial intelligence-based applications (e.g., automatic translation and speech recognition systems) are creating a new stage in the teaching of Turkic studies.

The advantages of digital Turkology include its accessibility (geographical limitations are eliminated), interactivity (the learning process becomes more engaging), information abundance (access to an extensive database), and interdisciplinary nature (integration of linguistics, computer science, and education).

Key words: digital Turkic studies, education, Turkic languages, electronic resources, language corpora, innovative learning.

TÜRK DILLERININ DIJITAL EKOSISTEMININ OLUŞTURULMASI 21. YÜZYIL DILBILIMININ STRATEJIK ÜSTÜNLÜĞÜ

Sharifjon Ibrohimov
Uluslararası Finans ve Teknoloji Okulu
https://ORCID.org/0009-0001-1448-4072
ibrohimovsharif24@gmail.com
Özbekistan/Taşkent

Türk dilleri ailesi 300 milyondan fazla konuşuru olmasına rağmen, dijital alanın kenarında kalmaktadır. Günümüzde yapay zekâ, makine çevirisi ve sesli asistanlar büyük ölçüde İngilizce, Çince ve İspanyolca dillerinde gelişmektedir. Türk dilleri için ChatGPT, Google Translate ve Siri gibi teknolojilerin olanakları oldukça sınırlıdır. Bu sadece bir iletişim sorunu değil, aynı zamanda bu dillerin gelecekte yaşatılabilmesi meselesidir. Çünkü dijital olarak var olmayan bir dil, doğal olarak marjinalleşir. Çözüm olarak, Türk devletleri ve ulusal teknoloji şirketleri iş birliği temelinde tek bir "Türk Dilleri Dijital Korpusu ve Yapay Zekâ Platformu" oluşturulmasını öneriyorum. Bu platformun üç ana bileşeni olmalıdır. İlk olarak her bir Türk dili için en az 10 milyar kelimelik modern metinlerden oluşan bir korpus yani edebiyat, medya, sosyal ağlar ve resmi belgeler dahil gereklidir. İkinci aşamada tüm Türk dillerini anlayan ve üretebilen, GPT-4 seviyesinde genel bir Türkçe Large Language Model (LLM) oluşturulmalıdır. Son aşamada ise açık kaynak ekosistemi yani çevirmen, metin analizcisi, konuşma tanıma ve sentez sistemleri geliştirilmelidir. Bu projenin hayata geçmesi için Türk Devletleri Teşkilatı çatısı altında "Türk Dilleri Teknoloji Fonu" kurulmalı ve yılda 500 milyon dolar yatırım ayrılmalıdır. Özbekistan, Türkiye, Azerbaycan, Kazakistan ve Kırgızistan birlikte bir teknoloji devi yaratabilir. Böylece Türk dilleri sadece kültürel miras değil, aynı zamanda 21. yüzyıl teknolojik uygarlığının aktif bir katılımcısı hâline gelecektir.

Anahtar kelimeler: Türk dilleri, dijital korpus, dilin korunması, Large Language Model.

CREATION OF THE DIGITAL ECOSYSTEM OF TURKIC LANGUAGES THE STRATEGIC SUPERIORITY OF 21ST CENTURY LINGUISTICS

Although the Turkic language family has more than 300 million speakers, it remains on the periphery of the digital sphere. Today, artificial intelligence, machine translation, and voice assistants are predominantly developed in English, Chinese, and Spanish. The capabilities of technologies such as ChatGPT, Google Translate, and Siri for Turkic languages remain significantly limited. This is not merely a communication issue, but also a matter of ensuring the future survival of these languages. A language

that does not exist digitally inevitably becomes marginalized. As a solution, I propose the establishment of a unified "Turkic Languages Digital Corpus and Artificial Intelligence Platform" based on cooperation among Turkic states and national technology companies. This platform should consist of three main components. First, a modern corpus of at least 10 billion words for each Turkic language should be created, including literature, media content, social networks, and official documents. Second, a general Turkic Large Language Model (LLM) at the level of GPT-4 should be developed, capable of understanding and generating all Turkic languages. Finally, an open-source ecosystem should be established, including translation tools, text analysis systems, speech recognition, and speech synthesis technologies. To implement this project, a "Turkic Languages Technology Fund" should be created under the umbrella of the Organization of Turkic States, with an annual investment of 500 million USD. Uzbekistan, Türkiye, Azerbaijan, Kazakhstan, and Kyrgyzstan together could create a technological giant. In this way, Turkic languages would become not only a cultural heritage, but also an active participant in 21st-century technological civilization.

Key words: Turkic languages, digital corpus, language preservation, Large Language Model (LLM).

TERMİNLƏRİN TƏRCÜMƏ XÜSUSİYYƏTLƏRİ

Məlahət Mustafayeva
filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Slavyan Universiteti
https://ORCID.org/ 0009-0005-0982-8546
mustafayeva1964@bk.ru
Azərbaycan/Bakı

Müasir qlobal inkişaf tərcümənin hər iki növünü aktual etmişdir. Bazar iqtisadiyyatının, neft sektorunun, informasiya texnologiyalarının sürətli inkişafı terminologiya sahəsinə olan diqqəti artırmaqdadır. İşgüzar danışıqların aparılmasında, beynəlxalq elmi konfranslarda şifahi tərcümənin çəkisi günbəgün artır. Terminlər, bir qayda olaraq, "çalarlardan məhrum olan" birmənalı xüsusi sözlər kimi müəyyən olunmuşdur və onlar sözün xüsusi keyfiyyətidir. Termin ziddiyyətli dil vahididir: birmənalı və çoxmənalı ola bilər. Adi sözün terminə çevrilməsi geniş yayılmış haldır. Hesablamalara görə, məsələn, fransız dilində xarici iqtisadi terminologiyanın 53% ümumişlək sözlərin yeni terminoloji məna qazanması nəticəsində formalaşmışdır. Digər tərəfdən terminlərin asanlıqla adi sözə çevrilməsi prosesi də baş verir. Terminə çevrilən söz dərhal birmənalılıq qazanır və denotatlıq əldə edir. Əgər bu və ya digər söz ikinci dərəcəli informasiya daşıyırsa, terminlər əsas açar informasiyanı özündə daşıyır və məhz buna görə də tərcümə prosesində mətnin əsas vahidi kimi seçilir. Terminlərin tərcüməsi xüsusi diqqət tələb edir və denotatla əlaqənin qurulmasını vacib edir. Mətndə vahidin termin olaraq müəyyən edilməsi iki amil vasitəsilə həll olunur. Birincisi, denotatı düzgün müəyyən edərək sözün termin olmasına əmin olmaq, ikincisi, digər dildə olan ekvivalenti lüğətdən taparaq uzunmüddətli yaddaşda saxlamağın vacibliyi. Sözün əsas məna nüvəsinin dəqiqləşdirilməsi, bu məqsədlə terminlərin təsnifatının öyrənilməsi tərcüməçi üçün vacib şərtdir. Aydın ifadə tərzi, birmənalılıq və dəqiqlik terminlərin əsas tərcümə prinsipləridir və tərcüməçidən koqnitiv bacarıqlar tələb edir. Dilin digər sahələri ilə müqayisədə terminologiya lüğət tərkibini daima yeniləməyə aparan sahədir. Tərcüməni çətinləşdirən səbəblərdən biri yeni terminlərin meydana gəlməsidir. Terminlər dilin ən hərəkətli leksik qatıdır və lüğət tərtibçiləri terminologiyanın sürətli inkişafı ilə ayaqlaşa bilmirlər. Tərcümə dilində hazır ekvivalentin olması zaman məsələsidir. İnternetdə yerləşdirilmiş lüğətlər tərcüməçiyə heç də həmişə dəqiq tərcümələr təklif etmir. Beləliklə, terminin adekvat tərcüməsinin həyata keçirilməsi tərcümənin mürəkkəb məsələlərindəndir.

Açar sözlər: Terminlərin tərcüməsi, denotat, terminoloji ekvivalent, yaddaş mexanizmi, qısamüddətli yaddaş.

TRANSLATION FEATURES OF TERMS

Modern global development has made both types of translation relevant. The rapid development of the market economy, the oil sector, and information technologies is increasing the focus on the field of terminology. In conducting business negotiations and at international scientific conferences, the importance of oral translation is growing day by day. Terms are generally defined as unambiguous, specialized words "devoid of shades of meaning," and this is a special quality of a term. A term is a contradictory linguistic unit: it can be both unambiguous and polysemous. The transformation of a common word into a term is a widespread phenomenon. According to estimates, for example, 53% of foreign economic terminology in French has been formed by common words acquiring a new terminological meaning. On the other hand, the process of terms easily becoming ordinary words also occurs. A word that becomes a term immediately gains unambiguity and denotation. If a given word carries secondary information, terms carry the primary, key information and are therefore chosen as the main unit of the text during the translation process. The translation of terms requires special attention and makes it essential to establish a connection with the denotatum. Determining a unit as a term in a text is resolved through two factors. First, ensuring the word is a term by correctly identifying its denotatum, and second, the necessity of finding its equivalent in the other language in a dictionary and storing it in long-term memory. Clarifying a word's core meaning and studying the classification of terms for this purpose is an essential requirement for the translator. Clear expression, unambiguity, and accuracy are the main translation principles for terminology, and they require cognitive skills from the translator. Compared to other areas of language, terminology is a field that constantly drives the updating of a dictionary's content. One of the factors that complicates translation is the emergence of new terms. Terminology is the most dynamic layer of the language, and lexicographers cannot keep pace with its rapid development. It is only a matter of time before an equivalent exists in the target language. Dictionaries posted on the Internet do not always offer accurate translations to the translator. Thus, providing an adequate translation of a term is one of the complex issues of translation.

Key words: Translation of terms, denotatum, terminological equivalent, memory mechanism, short-term memory.

SÜNİ İNTELLEKT VƏ RƏQƏMSAL MÜHİTDƏ DİL TEXNOLOGİYALARININ İMKANLARI

Firidə Mustafayeva
pedaqogika üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
https://ORCID.org/0000-0001-8264-9097
firide.mustafayeva@gmail.com
Azərbaycan/Şamaxı

Süni intellektin sürətli inkişafı müasir rəqəmsal mühitdə dilin istifadəsi, öyrədilməsi və emalı proseslərinə fundamental təsir göstərmişdir. Xüsusilə Süni intelekt sahəsində əldə olunan nailiyyətlər dil məlumatlarının avtomatlaşdırılmış şəkildə toplanması, strukturlaşdırılması və təhlilini mümkün etmiş, bununla da dil texnologiyalarının yeni mərhələyə qədəm qoymasına şərait yaratmışdır. Dil texnologiyaları informasiya cəmiyyətinin əsas komponentlərindən biri kimi çıxış edərək ünsiyyətin operativliyini və səmərəliliyini artırır. Müasir dövrdə mətnlərin avtomatik tərcüməsi, nitqin tanınması və sintezi, semantik analiz, mətn generasiyası və intellektual axtarış sistemləri gündəlik həyatın ayrılmaz hissəsinə çevrilmişdir. (*Əliyev, N.* (2018)). Bu texnologiyalar yalnız kommunikasiya vasitəsi deyil, həm də informasiya idarəetmə aləti kimi çıxış edərək biliklərin ötürülməsini və paylaşılmasını sürətləndirir. Rəqəmsal mühitdə dil texnologiyalarının formalaşması və inkişaf mərhələləri şərti olaraq bir neçə istiqamətdə nəzərdən keçirilə bilər. İlkin mərhələ qayda əsaslı sistemlərin yaradılması ilə xarakterizə olunurdu. Sonrakı mərhələdə statistik modellər və maşın öyrənməsi üsulları tətbiq edilməyə başlandı. Müasir mərhələ isə dərin öyrənmə və neyron şəbəkələr əsasında qurulan modellərlə səciyyələnir ki, bu da dilin kontekstual və semantik xüsusiyyətlərinin daha dəqiq təhlilinə imkan verir. Təhsil sahəsində süni intellekt əsaslı dil texnologiyaları adaptiv öyrənmə mühitinin formalaşmasına, fərdiləşdirilmiş tədris modellərinin tətbiqinə və distant təhsilin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Elektron təhsil platformaları tələbələrin dil bacarıqlarını avtomatik qiymətləndirə, səhvləri analiz edə və fərdi inkişaf trayektoriyası təklif edə bilir. *(Hasanov, E. (2020)).*

Elmi-tədqiqat mühitində isə böyük həcmli mətn korpuslarının emalı, terminoloji bazaların yaradılması və elmi məlumatların sistemləşdirilməsi prosesləri sürətlənmişdir.Sosial sahədə dil texnologiyaları rəqəmsal kommunikasiya mədəniyyətinin formalaşmasına təsir göstərir. Sosial şəbəkələrdə və onlayn platformalarda avtomatik moderasiya sistemləri, məzmunun filtrasiya mexanizmləri və emosional analiz alətləri informasiya təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Bununla yanaşı, multimodal ünsiyyət formalarının yayılması dilin struktur və üslub xüsusiyyətlərinə yeni çalarlar əlavə etmişdir.

Açar sözlər: süni intellekt, rəqəmsal mühit, dil texnologiyaları, təbii dilin emalı, rəqəmsal təhsil, ana dili, informasiya cəmiyyəti.

The rapid development of artificial intelligence has had a fundamental impact on the processes of language use, teaching and processing in the modern digital environment. In particular, the achievements made in the field of artificial intelligence have enabled the automated collection, structuring and analysis of language data, thereby creating conditions for language technologies to enter a new stage. Language technologies, acting as one of the main components of the information society, increase the efficiency and effectiveness of communication. In modern times, automatic translation of texts, speech recognition and synthesis, semantic analysis, text generation and intelligent search systems have become an integral part of everyday life. These technologies are not only a means of communication, but also an information management tool, accelerating the transfer and sharing of knowledge. The stages of formation and development of language technologies in the digital environment can be conditionally considered in several directions. The initial stage was characterized by the creation of rule-based systems. At the next stage, statistical models and machine learning methods began to be applied. The modern stage is characterized by models based on deep learning and neural networks, which allow for a more accurate analysis of the contextual and semantic features of the language. In the field of education, artificial intelligence-based language technologies create conditions for the formation of an adaptive learning environment, the implementation of personalized teaching models, and improving the quality of distance education. Electronic education platforms can automatically assess students' language skills, analyze errors, and offer an individual development trajectory.

In the scientific-research environment, the processes of processing large-scale text corpora, creating terminological databases and systematizing scientific information have accelerated. In the social sphere, language technologies affect the formation of a digital communication culture. Automatic moderation systems, content filtering mechanisms and emotional analysis tools in social networks and online platforms play an important role in ensuring information security. At the same time, the spread of multimodal forms of communication has added new shades to the structural and stylistic features of the language.

Key words: artificial intelligence, digital environment, language technologies, natural language processing, digital education, native language, information society

ƏDƏBİYYAT DƏRSLİKLƏRİNDƏ TÜRK XALQLARI ƏDƏBİ NÜMUNƏLƏRİNİN UNİFİKASİYASI

Gülay Bağırova
Mingəçevir Dövlət Universiteti
https://orcid.org/0009-0002-4794-0748
gulay.baghirova@mdu.edu.az
Azərbaycan/Mingəçevir

Müasir təhsil sistemində türk xalqlarının ortaq ədəbi-mədəni irsinin məktəb dərsliklərində sistemli şəkildə təqdim edilməsi mühüm elmi-metodik məsələlərdən biridir. Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və digər türk xalqlarının folklor nümunələri, dastanları, klassik və müasir ədəbi əsərləri ortaq tarixi-mədəni köklərə əsaslanır. Ədəbi nümunələrin unifikasiyası türk xalqlarının ortaq ədəbi irsinin vahid prinsiplərlə dərsliklərdə təqdim olunaraq mədəni yaddaşın qorunmasına xidmət etməsidir.

Azərbaycan ədəbiyyat dərsliklərində türk xalqlarının ortaq ədəbi irsini əks etdirən və unifikasiya prosesini nümayiş etdirən nümunələr təqdim olunur. IX sinif dərsliyində yer alan Mehmet Akif Ersoyun "İstiqlal marşı" əsəri Türkiyə xalqının azadlıq və vətənpərvərlik ideallarını şagirdlərə çatdırır, ümumtürk milli dəyərlərini təbliğ edir. Qırğız yazıçısı Çingiz Aytmatovun "Əsrə bərabər gün" romanının tədrisi isə milli yaddaş, mənəvi kimlik və manqurtlaşma probleminin ümumtürk kontekstində dərk edilməsinə şərait yaradır. V sinif dərsliklərində özbək xalq nağıllarının təqdim edilməsi ümumtürk şifahi xalq ədəbiyyatının ortaq xüsusiyyətlərini nümayiş etdirir.

Türk xalqları ədəbiyyatının unifikasiyası baxımından 1994-2002-ci illərdə Əlyar Səfərli və Xəlil Yusifli tərəfindən hazırlanmış ədəbiyyat dərslikləri xüsusi əhəmiyyət daşıyır. Bu dərsliklərdə Azərbaycan ədəbiyyatı ümumtürk ədəbi-mədəni sistemi daxilində təqdim edilmişdir. Qədim türk dastanları – "Yaradılış", "Alp Ər Tonqa", "Şu", "Oğuz xaqan", "Ergenekon" və "Köç" dastanlarının tədrisə cəlb olunması şagirdlərdə ortaq tarixi yaddaşın və qəhrəmanlıq ideallarının formalaşmasına xidmət etmişdir. Dərsliklərdə Orxon-Yenisey yazılı abidələri haqqında geniş məlumatın verilməsi türk xalqlarının ortaq yazılı mədəniyyətə malik olduğunu nümayiş etdirir. Yusuf Xas Hacibin "Qutadğu Bilig" əsəri dövlətçilik və əxlaq ideyalarını, Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri isə türk dillərinin ortaq köklərini təqdim edir.

Tövsiyə olaraq:

1. Türk xalqları ədəbiyyatına dair mövzular dərsliklərdə daha sistemli və müqayisəli şəkildə təqdim edilməlidir.
2. Müxtəlif türk xalqlarının müasir ədəbiyyat nümunələri dərsliklərə daha geniş şəkildə
3. Türk dövlətlərinin ortaq təhsil layihələri çərçivəsində vahid metodik vəsaitlərin hazırlanması məqsədəuyğun hesab edilməlidir.

Türk xalqları ədəbi nümunələrinin Azərbaycan ədəbiyyat dərsliklərində

unifikasiyası yalnız ədəbi biliklərin ötürülməsinə deyil, həm də şagirdlərdə ortaq mədəni kimlik, tarixi yaddaş və mənəvi birlik düşüncəsinin formalaşmasına xidmət edir.

UNIFICATION OF LITERARY WORKS OF TURKIC PEOPLES IN LITERATURE TEXTBOOKS

In the contemporary education system, the systematic presentation of the shared literary and cultural heritage of Turkic peoples in school textbooks constitutes an important scientific and methodological issue. The folklore, epics, and classical and modern literary works of Azerbaijanis, Turks, Kazakhs, Kyrgyz, Uzbeks, Turkmens, and other Turkic peoples are rooted in common historical and cultural foundations. The unification of literary works refers to the presentation of the common literary heritage of Turkic peoples in textbooks according to unified principles, thereby contributing to the preservation of cultural memory.

Azerbaijani literature textbooks present examples that embody the common literary heritage of the Turkic peoples and illustrate the process of literary unification. The inclusion of Mehmet Akif Ersoy's The Independence March (İstiklal Marşı) in the Grade 9 textbook familiarizes students with the ideals of freedom and patriotism of the Turkish nation while promoting common Turkic values. The teaching of the novel The Day Lasts More Than a Hundred Years by the Kyrgyz writer Chingiz Aitmatov enables students to comprehend issues of national memory, spiritual identity, and the phenomenon of "mankurtization" within a broader Turkic context. Likewise, the inclusion of Uzbek folk tales in Grade 5 textbooks demonstrates the shared characteristics of Turkic oral folk literature.

From the perspective of the unification of Turkic literature, the literature textbooks prepared by Alyar Safarli and Khalil Yusifli between 1994 and 2002 are of particular significance. In these textbooks, Azerbaijani literature was presented within the broader framework of the common Turkic literary and cultural system. The inclusion of ancient Turkic epics such as Creation, Alp Er Tunga, Shu, Oghuz Khagan, Ergenekon, and Migration (Köç) contributed to the formation of students' shared historical memory and heroic ideals. The extensive information provided on the Orkhon-Yenisey inscriptions demonstrates the existence of a common written cultural tradition among Turkic peoples. Yusuf Khass Hajib's Kutadgu Bilig presents ideas of statehood and morality, while Mahmud al-Kashgari's Dīwān Lughāt al-Turk highlights the common roots of Turkic languages.

Recommendations

1. Topics related to Turkic literature should be presented in textbooks in a more systematic and comparative manner.

2. Contemporary literary works of various Turkic peoples should be included more extensively in literature textbooks.

3. The preparation of unified methodological resources within the framework of joint educational projects among Turkic states should be considered appropriate.

The unification of literary works of Turkic peoples in Azerbaijani literature textbooks serves not only to transmit literary knowledge but also to foster among students a sense of shared cultural identity, historical memory, and spiritual unity.

TÜRK DİLLƏRİNİN RƏQƏMSAL TRANSFORMASİYASI: ÜNİ İNTELLEKT VƏ NİTQ TEXNOLOGİYALARINA ADAPTASİYA STRATEGİYALARI

Yasəmən Babayeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/0000-0002-4462-0725
yasemenbabayeva80@gmail.com
Azərbaycan/Bakı

Süni intellektin (Sİ) inkişafı bəşəriyyəti yeni bir sənaye inqilabının astanasına gətirib çıxarıb. Bu texnoloji dalğanın ən mühüm istiqamətlərindən biri də dillərin rəqəmsallaşması və maşın təfəkküründə adaptasiyasıdır. Türk dilləri ailəsi, xüsusilə Azərbaycan və Türkiyə türkcəsi, bu prosesdə həm özünəməxsus çətinliklərlə, həm də strateji üstünlüklərlə qarşı-qarşıyadır. Türk dillərinin nitq texnologiyalarına adaptasiyası sadəcə texniki bir məsələ deyil, həm də bu dillərin rəqəmsal əsrdə sağ qalma və inkişaf etmə mübarizəsidir.

Türk dilləri morfoloji baxımdan aqqlütinativ (bitişdirici) dillər qrupuna daxildir. Bu, ingilis və ya fransız dili kimi flektiv dillərlə müqayisədə süni intellekt modelləri üçün daha mürəkkəb bir struktur yaradır. İngilis dilində bir sözün cəmi bir neçə forması (məsələn: *work, works, worked, working*) olduğu halda, türk dillərində bir kökə əlavə edilən onlarla şəkilçi vasitəsilə nəzəri olaraq milyonlarla fərqli söz forması yaratmaq mümkündür.

Sözaltı Vahidlərin Emalı (Subword Tokenization): Sİ modelləri əvvəllər sözləri bütöv vahidlər kimi qəbul edirdi ki, bu da türk dilləri üçün böyük "dataset"lərin (məlumat bazalarının) kifayət etməməsinə gətirib çıxarırdı. Müasir BERT və GPT əsaslı modellər isə sözləri kök və şəkilçi səviyyəsində parçalayaraq ("tokenizasiya") emal edir. Bu, Sİ-nin "gələ bilməyəcəklərimizdəndir" kimi mürəkkəb sözlərin daxili məntiqini anlamasına imkan verir. Avtomatik Nitq Tanınması (Automatic Speech Recognition - ASR) texnologiyası səs dalğalarını mətnə çevirmək üçün istifadə olunur. Türk dillərinin nitq texnologiyalarına adaptasiyasında fonetik xüsusiyyətlər həlledici rol oynayır.

Azərbaycan türkcəsindəki "ə", "ı", "ö", "ü" kimi spesifik saitlər və "q", "ğ", "x" kimi samitlər beynəlxalq akustik modellərdə hər zaman dəqiq əks olunmur. Süni intellektin bu səsləri fərqləndirə bilməsi üçün böyük həcmli "səs-mətn" (speech-to-text) verilənlər bazasına ehtiyac var. Türk dillərində vurğu adətən sözün sonuna düşsə də, məntiqi vurğu cümlənin mənasını tamamilə dəyişə bilər. Sİ-nin nitqi tanıyarkən bu nüansları tutması, cümlənin sual, nida və ya nəqli olduğunu müəyyən etməsi üçün "Deep Learning" (Dərin Öyrənmə) alqoritmləri nitqin prosodik xüsusiyyətlərini analiz edir.

Açar sözlər: Az Resurslu Dillər, Morfoloji Təhlil, Böyük Dil Modelləri (LLM), Maşın Tərcüməsi (MT), Rəqəmsal Dil Suverenliyi.

DIGITAL TRANSFORMATION OF TURKIC LANGUAGES: ADAPTATION STRATEGIES TO ARTIFICIAL INTELLIGENCE AND SPEECH TECHNOLOGIES

The development of artificial intelligence (AI) has brought humanity to the brink of a new industrial revolution. One of the most important directions of this technological wave is the digitization of languages and their adaptation to machine thinking. The Turkic language family, especially Azerbaijani and Turkish Turkish, faces both unique challenges and strategic advantages in this process. The adaptation of Turkic languages to speech technologies is not just a technical issue, but also a struggle for these languages to survive and thrive in the digital age.

Turkic languages belong to the group of agglutinative languages from a morphological point of view. This creates a more complex structure for artificial intelligence models compared to inflectional languages such as English or French. While English has only a few forms of a word (for example: work, works, worked, working), in Turkic languages it is theoretically possible to create millions of different word forms through dozens of suffixes added to a root.

Subword Tokenization: AI models previously treated words as whole units, which led to the lack of large datasets for Turkic languages. Modern BERT and GPT-based models process words by breaking them down at the root and suffix level ("tokenization"). This allows AI to understand the internal logic of complex words like "we will not be able to come".

Automatic Speech Recognition (ASR) technology is used to convert sound waves into text. Phonetic features play a crucial role in the adaptation of Turkic languages to speech technologies.

Specific vowels such as "ə", "ı", "ö", "ü" and consonants such as "q", "ğ", "x" in Azerbaijani Turkish are not always accurately reflected in international acoustic models. For artificial intelligence to be able to distinguish these sounds, a large-scale "speech-to-text" database is needed. Although stress usually falls at the end of a word in Turkic languages, logical stress can completely change the meaning of a sentence. Deep Learning algorithms analyze the prosodic features of speech to help AI recognize these nuances and determine whether a sentence is a question, an exclamation, or a statement.

Key words: Low-Resource Languages, Morphological Analysis, Large Language Models (LLM), Machine Translation (MT), Digital Language Sovereignty.

RƏQƏMSAL MƏKANDA AZƏRBAYCAN DİLİNİN İNKİŞAFI

Mehriban Mahmudova
baş müəllim
https://ORCID.org/0000-003-7289-5673
mahmudova.mehriban@list.ru
Azərbaycan/Bakı

Rəqəmsal texnologiyaların sürətli inkişafı müasir dövrdə dillərin qorunması və inkişafı üçün həm imkanlar, həm də çağırışlar yaradır. Azərbaycan dilinin rəqəmsal məkanda möhkəmlənməsi milli kimliyin və dövlətçilik prinsiplərinin qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Dövlət dili kimi Azərbaycan dilinin internet resurslarında, sosial şəbəkələrdə, elektron hökumət platformalarında və təhsil texnologiyalarında geniş istifadəsi onun funksional imkanlarını artırır. Bu istiqamətdə hüquqi baza mühüm rol oynayır və kimi sənədlər dövlət dilinin qorunmasını və tətbiqini təmin edir. Rəqəmsal kontentin Azərbaycan dilində hazırlanması, milli terminologiyanın düzgün formalaşdırılması və süni intellekt sistemlərində dilin inteqrasiyası prioritet məsələlərdəndir. Eyni zamanda, gənc nəslin sosial mediada ana dilinin normalarına uyğun ünsiyyət qurması dil mədəniyyətinin qorunmasına xidmət edir. Tədqiqatlar göstərir ki, rəqəmsal mühitdə aktiv istifadə olunan dillər daha davamlı inkişaf edir. Bu baxımdan, Azərbaycan dilində elektron lüğətlərin, onlayn tədris platformalarının və rəqəmsal arxivlərin yaradılması strateji əhəmiyyət daşıyır. Nəticə etibarilə, rəqəmsal məkanda Azərbaycan dilinin inkişafı yalnız texnoloji deyil, həm də mədəni və ideoloji məsələdir. Dilin virtual mühitdə gücləndirilməsi milli-mənəvi dəyərlərin qorunmasına və gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Azərbaycan dilinin rəqəmsal mühitdə inkişafı və qorunması müasir dövrdə prioritet məsələlərdən biri hesab olunur. Texnologiyanın sürətli inkişafı, qlobal rəqəmsal mühitdə dilin mövqeyini gücləndirmək üçün yeni imkanlar yaratdığı kimi, eyni zamanda müəyyən çətinliklər də yaradır. Bu çətinliklər arasında Azərbaycan dilinin süni intellekt, avtomatik mətn emalı, nitqin tanınması və sintez texnologiyalarına inteqrasiyasının məhdud olması, internet məkanında Azərbaycandilli keyfiyyətli kontentin kifayət qədər olmaması, həmçinin rəqəmsal savadlılığın geniş yayılmaması kimi amillər xüsusi qeyd edilməlidir.

Açar sözlər: rəqəmsal, texnologiya, intellekt, media.

DEVELOPMENT OF THE AZERBAIJANI LANGUAGE IN THE DIGITAL SPACE

The rapid development of digital technologies in the modern era creates both opportunities and challenges for the protection and development of languages. Strengthening the Azerbaijani language in the digital space is of particular importance in terms of protecting national identity and the principles of statehood. The widespread

use of the Azerbaijani language as a state language in Internet resources, social networks, e-government platforms and educational technologies increases its functional capabilities. In this direction, the legal framework plays an important role, as do documents such as and that ensure the protection and application of the state language. The preparation of digital content in the Azerbaijani language, the correct formation of national terminology and the integration of the language in artificial intelligence systems are among the priority issues. At the same time, the communication of the younger generation in social media in accordance with the norms of their native language serves to preserve language culture. Studies show that languages actively used in the digital environment develop more sustainably. In this regard, the creation of electronic dictionaries, online learning platforms, and digital archives in the Azerbaijani language is of strategic importance. Consequently, the development of the Azerbaijani language in the digital space is not only a technological, but also a cultural and ideological issue. Strengthening the language in the virtual environment serves to preserve national and spiritual values and pass them on to future generations.

The development and preservation of the Azerbaijani language in the digital environment is considered one of the priority issues in the modern era. The rapid development of technology, while creating new opportunities to strengthen the position of the language in the global digital environment, also creates certain difficulties. Among these difficulties, factors such as the limited integration of the Azerbaijani language into artificial intelligence, automatic text processing, speech recognition and synthesis technologies, the lack of sufficient quality Azerbaijani-language content on the Internet, as well as the lack of widespread digital literacy should be specially noted.

Key words: digital, technology, intellectual, media.

SÜNİ İNTELLEKTİN DİLİMİZƏ TƏSİRİ

Gülnarə Həsənova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCID.org/0009-0002-7239-1146
Gulnarahasanova3@gmail.com
Azərbaycan/Bakı

Texnologiyanın sürətli inkişafı, xüsusilə süni intellekt (AI) sistemlərinin həyatın bütün sahələrinə daxil olması, dilin qarşısında həm yeni imkanlar, həm də ciddi sınaqlar yaradır. Əvvəllər dilin qorunması yalnız lüğət və tədris müstəvisində müzakirə olunurdusa, indi artıq rəqəmsal reallıqda dilin varlığı və təmsil səviyyəsi müzakirə mövzusuna çevrilib.

Süni intellekt texnologiyaları, tərcümə proqramları, səsli köməkçilər, chatbot sistemləri, avtomatik yazı operatorları gündəlik ünsiyyətin ayrılmaz hissəsinə çevrilib. Lakin bu alətlər hansı dildə daha çox məlumatla qidalanırsa, o dil rəqəmsal üstünlüyə malik olur. İngilis dili bu baxımdan qlobal miqyasda dominant vəziyyətdədir.

Burada əsas təhlükə ondan ibarətdir ki, süni intellekt alqoritmləri çox zaman dilin orijinal strukturunu və mədəni kontekstini nəzərə almır. Nəticədə tərcümələrdə semantik incəliklər, üslubi çalarlar və mədəni metaforalar itir. Məsələn, "ürək yanmaq" ifadəsini sistem "heart burn" kimi fizioloji anlamda tərcümə etdikdə, onun emosional-mənəvi dərinliyi yox olur. Bu, yalnız dil səhvi deyil, mədəniyyətin anlam kodlarının zədələnməsidir.

Süni intellektin dil üzərində yaratdığı ən mühüm reallıq "rəqəmsal yaddaş" anlayışıdır. Yəni, bir dil haqqında nə qədər çox məlumat, mətn, səs və kontekst sistemlərə daxil edilirsə, həmin dil süni intellektin "yaddaşında" bir o qədər dərin yer tutur. Bu, Azərbaycan dili üçün həm çağırış, həm də fürsətdir. Əgər biz dilimizi elmi məqalələrdə, vikipediya mətnlərində, elektron dərsliklərdə, rəsmi sənədlərdə və media platformalarında aktiv şəkildə işlətməsək, süni intellekt sistemləri onu ikinci dərəcəli informasiya dili kimi qəbul edəcək. Nəticədə gələcəkdə virtual mühitlərdə Azərbaycan dilində danışan süni sistemlər, köməkçilər və ya tərcümə platformaları məhdud səviyyədə fəaliyyət göstərəcək.

Əgər bu gün dilimizi süni intellekt sistemlərində layiqincə təmsil edə bilsək, sabah Azərbaycan dili yalnız dərsliklərdə və poeziyada deyil, həm də rəqəmsal dünyada yaşayan, düşünən və öyrədən bir dil olacaq. Bu, milli kimliyimizin gələcəkdə də dinamik, yaradıcı və intellektual qalmasının əsas təminatıdır.

Beləliklə, süni intellekt təkcə texnologiya deyil, həm də dil siyasətinin yeni mərhələsidir.

Açar sözlər: Süni intellekt, texnologiya, dilçilik, lüğət, dominant.

THE IMPACT OF ARTIFICIAL INTELLIGENCE ON OUR LANGUAGE

The rapid development of technology, especially the penetration of artificial intelligence (AI) systems into all areas of life, creates both new opportunities and serious challenges for language. If previously the preservation of language was discussed only at the level of vocabulary and teaching, now the existence and level of representation of language in digital reality has become a topic of discussion.

Artificial intelligence technologies, translation programs, voice assistants, chatbot systems, automatic writing operators have become an integral part of everyday communication. However, the language in which these tools are fed with more information, that language has a digital advantage. English is dominant in this regard on a global scale.

The main danger here is that artificial intelligence algorithms often do not take into account the original structure and cultural context of the language. As a result, semantic subtleties, stylistic nuances and cultural metaphors are lost in translations. For example, when the system translates the expression "heart burn" in a physiological sense as "heart burn", its emotional and spiritual depth disappears. This is not just a linguistic error, but also a damage to the semantic codes of culture.

The most important reality that artificial intelligence creates on language is the concept of "digital memory". That is, the more information, text, sound and context about a language are entered into the systems, the deeper that language occupies in the "memory" of artificial intelligence. This is both a challenge and an opportunity for the Azerbaijani language. If we do not actively use our language in scientific articles, Wikipedia texts, electronic textbooks, official documents and media platforms, artificial intelligence systems will perceive it as a secondary information language. As a result, in the future, artificial systems, assistants or translation platforms that speak Azerbaijani in virtual environments will operate at a limited level.

If we can adequately represent our language in artificial intelligence systems today, tomorrow the Azerbaijani language will be a language that lives, thinks and teaches not only in textbooks and poetry, but also in the digital world. This is the main guarantee that our national identity will remain dynamic, creative and intellectual in the future.

Thus, artificial intelligence is not only a technology, but also a new stage in language policy

Key words: Artificial intelligence, technology, linguistics, vocabulary, dominant.

RƏQƏMSAL MÜHİTDƏ TÜRK DİLLƏRİNİN MƏRASİM LEKSİKASI: ƏNƏNƏDƏN VİRTUAL DISKURSA KEÇİD

Günay İmaməliyeva[1], İlahə Musayeva[2]
filologiya üzrə fəlsəfə doktoru[1], baş müəllim[2]
Sumqayıt Dövlət Universiteti
https://ORCID.org/0000-0001-7282-1295, [1]https://ORCID.org/0000-0002-3411-1126[2]
Ilaha.Musayeva@sdu.edu.az[1] ; gunay.imamaliyeva@sdu.edu.az[2]
Azərbaycan/Sumqayıt

"Mədəniyyət fərqli cəmiyyətlər arasında müştərək birliklərin məcmusudur. Bir mədəniyyət zümrəsi müəyyən bir zaman içərisində doğular, yaşayar və ölər" *(Göyalp, Z.,1976)*. Tarixən müəyyən bir toplumun dəyərlər sistemi, davranış modelləri və simvolik ifadələri ilə səciyyələnən mədəniyyət müasir dövrdə daha çevik və interaktiv xarakter qazanmış, statik və dinamik bir proses kimi xalqlar arasında həm sabitliyi qoruyan, həm də qarşılıqlı təsir nəticəsində yenilənən mürəkkəb sistem kimi özünü göstərir. Qloballaşma, miqrasiya və rəqəmsal kommunikasiya vasitələrinin inkişafı nəticəsində müxtəlif xalqların mədəni elementləri – dil, davranış modelləri, mərasimlər və simvolik ifadələr bir-birinə ötürülür, uyğunlaşır bunun nəticəsində isə yeni hibrid formalar yaranır.

Tədqiqat işində türk dillərində mərasim terminlərinin sosial media və virtual kommunikasiya mühitində baş verən leksik dəyişmələri təhlil olunur və bu dəyişmələr ənənəvi diskursdan rəqəmsal diskursa keçid kontekstində qiymətləndirilir.

Rəqəmsal diskurs çərçivəsində ənənəvi mərasim terminləri leksik dəyişmələrə məruz qalır və yeni hibrid dil formaları yaranır. Bu zaman terminlər yenii kommunikativ, ekspressiv və simvolik funksiyalar qazanır: *white wedding, reels-toy, nişan vloq, xına parti* və s. *Bu kimi ifadələr dilin semiotik strukturunda dəyişikliyin yaranmasına səbəb olur. Dijital dəvətnamə, onlayn başsağlığı, zoom toyu* və s. kimi mərasim adları isə dilin praqmatik səviyyəsində dəyişiklik yaradır. Hazırda sosial platformalar ənənəvi mərasimləri praktik yönlü hadisəyə çevirmişdir. Məsələn, ailə-məişət mərasimlərindən olan qırx çıxarma mərasimi *baby shower* formatında keçirilir. Eyni zamanda bu hadisə gender kodlarına da təsir edir. Adətən, yalnız qadınlar iştirak edən bu mərasimdə hazırda hər iki cins iştirak edir. Türkiyə türkcəsində *kırk uçurma* adlanan mərasim fotozona, dekorun daxil olması ilə ritual kommersiya halına gəlmişdir. Multimodal və vizual elementlər kimi emojilər və vizual simvollardan istifadə isə mərasim terminlərinin semiotik strukturunun genişlənməsinə səbəb olmuşdur.

Dilin sosial və mədəni reallıqları əks etdirən dinamik sistem olmasını nəzərə alsaq, toy, nişan, yas və digər mərasimlərlə bağlı terminlərin ənənəvi semantik sabitliyinin rəqəmsal kommunikasiya mühitində yeni funksional, eyni zamanda diskursiv çalarlar qazanmasını təbii prosses kimi qiymətləndirmək olar. Lakin bu dəyişikliklər yalnız leksik vahidlərin yenilənməsi ilə məhdudlaşmır, eyni zamanda

konseptual düşüncə sisteminin və mədəni adaptasiya proseslərinin dilə inteqrasiyası kimi daha dərin səviyyədə özünü göstərir. Belə transformasiyalar xalqın düşüncə tərzinə də təsir edərək, ənənəvi dəyərlər sisteminin, milli-mədəni identiklik komponentlərinin zəifləməsinə səbəb ola bilər. Mərasim leksikasında baş verən dəyişikliklər inteqrasiya və identiklik arasında dinamik tarazlıq məsələsini gündəmə gətirir.

Açar sözlər: Türk dilləri, mərasim leksikası, rəqəmsal mühit, sosial media, leksik dəyişmələr, diskurs, multimodallı.

DIGITAL DISCOURSE AND THE RITUAL LEXICON OF TURKIC LANGUAGES: FROM TRADITION TO VIRTUAL DISCOURSE

"Culture is the totality of common bonds among different societies. A cultural formation is born within a certain period of time, lives, and eventually dies" *(Ziya Gökalp, 1976*). Culture, historically characterized as a system of values, behavioral models, and symbolic expressions of a given society, has in the modern era acquired a more flexible and interactive nature, manifesting itself as a complex system that simultaneously ensures stability and undergoes transformation through intercultural interaction. Processes such as globalization, migration, and the rapid development of digital communication technologies have intensified the circulation of cultural elements −language, behavioral patterns, rituals, and symbolic forms −among different societies, leading to adaptation and the emergence of new hybrid cultural forms.

This study analyzes lexical changes in ritual terminology within Turkic languages in the context of social media and virtual communication environments, evaluating these changes through the transition from traditional discourse to digital discourse.

Within digital discourse, traditional ritual terms undergo lexical transformation and give rise to new hybrid linguistic forms. In this process, terms acquire new communicative, expressive, and symbolic functions, as illustrated by expressions such as ***white wedding***, ***reels-toy***, ***nişan vlog***, and ***kına party***. Such forms contribute to changes in the semiotic structure of language. Additionally, expressions like ***digital invitation***, ***online condolence***, and ***Zoom wedding*** indicate transformations at the pragmatic level of language. Contemporary social platforms have increasingly transformed traditional rituals into practice-oriented events. For instance, the traditional ***qırx çıxarma*** ceremony has, in some cases, been recontextualized within a ***baby shower*** format. This transformation also influences gender coding, as rituals traditionally attended exclusively by women now include participants of both genders. In Turkish, the ***kırk uçurma*** ceremony has become increasingly commercialized through the incorporation of photo zones and decorative elements. The use of multimodal and visual components such as emojis and symbolic icons further expands the semiotic structure of ritual terminology.

Considering language as a dynamic system reflecting social and cultural realities, the semantic stability of terms related to rituals such as weddings, engagements, and funerals is naturally being reconfigured in digital communication environments, acquiring new functional and discursive dimensions. However, these changes are not limited to lexical renewal; they also operate at a deeper level through the integration of conceptual thinking systems and cultural adaptation processes into language. Such transformations influence collective patterns of thought and may contribute to the weakening of traditional value systems and components of national-cultural identity. Therefore, lexical changes in the ritual lexicon raise an important issue of dynamic balance between cultural integration and identity preservation.

Key words: Turkic languages, ritual lexicon, digital environment, social media, lexical change, discourse, multimodality.